BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

*Məhəbbət Paşayeva*

# QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN ALBAN ABİDƏLƏRİ

Bakı 2022

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi**

**Layihə rəhbəri:** **Kamal Abdullayev**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin*
*Himayəçilər Şurasının sədri,*
*Azərbaycan Dillər Universitetinin rektoru,*
*Xalq yazıçısı, akademik*

**Elmi redaktorlar:** **Teymur Bünyadov**
*tarix elmləri doktoru, professor,*
*akademik, əməkdar elm xadimi*

**Kərim Şükürov**
*tarix elmləri doktoru, professor*

**Layihəyə məsul:** **Rəvan Həsənov**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin*
*icraçı direktoru*

**Redaktor:** **Tahir Kazımlı**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin*
*Analitika şöbəsinin əməkdaşı*

**Məhəbbət Paşayeva. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri.**
Bakı, Mütərcim, 2022, 200 səh.

Təqdim olunan kitabın yazılması Azərbaycan tarixi və onun ən zəngin mərhələlərindən birini təşkil edən alban xristian irsi və bu irsin ən zəngin nümunələrini yaşadan Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin tarixi keçmişi və bu günkü vəziyyəti, onların falsifikasiya edilməsi faktlarının geniş oxucu auditoriyasına çatdırılması, bölgənin bütün alban abidələrinin, ümumi tarixi arayış verilməklə bir nəşrdə toplanması zərurətindən irəli gəlmişdir. Kitabda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində keçən əsrin son illərinə qədər aşkar edilmiş və bir qismində elmi tədqiqat işləri aparılmış yüzdən artıq alban memarlıq abidəsi haqqında tarixi arayış verilmişdir. Eyni zamanda bölgənin alban abidələri ilə bağlı tarixi-etnoqrafik, arxeoloji, memarlıq materialları toplanaraq ümumiləşdirilmişdir. Lakin qeyd etmək lazımdır ki, bu, bölgənin alban abidələrinin tam təsnifatı deyildir.

**ISBN 978-9952-28-577-2**

*© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2022*

**Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq.**

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

# MÜNDƏRİCAT


ÖN SÖZ ....................................................................................5

AĞDAM RAYONU ....................................................................................22
XOCALI RAYONU ....................................................................................30
XOCAVƏND RAYONU ....................................................................................44
TƏRTƏR RAYONU ....................................................................................100
KƏLBƏCƏR RAYONU ....................................................................................118
CƏBRAYIL RAYONU ....................................................................................168
QUBADLI RAYONU ....................................................................................172
LAÇIN RAYONU ....................................................................................174
ZƏNGİLAN RAYONU ....................................................................................194

QARABAĞIN və ŞƏRQİ ZƏNGƏZURUN
ALBAN ABİDƏLƏRİ (siyahı) ....................................................................................197

ƏDƏBİYYAT ....................................................................................199

# ÖN SÖZ

Azərbaycanın ayrılmaz parçası olan Qarabağ və Zəngəzur torpaqları çoxəsrlik tarixi-mədəni irs nümunələri ilə zəngin ümumdünya mədəniyyətinin beşiyidir. Bu torpaqlar Azərbaycan tarixinin bütün dövrlərini əks etdirən dünya əhəmiyyətli unikal mədəniyyət abidələrinə sahibdir. Yaşı minillərlə ölçülən Qarabağ və Zəngəzur ərazilərinin tarixi və mədəni abidələri Azərbaycan tarixinin ən zəngin mərhələlərini əks etdirir. Azərbaycanın incisi sayılan Qarabağ və Zəngəzur əraziləri minillik tarixə malik Qafqaz Albaniyası dövrünə aid memarlıq abidələri ilə ən zəngin bölgələrindəndir. Alban xristian memarlığının nadir nümunələri məhz Qarabağ və Zəngəzur ərazilərindədir.

XX əsrin sonlarında Qarabağ və Şərqi Zəngəzurun Azərbaycandan qoparılmasına yönələn separatizm meylləri nəticəsində 1992-2020-ci illər boyu Azərbaycan dünyanın ən böyük işğal faciələrindən birini yaşamışdır. Azərbaycanın tarixi torpaqları Ermənistan Respublikası tərəfindən 30 ilə yaxın işğal altında saxlanmışdır. Bu müddət ərzində azərbaycanlılar Qarabağ və Şərqi Zəngəzur torpaqlarında etnik təmizləmə və soyqırım siyasəti ilə müşayət olunan qanunsuz məskunlaşma, ətraf mühitə vurulan ziyan, tarixi abidələrin dağıdılması kimi qlobal problemlərlə üz-üzə qalmışlar. Erməni terrorçuları bütün dünyanın gözü önündə Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti ilə paralel olaraq tarixi, dini abidələrə qarşı mədəni soyqırım siyasəti yürütmüşlər. Azərbaycan Respublikasına qarşı 30 ilə yaxın davam edən erməni təcavüzünün qurbanları təkcə Azərbaycan vətəndaşları deyil, həm də yaşı minillərlə ölçülən tarixi-mədəni abidələr, müqəddəs ocaqlar, məbədlər olmuşdur. Erməni millətçiləri işğal illərində Qarabağ və Zəngəzur ərazilərindəki Azərbaycanın maddi-mənəvi mədəniyyətinin bütün izlərini silərək xalqın tarixi yaddaşını yox etməyə çalışmışlar. Bölgənin tarixi-mədəni abidələrinin kütləvi şəkildə məhv edilməsi dini abidələrin talan və təhqir edilməsi, ilkin görünüşünün və təyinatının dəyişdirilməsi, abidələrə məxsus dəyərli elementlərin qanunsuz olaraq Ermənistana daşınması ilə müşayət olunmuşdur. İşğal illərində Azərbaycanın çoxəsrlik tarixinin zəngin arxeoloji, memarlıq, mədəni və dini əhəmiyyətə malik olan xəzinəsinin ən dəyərli inciləri məhv edilmişdir.

Ermənistan Respublikası tərəfindən 30 illik işğal və təcavüz dövründə Qarabağ və Şərqi Zəngəzurun İslam abidələrinin məhv edilməsilə yanaşı Azərbaycanın qədim dövləti, minillik tarixə malik Qafqaz Albaniyasının tarixi yadigarları olan alban xristian abidələrinin də saxtalaşdırılaraq erməniləşdirilməsi siyasəti aparılmışdır. İşğal illərində Qafqaz Albaniyasının çoxəsrlik tarixinin Qarabağ və Zəngəzur ərazisindəki maddi və mənəvi irsinin zəngin xəzinəsi talan edilərək böyük bir qismi tamamilə yox edilmişdir. XIX əsrdən bəri alban xristian abidələrini qriqoryanlaşdırmağı qarşılarına məqsəd qoymuş ermənilər, xüsusilə, XX əsrin sonlarından etibarən Azərbaycanın Qarabağ və Zəngəzur ərazilərindəki alban xristian abidələrini, kilsə və monastırları kütləvi şəkildə falsifikasiyaya uğratmışlar. İşğal illərində Qarabağ və Zəngəzurun alban xristian abidələrinin demək olar ki, hamısı zərər görmüş, ciddi falsifikasiyaya məruz qalmışdır. Alban xristian irsinə aid monastırlar və kilsələrinin memarlıq quruluşu dəyişdirilmiş, bərpa adı altında saxtalaşdırılaraq qriqoryan kilsəsinə uyğunlaşdırılmış, kitabələri,



*Gəncəsər monastırı (XII əsr), Vəngli kəndi, Kəlbəcər*

xaçdaşları qarət edilərək Ermənistana daşınmışdır. Azərbaycan xalqının tarixi yadigarı olan alban abidələrindəki albanlara məxsus olan bütün nişanələri dağıdılmış, Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin bədii təsvirli, yazılı daş nümunələri erməni mətnləri olan saxta kitabələrlə əvəzlənmişdir. Azərbaycanın mədəni irsi, mənəvi yadigarları olan Qafqaz Albaniyası dövrünə aid monastır, sövmə, bazilika və digər yüzlərlə memarlıq abidələrinə erməni kilsəsi statusu verilmiş, alban abidələri dünyaya erməni mədəniyyət abidələri kimi təqdim edilmişdir.

Erməni təcavüzkarlarının Azərbaycan xalqının maddi-mədəni irsinə qarşı belə münasibəti xalqın mədəniyyətinin, tarixi yaddaşının məhvinə yönəldilmiş məqsədyönlü mədəni soyqırım siyasəti idi. Mədəni irs xalqın milli mədəni və tarixi sərvətidir. Mədəni irsə münasibət müasir dünyanın sivil cəmiyyətinin göstəricisi kimi çıxış edir. Bir xalqın mədəni irsinin digər xalq, millət və ya xalqlar və millətlər tərəfindən dağıdılması, məhv edilməsi, vandalizmə uğradılması beynəlxalq qanunlar və konvensiyalara görə yolverilməz hesab edilir. XX əsrin sonlarından Sovet İttifaqının dağılması ilə müşayiət olunan müharibələr dövründə abidələrə dəyən zərər üçün cinayət məsuliyyəti tətbiq olunmasına dair YUNESKO tərəfindən mədəni mirasın qorunması ilə bağlı qərar qəbul edilmişdir. YUNESKO qərarı ilə abidələrin dağıdılmasının insanlığa qarşı törədilmiş cinayət olaraq qəbul edilməsinə baxmayaraq dünya birliyi Qarabağ və Şərqi Zəngəzurun Ermənistan Respublikası tərəfindən işğal edildiyi müddətdə, bu torpaqlardakı ümumbəşəri əhəmiyyətli abidələrin dağıdılaraq məhv edilməsi, saxtalaşdırılması faktlarına göz yummuş, vandalizm aktlarının qarşısının alınması üçün heç bir əməli addım atmamışdır.

Qarabağ və Şərqi Zəngəzurun alban xristian irsinə aid maddi-mədəniyyət nümunələri Azərbaycan xalqının maddi-mədəni irsi olmaqla yanaşı ümumbəşər mədəniyyətinə də məxsusdur. Lakin, təəsüflə qeyd etmək lazımdır ki, bu gün Qarabağın və Zəngəzurun bütün alban abidələ-

rinin ya ermənləşdirildiyi, ya da dağıdılması bir faktdır. İşğal dövründə bu abidələrin böyük bir qismi erməni millətçiləri tərəfindən geriyə dönüşü olmadan darmadağın edilmişdir.

Qarabağ və Şərqi Zəngəzur ərazilərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əsasən Alban irsinə aid kilsələr, sovmələr və monastırlar olmaqla 144 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına salınsa da, bölgənin qeydiyyata düşməmiş abidələrinin sayı daha çox olmuşdur. Azərbaycanda tarix və mədəniyyət abidələrinin ilk dəfə kütləvi şəkildə pasportlaşdırılması işi 1970-1980-ci illərdə aparılsa da, bu proses Qarabağda və Şərqi Zəngəzurda yerləşən alban abidələrini çox məhdud şəkildə əhatə etmişdir. Sovet dövründə alban abidələrinin, xüsusilə də, Qarabağdakı alban abidələrinin dövlət qeydiyyatına salınmasına, burada Azərbaycan alimlərinin tədqiqat aparmasına ciddi maneələr törədilirdi. Buna görə də Qarabağdakı alban abidələrinin yalnız bir qismi sovet dövründə dövlət qeydiyyatına alınmışdır. Onların böyük əksəriyyəti sovet rəhbərliyinin təzyiqi nəticəsində qeydiyyatdan kənarda qalmışdır.

XX əsrin sonlarında, Sovet İttifaqının dağılması ərəfəsində, Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddiaları ilə amansız müharibə başlatması Qarabağ və Şərqi Zəngəzur bölgələrindəki bütün abidələrin tamamilə Azərbaycanın nəzarətindən çıxmasına səbəb oldu. Qarabağın, eyni zamanda Şərqi Zəngəzurun maddi mədəniyyət abidələrinin taleyi ciddi təhlükə altına düşdü. Qarabağ və Zəngəzur ərazilərini işğal edən ermənilər buradakı tarixi-mədəniyyət abidələrini erməniləşdirmək üçün fürsət əldə etdilər. Müharibə illərində erməni təcavüzkarlığı nəticəsində öz torpağında əsir abidələrə çevrilən Azərbaycanın tarixi-mədəni abidələrinin, o cümlədən də al-



*Xudavəng (Dadivəng) monastır kompleksi, Vəng kəndi, Kəlbəcər*

ban abidələrinin qorunması qeyri-mümkün oldu. Beləliklə, Ermənistanın Azərbaycana qarşı başlatdığı və 30 ilə yaxın davam edən ədalətsiz müharibə nəticəsində Qarabağda və Şərqi Zəngəzurda xeyli sayda tarixi və mədəni abidələr dövlət qeydiyyatından kənarda qaldı. Bu baxımdan, heç şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzur ərazilərində alban irsinə aid rəsmi saydan daha çox abidə mövcud olmuşdur.

2020-ci ildə Azərbaycan xalqının Qarabağ uğrunda Vətən Müharibəsindəki qələbəsi və tarixi ədaləti bərpa etməsi Ermənistanın Azərbaycanın mədəni irsinə sahiblənmək planlarını iflasa uğratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı qətiyyətli siyasət və Azərbaycan Ordusunun hərbi qüdrəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur erməni işğalından azad edilmiş, Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etməyə nail olmuşdur. Torpaqlarımızla bərabər əsir düşmüş abidələr də erməni işğalından azad edilmişdir. Azərbaycanın Qarabağ və Zəngəzurdakı bütün tarixi irs nümunələri kimi alban xristian abidələri də dövlət himayəsinə götürülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyev azad olunmuş ərazilərdə bütün abidələrin qorunduğunu elan etmişdir. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdəki xristian dini və mədəni abidələri ilə bağlı xüsusi olaraq vurğulamışdır ki, onların layiqincə qorunacağına heç kəsin şübhəsi olmamalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 noyabr 2020-ci ildə Şəhidlər Xiyabanında xalqa müraciəti zamanı söyləmişdir ki, "müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Heç kim narahat olmasın, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir".

Qafqaz Albaniyası (e.ə. IV–e. VIII əsrin əvvəlləri) Azərbaycanın dövlətçilik tarixində dərin iz buraxmış qədim Azərbaycan dövlətidir. Bu dövlətin əsasını qoymuş albanlar isə Qafqazın yerli əhalisi olub, Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. Alban irsinə aid abidələr, kilsələr, monastırlar Azərbaycan xalqının tarixi-mədəni irsidir. Qarabağın və Zəngəzurun alban xristian abidələri də bu torpaqlara son 2 əsrdə köçürülmüş ermənilərə deyil, Azərbaycan xalqının əcdadları olmuş albanlara məxsusdur. Alban etnosu e.ə. IV əsrdən eranın VIII əsrinədək Azərbaycan torpaqlarında mövcud olmuş Qafqaz Albaniyasında, IX–XIX əsrlərdə isə Azərbaycanın Sacilər, Salarilər, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvilər kimi dövlətlərinin tərkibində, tarixi alban vilayətləri olan Arsak, Sünik, Uti, Şəki, Kambisena kimi əyalətlərinin ərazilərində yaşamağa davam etmişlər. Alban xristian irsi ərəb istilaları dövründə dövlətçiliyini və dövlət dini statusunu itirməsinə baxmayaraq Azərbaycan xalqının mənəvi mədəniyyətində özünəməxsus yer tutmuşdur.

Ermənilərin məkrli niyyətlərlə öz adına çıxmağa çalışdığı Alban Apostol kilsəsinin tarixi ilə bağlı isə demək lazımdır ki, Azərbaycan torpaqlarında Alban kilsəsinin əsası hələ I əsrdə qoyulub. Azərbaycan ilk xristian icmalarının meydana gəldiyi ölkələr sırasındadır. Alban kilsəsi, Şərq xristianlığının yayıldığı ən erkən dövrdə İsa Məsihin həvarilərinin qurduğu Apostol kilsəsidir. Cənubi Qafqazda xristianlığı ilk qəbul edənlər məhz Azərbaycan xalqının etnogenezində iştirak etmiş albanlar olmuşlar.

Qafqaz Albaniyasında xristian icmalarının yaranma tarixi Apostollar Varfolomey, Faddey və xüsusilə də, Faddeyin tələbəsi Müqəddəs Yeliseyin adı ilə bağlıdır. Müqəddəs Yelisey I əsrdə Yerusəlimdən Albaniya ərazisinə gələrək xristianlığı təbliğ etmiş, alban torpaqlarında Gis (müasir Şəki rayonun Kiş kəndi) deyilən yerdə ilk xristian kilsəsinin əsasını qoymuşdur. Qafqazın ilk xristian kilsələrindən olmuş bu kilsə hazırda Azərbaycanın Şəki rayonun Kiş kəndində yerləşir və Azərbaycan xalqının tolerant ənənələri sayəsində yarandığı dövrdən bu günə kimi qorunub saxlanmış-

dır. Kiş kilsəsinin əsasını qoymuş Müqəddəs Yelisey Qafqaz Albaniyasının ən çox sitayiş olunan müqəddəslərindən biridir. Yelisey bu günə qədər Azərbaycan xalq inanclarında yaşadılmaqdadlr. Yeliseyin xristianlığı yaydığı Şəki–Qəbələ bölgəsində yerli əhali arasında Yeliseylə bağlı müxtəlif rəvayətlər hələ də mövcuddur. Müqəddəs Yeliseyin şərəfinə Azərbaycanın Şəki, Qəbələ, Oğuz ərazilərində olduğu kimi, Qarabağ və Zəngəzurda Xocavənd, Tərtər, Kəlbəcər rayonlarında da çox sayda kilsələr, monastırlar ucaldılmışdır.

VIII əsrdə ərəb istilaları nəticəsində Qafqaz Albaniyasının süqut etməsilə qriqoryan kilsəsinin apardığı məkrli siyasət nəticəsində Alban Apostol kilsəsinin fəaliyyəti Ərəb xilafəti tərəfindən bir müddət məhdudlaşdırımışdı. Lakin IX əsrdə Ərəb xilafətinin zəifləməsi ilə Alban Apostol kilsəsi yenidən avtokefallığını bərpa etmiş və XIX əsrin əvvəllərinə qədər mövcudluğunu sürdürmüşdür. XIX əsrdə Eçmiədzin Qriqoryan kilsəsinin Rusiya imperiyasının himayəsinə keçməsilə qriqoryan katolikosları tarixən rəqabət apardıqları Alban kilsəsinin ləğvi üçün hərəkətə keçmişdilər. 1828-ci ildə Azərbaycanı iki yerə bölən Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsindən sonra Çar Rusiyasının dəstəyilə Qafqazda kütləvi şəkildə kök salan ermənilər Qarabağ torpaqlarında süni şəkildə öz tarixlərini yaratmaq üçün alban xristian irsini mənimsəmək yolunu tutdular. XIX əsrdən etibarən Rusiya imperiyasının Qafqazda yürütdüyü müstəmləkə siyasəti nəticəsində İrəvan xanlığı, Zəngəzur, Qarabağ kimi tarixi Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər bu bölgələrin bütün alban məbədlərini mənimsəyərək alban irsi ilə bağlı tarixi dəlilləri məhv etməkdədirlər. Beləliklə, iki əsrdən artıqdır ki, Qafqazda köklü tarixləri olmayan ermənilər, Azərbaycan torpaqlarına yiyələnməklə yanaşı Azərbaycan tarixini də təhrif edərək alban irsini ondan qoparmağa, özlərini Qafqazın yerli sakini kimi qələmə verərək, azərbaycanlıların bura «gəlmə» olduğuna hər kəsi inandırmağa səy göstərməkdədirlər.



*Müqəddəs Yelisey monastırı (V əsr), Təpəkənd kəndi, Tərtər*



*Böyük Aran monastırı (IX əsr), Kolatağ kəndi, Kəlbəcər*

Erməni katolikosluğunun alban xristian irsinə aid abidələri mənimsəyə bilməsinin əsas səbəblərindən biri, XIX əsrdə Rusiya imperiyasının Qafqazdakı din siyasəti və Rus Sinodunun 1836-cı ildə Alban Apostol kilsəsini ləğv edərək Erməni Qriqoryan kilsəsinə tabe etdirməsi olmuşdur. Bu durum həm alban xristian mədəniyyətinə, həm də son xristian alban nəsillərinin dini-etnik durumuna faciəvi təsir göstərmişdir. 1836-cı ildən Alban kilsəsinin ləğv edilməsilə alban kilsələrinin və son alban nəsillərinin erməniləşdirilməsi prosesi başlandı. Alban patriarxlarının Gəncəsər, Xudavəng kimi iri monastır komplekslərində yerləşən zəngin kitabxanaları, Alban Apostol kilsəsinin orta əsrlərə aid qədim sənədlər arxivi məhv edildi. XIX əsrə qədər rifah halında və işlək olan Alban monastır və kilsələrin erməni kilsəsinin tabeliyinə verilməsindən həmən sonra artıq XIX əsrin ortalarından dağılmağa üz qoymuşdur. XIX əsrin sonunda Azərbaycanı qarış-qarış gəzərək bütün alban kilsələrinin təsnifatını vermiş Makar Barxudaryan 1895-ci ildə qələmə aldığı əsərində böyük təsərrüfatları, torpaq mülkləri olan Gəncəsər, Xudavəng, Gitşvəng, Böyük Aran kimi monastırların 1828-ci ilədək fəaliyyət göstərdiyindən və çiçəklənən vəziyyətdə olduğundan bəhs etmişdir. Müəllif 1828-ci ilədək rifah halında olan bu monastır və kilsələrin belə qısa müddət ərzində xarabalığa çevrilməsinin şahidi olduğunu yazır.

1836-cı ildə Sinodun məlum qərarından sonra Erməni Qriqoryan kilsəsinin əsas hədəfi Alban patriarxlığının Qarabağda yerləşən son iqamətgahı Gəncəsər monastırı olmuşdur. Gəncəsər monastırındakı Alban patriarxlarının kitabxanasındakı bütün əlyazmalar, qiymətli sənədlər Eçmiədzinə daşınmışdır. XIX əsrin sonunda Makar Barxudaryan Gəncəsər monastırından qiymətli əlyazmaların oğurlanmasından bəhs edir. Müəllifin verdiyi məlumata görə Alban kilsəsinin son patriarxı, Xaçın hökmdarı Həsən Cəlalın sülaləsindən olan patriarx Sarkis qeydlərində Gəncəsər monastırının arxivinin Eçmiədzinə göndərilərkən yolda müəmmalı şəkildə yox olmasını yazmışdır.

Rusiya İmperiyasının dəstəyinə arxalanaraq Alban kilsəsinin bütün varidatını, arxivini ələ keçirən Qriqoryan kilsəsi zəngin alban xristian irsini qriqoryan ruhuna uyğunlaşdırmaq üçün bütün arxiv materiallarını istədiyi kimi təhrif etmiş, onlardan məqsədlərinə uyğun olmayanlarını isə məhv edərək sıradan cıxarmağa müvəffəq olmuşlar. Erməni katolikosları Alban patriarxlığının Gəncəsər arxivini geriyə dönüşü olmadan məhv etmişlər. Bu isə o demək idi ki, XIX əsrin sonlarından etibarən əldə olan bütün alban mənbələri orijinalları saxtalaşdırılmış, erməni mətnləri əlavə edilmiş surətlərdir. Hətta alban mənbələrinin qiymətli nümunələri olan Mxitar Qoşun "Qanunnamə", Kirakos Gəncəlinin "Tarix" kimi əsərlərin adları belə dəyişdirilmişdir. Mxitar Qoşun əsərini "Erməni Qanunnaməsi", Kirakos Gəncəlinin əsərini isə "Erməni tarixi" olaraq saxtalaşdırılmasından belə çəkinməmişlər. Hələ nə qədər alban ədəbiyyatının məhv edilməsi isə sirr olaraq qalır.

XIX əsrdən etibarən erməni kilsəsi bütün mülkiyyətini talan edərək xarabalıqlara çevirdiyi alban kilsə və monastırlarının inşaat kitabələrini və digər qiymətli elementlərini, xüsusilə də, məbədlərdəki alban xaçdaşlarını ya tamamilə məhv etmiş, ya da təhrif edərək erməni kilsəsinə uyğunlaşdırmağa çalışmışdır. Qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasına məxsus ornament və simvolikalar spesifik olub yalnız Azərbaycan əraziləri üçün səciyyəvidir. Alban irsinə məxsus xaçdaşları, qəbir abidələri, nişandaşları daha çox xristianlığa qədərki inam və təbiət qüvvələrini əks etdirən kompozisiyalarla, bədii ornamentlərlə zəngindir və özünəməxsus lokal cizgilərə malikdir. Alban xaç təsvirlərində və bədii kompozisiyalarında Ay kultu, Günəş kultu, təbiət kultu kimi türk etiqadları, dünyagörüşləri, ənənələri və mədəniyyətinə məxsus müxtəlif elementlər öz əksini tapmışdır. Alban xaçdaşlarının kompozisiyaları, əsasən, təbiət ünsürlərini, göylə yerin əlaqəsini, işıq, həyat ağacı, məhsuldarlıq simvollarını əks etdirir. Alban xaçdaşları üzərindəki belə özünəməxsus təsvirlərə başqa xaç təsvirlərində rast gəlinmir. Azərbaycan xalqı alban irsinə xas bu zəngin təs-



*Ağoğlan məbədi (VI əsr), Kosalar kəndi, Laçın*



*Gəncəsər monastırının baş kitabəsi (XIII əsr) Vəngli kəndi, Kəlbəcər. Kitabənin alt sırasındakı «Alban katolikosu Nertsesin patriaarxlığı dövründə» ifadəsi məbədin alban irsinə məxsusuluğunu təsdiq edir.*



*Beşikdağ / Vəngəsər monastırı (V əsr), Şahbulaq kəndi, Ağdam*

virləri, bədii ornamentləri, motivləri bu günədək öz məişət ənənələrində, bütün milli ornamentlərində, hətta xalçaların ilmələrində bugünədək yaşatmaqdadır.

Qeyd etmək lazımdır ki, Qafqaz qədim dövrlərdən bəri türk xalqlarının məskunlaşdığı ərazi olduğu üçün Qafqaz Albaniyasında və Alban kilsələrində türk etnik komponenti hər zaman həlledici rol oynamışdır. Gəncəsər, Xudavəng, Böyük Aran monastırı kimi Qarabağın iri alban kilsələrinin kitabələrinin tədqiqi bu alban abidələrində xeyli türkizmlərin mövcud olduğunu ortaya qoymuşdur. Bu kitabələrdən məlum olur ki, Qarabağın alban xristian əhalisi doğma türk dilinin daşıyıcıları idilər və kilsə həyatında xristian qaydalarına riayət etməklə yanaşı türk ənənələrini, folklorunu öz məişətlərində yaşatmışlar. VIII əsrdə Qafqaz Albaniyasının süqutundan sonra IX-XII əsrlərdə yenidən dirçələn kiçik alban knyazlıqları, xüsusilə də, XII əsrdən Qarabağda yüksələn Xaçın knyazlığı orta əsrlərdə Cənubi Qafqazda türk xristianlarının formalaşdığı və inkişaf etdiyi mühüm mərkəzlərdən biri olmuşdur. XIII əsr Alban-Xaçın knyazlığının ən parlaq nümayəndələrindən olmuş Həsən Calal Dövlənin dövründə alban knyazları həm qıpçaqlarla, həm də monqollarla qohumluq əlaqələri qurmuşdu. Həsən Cəlalın anası Xorişa xatun (Hurişah xatun) türk qıpçaq nəsillərindən idi. Qeyd etmək lazımdır ki, XIX əsrdə Qarabağın xristian abidələri haqda məlumat verən yepiskop Barxudaryan Gəncəsər, Xudavəng, Böyük Aran monastırı kimi onlarla alban kilsəsinin ərazisindəki kitabələrdə Xaçın hakimi Həsən Calal, onun xanımı Mama xatun, oğlu Atabəy, Arzu xatun, Qoçubəy, Tursun, Seyti, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz, Ruzuxan, Mina xatun, Nazlı xanım, Aygün, Aykut, Mamaxatunun nəvəsi Ərkan, Kutlu bəy kimi Xaçın sülaləsinin üzvlərinin adını çəkir. Bu adların həkk olunduğu kilsə kitabələrindən aydın olur ki, Xaçın sülaləsinə məxsus şəxs adlarının böyük əksəriyyəti türk mənşəlidir. Alban məbədlərinin inşaat kitabələrində Xaçın məlikli-

yinin alban knyazlarının və onların xanımlarının türk adları ilə yanaşı həmçinin xatun, bəy, Məlik ata, Xaçın Atabəyi, Ulubəy kimi türk titullarının da qeyd olunması bu abidələri ucaldanların etnik mənsubiyyətinin dəqiq göstəricilərindəndir. Xaçın hakimlərinin və onların ailə üzvlərinin adlarının türk mənşəli olması Qarabağın alban knyazlarının tarixinin türk köklərinə dayandığını təsdiq edən mühüm faktlardandır. Gəncəsər kitabələri ilə bağlı son tədqiqatların nəticələrinə görə, monastırda hətta türkdilli mətn olduğu kitabə müəyyən edilmişdir. Mütəxəssislər Gəncəsər məbədinin divarlarında vaxtilə Məlikdən torunları için hatıra yazısının, həmçinin ezgi, şamar, sakin kimi qədim türk kəlmələrinin həkk olunduğu kitabələr mövcud olmuşdur. Bu məlumatlar Qarabağ bölgəsinin orta əsr alban irsində türk mədəniyyətinin və türk etnoslarının mühüm rol oynadığını təsdiq edir.

Qafqaz Albaniyası abidələrinin memarlıq quruluşu da bir çox xarakterik elementlərinə, xüsusiyyətlərinə, memarlıq-planlaşdırılma üslubuna görə spesifikdir və erməni dini memarlıq abidələrindən tamamilə fərqlənir. Minillik tarixə malik Alban dövləti xristianlığın ilk yayıldığı ərazilərdən olduğu üçün burada Şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf etmişdi. Orta əsrlər boyu Şimali Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağ və Zəngəzur ərazilərində də öz dövrü üçün xarakterik memarlıq üslubuna malik, spesifik quruluşuna görə fərqlənən alban xristian məbədləri, bazilikalar və sovmələr inşa edilmişdir. Buna görə də Qafqaza yerləşdikləri gündən alban etnomədəni irsinə sahib çıxmaq üçün ermənilər alban irsinin canlı arxivi olan alban abidələrinin memarlıq quruluşunda və interyerində də hər zaman dəyişikliklər etməyə can atmışlar. Alban abidələrinin divarlarından alban tarixinin mühüm səhifələrini əks etdirən qiymətli kitabələr, alban incilləri və bu dini kitablardakı xatirə qeydləri, alban ənənələrini, məişətini, qədim inanclarını əks etdirən bədii ornamentləri məhv etmişlər. Ermənilər bununla



*Zəng qülləsində yanaşı qoyulmuş, bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı bu iki xaçdaş Eçmiədzinə aparılmışdır. Vəng kəndi, Kəlbəcər*



*Müqəddəs Stefan kilsəsi (XIII əsr), Tug kəndi, Xocavənd*

kifayətlənməyib bərpa adı altında abidələri tamamilə dagıdıb yenisini tikməklə, onları ilkin görkəmindən məhrum etmişlər.

Qafqaz Albaniyasının tarixinin təhrif edilməsi, paralel olaraq alban kilsələrinin, xüsusilə Qarabağ bölgəsindəki alban kilsələrinin xaçdaşlarının və digər elementlərinin talan edilməsi, eləcə də alban dövrünə məxsus bədii üslubda işlənmiş ornament və simvollarının silinərək formalarının dəyişdirilməsi prosesi XX əsrdə sovet imperiyası dövründə də davam etdirilmişdir. Sovet hakimiyyəti illərində ermənilər Azərbaycanın nəinki Qarabağ və Zəngəzur ərazilərində, eyni zamanda Qazax, Tovuz, Gədəbəy, Daşkəsən kimi bütün ərazilərindəki alban kilsələrindən alban xaçlarını yox etmiş, onları saxta erməni xaçları ilə əvəz etmişlər. Qafqaz Albaniyasına aid bütün xaçdaşlar oğurlanaraq Eçmiədzinə daşınmışdır.



*Üç körpə monastırı (XVII əsr), Çiləbürd kəndi, Tərtər*



*Şəlvə sövməsi (XV əsr), Şəlvə kəndi, Laçın*

XX əsrin sonlarından Azərbaycanın Qarabag və Şərqi Zəngəzur ərazilərinin Ermənistan Respublikası tərəfindən 30 illik işğalı dövründə isə bölgənin alban xristian abidələri tamamilə saxtalaşdırmaya məruz qalaraq ciddi zərər görmüşdür. Bu illər ərzində Alban memarlığının inciləri sayılan Yelisey monastırı (Tərtər rayonu), Ağoğlan monastırı (Laçın rayonu), Xudavəng monastırı(Kəlbəcər rayonu), Amaras monastırı (Xocavənd rayonu), Cəncəsər monastırı (Kəlbəcər rayonu) kimi çox sayda tarixi memarlıq abidələrində qanunsuz tikinti işləri aparılmış, onların ilkin görkəmi təhrif edilmiş, məbədlərin qiymətli tarixi əşyaları oğurlanaraq Ermənistana daşınmış, divarlarındakı alban simvolları və ornamentləri silinərək saxtalaşdırılmışdır. Erməni işğalçıları alban abidələrinin memarlıq üslubuna müdaxilə edərək etnik mənsubiyyətini dəyişdirməyə cəhd göstərmiş, inşaat kitabələrinin epiqrafikası təhrif edilərək erməni mətnləri ilə əvəz edilmişdir. Bu ərazilərdəki alban xristian abidələrinin memarlıq üslubunun dəyişdirilməsi alban dövrü abidələrinin kütləvi şəkildə öz ilkin görkəmini itirməsinə gətirib çıxarmışdır. İşğal illərində Qarabağ və Zəngəzurda Azərbaycan xalqının əcdadlarının yaratdığı çox sayda möhtəşəm alban maddi-mədəniyyət nümunələri tamamilə dağıdılmışdır.

Qafqaz Albaniyası xristian memarlığının incilərindən sayılan Gəncəsər monastırı işğal dövründə ciddi falsifikasiyaya məruz qalmış abidələrdəndir. İşğal illərində monastır kompleksinin memarlıq quruluşuna ciddi zərər yetirilmiş, abidənin daxili interyeri və fasadları üzərindəki yazılar və bədii nümunələr silinərək müxtəlif

heyvan fiqurları və erməni dilində yazılarla əvəz edilmişdir. Qeyd etmək lazımdır ki, hələ XX əsrin əvvəllərində, sovet alimi, udi mənşəli akademik İosif Orbeli Gəncəsər monastırındakı kitabələrə həsr olunmuş əsərində Qarabağın alban abidələrinin necə erməniləşdirilməsi faktlarını, Gəncəsər kitabələrini təhrif edən erməni kilsəsinin bütün əməllərini üzə çıxarmışdı. Lakin sovet dövründə ciddi təzyiqlərlə üzləşən müəllif əsərinin nəşrindən imtina etməyə məcbur qalmışdı. Orbelinin bu əsəri Qarabağ bölgəsindəki Alban Xaçın knyazlığının mirasının necə saxtalaşdırılaraq erməniləşirildiyini ortaya qoymuş qiymətli mənbədir. Bu əsər alban xristian irsinə qarşı edilən erməni falsifikasiyasının iç üzünü açan, üzə çıxaran bir ittiham sənədidir. Xoşbəxtlikdən ermənilər sovet dövründə bu qiymətli əsərin tamamilə ortadan qaldırılmasına nail ola bilməmişlər. Rusiya Elmlər Akademiyasının Şərq əlyazmaları fondunda bu əsər və onunla bağlı sənədlər saxlanılmışdır. Azərbaycan alimlərinin səyi ilə bu elmi əsərin nüsxəsi 2011-ci ildə Sankt-Peterburqdan Bakıya gətirilmişdir.

Sovet hakimiyyəti illərində erməni katalikosları qədim alban məbədindəki epiqarfikanı tamamilə məhv etmək niyyəti ilə Gəncəsərin bərpasına icazə almağa çalışsalar da, Azərbaycan alimlərinin ciddi etirazı ilə bu saxtalaşdırılma cəhdinin qarşısı alınmışdı. Lakin XX əsrin sonlarından Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğal etdikdən sonra əl-qolu açılan ermənilər abidənin alban mənşəyini təsdiq edən yazıların böyük əksəriyyətini silmişlər. Gəncəsər monastırının divarlarından Qafqaz Albaniyası tarixinin öyrənilməsi baxımından son dərəcə qiymətli kitabələr sökülmüş, yeni saxta kitabələrlə əvəz edilmişdir. Bu saxtakarlığı Gəncəsər monastırının XX əsrin sonlarında çəkilmiş fotoları ilə müqayisədə çox aydın görmək mümkündür. Abidənin kitabələrinin keçmiş görünüşü ilə müasir forması arasında ciddi fərqlər açıq-aşkar görünməkdədir. Alban mətnlərinin həkk olunduğu kitabələrin daş plitələrinin əksəriyyəti yeniləri ilə əvəzlənmişdir. Hal-hazırda Gəncəsər yazılarının böyük bir qismi, yeni erməni mətnləri həkk edilmiş saxta plitələrlə əvəzlənmişdir. Mütəxəssislər hazırda Gəncəsər kitabələrinin həkk olunduğu daş plitələrin böyük bir qisminin orta əsr alban memarlığında istifadə olunan daşlardan fərqli olduğu və kilsə ərazisinə kənardan gətirildiyi qənaətindədirlər.

Qeyd etmək lazımdır ki, XX əsrin sonlarına kimi Gəncəsər monastırında 1240-ci ildə Xaçın



*Müqəddəs Yaqub kilsəsi,*
*Kolatag kəndi, Kəlbəcər*



*Xatırvəng monastırı (XIII əsr),*
*Qozlu kəndi, Kəlbəcər*

hakimi Həsən Cəlal Dövlə tərəfindən tərtib olunmuş alban kitabələri qalmaqda idi. XIII əsrə aid bu alban epiqrafikası gürcü linqvist-alim Zaza Aleksidze tərəfindən tam tərcümə edilmişdir. Məbədin divarındakı epiqrafik yazıda "alban katalikosu" ifadəsi işlədilirdi və bu məlumat alban katolikoslarının xristian dünyasının ən yüksək mərtəbəsinə, patriarx tituluna sahib olduğunu təsdiq edir. Monastırdakı kitabələrdə həmçinin kilsənin Həsən Cəlal tərəfindən məhz alban xalqı üçün ucaldıldığı yazılır. Bu məlumat alban etnosunun XIX əsrə qədər mövcud olduğunu və bu torpaqların albanlara məxsus olduğunu təsdiq edirdi. Gəncəsər kitabələrindən İsanın həvvariləri tərəfindən xeyir-dua almış Alban kilsəsinin XIII əsrdə də aftokefallığını qoruyub saxladığı məlum olur. Lakin işğal illərində, xüsusilə 2000-2011-ci illərdə Gəncəsər monastır kompleksində ermənilər tərəfindən falsifikasiya işləri xüsusilə aktivləşmişdir. Abidənin həyətinə və monastır qəbiristanlığına onlarla yeni qəbir və xaçdaşları quraşdırılmışdır. Monastır ərazisindəki alban xaçdaşları sındırılmış, əraziyə yeni erməni xaçları yerləşdirilmiş, abidənin həm xarici, həm də daxili görünüşünə ciddi zərər verilmişdir. 2011-ci ildə kompleksin daxilindəki alban Xaçın knyazı Həsən Cəlal Dövlənin qəbrinin sinə daşı sındırılmış, daşın üzərindəki bədii ornamentlərin bir çoxu məhv edilmişdir. Bu illərdə monastırın dam örtüyü və interyerində aparılmış təmir işləri zamanı abidənin ilkin memarlıq xüsusiyyətlərinə uyğun olmayan elementlər əlavə edilməklə yanaşı monastırın fasadının memarlığına da müdaxilə edilmişdir.

İşğal dövründə Ağoğlan monastırı ərazisindəki VI–XIII əsrlərə aid bədii tərtibatlı və oyma naxışlı qəbir daşları, qədim stellalar da qarət edilərək Ermənistana aparılmışdır. 30 illik işğal dövründə Qarabağ və Zəngəzurdakı alban dövrü memarlıq abidələrinin bir çoxu ermənilərin hətta hərbi sursat anbarına çevrilmişdi. 1990-cı illərdə erməni silahlı birləşmələri Gəncəsər monastırından məşvərət yeri və silah anbarı kimi istifadə edirdi. Elə həmin illərdən monastırın fasadı ciddi zərər görmüşdür.

Qarabağ bölgəsinin ən qiymətli abidələrindən sayılan, adı hələ VII əsr mənbələrində çəkilən Yelisey monastırı da erməni falsifikasiyasının qurbanı olmuşdur. Bu qədim alban məbədində Qafqaz Albaniyasının hökmdarı III Vaçaqanın qəbiri və alban epiqrafikası tamamilə məhv edilmişdir. Ermənilərin işğal dövründə məbədin müxtəlif yerlərində yerləşdirdikləri qriqoryan xaçlarının saxtalığı çox aydın nəzərə çarpmaqdadır. Belə falsifikasiyalar Qarabağın, Zəngəzurun bütün alban abidələrində edilmişdir. İşğal dövründə bölgənin alban abidələrinin zəngin bədii ornamentləri silinmiş, epiqrafikası saxtalaşdırılmış, məbədlərin həyətinə yeni erməni qəbir daşları düzülmüşdür. Bir çox alban abidəsinin ilkin görkəminin dəyişdirilməsi üçün hətta tarixi memarlıq abidələrinin divarları, damı tamamilə sökülərək yenidən tikilmiş, bununla da alban xristian məbədlərinin spesifikası məhv edilmişdir.

İşğal illəri ərzində cəzasız qalmağın rahatlığını yaşayan erməni falsifikatorları 2000-ci illərdən sonra daha da irəli gedərək alban xaçdaşlarının ornamentlərinin təqlidini istehsal etməyə başlamışlar. Qarabağın bütün alban məbədlərinin ərazisinə kütləvi şəkildə belə saxta xaçdaşlarını yerləşdirərək bu saxtakarlıqlarını dünyaya qədim erməni nümunəsi kimi təqdim etmişlər. 2000-2005-ci illərdə Ermənistan alimləri Qarabağın və Zəngəzurun yüzlərlə alban dövrü abidəsinin erməni mədəniyyətinə aid olduğunu iddia etməkdən çəkinməmişlər. Qarabağın və Zəngəzurun bütün alban kilsə və monastır komplekslərini, sövmələri dünyaya erməni abidələri kimi təqdim edilməsində məqsəd alban mədəniyyətinin tamamilə məhv edilərək tarixdən silinməsi və onun dünyaya erməni mədəniyyəti kimi təqdim edilməsi olmuşdur. Bununla da işğalçılar Azərbaycan ərazilərinə olan iddialarına haqq qazandırmaq və bütün dünyanı bu yalanlarına inandırmaq niyyətində olmuşlar. İşğalçılıq müharibəsi yolu ilə Azərbaycan Respub-

likasının torpaqlarını ələ keçirən erməni şovinistləri təcavüzkarlıq əməllərinə haqq qazandırmaq məqsədilə beynəlxalq konvensiyaları pozaraq alban tarix və mədəniyyət abidələrinin xeyli hissəsini erməni abidələri elan etmişlər.

Bu gün Azərbaycan Respublikası ərazisində Qafqaz Albaniyasına aid Gədəbəy rayonunun Böyük Qaramurad kəndindəki Həmşivəng monastırı, Qazax rayonudakı Avey monastırı, Qəbələ rayonunda Kilsədağ, Müqəddəs Yelisey kilsəsi, Calut monastırı, Qax rayonundakı Ləkit məbədi , Qum bazilikası, Kötüklü kəndi ərazisində Yeddi kilsə monastırı, Zaqatala rayonundakı Pipan bazilikası, Şəkidə Qafqazın ən qədim və ilk xristian kilsəsi olan Kiş məbədi, Daşkəsən rayonundakı Bayan monastırı kimi yüzlərlə tarixi-memarlıq abidələri dövlət tərəfindən mühafizə edilməkdədir. Lakin işğal dövündə Azərbaycan Respublikasının nəzarətindən kənarda qalan Qarabağ və Zəngəzurun 1000 illik Qafqaz Albaniyasının tarixi yadigarları olan alban kilsə və monastırlarının böyük bir qismi dağıdılaraq xarabalığa çevrilmiş, yüzlərlə alban məbədi zərər görmüş, məhv edilmiş, saxtalaşdırılaraq dünyaya erməni kilsəsi kimi təqdim edilmişdir. Artıq hər kəsə məlumdur ki, Azərbaycan xalqı bütün tarixi dövrlərdə öz mədəni irsini, o cümlədən alban xristian irsini göz bəbəyi kimi qorumuşdur. Azərbaycanın bütün bölgələrində xristian kilsələri İslam abidələri ilə birlikdə tolerant mühitdə öz mövcudluqlarını əsrlərdən bəri sürdürmüşlər. Azərbaycanın istər Qarabağ, istərsə də Şəki-Zaqatala, Qax, Gədəbəy-Daşkəsən kimi bütün bölgələrində alban xristian kilsələri bütün dövrlərdə, həatta İslam mədəniyyətinin yaranması və təşəkkülü dövründə, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi kimi Azərbaycan dövlətlərinin himayəsində, eyni zamanda müasir Azərbaycan Respublikasının yaranması mərhələsində də Azərbaycan xalqına xas tolerant bir mühitdə bu günədək ehtiramla qorunub saxlanmışdır. Azərbaycan Respublikası ərazisindəki Qəbələ, Qax, Şəki, Zaqatala, Gədəbəy, Daşkəsən bölgələrində Qafqaz Albaniyasının zəngin memarlıq irsinə aid yüzlərlə məbəd, kilsə və monastırlar kimi Qarabağ və Zəngəzur ərazilərindəki alban abidələri də Azərbaycan xalqının əcdadlarının yaratdığı möhtəşəm maddi-mədəniyyət nümunələrindən olub, əsrlərdən bəri qorunan maddi-mənəvi mirası olmuşdur.



*Hoçaz kəndi, Laçın*



*Badara Xilaskar monastırı (XIII əsr), Xocalı*

Qarabağın və Şərqi Zəngəzur ərazilərinin Ermənistan Respublikası tərəfindən işğal edildiyi dövrdə Azərbaycan Respublikası dünya ictimaiyyətinin diqqətini hər zaman erməni təcavüzünə



*Yeddi qapı monastırı (VII əsr), Susanlıq kəndi, Xocavənd*

məruz qalmış tarixi abidələrimizin acınacaqlı vəziyyətinə yönəltməyə çalışmışdır. Lakin Qərb dövlətləri işğal illərində minlərlə Azərbaycan abidəsinin, həm İslam abidələri olaraq bölgədəki ziyarətgahların, qəbiristanlıqların erməni terrorçuları tərəfindən vəhşicəsinə talan edilərək dağıdılmasına, 67 məsciddən 63-nün isə tamamilə məhv edilməsi ilə yanaşı alban xristian irsinə məxsus dünya əhəmiyyətli tarixi memarlıq abidələrinin də saxtalaşdırılmasına biganə qalmışlar.

2020-ci ildə Azərbaycan xalqı Azərbaycan dövləti Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi, müdrik, uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı və Azərbaycan Ordusunun gücü sayəsində 30 ilə yaxın Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan tarixi torpaqlarını Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad edərək öz ərazi bütövlüyünü bərpa etdi. Qeyd etmək lazımdır ki, 2020-ci il 10 noyabr sülh sazişinin şərtlərinə əməl etməyən ermənilər işğal etdikləri əraziləri tərk edərkən belə abidələrə qarşı barbar əməllərindən əl çəkməmiş, Qafqaz Albaniyasına aid olan tarixi memarlıq abidələrinin qiymətli elementlərini, stellaları, freskaları sökərək qeyri-qanuni olaraq Ermənistana aparmışlar. 2020-ci il 10 noyabr razılaşmasına görə işğaldan azad edilən Kəlbəcərin boşaldılması zamanı ermənilər bütün dünya ictimaiyyətinin gözü qarşısında Xudavəng monastır kompleksindəki alban xristian irsinə məxsus incəsənət nümunələrini – Arzu xatın kilsəsindəki qədim freskaları, xaçdaşları, hətta kilsə zəngini sökərək Ermənistana aparmışlar.

Hazırda Azərbaycan Respublikasının apardığı uğurlu hərbi və iqtisadi siyasət nəticəsində Qarabağ və Zəngəzur bölgəsində əmin-amanlıq, sabitlik bərpa olunmuşdur. Lakin Ermənistan Qarabağı və Şərqi Zəngəzuru işğal altında saxladığı dövrdə bu torpaqlarda törətdikləri cinayətkar əməllərini ört-basdır etmək üçün Azərbaycan Respublikasının əleyhinə dini-mədəni irs sahəsində təbliğat apararaq öz havadarları ilə birlikdə xristian məbədləri üzərindən yeni qlobal manipulyasiyalara cəhd edir. İşğaldan azad olmuş ərazilərdəki alban irsinə məxsus dini-mədəni abidələrin ermənilərə məxsusluğuna dair əsassız iddialar irəli sürülür. Hətta bununla bağlı YUNESKO-ya müraciətlər etməyə cəhd göstərirlər. İşğal dövründə ermənilərin Qarabağdakı abidələrə, xüsusilə də müsəlman abidələrinə qarşı törətdikləri vəhşilikləri görməzlikdən gələn Dünya ictimaiyyəti Qarabağın bütün İslam dövrünə aid tarixi-memarlıq, dini abidələrinin tamamilə dağıdılaraq yer üzündən silinməsinə baxmayaraq yalnız Qarabağın xristian abidələri ilə bağlı yersiz narahatlıq bildirməkdədir. Azərbaycanın azad edilmiş torpaqlarındakı xristian mirasının, kilsə və məbədlərinin guya təhlükə altında olması ilə bağlı qaldırılan yalançı hay-küy riyakarlıqdan başqa bir şey deyil-

dir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ədalətsizliyə, ikili standartlara qarşı bütün dünya ictimaiyyətinə, həmçinin UNESCO-ya haqlı iradını ünvanlamışdır: "Niyə 30 il ərzində bu məsələ ilə bağlı UNESCO məsələ qaldırmayıb? Biz dəfələrlə müraciət etmişik. Bu müraciətlər məktublar formasında sənədləşdirilib. UNESCO-nun yeni rəhbərliyinə də belə təklif verildi ki, missiya göndərin. İşğal edilmiş torpaqlara missiya gəlsin, baxsın ki, nə günə qoyublar bizim tarixi abidələrimizi? Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib".

Prezident İlham Əliyev 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonunun işğaldan azad olunması ilə bağlı Azərbaycan xalqına müraciətində bütün dünya ictimaiyyətinin diqqətini ermənilərin alban abidələrini saxtalaşdırma cəhdlərinə də yönəldərək söyləmişdir: "Tarixə baxmaq kifayətdir ki, hər kəs görsün 1830-cu illərdə çar Rusiyası Alban kilsəsini ləğv etdi, Alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi".

Müasir Azərbaycan Respublikasında nəinki alban xristian abidələri, bütün dinlərə məxsus abidələr və hər bir xalqın maddi mənəvi irsi qorunmaqdadır. İşğaldan azad olunmuş ərazilərin canlandırılması işləri çərçivəsində dağıdılmış dini abidələrin bərpası ilə bağlı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva xüsusilə vurğulamışdır ki, "biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik".  Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi kimi, həm məscidlər, həm kilsələr Azərbaycanın tarixi sərvətidir. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdəki xristian dini və mədəni abidələrləri ilə bağlı çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycan dövlət olaraq onların hamısını qoruyur və bərpa edir. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir.

Azərbaycan dövləti tərəfindən xristian albanların son nümayəndələri olan udilərin öz kilsələrində ibadətlərini etməsi üçün bütün imkanlar yaradılmışdır. Qədim alban tayfalarından olan udilərin kompakt yaşadığı Qəbələ rayonun Nic kəndində Cotari və Müqəddəs Məryəm ana kilsəsi kimi iki alban məbədi Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək udilərin ziyarəti üçün açılmışdır. Azərbaycan Prezidenti Udi Alban Xristian İcmasının nümayəndələri ilə görüşündə qeyd etmişdir ki, böyük tarixi mirası olan udi xalqı indi həm Qəbələ rayonu ərazisində və eyni zamanda, azad edilmiş torpaqlarda – həm Xudavəngdə, həm Ağoğlanda ibadət etmək imkanı qazanmışlar. İşğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, bizim udi qardaşlarımıza qaytarılmışdır.

Azərbaycan tarixinin və maddi-mədəniyyət abidələrimizin ermənilər tərəfindən vəhşicəsinə dağıdılması, falsifikasiyası beynəlxalq əhəmiyyətli bir problem olmaqla yanaşı, erməni şovinistlərinin bütün bəşəriyyətə qarşı törətdikləri cinayətdir. Bütün bunlar üçün erməni təcavüzkarları cinayət məsuliyyəti daşımalıdır. Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad edilməsindən sonra Azərbaycan Prezidenti İlham Əliyev ermənilərin dağıtdıqları dini abidələrə baş çəkmiş, böyük hissəsi dağılmış və ya yarıdağılmış vəziyyətdə olan bu abidələrin də bərpa edələcəyini, bütün tarixi abidələrimizin dövlət tərəfindən qorunduğunu və Qafqaz Albaniyası kilsələrinin milli sərvətimiz olduğunu bütün dünya ictimaiyyətinin nəzərinə çatdırmışdır. Prezident İlham Əliyev Hadrut və Xocavənd rayonlarına səfəri zamanı Hünərli kəndindəki erməni işğalçılarının dağıtdıqları Alban kilsəsində olarkən işğalçıların bu məbədləri özlərininki saymadıqlarına görə dağıtdıqlarını da dünyaya bəyan edərək qeyd et-

mişdir: "Ermənilər bu Alban kilsəsini də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. Bu, bizim qədim tarixi abidəmizdir. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar".

Müasir Azərbaycan etnik və dini tolerantlığın nümunəvi modeli kimi bütün dünyaya örnək sayılan ölkələrdəndir. Azərbaycan dünyada tolerantlıq və multikulturalizmin əsas mərkəzlərindən biri hesab olunur. Tarixən Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayan və İslam dünyasında özünəməxsusluğu ilə fərqlənən Azərbaycan İslam sivilizasiyasına mənsub olmaqla yanaşı, özündə tolerant və multikultural dəyərləri də yaşadır, dünyada dinlər və sivilizasiyalararası dialoqun inkişafına təkan verir. Əsrlərdir ki, ölkə ərazisində yerləşən müxtəlif dinlərə aid qədim və unikal abidələr, məbədlər, səcdəgahlar həm dövlət, həm də cəmiyyət tərəfindən həssaslıqla qorunmaqdadır. Azərbaycan ərazisində məscidlər, kilsələr, sinaqoqlar – bütün dinlərə məxsus ibadət yerləri – həm paytaxt Bakıda, həm də bölgələrdə tolerant mühütdə fəaliyyət göstərir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində şanlı qələbə ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında başlanmış bərpa-quruculuq, dirçəliş işlərinin mühüm bir istiqaməti də tarixi abidələrin, xüsusilə də, bu torpaqlardakı alban xristian irsi nümunələrinin obyektiv tədqiqi və təbliği, beynəlxalq miqyasda tanınmasıdır. Dünya ictimaiyyətinə erməni işğalçılarının Qarabağ və Zəngəzur torpaqlarında törətdikləri vəhşiliklərin, Azərbaycan xalqına, tarixinə və mədəniyyətinə qarşı apardıqları soyqırım siyasətinin nəticələrinin sərgilənməsi zəruridir. Azərbaycan Prezidentinin dəfələrlə vurğuladığı kimi, Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza, əsərlər var. Bu mənbələr elmi ictimaiyyətə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır.

Bu gün Azərbaycan Respublikası tərəfindən regionda əmin-amanlığın bərpa edilməsi nəticəsində Qarabağ və Zəngəzurun alban xristian abidələrinin, XIX əsrdən bəri ilk dəfə olaraq obyektiv və hərtərəfli elmi araşdırılması üçün geniş imkanlar açılmışdır. Qarabağın və Zəngəzurun alban abidələrinin hər birinin mövcud durumu haqqında tarixi arayış verilməklə qeydiyyatının aparılması, eyni zamanda alban etnomədəni irsinin canlı arxivi olan kilsə və monastırların falsifikasiyaya uğradılması və talan edilməsi faktlarını ortaya qoymaqla problemin tarixi köklərinin təhlilinə əsaslanan elmi nəşrlərin hazırlanması, Qarabağın və Zəngəzurun alban abidələri barədə tarixi həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması günün aktual problemlərindəndir.

Qafqaz Albaniyası irsinin tədqiqi və təbliği ilə bağlı Azərbaycan Respublikasında mühüm addımlar atılmışdır. Hazırda bu sahə ilə bağlı xarici albanşünas alimlərin də iştirak etdiyi böyük bir elmi işçi qrupu fəaliyyət göstərməkdədir. Azərbaycan alimlərinin xarici alimlərlə birlikdə apardığı elmi tədqiqat işləri çərçivəsində Qafqaz Albaniyası irsi ilə bağlı zəngin arxiv sənədləri və faktoloji material, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında, həmçinin tarixi Azərbaycan torpaqlarında qurulmuş Ermənistan Respublikası ərazilərindəki alban abidələrinin saxtalaşdırılmasına dair çox sayda təkzibolunmaz faktlar əldə edilmişdir. Bu gün Qarabağın və Şərqi Zəngəzurun alban kilsə və monastırlarının tədqiqi ilə bağlı əldə edilən nəticələr erməni və ermənipərəst alimlərin hər zaman təkidlə Qafqaz Albaniyası dövlətinin və alban etnosunun mövcud olmaması ilə bağlı dünya elmi ictimaiyyətinə təlqin etdikləri fikirlərin tamamilə yanlış olduğunu ortaya qoymaqdadır. Xudavəng, Gəncəsər,

Amaras kimi alban katolikoslarının iqamətgahı olmuş monastırlardakı kitabələr alban etnosu, Alban kilsəsi və Qarabağ torpaqlarındakı orta əsr alban knyazlıqlarının mövcudluğu və fəaliyyətini təsdiq edən qiymətli məlumatlar verir. Xüsusilə, əsrlərdən bəri Azərbaycan torpaqlarında mövcud olmuş Alban Apostol kilsəsi və onun fəaliyyətinin davamı olaraq Alban Gəncəsər katolikosluğunun mövcudluğu və fəaliyyəti haqqında təkzibolunmaz dəlillər toplanmışdır. Qafqaz Albaniyası və alban xristian irsi ilə bağlı tarixi həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılması zəruridir. Çünki Qafqaz Albaniyasının tarixi, mədəni irsinin obyektiv tədqiqi Azərbaycan torpaqlarına göz dikən bədnam qonşularımızın əsassız iddialarına ən tutarlı cavabdır. Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq əməllərinə haqq qazandırmaq məqsədilə uzun illər boyu Azərbaycanın qədim dövləti olmuş, minillik tarixə malik Qafqaz Albaniyası irsinə yiyələnməyə, Alban Apostol kilsəsinin tarixi mirasını – alban xristian abidələrini erməni abidələri kimi qələmə verməyə çalışmışlar. Dünya elmi ictimaiyyəti Alban xristian irsinin erməniləşdirilməsinə və erməni irsi kimi təqdim edilməsinə yol verməməlidir.

Təqdim olunan kitabın yazılması Azərbaycan tarixi və onun ən zəngin mərhələlərindən birini təşkil edən alban xristian irsi və bu irsin ən zəngin nümunələrini yaşadan Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin tarixi keçmişi və bu günkü vəziyyəti, onların falsifikasiya edilməsi faktlarının geniş oxucu auditoriyasına çatdırılması, bölgənin bütün alban abidələrinin, ümumi tarixi arayış verilməklə, bir nəşrdə toplanması zərurətindən irəli gəlmişdir. Kitabda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində keçən əsrin son illərinə qədər aşkar edilmiş və bir qismində elmi tədqiqat işləri aparılmış yüzdən artıq alban memarlıq abidəsi haqqında tarixi arayış verilmişdir. Eyni zamanda bölgənin alban abidələri ilə bağlı tarixi-etnoqrafik, arxeoloji, memarlıq materialları toplanaraq ümumiləşdirilmişdir. Lakin qeyd etmək lazımdır ki, bu, bölgənin alban abidələrinin tam təsnifatı deyildir. Belə ki, XX əsrin sonlarından etibarən Qarabağın Azərbaycandan qoparılmasına yönələn separatizm hərəkatı nəticəsində bölgənin Ermənistan tərəfindən işğalı tarixi alban memarlıq abidələrinin dövlət qeydiyatına alınması və tədqiqi işini dayandırmışdı. İşğaldan azad edilmiş Qarabağ və Zəngəzur ərazilərində aparılacaq araşdırmalar nəticəsində daha neçə-neçə alban abidəsinin aşkar ediləcəyi də şübhəsizdir. Bu baxımdan hazırda Qarabağ və Şərqi Zəngəzur bölgəsində ermənilər tərəfindən dağıntılara məruz qalmış alban mədəni irsinə məxsus tarixi-memarlıq komplekslərinin aşkar edilərək qeydiyyata alınması, bərpa və konservasiya işləri qarşıda duran əsas vəzifələrdəndir. Qeyd etmək lazımdır ki, uzun illər boyu işğal etdiyi Qarabağ və Şərqi Zəngəzur ərazilərini başdan-başa minalamış Ermənistan Respublikası, müharibə bitməsinə baxmayaraq, minalanmış ərazilərin xəritəsini verməkdən imtina etməklə bölgənin təhlükəsizliyinin təmin edilməsinə ciddi maneələr yaratmağa davam etməkdədir. Belə vəziyyət azad edilmiş ərazilərdəki zərər görmüş abidələrin təsbit edilməsi, sayının və ümumi vəziyyətinin müəyyənləşdirilməsi, eyni zamanda falsifikasiyaya məruz qalmış alban abidələri haqda məlumatların toplanaraq tarixi və hüquqi aspektdən təhlil edilməsi işini xeyli çətinləşdirir. Lakin tarixi-mədəni mirasına qovuşmasından sonra Azərbaycan dövləti, bütün çətinliklərə və maneələrə baxmayaraq, buradakı tarixi memarlıq abidələrini, o cümlədən alban abidələrini dövlət qorumasına aldığı üçün, tezliklə Azərbaycanın bütün bölgələri kimi Qarabağ və Zəngəzur torpaqları da bütün insanlığa açıq, tolerant, multikultural dəyərlər məkanına çevriləcəkdir.

***Müəllif***

# AĞDAM
## RAYONU

Qarabağın mərkəzində, Qarabağ dağ silsiləsinin ətəklərində yerləşən Ağdam rayonu Azərbaycanın qədim və zəngin tarixə malik bölgələrindəndir. Ağdam ərazisi Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Qafqazın ən zəngin tarixi abidələrinin yerləşdiyi bölgələrdəndir. Bu ərazilərdə ilk insanların məskunlaşma dövrü hələ e.ə. VI–IV minillikləri əhatə edən eneolit mərhələsində olmuşdur.







*Qədim tarixə malik Ağdam rayonunun ərazisi abidələrlə zəngin olmuşdur.*

Ağdam Azərbaycanın qədim dövləti olmuş Qafqaz Albaniyasının mərkəzi bölgələrindən olmuşdur. Bu tarixi ərazi Qafqaz Albaniyası dövründə albanların sıx məskunlaşdığı bölgələrdən idi. Ağdam ərazisindəki Qarqar çayı hövzəsi Qafqaz Albaniyasının ən qədim və ən iri tayfalarından biri hesab olunan qarqarların sıx məskunlaşma ərazisi olmuşdur. Bu ərazilər antik və ilk orta əsrlərdə qədim alban tayfalarının adı ilə Qarqarlar ölkəsi adlanırdı. Qarqar tayfasının adı bölgənin Qarqarçay, Qarqar düzü kimi kimi toponimikasında bu günədək qorunmaqdadır.

XX əsrin əvvəllərində Sovet Rusiyasının dəstəyilə Azərbaycanın tarixi torpaqlarının bir hissəsinə yiyələnərək burda dövlət qurmuş Ermənistan Respublikası bütün mövcudluğu dövründə Azərbaycandan yeni ərazilər qoparmağa çalışımışdır. XX əsrin sonlarına doğru, xüsusilə aktivləşən Ermənistan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ bölgəsini işğal etmək niyyətinə düşmüşdür. 1988-ci ilin fevralından Ermənistanın Azərbaycana qarşı başlatdığı bu amansız müharibəyə ilk olaraq məhz Ağdam rayonu cəlb olunmuşdur. Hələ 1988-ci ilin sonlarından Ermənistandan öz ata-baba yurd – yuvalarından insanlığa sığmayan vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı ilk olaraq məhz Ağdam rayonuna pənah gətirmişdi. Ermənistan silahlı qüvvələrinin davamlı hücum əməliyyatları nəticəsində 1993-cü ildə Ağdam rayonunun da böyük hissəsi işğal edilmişdir. Ağdam rayonu 20 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyevin böyük diplomatik bacarığı, Azərbaycan Ordusunun və xalqının əzmi nəticəsində hərbi əməliyyat keçirilmədən işğaldan azad edilmişdir.





*Beşikdağ / Vəngəsər monastırı (V əsr), Şahbulaq kəndi*

Tarixi abidələrlə zəngin Ağdam rayonunun ərazisində Üzərlik təpə, Leyla təpə kimi qədim yaşayış məskənləri, Papravənd və digər kəndlərdə orta əsr türbələri, Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Abdal-Gülablı kəndində tarixi memarlıq abidəsi, Şahbulaq məscidi, Qarabağ xanı Pənahəli xanın imarəti, Şahbulaq qalası, xüsusilə də Qarabağın özünəməxsus dini memarlığının monumental örnəklərindən biri olan Ağdam Cümə məscidi kimi qədim tarixə malik, müxtəlif tarixi dövrləri əks etdirən çoxlu memarlıq və incəsənət abidələri olmuşdur. Lakin ərazinin işğal edildiyi müddətdə Ağdam rayonu tamamilə yerlə yeksan edilmiş, nadir tarixi və memarlıq nümunələri məhv edilmişdir. XX əsrin sonlarına kimi təbiəti və memarlıq abidələri ilə göz oxşayan Ağdam rayonu işğal dövründə ucsuz-bucaqsız çöllüyə çevrilərək yerlə-yeksan edilmiş, tikili qalıqlarının xarabalığına çevrilmişdir.

İşğala qədər azərbaycanlıların ibadət yeri olan Ağdam Cümə məscidi xüsusi vəhşiliklə dağıdılmış və təhqir olunmuşdur. Məsçidin minarələri daxildən tamamilə sökülmüş, bəzək əşyaları, bütün avadanlıqları qarət edilərək Ermənistan Respublikasına aparılmışdır. Məscidin daxili və xarici divarları üzərində erməni və rus dillərində Azərbaycan xalqına və millətinə qarşı alçaldıcı və təhqiredici ifadələr və sözlər yazılmışdır. Ermənilər işğal dövründə məscidin ibadət zalından və yardımçı otaqlarından mal-qara və donuzların saxlanması üçün tövlə kimi istifadə etmişlər.

İşğal dövründə ermənilər Ağdamda, xüsusilə də, Şahbulaq qalası ətrafında müxtəlif məqsədlərlə qanunsuz arxeoloji qazıntı işləri aparmaqdan da çəkinməmişlər. Erməni işğalçıları Şahbulaq qalasının daxilindəki məscid, hamam kimi bütün tarixi tikililəri dağıtmışlar. Qarabağ xanı Pənahəli xan tərəfindən 1751-1752-ci illərdə inşa etdirilmiş Şahbulaq qalasını ermənilər kilsə kimi istifadə etmişlər. Xüsusilə də 2005-ci ildən ərazidə qanunsuz qazıntı işləri daha da aktivləşmişdir. Şahbulaq qalasındakı qanunsuz arxeoloji qazıntıların maliyələşdirilməsi Ermənistan hökuməti ilə birlikdə İrəvandakı müxtəlif ictimai təşkilatlar tərəfindən həyata keçirilmişdir. Lakin "bərpa" adı altında aparılan bütün bu saxtalaşdırmalara baxmayaraq, Şahbulaq qalası özünün əvvəlki interyerini qoruyub saxlamışdır.

## Ağdam rayonunun alban abidələri

Ağdam rayonunun ərazisi tarixi Qafqaz Albaniyasının mərkəzi əyalətlərini əhatə etmişdir. Alban kilsəsinin Partav arxiyeparxiyası, həmçinin Böyük Kuank yeparxiyası bu ərazilərdə yerləşmişdir. Ağdam rayonunun Kəngərli, Sofulu, Ballıqaya, Maqsudlu, Salahlı kəndləri, xüsusilə də Şahbulaq kəndi ərazisi qədim alban məbədləri ilə zəngin olmuşdur. Ağdam bölgəsində Qarqarçayın sağ sahilində, Şahbulaq kəndi yaxınlığında alban çarı III Vaçaqanın xatirəsinə ucaldılmış Vəngəsər (V-VIIəsrlər) monastırı olmuşdur. Beşikdağın zirvəsində yerləşən bu qədim alban məbədi xalq arasında dağın adı ilə Beşikdağ məbədi kimi də tanınır. Beşikdağ monastırı (V-VIIəsrlər) Böyük Kuank yeparxiyasının baş məbədi olmuşdur. Hələ XIX əsrdə Barxudaryan Şahbulaq ərazisində keçmişdə alban yepiskopluğu və qədim kilsə olması barədə məlumat vermişdir (Бархударян, 1895, s.33).

Şahbulaq qalasının ətrafı qədim Alban məbədləri ilə zəngin bir bölgə olmuşdur. Barxudaryan Tərtərin sol sahilində Bərdə yaxınlında Həsən qaya kəndində də qədim kilsə olduğundan bəhs edir (Бархударян, 1895, s.33).

Ağdam ərazisində mövcud olmuş digər qədim alban məbədi Gavurqala bazilikasıdır (VI əsr). Partav yeparxiyasının ərazisində mövcud olmuş Gavurqala bazilikasının qalıqları Ağdamın Sofulu kəndi ərazisindəki Gavurqala şəhər yeri XX əsrin 60-cı illərində Azərbaycan arxeoloqlarının apardığı qazıntılar zamanı aşkar edilmişdir.

Ağdam rayonu ərazisində mövcud olan alban monastırlarından biri də Ballıqaya kəndində yerləşən Kiçan monastırıdır.

Ağdam rayonunun Ermənistan Respublikası tərəfindən 30 illik işğalı və təcavüzü dövründə Qafqaz Albaniyasının çoxəsrlik tarixinin arxeoloji, memarlıq və mədəni əhəmiyyətə malik olan zəngin xəzinəsinin böyük bir hissəsi tamamilə məhv edilmişdir. İşğal illərində İslam abidələrinin məhv edilməsilə yanaşı alban xristian abidələrinin saxtalaşdıraraq erməniləşdirilməsi siyasəti aparılmışdır. XIX əsrdən bəri alban abidələrini qriqoryanlaşdırmağı qarşılarına məqsəd qoymuş ermənilər, xüsusilə 1993-2020-ci illər ərzində Ermənistan Respublikası tərəfindən Ağdamın işğal edildiyi dövrdə rayonun ərazisindəki alban abidələrinin böyük əksəriyyətini tamamilə məhv etmiş, bir qismini isə falsifikasiyaya uğradaraq erməni kilsəsi kimi təqdim etmişlər. Azərbaycan xalqının maddi mənəvi yadigarlarına qarşı belə münasibət məqsənyönlü mədəni soyqırım siyasəti idi.

Alban məbədləri Azərbaycanın mədəni irsidir. Mədəni irs xalqın milli mədəni və tarixi sərvətidir. Mədəni irs və ona münasibət müasir dünyanın sivil cəmiyyətinin göstəricisi kimi çıxış edir. Bir xalqın mədəni irsinin digər xalq tərəfindən dağıdılması, məhv edilməsi kimi hərəkətlər beynəlxalq qanunlar və konvensiyalara görə yolverilməz hesab edilir. 30 il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində, həmçinin Ağdam rayonunda Qafqaz Albaniyasının çoxəsrlik tarixinin ən zəngin xəzinəsi məhv edilmişdir. Azərbaycan xalqının tarixi yadigarı olan alban abidələrindəki albanlara məxsus olan bütün nişanələri dağıdılmış, yüzlərlə bədii daş nümunələri işğal ərazilərindən götürülərək Ermənistana daşınmışdır. Qarabağ ərazisində yüzlərlə xristianlığa qədər və xristianlıq dövrü alban abidələri məhv edilmiş, üzərindəki divar yazıları götürülərək erməni mətnləri ilə əvəzlənmişdir. Qafqaz Albaniyası dövrünə aid sövmə, bazilika və digər yüzlərlə memarlıq abidələrinə erməni kilsəsi statusu verilmişdir.

### Rayon ərazisindəki alban abidələrinin siyahısı

- Məbəd (VI əsr), Kəngərli kəndi
- Gavurqala (VI əsr), Sofulu kəndi
- Beşikdağ / Vəngəsər monastırı (V əsr), Şahbulaq kəndi
- Kiçan monastırı (XII əsr), Ballıqaya kəndi
- Məbəd (XV əsr), Maqsudlu kəndi
- Məbəd (XVI əsr), Salahlı-Kəngərli kəndi

## GAVURQALA KİLSƏSİ (VI əsr), Sofulu kəndi



*Gavurqala (VI əsr), Sofulu kəndi*

Gavurqala kilsəsi Ağdam rayonunun Sofulu kəndində yerləşir. Bu qədim alban kilsəsinin qalıqları kənd ərazisindəki Gavurqala şəhər xarabalığında aparılan qazıntılar zamanı aşkar edilib. Gavurqala kilsəsi Sofulu kəndində 1958-ci ildə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmışdır (Ваидов, 1965, s. 168-178). Gavurqala bazilikası Partav/Bərdə yeparxiyasının ərazisində yerləşirdi. Yeparxiyanın yerləşdiyi Bərdə şəhərinin V əsrdə alban hökmdarı II Vaçe tərəfindən əsası qoyulmuşdu və Sasani şahı Perozun şərəfinə Perozabad (Partav/Bərdə) adlandırılmışdı.

Gavurqala bazilikası VI əsrə aid edilən alban memarlıq abidəsidir. Tikilinin memarlıq-kompozisiya xüsusiyyətləri Gavurqala kilsəsinin ərəb işğallarından əvvəlki dövrlərdə, təxminən VI əsrdə inşa edildiyi qənaəti yaratmışdır (Мамедова, 2004, s. 38).

Binanın divarları Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan üsulla, iki daş sırasının aralarının əhəng məhlulu ilə doldurulması vasitəsiylə inşa edilmişdir. Bu cür divar inşa etmək təcrübəsi alban memarlarına qədim dövrdən bəlli idi. Azərbaycan ərazisində bu cür hörgüyə hələ e.ə. II minillikdə – II Kültəpə ərazisində rast gəlinir. Gavurqaladakı tikilinin əsas fərqi istifadə edilmiş daşların yaxşı yonulmuş olmasıdır (Мамедова, 2004, s38). Gavurqala bazilikasının dam örtüyü saxlanmasa da, arxeoloji tədqiqatlar zamanı aşkarlanmış konstruksiya qalıqları qapıların tağvari tamamlanmasını və binanın iki qatlı tağvari örtüyə malik olduğunu söyləməyə imkan vermişdir.



*Gavurqala kilsəsinin planı*

## BEŞİKDAĞ / VƏNGƏSƏR MONASTIRI (V əsr)



*Beşikdağ / Vəngəsər monastırı (V əsr), Şahbulaq kəndi*



Beşikdağ kilsəsi V-VII əsrlərə aid edilən alban bazilikasıdır. Bu qədim alban məbədi ilə bağlı Makar Barxudaryan yazır ki, kilsə Arşakilər sülaləsindən olan Qafqaz Albaniyası hökmdarı II Vaçe tərəfindən inşa edilmişdir (Бархударян, II k. s.266) Barxudaryan II Vaçenin zamanında kilsənin yerində elə Beşikdağ hündürlüyündə xaç formalı monastırın olduğunu və onun Vəngəsər adlandığını yazırdı. Müəllif kilsənin adının həm də Beşikdağ adlanması ilə bağlı əfsanədən də bəhs edir (Бархударян, II k. s.400-404). Xalq arasında gəzən rəvayətlərə görə, dağın başındakı qədim monastırda sonsuz bir qadın dua edərək övlad sahibi ola bilmişdi. Əfsanəyə görə, qadın doğulan körpəsini ərəb istilaçılarından qorumaq üçün monastıra sığınaraq körpəsini buradakı daş beşikdə böyütmüşdü. Xalq arasındakı inanca gorə, o zamandan bu dağ Beşikdağ adlanmağa başlamışdı. Barxudaryanın veriyi məlumata görə, dağın və buradakı monastırın Beşikdağ adlanması bu qədim rəvayətdən qaynaqlanır (Бархударян, 1895, s.400-404).

Buna görə də, əsrlərdən bəri Beşikdağ xalq arasında, xüsusilə də sönsuzluğa qarşı, pir kimi ziyarət edilən məbəd olmuşdur. Bu qədim məbədə gələn sonsuz qadınlar Beşikdağdan övlad diləyərmişlər. Xalq arasında gəzən əfsanəyə görə, bu dağı və buradakı körpələri ilanlar qoruyardı. Yampolski Beşikdağ ərazisində həqiqətən cox ilan olduğunu yazır (Ямпольский, 1962, s.201). İlk dəfə Yampolski Beşikdağ monastırını erkən orta əsrlərə aid digər alban kilsələri ilə müqayisə edərək onun alban kilsəsi olduğu qənaətinə gəlmişdir (Ямпольский, 1960, s.246–250). XX əsrin 60-cı illərində Beşikdağ abidəsi Azərbaycan arxeoloqları tərəfindən də tədqiq edilmişdir (Геюшев, Ваидов, Гулиев, 1973, s.41–42.)

Beşikdağ abidəsi VIII-X əsr alban memarlığındakı dini tikililər üçün səciyyəvi olan formada inşa edilmiş günbəzli kilsə olub, erkən orta əsrlərə aid edilir. Kiçik ölçülərinə baxmayaraq monastır hündür divarlara malikdir. Onun divarları yonulmuş boz əhəng daşlarından hörülmüşdür.

Beşikdağ abidəsi memarlıq baxımından Gədəbəy kilsəsi kimi xaç-günbəz formalı plana malikdir. Xaçın dörd kvadrat formalı tərəflərindən üçü daxildə yarımdairəvi formaya malikdir. Şərq-qərb oxu 10, şimal-qərb oxu isə 9.15 metr uzunluğa malikdir. Qərb divarı istisna olmaqla (burada hündür pəncərə yerləşir) xaçın digər üç qolunda giriş qapıları yerləşir. Düzbucaqlı formaya malik qapı yerləri anker daşlarla işlənməklə divarla eyni hündürlüyə malikdir və onun pyedestalının bir hissəsi kimi qəbul edilir. Bütün bina yonulmuş əhəng daşından hazırlanmış bir pilləkənli plint üzərində inşa edilmişdir (Мамедова, 2004, s.80). Xaçın günbəzini saxlayan dörd pilon divarlara birləşir. Onlar tağlarla birləşərək model zalın mərkəzi hissəsində günbəzaltı kvadrat formalaşdırır. Həmin kvadrat üzərində kirəmit damlı qübbə ucalır.

İşğal altında olduğu 1993-2020-ci illər boyu Beşikdağ monastırı erməni kilsəsi kimi təqdim olunmaqda idi.



*İşğal altında olduğu 1993-2020-ci illər boyu Beşikdağ monastırı erməni kilsəsi kimi təqdim olunmuşdur.*





## KİÇAN MONASTIRI (XII əsr), Ballıqaya kəndi

Kiçan monastırı Ağdam rayonunun Sırxavənd kənd inzibati ərazisinə daxil olan Ballıqaya kəndində yerləşir. 1992-ci ilədək Ağdərə rayonunun tərkibində olmuşdur. Ağdərə rayonunun ləğvindən sonra Ağdam rayonuna aid edilən Kiçan kəndi 29 dekabr 1992-ci ildən Ballıqaya adlandırılmışdır.

Kəndin ərazisindəki bu tarixi monastır kompleksi XII əsrə aid edilir. Monastır ərazisində aşkarlanmış ən qədim kitabə 1191-ci ilə aiddir. Kitabə kilsə ərazisindəki xaçdaşların birinin üzərindədir. Bütövlükdə Kiçan monastırından 10 kitabə aşkar edilmişdir. Abidə üzərindəki kitabələrin birində monastırın XVIII əsrin ortalarında bərpa edildiyi məlum olur.

Kiçan monastırı inşa texnikası, nalvari apsidaları kimi bir sıra digər xüsusiyyətlərinə görə V-VII əsrlər Qafqaz Albaniyası kilsələrinin xüsusiyyətlərini daşıyır. Kiçan monastır kompleksinin memarlıq xüsusiyyətlərini tədqiq etmiş memarlıq doktoru, professor Gülçöhrə Məmmədova qeyd edir ki, cənub və şimaldan əsas kilsə binasına yan otaqlar əlavə edilmiş tağtavanlı zal kilsələri sırf Qafqaz Albaniyası memarlığı üçün xarakterik olub, qonşu xalqların memarlığında analoqa malik deyildir (Мамедова, 2004, s.88). Kiçan monastırının baş kilsəsini digər alban kilsələrindən fərqləndirən əsas cəhət odur ki, abidənin yan otaqlarının əsas kilsə həcminə birləşdirilməsi sayəsində kilsə binası xaçvari forma almışdır. Kompozisiyanın mürəkkəbləşdirilməsi, yeni otaqların əlavə edilməsi və memarlıq elementlərinin artırılması IX-XI əsrlər xristian memarlığının ümumi inkişaf prinsiplərinə uyğundur (Мамедова, 2004, s.88-89). Belə ki, Ərəb xilafətinin zəifləməsilə IX əsrdən etibarən dağılmış və zədələnmiş erkən orta əsr kilsələrinin bərpası və genişləndirilməsi prosesi vüsət almışdır. Bu məqsədlə kiçik zal kilsələrinin həcminin böyüdülməsi üçün onlara tikilinin eni boyunca düzbucaqlı formalı yan otaqlar əlavə edilməyə başlanmışdır.



*Kiçan monastırı yaxınlığındakı qədim qəbir daşları.*
*Monastırın yerləşdiyi təpənin qərb ətəyində orta əsrlərə aid Ballıqaya kəndi.*

Kiçan monastır kompleksi Qax rayonunun Güllük və Zaqatala rayonunun Mamrux kəndləri yaxınlığında Armatay dağının zirvəsində inşa olunmuş qədim alban kilsəsi Mamrux kilsəsi memarlığını xatırladır. Mamrux kilsəsinin memarı da Kiçan monastırının başkilsəsinin memarı kimi yan otaqlar və yan keçidlərin portalları arasında iki kiçik otaq inşa etməklə kilsə üçün ayrılmış ərazinin daha səmərəli istifadəsinə nail olmuşdur. Qafqaz Albaniyasında bu memarlıq formasının yaranması və inkişafı, erkən orta əsrlər dövründən birnefli zal kilsələrinin bütün ölkə ərazisində geniş yayılması, sonradan ölkədə xristianlığın tələblərinin dəyişməsinə uyğun olaraq kilsələrin də yeni dini tələblərə uyğunlaşdırılması ilə əlaqədardır (Мамедова, 2004, s.89).

Kiçan monastır kompleksinə iki kilsə, böyük yemək zalı, narteks, rahib hücrələri və böyük qəbristanlıq daxildir. Kiçan monastır kompleksinin ən əhəmiyyətli tikilisi olan başkilsə tağtavanlı örtük və nalvari formalı apsidaya malikdir. Monastır kompleksində şimal-şərq tərəfdən kilsəyə birləşən iki uzadılmış yan otaqlar da oxşar formalı apsida ilə təmin olunmuşdur. Yan otaqlar kiçik qapı vasitəsiylə narteksin şərq hissəsi ilə əlaqələndirilmişdir. Narteksin bu hissəsi böyük tağlı divar vasitəsilə digər hissədən ayrılmışdır. Qərb tərəfdən kilsə binasına bitişik narteks inşa edilmişdir. Narteks və kilsə arasındakı boşluğu memar daha iki kiçik otağın yaradılması üçün istifadə etmişdir.

Kilsə binasının divarları kobud işlənmiş yerli daşlardan hörülmüş və daxildən əhəng məhlulu ilə suvanmışdır. Kilsənin içəri divarlarında yeddi niş vardır. Kilsənin maraqlı memarlq xüsusiyyətlərindən biri də, altarın tağa keçid hissəsinin yarımqalxanvari formada olmasıdır. Monastır kompleksinə daxil olan ikinci kilsə binası kompleksin cənub tərəfində yerləşir. Tağtavanlı zal kilsəsi quruluşuna malik olan bu abidə üzərindəki kitabədən onun XVIII əsrin ortalarında bərpa edildiyi məlum olur. Kilsənin şimal divarına kiçik əlavə otaq inşa edilmişdir. Yaxşı yonulmuş daş bloklardan hörülmüş dayaq tağları istisna olmaqla, kilsənin bütün divarlarının inşasında kobud çaydaşlarından istifadə edilmişdir. Kilsə girişində timpan yerinə XII-XIII əsrlər üçün xarakterik dekora malik xaçdaşından istifadə edilmişdir. Kompleksin cənub küncündə 7.6 x 4.9 metr ölçüyə malik yemək zalı yerləşir. Zal tağtavana və divarlarında çoxlu nişlərə malikdir. Yemək zalının yanında sıra ilə rahib hücrələri düzülmüşdür. Monastırın yerləşdiyi təpənin qərb ətəyində orta əsrlərə aid böyük xristian qəbirstanlığı vardır.



*Kiçan monastırı yaxınlığındakı qədim başdaşı*



*Kiçan monastırının planı*



# XOCALI
## RAYONU

Azərbaycanın Xocalı rayonu Xankəndindən 10 kilometrlik məsafədə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının üzərində yerləşir. Rayon 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonu bazasında yaradılmışdır. 1992-ci ildə Xocalı rayonu erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Hazırda İkinci Qarabağ müharibəsi nəticəsində imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən, Xocalı müvəqqəti olaraq Rusiya Sülhməramlılarının nəzarəti altındadır.

Qarabağ müharibəsi dövründə erməni silahlıları tərəfindən Xocalı əhalisinə qarşı Azərbaycan xalqının XX əsrdə üzləşdiyi ən dəhşətli faciələrdən biri, Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə qara ləkə kimi düşmüş qanlı Xocalı soyqırımı aktı törədilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri tərəfindən Sovet ordusunun Xankəndində yerləşən hərbi birləşməsi 366-cı alayın hərbi texnikasının dəstəyilə mühasirəyə alınmış Xocalı əhalisinə qarşı amansızlıqla divan tutulmuşdur. Xocalını hər tərəfdən mühasirəyə alan erməni dəstələri dinc əhalini xüsusi qəddarlıqla məhv etmişlər.

Azərbaycan xalqı Qarabağ münaqişəsinin ən dəhşətli, qanlı faciəsi olan Xocalı soyqırımının qurbanlarının xatirəsini hər il yad edir. 2020-ci ildə Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Qarabağ işğaldan azad edildikdən sonra, Xocalı soyqırımının qurbanları ilk dəfə Qarabağda yad edildi. Laçın rayonunda yerləşən qədim alban məbədi Ağoğlan monastırında Xocalı qurbanlarının anım mərasimi keçirildi. Alban Udi xristian icmasının üzvləri Xocalı qurbanlarının ruhuna qədim alban məbədində şam yandıraraq şəhidlərin ruhuna dualar oxudular.

Tarix və mədəniyyət abidələri ilə zəngin Xocalı ərazisindən e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy arxeoloji mədəniyyət nümunələri,



son tunc və erkən dəmir dövrünə aid daş qutu qəbirləri, kurqanlar və nekropollar, Assuriya hökmdarı Adadnerarinin (e.ə. 807-788-ci illər) adı yazılmış muncuq kimi qiymətli tapıntılar aşkar edilmişdir. XIX əsrdən etibarən bu ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı son tunc və ilk dəmir dövrünə (e.ə.VIII-VII əsrlər) aid mədəniyyət nümunələri tapılmışdır. Xocalı kurqanlarından müxtəlif tipli saxsı qablar, silahlar (qılınc, xəncər, nizə və ox ucluğu, balta-təbərzin), qızıl, tunc, balıqqulağı, əqiq, şüşə, pasta və s.-dən hazırlanan bəzək əşyaları, tunc əmək alətləri və at əsləhələri və s. bu kimi qiymətli nümunələr üzə çıxarılmışıdır.

Xocalı ərazisi dini-tarixi memarlıq abidələri ilə də zəngin olmuşdur. Burada çoxlu sayda üzərində qoç və yəhər şəkilli qəbir daşları, XIV – XVIII əsrlərə aid türbələr, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilmiş Əsgəran qalası, “Seyid Cəlalın ocağı”, “Seyid qəbri”, “Cahan nənənin ocağı” kimi yüzlərlə müqəddəs ziyarətğahlar, tarixi memarlıq abidələri olmuşdur. Əsgəran qalasının adı qədim Albaniyanın izlərini daşıyır və Əski Aran söz birləşməsi olaraq “Qədim Aran” mənasını ifadə edir. Qarqar cayının sağ və sol sahillərində yerləşən Əsgəran qalası iki istehkamdan ibarətdir. Sağ sahildəki qala bürcü ikiqat daş divarlardan ibarətdir. Sol sahildəki qala dördkünc bürclüdür. Divarların qalınlığı 2-3 m-dir.

1992-ci ildə  Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Xocalı rayonunun bütün tarixi, mədəni, dini abidələri, şəhər və kəndləri dağıdılmış, yerlə yeksan edilmişdir. Xocalı şəhərinin ən qədim tarixi abidələri, Kərkicahan, Kosalar, Cəmilli, Meşəli kimi kəndlərindəki qəbiristanlıqlar, müqəddəs ziyarətgahlar və bir çox dini abidələr yox edilmişdir. Təkcə Kərkicahan qəsəbəsində 3 qəbristanlıq yeri tamamilə şumlanmışdır. Rayonun XIV əsrə aid qəbirlər olan qədim müsəlman qəbristanlığı, çoxlu sayda Qoç daşları, “Məhəmməd ağanın ocağı”, “Darılı Piri”, “Ələm ağacı”(Kosalar kəndi), “Seyid qəbri” (Meşəli kəndi), Seyid Cəlalın ocağı, Cahan nənənin ocağı kimi xalq ziyarətğahları, Hacı Əli günbəzi (XIV əsr), dairəvi türbə (1356), Əsgəran qalası(XVIII əsr) kimi tarixi-memarlıq abidələri 30 illik işğal dövründə ciddi zərər görərək böyük əksəriyyəti tamamilə darmadağın edilmişdir.

## Xocalı rayonunun alban abidələri

Qarabağın digər bölgələri kimi Xocalı rayonu da alban memarlığına aid zəngin ərazilərdən olmuşdur. Rayonun Şuşakənd, Çanaqçı, Xansıx,



*Müqəddəs Xilaskar monastırı (XIII əsr), Badara kəndi*

Xaçmaz, Badara, Dağyurd, Xanabad, Kərkicahan kimi onlarla kəndində bir çox qədim alban məbədləri mövcuddur. Kəndlərin bir çoxunda bəzən iki və daha artıq alban məbədi olmuşdur. Rayonun elə tək Meşəli kəndində 5 alban məbədi olmuşdur. İşğala qədər kəndin ərazisində Yeddi kilsə, Durpasu kilsəsi, Börgün qayasında olan kilsə, xalq arasında "Balaca suda olan kilsə", "Əvəz yurdunda olan kilsə" kimi alban məbədləri mövcud olmuşdur.

Çanaqçı kəndində də X-XI əsrlərə aid edilən iki alban məbədi mövcud idi. Xocalı şəhərində 1356-1357-ci illərə aid edilən dairəvi məbəd, Kərkicahan, Ulubab, Pircamal kəndlərində qədim alban məbədləri qeydə alınmışdı.

Xocalı rayonu Xaçmaz kəndində inşa tarixi 1100-cü il ilə aid, Xansıx kəndində1122-ci ilə aid, Armudlu kəndində 1202-ci ildə aid, Şuşa kəndində 905-ci il ilə aid, Badara kəndində VII əsrə aid Məbəd kompleksi, Xanabad kəndində XIII əsrə aid alban məbədi kimi alban memarlığına aid abidələrlə zəngin ərazilərdən olmuşdur.

**Rayon ərazisindəki alban abidələrinin siyahısı**

- Alban məbədı (905-cı ıl), Şuşakənd kəndi
- Alban məbədi (1065-ci il), Çanaqçı kəndi
- Alban məbədi (1100-cü il), Çanaqçı kəndi
- Alban məbədi (1122-ci il), Xansıx kəndi
- Alban monastırı (XII əsr), Xaçmaz kəndi
- Alban məbədi (XVII əsr), Xaçmaz kəndi
- Oçkavəng monastırı (XII əsr), Badara kəndi
- Alban məbəd kompleksi (XII əsr), Badara kəndi
- Xilaskar monastırı (XIII əsr), Badara kəndi
- Bağırxan məbəd kompleksi/Bövürxanavəng (XII əsr), Dağdağan kəndi
- Müqəddəs Georgi monastır kompleksi (XIII əsr), Xanabad kəndi
- Alban məbədi (XIII əsr), Dağyurd kəndi
- Alban məbədi (1202-ci il), Armudlu kəndi
- Dairəvi məbəd (1356-1357), Xocalı şəhəri
- Qədim Alban kilsəsinin qalıqları, Kərkiçahan qəsəbəsi
- Yeddi kilsə, Meşəli kəndi
- Durpasu kilsəsi, Meşəli kəndi
- Balaca suda olan kilsə, Meşəli kəndi
- Börgün qayasında kilsə, Meşəli kəndi
- Əvəz yurdunda olan kilsə, Meşəli kəndi
- Məbəd, Ballıca kəndi



*Alban məbədinin qalıqları, Şuşakənd*

## ALBAN MƏBƏDI (905-ci il), Şuşakənd kəndi

Xocalı rayonunun Şuşakənd ərazisində 905-ci ilə aid edilən qədim alban məbədi mövcud olmuşdur. XIX əsr müəllifi Makar Barxudaryan Qarqar çayının sol sahilində, Şuşakənddə yerləşən bu qədim məbəd haqda məlumat verimişdir. Müəllif yazır ki, Şuşakənddəki Müqəddəs Stepannos kilsəsinin qapısının divarında yazılı kitabə vardır. İnşaat kitabəsində kilsənin Alban patriarxlığının bütün ölənlərinin ruhunun xatirəsinə ucaldıldığı qeyd olunub (Бархударян, 1895, s.120). Vadinin digər tərəfində qədim alban kilsəsindəki xaşdaşında XV əsrə aid kitabə də aşkar edilib. Kitabədə

bu xaçdaşın kilsənin Qoç adlı rahibinin öz anası Əzizənin şərəfinə uçaltdığı yazır (Бархударян, 1895, s.120). Göründüyü kimi, Xaçın hakimlərinin və onların ailə üzvləri ilə yanaşı Xaçının xristian əhalisinin, hətta rahiblərin də adlarının türkmənşəli olması Qarabağın bütün alban məbədlərindəki qeydə alınmış kitabələrdə oz əksini tapmışdır. Bu, Qarabağın alban-türk tarixinin dərin köklərinə dayandığını təsdiq edən mühüm faktlardandır.

10 noyabr 2020-ci il tarixdə imzalanmış atəşkəsə əsasən Xocalı rayonu müvəqqəti olaraq Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə verildiyi üçün bu qədim alban məbədinin 30 illik işğal dövründəki aqibəti məlum deyil.

## ALBAN MƏBƏDİ (1065-ci il), Çanaqçı kəndi

Çanaqçı kəndindən azərbaycanlılar erməni separatçıları tərəfindən hələ 1989-cu ildən qovulmuşdular. Çanaqçı 1992-ci ildən 2020-ci ilə qədər Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olmuş, 2020-ci il noyabr ayının 9-u Azərbaycan Silahlı Qüvələri tərəfindən azad edilmişdir.

Çanaqçı kəndi tarixən Qarabağın beş alban məlikliyindən biri olan Vərəndə məlikliyinin mərkəzi olmuşdur. Çanaqçı kəndində iki alban məbədi mövcud olmuşdur. Barxudaryanın verdiyi məlumatdan aydın olur ki, Vərəndə məlikləri Çanaqçı kəndindəki qədim alban məbədinin yerində Məlik-Şahnəzər nəslinin sərdabələri olan monastır tikdirmişlər. Müəllif yazır ki, Çanaqçı kəndindən olan Vərəndə məliyi Məlik Şahnəzərin oğlu burada kilsə inşa etdirmişdir (Бархударян, 1895, s.109).

Çanaqçı kəndinin cənub-qərbində, sıldırım qayalıq ərazidə yerləşən Bakirə Məryəm kilsəsi tarixi-memarlıq abidəsi olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Vaxtilə qərb tərəfdən abidəni əhatə edən qala divarlarının dövrümüzə yalnız divar və qüllə xarabalıqları qalmışdır.

Məbədin inşa tarixi 1065-ci ilə aid edilsə də, kilsənin yerində V-VII əsrlərə aid bazilika formalı qədim tikili olduğu müəyyən edilmişdir. Bakirə Məryəm kilsəsinin giriş portalının tağında yazılmış daş kitabədən bu qədim kilsənin fundamenti üzərində XVII, XVIII əsrlərdə də yeni kilsə inşa edildiyi məlum olur. Yeni kilsənin inşasında qədim tikili qalıqlarından geniş istifadə edilmişdir. Kilsənin divar hörgüsündə qədim tikilinin memarlıq elementləri ilə yanaşı qədim məzar daşlarından da istifadə olunmuşdur.

Qədim kompleksin yerində tikilmiş kilsənin uzunluğu 11 metr, eni 9 metr və hündürlüyü 7 metrdir. Planda xaçvari formaya malik olan kilsə 11 metr uzunluğa, 9 metr enə və 7 metr hündürlüyə malikdir. İbadət otağında zalın tağtavanı gözəl pilonlar, tağlar üzərində dayanır. Kilsənin qərb tərəfində giriş qapısı vardır. Cənub divarında iki, şərq divarında isə üç pəncərə yeri vardır. Kilsənin narteksi planda kvadrat formaya malik olmaqla, 6 metr uzunluğa və 9 metr enə malik tağtavanlı tikilidir. Kilsənin narteksi Məlik Şahnəzər sülaləsinin ailə məqbərəsi kimi istifadə olunmuşdur.



*Çanaqçı Alban məbədi (1065-ci il)*

Burada həmin sülalədən Mirzə, Hüseyn kimi alban məlikləri və onların həyat yoldaşlarının da məzarları var.

Bu qədim alban məbədi əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud yonulmuş yerli qaya daşından tikilmişdir. Kilsənin interyeri də müxtəlif ölçülü çoxaylı xaçdaşları ilə zəngin olmuşdur. Tikilinin cənub fasadını bəzəyən 2x1 metr ölçülərə malik üç qədim xaçdaş dövrümüzə ciddi zədələr və dağıntılar alaraq çatmışdır. Təəssüflər olsun ki, ermənilər bu zəngin ornamentli xaç daşlarının üzərində olan yazıları silmişlər. Bu xaç daşlar özündə qədim Alban tarixinin izlərini saxlamaqda idi. Bu gün ermənilər tərəfindən kilsənin bütün qədim yazıları tamamilə silinərək yeniləri əlavə edilmişdir.

## ALBAN MƏBƏDİ (1100-cü il), Çanaqçı kəndi

Canaqçı kəndindəki digər alban kilsəsi kəndin mərkəzində yerləşir. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Kilsənin XII əsrə aid olduğu müəyyən edilmişdir.

IX əsrdən etibarən Ərəb xilafətinin zəifləməsilə dağılmış və zədələnmiş erkən orta əsr kilsələrinin bərpası və genişləndirilməsi ilə yanaşı yeni, daha tutumlu kilsə tikintisinə də başlanmışdı. Bu dövrdə xristianlığın geniş yayılması ilə məbədlərin tutumunun artırılmasına da ehtiyac yarandığı üçün Qafqaz Albaniyası ərazilərində xristian albanlar Çanaqçı kəndindəki kilsə kimi yeni tipli dini binalar tikmişlər.



*Alban məbədi (1202-ci il), Armudlu kəndi.*
*İşğal dövründə qanunsuz təmirə məruz qalmışıdr.*

Canaqçı kəndindəki Tanrı anası kilsəsi düzbucaqlı formaya malik üçnefli bazilikadır. Qafqaz Albaniyası ərazisində bu cür məbədlərin inşası uzun müddət davam etmiş, üç nefli bazilikalar günbəzli məbədlərlə yanaşı son orta əsrlərə kimi varlığını davam etdirmişdir (Мамедова, 2004, s.50).

Kilsədə qədim əlyazmalar, perqamentlərdə yazılmış İncil nüsxələri, dəyərli relikviyalar və 1600-cü illərə aid zəngin bədii ornamentli xaçdaşlar mövcud olmuşdur. Kilsədə XIX əsrədək qorunub saxlanılmış İncilin xatirə yazılarında Alban patriarxı Petrosun (1653-1675) dini fəaliyyət illəri haqda məlumat verilirdi (Бархударян, I, с.89).

Makar Barxudaryanın 1895-ci ildə Bakıda nəşr olunmuş "Arsax" kitabında XIX əsrin sonunda Qarabağdakı alban kilsələrində qorunan İncil kitabları və oradakı xatirə qeydləri haqqında zəngin məlumatlar var. Barxudaryanın əsərindən məlum olur ki, Alban kilsələrindəki İncil nüsxələri Qarabağın yalnız bəzi bölgələrində, ayrı -ayrı kilsələrdə tək-tük qalmışdır. Alban katolikosluğunun fəaliyyəti haqda qiymətli məlumatlar verən Alban İncillərindəki xatirə qeydləri sayəsində XVI-XVIII əsrlərdə Alban Apostol kilsəsinin başında duran alban katolikoslarının fəaliyyətləri və adları haqda məlumat almaq mümkündür.

XIX əsrdə içərisində xatirə qeydləri yazılmış Alban İncili nüsxəsinin qaldığı belə nadir kilsələrdən biri də Çanaqçı kilsəsi idi. Kilsədəki İncilin ilk və son səhifələrində qeyd edilmiş xatirə yazılarında Alban patriarxı Petrosun (1653-1675) dini fəaliyyət illəri haqda məlumat olmuşdur

(Бархударян, I, c.89). Göründüyü kimi, alban İncilləri yalnız dini rituallar üçün deyil, həm də Alban din xadimləri tərəfindən tərtib edilən bir növ tarixi salnamə kimi də istifadə olunurdu. Bu xatirə qeydləri alban xristian əhalinin hansı yaşayış məntəqələrində və necə yaşadığı haqqında, onların siyasi və iqtisadi vəziyyəti, Alban yeparxiyası haqqında məlumat verən qiymətli qaynaq idi.

Alban İncillərindəki xatirə yazıları sayəsində alban katolikoslarının fəaliyyətinin XVIII əsrə qədər davam etdiyini izləmək mümkün idi. Ona görə də XIX əsrdə erməni kilsəsi səylə üzərində xatirə yazıları olan bütün Alban İncillərini məhv etməkdə idi. Cox təəsüf ki, XIX əsrədək Çanaqçı kilsəsində qorunub saxlanılan bu nüsxə də məhv edilmişdir.

## ALBAN MONASTIRI (XII əsr), Xaçmaz kəndi

Monastır Xaçmaz kəndinin yaxınlığındakı yüksək dağın zirvəsində yerləşir. Monastırının yerləşdiyi ərazidən Amaras monastırına və Füzili ərazisinə geniş mənzərə açılır. Monastır erkən orta əsrlərə aid qədim məbədin yerində inşa edilmişdir.

Bu tarixi memarlıq abidəsi barədə XIX əsrdə Barxudaryan məlumat vermişdir. Müəllif Xaçmaz kəndi yaxınlığında dağın başında inşa olunmuş Şoşka monastırından bəhs edir, bu monastırın daha qədim dövrə aid olduğunu və müxtəlif dövrlərdə bərpa edildiyini yazır. Barxudaryan yazır ki, kilsənin bünövrəsindən onun daha qədim dövrə aid olduğu anlaşılır. Sonrakı əsrlərdə monastır ciddi dağıntılara məruz qalsa da, XVII əsrdə yenidən inşa edilmişdir. Kilsənin divar hörgüsündə əvvəlki tikiliyə aid çoxlu sayda daşlar və qədim xaçdaşlardan istifadə olunmuşdur.

Müxtəlif tarixi dövrlərdə bərpa edilmiş abidənin inşasında yonulmamış ağ daşlardan istifadə edilmişdir. Birnefli bazilika formasına malik olan kilsə planda düzbucaqlı formadadır. İbadət zalının şərq hissəsində altar apsidası yerləşir. Zalın tağtavanı qoşa pilonlar üzərində dayanır. Kilsədə xaç təsvirləri ilə bəzədilmiş altar var. Kilsə üç pəncərə və dövrümüzə çatmamış qərb tərəfdən narteksə açılan qapıya malikdir. Uzunluğu 9 m 18 sm, eni 6 m 25 sm olan monastırın bir altarı, 3 pəncərəsi, 1 qapısı olduğu barədə məlumat verən Barxudaryan kilsədəki taxtın müxəlift xaçlarla bəzədildiyini yazır (Бархударян, 1895, s.93). Pəncərə və qapı yerləri, tağlar və pilonların hörgüsündə yaxşı yonulmuş daşlar, digər divar hörgülərində isə kobud daşlardan istifadə edilmişdir. Kilsə ətrafında çoxlu sayda dağılmış tikililərin qalıqları aşkarlanmışdır.

## BAĞIRXAN MƏBƏD KOMPLEKSİ /BOVURXANAVƏNG (XII əsr), Dağdağan kəndi

Bovurxanavəng və ya Bağırxan məbəd kompleksi Xocalı rayonunun Dağdağan kəndi ərazisində yerləşən tarix-memarlıq abidəsidir. XII əsrə aid olan abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir. 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Dağdağan kəndi Rusiya Sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Monastır Bövurxan dağında dəniz səviyyəsindən 1700 metr yüksəklikdə, meşəlik ərazidə yerləşir və adını da dağın adından almışdır. Abidənin adı Bağırxan, Buruxan, Bovurxan kimi səsləndirilir. Monastır qədim, tərk edilmiş tikilinin yerində XVII əsrdə, 1646-cı ildə Vərəndə məlikləri olmuş Məlik Şahnəzər sülaləsinin nümayəndələrindən məlik Bağır (Baqr) tərəfindən yenidən inşa edildiyi üçün onun adı ilə də əlaqələndirilir.



*Bağırxan məbəd kompleksi.*
*Xoçalı rayonunun Dağdağan kəndi*



*Monastırı əhatə edən qala divarları*



*Qala divarlarının qalıqları*

Makar Barxudaryan bu məbədi Boqraxan monastırı adlandırır və monastırın eyniadlı dağın cənub şərqində inşa olundunu yazır (Бархударян, 1895, s.100).

Abidə özünəməxsus original memarlıq quruluşuna malikdir. Bovurxanavəng monastır kompleksi kilsə, bir neçə yaşayış və mülki binadan ibarətdir. Məbəd qala divarları ilə əhatələnmişdir. Bovurxanavəng monastırının qala divarları 40x18.5 metr sahəni əhatə edir. Qalın qala divarları şimal tərəfdə qayalıqlarla əvəzlənir. Monastırın tikililərinin bir çoxu dövrümüzə ya qismən, ya da tamamilə dağılmış vəziyyətdə çatmışdır.

Kompleksin şərq tərəfində yerləşən birnefli bazilika qismən yaxşı qalmışdır. Ölçüləri 9x5.6 metr olan kilsənin tağtavanı yeganə sütunla saxlanılır. Uzunsov ibadət zalının yarımdairəvi altar apsidasına kvadrat formalı iki niş əlavə edilmişdir. Kompleksin qərb tərəfindəki – qala divarları yaxınlığında rahib hücrəsi yerləşir. Tikilinin şərq divarında yerləşən yeganə qapı monastırın həyətinə açılır və onu digər tikililərlə əlaqələndirir. Otağın yeganə pəncərəsi qapı ilə üzbəüz – şərq divarında yerləşir.

Birnefli və tağtavanlı kilsənin inşasında əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yonulmamış kobud daşlardan istifadə edilmişdir. Otağın iç divarlarına bir neçə niş əlavə edilmişdir.

Kompleksi əhatə edən qala divarlarının qərb küncündə böyük dairəvi bürc vardır. Bürcün içində yerləşən oval formalı otaq ilkin görünüşünü saxlamışdır. Diametri 2.4 metr olan otağın divarlarında bir-birindən eyni məsafədə yerləşdirilmiş beş pəncərə vardır. Bu otaq uzun dəhliz vasitəsi ilə ölçüləri 10.6x3.5 metr olan böyük zalla əlaqələndirilmişdir. Zaldan şərqdə divar boyunca eyni ölçü və formalara malik dörd rahib hücrəsi vardır. Tağtavanlı dörd hücrədən ikisi pəncərəsizdir. Makar Barxudaryan monastır ərazisində kitabəli iki xaçdaş gördüyünü yazsa da, həmin daşlar dövrümüzə çatmamışdır (Бархударян, 1895, s.100)

# BADARA MONASTIRI (XII əsr), Badara kəndi



*Badara monastırı (XII-XIII əsrlər), Xocalı*

Qarabağ silsiləsinin ətəyində yerləşən Badara kəndi Qarabağ xanı İbrahim xana məxsus mülklərin siyahısında olmuşdur. 1992-2020-ci illər boyu Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmış Badara kəndi II Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq müvvəqqəti Rusiya Sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Badara kəndi Xocalı rayonunun alban abidələri ilə zəngin ərazilərindəndir. Kənddə 3 alban abidəsi qeydə alınmışdır. Onlardan biri kənd mərkəzindən 7–8 km aralıda – meşəlik ərazidə yerləşən Badara monastırıdır. Abidə Azərbaycan Respublikası Mədəniyyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarixi-memarlıq abidəsi kimi qeydiyyata alınmışdır.

Kompleksin ərazisindən aşkar edlmiş 12 epiqrafik yazı və kitabələrə əsasən monastırın XII-XIII əsrlərdə tikilmiş olması müəyyən edilir. Badara monastırı ərazisində 1156, 1165, 1193, 1216-cı illərə aid xaçdaşlar aşkar edilmişdir. Monastır ərazisindən tapılmış xaçdaşlar süvari rəsmləri həkk olunmuş, bədii ornamentlərlə zəngin kompozisiyaya malikdir. Barxudaryan Badara kəndindəki kilsənin qapısı ağzında qədim qəbir daşı olması barədə məlumat verir (Бархударян, 1895, s.140).

Ümumilikdə monastır kompleksinə on üç dini və mülki tikili daxildir. Həmçinin kompleks ərazisində daha dörd binanın xarabalıqları vardır. Kompleksə daxil olan tikililərin hamısı müəyyən dərəcədə dağılmış vəziyyətdədir. Onların hamısının damları dağılmış, bəzilərinin divarlarında uçuqlar







əmələ gəlmişdir. Binaların hamısı birnefli olmaqla tağtavanla örtülmüşdür. Binaların inşasında kobud yonulmuş daşlardan istifadə edilmişdir.

Monastır kompleksinin diqqət çəkən xüsusiyyətlərindən biri də, düzbucaqlı formaya malik altar apsidalarıdır. Erkən orta əsrlər Qafqaz Albaniyası üçün xarakterik olan bu cür formalı apsidaları Şəki, Zaqatala, Qarabağ və Sünik abidələrində müşahidə etmək olur (Мамедова, 2004, s.68)

1992-2020-ci illər boyu ərazi işğal altında qaldığı dövrdə abidə ermənilər tərəfindən ciddi dağıntılara məruz qalmış, abidənin daxilinə və ətrafına ermənilər tərəfindən xeyli sayda müasir şəraitdə işlənmiş saxta xaçdaşlar basdırılmışdır.

## OÇKAVƏNG MONASTIRI (XII əsr), Badara kəndi

Oçkavəng Badara kəndi ərazisində yerləşən alban memarlığına aid ikinci tarixi-memarlıq abidəsidir. Əlçatmaz dağlıq ərazidə, sıx bitən nadir ağac növləri arasında, mamırlarla örtülü qayalığın zirvəzində yerləşir. Badara monastırından Oçkavəng monastırına meşəlik ərazi ilə təxminən 7-8 km məsafə vardır.

Oçkavəng monastırındakı kitabədən abidənin ən geci XII-XIII əsrlərdə inşa edildiyi məlum olur. Kitabədə Xaçın knyazının xanımı Arzu xatunun adı qeyd olunmuşdur. Oçkavəng monastırının kilsə binasındakı xaçdaşlarda Xaçın knayzlarının adları qeyd olunmuşdur. Kilsədən aşkar edilmiş kitabədəki yazılar silinərək oxunmaz hala salınsa da, burada Xaçın kanyazlarının və Vaxtanqın xanımı Arzu xatunun adının olmasından kitabədəki yazı fraqmentlərinin XII-XIII əsrlərə aid olduğunu müəyyən etmək mümkün olmuşdur.

Monastır kompleksi kilsə binası, bir neçə xaraba vəziyyətdə olan tikili və qədim qəbiristanlıqdan ibarətdir. Tağtavanlı örtüyə malik birnefli bazilika olan kilsə binası daha yaxşı qalmışdır. Kilsənin ibadət zalının şimal tərəfində iki köməkçi otaq yerləşir. Kilsənin giriş qapısı qərb divarında yerləşir. Şərq divarında iki, şimal divarında isə

bir pəncərə yeri vardır. Kilsə divarlarında dörd niş vardır.

Badara kəndinin digər abidələri kimi Oçkavəng monastırının kilsə binası da əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yonulmamış kobud daşlardan inşa edilmişdir.

1992-2020-ci illər boyu Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmış Badara kəndi II Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq müvvəqəti Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçdiyi üçün abidənin son taleyi məlum deyil.

## XİLASKAR MONASTIRI (XIII əsr), Badara kəndi

Xilaskar monastırı Badara kəndinin qərbində yerləşən daha bir tarixi-memarlıq abidəsidir. Kilsənin inşaat kitabəsi ciddi zədələndiyindən onun inşa tarixini müəyyənləşdirmək mümkün olmamışdır. Belə ki, kitabələrdə adətən inşa tarixinin göstərildiyi birinci sətir tamamilə silinmişdir. Lakin kitabədə alban katalikoslarının adlarının çəkilməsi kompleksin qədim dini mərkəz olduğunu sübut edir. Abidənin XIII əsrin II yarısından Xaçın knyazlığının mərkəzi olması ehtimal edilir. Həsən Calalın öldürülməsindən sonra XIII əsrin II yarısında Xaçın knyazlığının mərkəzi Xanabert qalasından bura köçürülmüşdür (Мкртчян, 1989, s.160).

Vaxtilə qədim yaşayış məskəninin əsas məbədi olmuş monastır xarabalıqlar arasında ye-



*Badara, Xilaskar monastırı, XIII əsr*



ganə tikili kimi qalmışdır. Kilsənin ətrafındakı qədim məzarlıqda yüzlərlə xaçdaş vardır. Monastırın başkilsəsi tərəfləri 11.3x9.7 metr ölçülərə malik üçnefli bazilikadır. İbadət zalında altar və altarın ətrafında köməkçi otaqlar var. Kilsənin şərq divarında üçbucaq formalı iki niş var. Cənub və qərb divarlarında giriş qapıları var. Kilsə hörgüsündə əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud yonulmamış daşlardan istifadə edilmişdir.

Badara kəndi II Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 Noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən müvvəqəti olaraq Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçdiyi üçün abidənin son taleyi məlum deyil.

## MÜQƏDDƏS GEORGİ MONASTIRI (XIII əsr), Xanabad kəndi



*Alban kilsəsi (XIII əsr), Xanabad kəndi*

Xoçalı rayonu Xanabad kəndi ərazisində yerləşən Müqəddəs Georgi monastırı tarixi-memarlıq abidəsi kimi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə olaraq qeydiyyata alınmışdır.

Barxudaryan Xanabad kəndinin ərazisinin Gəncəsər monastırına məxsus torpaqlar olduğu barədə məlumat verir. Müəllif Xanabad kəndində zəngin ornamentli, xaçlarla bəzədilmiş qədim qəbir yerləri olduğunu yazır (Бархударян, 1895, s.147-148).

XIX əsr müəllifi Barxudaryan monastırın inşaat kitabəsinin 1263 -cü ilə aid olduğunu yazır. Lakin kilsə divarlarındakı kitabələrdən sonrakı yüzilliklərdə burada dəfələrlə yenidənqurma və inşaat işləri aparıldığı məlum olur. Kilsə ərazisində 10-dan çox kitabə aşkar edilmişdir. Bu kitabələrin mətnindən monastır ərazisində XVI-XVII əsrlər boyu yenidənqurma işləri aparıldığı məlum olur.

Monastırın başkilsəsi üçnefli bazilika formasına malikdir. Kilsənin şərq tərəfində üç mərtəbəli köməkçi otaqlar, qərb fasadında isə dağılmış tikilinin – narteksin qalıqları vardır. Tikilinin ərazisindəki sovmələrdən birində məzar daşı vardı.



*Müqəddəs Georgi monastırı (XIII əsr), Xoçalı rayonu, Xanabad kəndi*

Monastırın 8x11.9 metr ölçülərə malik ibadət zalı sadə interyerə malikdir. Altar karnizi naxışlarla bəzədilmiş nal formasındadır. Sütunlar, divarönü pilonlar, tağlar, apsida çərçivələri, nişlər və pəncərə-qapı yerləri yaxşı yonulmuş daşlardan tikilmişdir. Digər hissələrin hörgüsündə kobud yonulmuş daşlardan istifadə olunmuşdur. İbadət zalının döşəməsinə daş döşənmişdir.

Monastır həyətində həm də rahib hücrələri və digər mülki tikililər yerləşir. Kompleks möhkəm qala divarları və divarların dörd küncündə yerləşən dairəvi qüllələrlə əhatə olunmuşdur.

Lakin 10 noyabr 2020-ci il tarixdə imzalanmış atəşkəsə əsasən Xocalı rayonu müvəqqəti olaraq Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə verildiyi üçün bu qədim alban məbədinin 30 illik işğal dövründəki aqibəti məlum deyil.

## ALBAN MƏBƏDİ (XVII əsr), Xaçmaz kəndi

Xaçmaz kəndində, Barxudaryanın verdiyi məlumata görə, xaçdaşlarla əhatələnmiş iki kilsə olmuşdur (Бархударян, 1895, s.93). Onlardan biri Şoşqavəng monastırı, digəri isə Müqəddəs Stepannos kilsəsidir. Müqəddəs Stepannos kilsəsi kiçik günbəzli, uzunluğu 13 m 90 sm, eni 9 m 32 sm olan tikilidir. Kilsənin şərq divarındakı kitabədə: *Mən usta Usey (Hüseyn) və Geykurq bu kilsəni İsmanın (İsmihan) xatirəsinə tikdik* ifadəsi həkk olunmuşdur. Qapının daş fasadında isə inşa tarixi olaraq 1651-ci qeyd olunub (Бархударян, 1895, s.93). Barxudaryanın əsərindən məlum olur ki, kilsədə perqamentdə yazılmış iki qədim əlyazma – psalmlar olmuşdur. Psalmlardan birinin Davud Peyğəmbərin şərhlərinə ön söz yazmış Yepiskop Atanas tərəfindən tərtib olunduğu məlum olur. Digər psalmın isə bəzi vərəqləri tokulüb. Bu xatirə qeydlərində alban xristian əhali, alban katolikoslarının fəaliyyəti haqqında qiymətli məlumatlar olmuşdur. Ona görə də XIX əsrdə erməni kilsəsi səylə Alban kilsələrindəki dini kitablardakı bütün xatirə yazılarını məhv etmişdir.



*Alban məbədi (XIII əsr), Xocalı, Dağyurd kəndi.*
*İşğal illərində abidəni təmir etmək bəhanəsi ilə onu ilkin görünüşündən məhrum etmişlər.*

## ALBAN MƏBƏDİ (XIII əsr), Dağyurd kəndi

Xocalı rayonunun Dağyurd kəndinin adı XIX əsrin 90-cı illərində İrandan köçüb gəlmiş erməni ailələrinin burada yerləşməsindən sonra Saruşen adlandırılmışdı. Kənd 29 dekabr 1992-ci ildən Dağyurd adlanır. Azərbaycanın qədim ərazilərindən olan Dağyurd kəndi 1991-ci ildən Ermənistan Silahlı Qüvvələrinin işğalı altında qalmışdır.



*Xocalı, Qarabulaq məbədi*

Barxudaryan Saruşen (Dağyurd) kəndindəki qədim kilsə haqqında məlumat verərək, onun bir neçə dəfə bərpa edildiyini yazır (Бархударян, 1895, s.93). Abidə XII – XIII əsrə aid edilir.

Abidə 1991-ci ildə erməni terrorçuları tərəfindən hədəf kimi istifadə edilib, ağır artilleriyadan abidəyə bir neçə dəfə uzaq məsafədən atəş açılaraq divarları güllələbaran edilib. 2014-cü ildə ermənilər öz cinayətlərini gizlətmək üçün abidəni təmir etmək bəhanəsi ilə onu ilkin görünüşündən məhrum etmişlər. Təmir zamanı abidənin sol tərəfininə 2 metr divar əlavə edilmiş, eyni ölçüdə binanın ön tərəfi də artırılmışdır. Binanın tavanı 50 sm-dən çox hündürləşdirilmişdir. Beləliklə, tarixi abidə öz ilkin əzəli görünüşündən məhrum edilmişdir.



*Xocalı, Ballıca kəndi. Alban dövrünə aid abidənin memarlıq quruluşu işğal illərində kobud şəkildə dəyişdirilmişdir.*

## PİRCAMAL kəndində alban məbədinin qalıqları

Kəndin adı keçmişdə burada mövcud olmuş Pircamal pirinin adi ilə bağlıdır. Barxudaryan Qarabağ abidələrinə həsr etdiyi əsərində Pircamal kəndindəki qədim kilsə qalıqlarından bəhs edir. Müəllif yazır ki, qədim kilsə qalıqlarının olduğu Pir Camal kəndində Koba adlanan ziyarətgah var. Bu yerdə Pir Camal adlı müqəddəs dəfn olunmuşdur. İbadətgah həm müsəlman həm də xristian əhali tərəfindən ziyarət edilir. Pir Camal adlı müqəddəsin bacısının isə Əskəran qalası ilə Naxçevanik kəndi arasındakı pir yerində dəfn olunduğu rəvayət edilir (Бархударян, 1895, s.117).

## ALBAN MƏBƏDİ, Ballıca kəndi

Ballıca kəndindəki alban memarlıq abidəsi də 1992-ci ildən 2020-ci ilə kimi Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu müddətdə, qeyri-qanuni bərpa işlərinə məruz qalmışdır. 2017-ci ildə Alban dövrünə aid abidənin memarlıq quruluşu kobud şəkildə dəyişdirilmişdir.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva işğaldan azad edilmiş Xocavənd rayonunun Hünərli kəndindəki Alban məbədində. 15 mart 2021-ci il.*

***"Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq..."****
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

# XOCAVƏND
## RAYONU

Xocavənd rayonu Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli qərarı ilə Martuni və Hadrut rayonlarının bazası əsasında yaradılmışdır. Xocavənd bölgənin qədim adı olmuşdur. Qarabağ Vilayətinin vergi dəftərlərində 1823-cü ilədək Xocavənd adı qeyd olunmaqda idi. Daha sonrakı dövrlərdə, 1946-cı ilədək bu ərazilər Qaranlıq dağının və Qaranlıq çayının adı ilə Aşağı Qaranlıq adlanmaqda idi.

Xocavənd rayonu 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 2020-ci ilin 9 noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan xalqının tarixini, mədəniyyətini əks etdirən tarixi memarlıq və arxeoloji abidələrlə zəngin olan Xocavənd ərazisi bəşər sivilizasiyasının beşiklərindən biridir. Xocavəndin hər daşı, hər qayası, hər mağarası tarixin əsl canlı şahididir. Çox sayda dünya və respublika əhəmiyyətli antik, orta əsrlər, yeni və müasir dövr tarixi-memarlıq və mədəniyyət abidələri ilə zəngin olan bölgə ilk insan məskənlərindən biri olmuşdur. Quruçay vadisindəki Salakətin kəndi yaxınlığında 1, 5 milyon il yaşı olan Azıx mağarası, həmçinin qədim tarixə malik Tağlar mağarası bu bölgədə yerləşir. Xocavənd qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qalalar, müxtəlif dövrlərdə inşa edilmiş türbələr, daş-qoç heykəllər kimi nadir mədəniyyət nümunələrinin toplandığı zəngin tarixə malik bölgələrimizdəndir.

İşğal altında olduğu 30 ilə yaxın dövrdə Ermənistanın təcavüzü nəticəsində rayonun yüzlərlə mədəni və dini abidəsi dağıntıya məruz qalmışdır. Bütün Qarabağ bölgəsində olduğu kimi, Xocavənd ərazisində də işğaldan öncə istər xristianlıq, istərsə də İslam dövrünə aid Azərbaycan

---
* *https://president.az/az/articles/view/50893*



*"Xocavənd təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir".*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

xalqının tarixini, mədəniyyətini əks etdirən bir çox dünya əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri qorunub qalmaqda idi. Lakin erməni təcavüzü nəticəsində "Ərgünəş" qalası, "Rzaqulu Bəy" türbəsi (XIII əsr), Dəmirov, Dağdağan, Cicim ocaları, Bəhrəmli piri, Seyid Rza günbəzi kimi saysız-hesabsız ziyarətgahlar, neçə-neçə qiymətli mədəni və dini maddi memarlıq abidələri dağıntıya məruz qalmışdır. Xocavəndin tarix və mədəniyyət abidələri, xüsusilə də bölgənin İslam tarixi abidələri ermənilər tərəfindən məqsədyönlü şəkildə dağıdılıb, ağır təcavüzə uğradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən 2020-ci ildə Xocavənd rayonunun işğaldan azad edilməsi nəticəsində oradakı tarixi-memarlıq abidələri də erməni əsarətindən qurtulmuşdur. Qarabağın işğaldan qurtulan digər tarixi-mədəni, dini abidələri kimi Xocavənd rayonunun ərazisində olan tarixi-dini abidələr də bərpa olunmaqdadır.

## Xocavənd rayonunun alban abidələri

İşğalda qaldığı 30 ilə yaxın müddət ərzində ermənilər bütün Qarabağda olduğu kimi Xocavənddəki alban məbədlərində öz çirkin əməllərini həyata keçirmişlər. Məhz Xocavənd rayonunun tarix və mədəniyyət abidələri daha çox erməni vandalizminə uğradılmış abidələr hesab olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il martın 15-də Füzuli və Xocavənd rayonlarına səfəri çərçivəsində erməni işğalı zamanı ciddi dağıntılara məruz qalmış, divarlarına saxta yazılar yazılmış yüzlərlə alban məbədlərindən biri olan Xocavənd rayonunun Hünərli kəndindəki alban məbədində olmuşdur. Azərbaycan Prezidenti bu qədim alban məbədinin acınacaqlı vəziyyətini, onun ermənilər tərəfindən necə təhqir edildiyini bütün dünyaya bəyan edərək söyləmişdir ki, "bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı,

bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar... Uçurublar, dağıdıblar, qapını da yandırıblar... Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur!? Bu qədim Alban kilsəsini görərlər, bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir..."*

Qeyd etmək lazımdır ki, Azərbaycanın alban xristian abidələrinin böyük bir qismi Xocavənd bölgəsindədir. Rayon ərazisi Qarabağın alban abidələri ilə ən zəngin bölgələrindəndir. Elə təkcə Tuğ kəndində 5 alban abidəsi və Dizaq məlik sarayının qalıqları vardır. Xocavənd rayonu Kitşvəng, Amaras, Qırmızı kilsə kimi onlarla alban məbədi, qalalar və qədim alban qəbiristanlıqları ilə zəngin bölgədir. Qafqaz Albaniyasında xristianlığın dövlət dini kimi qəbul edilməsindən sonra bu ərazilərdə alban kilsə və monastırları inşa edilməyə başlamışdır. Xocavəndin ərazisində Amaras monastırı, Müqəddəs Stefan kilsəsi (Tuğ kəndi), Ktişvəng monastırı, Müqəddəs Məryəm Kilsəsi, Müqəddəs İohann Kilsəsi (Tuğ kəndi), Yeddi Qapı (Möhrənis) Monastırı (Susanlıq kəndi), Xutudərə Monastırı (Binə), Qırmızı kilsə (Tuğ kəndi), Müqəddəs İohann Monastırı (Böyük Tağlar) Kavakavəng (Zoğalbulaq) kimi onlarla alban məbədi, alban dövrünə aid müdafiə istehkam və qalaları mövcuddur. Onların içərisində IV əsrə aid Amaras monastırı xüsusi yer tutur. Bu qədim alban kilsəsi 1238-ci ilədək – Gəncəsər monastırı tikilənədək Albaniyanın əsas xristian mərkəzlərindən biri olmuşdur.

Xocavənd ərazisində, xüsusilə IX-XIII əsrlərdə alban kilsə və monastır tikintisi və bərpası sürətlə getmişdir. IX əsrdə Ərəb xilafətinin zəifləməsi bu prosesə təkan vermişdir. Azərbaycanda alban kilsələrinin yenidən canlanması mərhələsində Qarabağda Xaçın knyazlığı yüksəlir. Xocavənd ərazisi də bu knyazlığın tərkibində olduğu üçün bölgədə alban kilsə və monastır tikintisi canlanmışdı. Bölgədə alban kilsə və monastır tikililərinin bərpası və tikintisi X-XIII əsrlər boyu davam etmişdir. Xocavənd rayonunun Tuğ kəndi xüsusilə alban abidələri ilə zəngin olmuşdur. Alban Dizaq məlikliyinin mərkəzi olmuş Xocavəndin Tuğ kəndində 5 alban abidəsi və məlik sarayının qalıqları vardır.

Xocavənd rayonu ərazisində çox sayda alban məbədi və alban dövrünə aid müdafiə istehkam və qalaları əsrlərdən bəri qorunub saxlansalar da, işğalda qaldığı 30 ilə yaxın müddət ərzində erməni vandalizminə məruz qalaraq saxtalaşdırılmışlar.

Qarabağın bütün alban məbədləri kimi Xocavənd rayonundakı alban abidələri də "bərpa" adı altında saxtalaşdırılaraq qriqoryan kilsəsinə uyğunlaşdırılmağa cəhd edilmişdir. Xüsusilə, Xocavənd rayonunun Tuğ kəndindəki alban məbədləri, Kitşvəng, Amaras monastırları, həmçinin Dizaq məlikliyinin sarayı, cox sayda qədim alban qəbiristanlıqları ermənilər tərəfindən böyük zərər görmüşdür. Erməni vandalları özünəməxsus elementlərlə, eləcə də süjet xarakterli oymalarla zəngin alban dövrü memarlıq abidələrinin divar yazıları və bədii ornamentlərini dəyişdirərək bu abidələri ilkin görkəmindən məhrum etmiş, erməniləşdirməyə çalışmışlar. Abidələrin mənimsənilməsi zamanı ermənilər, bəzən qədim tikililərin bütün divarlarını yenidən tikmiş, genişləndirmiş və altarlarını hündürləşdirmişlər. Azərbaycanlılara məxsus inanc yerlərini və tarixi abidələri bu şəkildə falsifikasiya etməkdə ermənilərin məqsədi, bu abidələri ermənilərin mədəniyyət nümunələri kimi təbliğ edərək, öz işğalçılıq niyyətlərinə haqq qazandırmaq olmuşdur. Ermənilərin bölgənin alban xristian abidələrinin etnik mənsubiyyətini dəyişdirmək, onları erməniləşdirmək cəhdlərinə baxmayaraq, tarixi mənbələr və alban məbədlərinin özünəməxsus memarlıq xüsusiyyətləri bu abidələrin məhz alban maddi mədəniyyət nümunələri olduğunu təsdiq edir.

* *https://president.az/az/articles/view/50893*

## Rayon ərazisindəki alban abidələrinin siyahısı

- Amaras monastırı (IV əsr), Cütçü kəndi
- Xutudərə monastırı (V-VI əsrlər), Binə kəndi
- Katarovəng məbədi (IV-VI əsrlər), Çaylaqqala kəndi
- Bri monastır kompleksi (V-VII əsrlər), Çörəkli kəndi
- Yeddı qapı monastırı (VII əsr), Susanlıq kəndi
- Qırmızı kilsə (X əsr), Tuğ kəndi
- Müqəddəs İohann Monastırı (X əsr), Böyük Tağlar
- Alban məbədi (1170-ci il), Hadrut qəsəbəsi
- Müqəddəs Tanrı anası kilsəsi (XII əsr), Hünərli kəndi
- Müqəddəs Yelisey monastırı (XII əsr), Çartar kəndi
- Müqəddəs Stefan kilsəsi (XII), Tuğ kəndi
- Müqəddəs İohann kilsəsi (XIII əsr), Tuğ kəndi
- Müqəddəs Məryəm kilsəsi, Tuğ kəndi
- Müqəddəs Tanrı anası kilsəsi (XII əsr), Çörəkli kəndi
- Kitşvəng monastırı (XIII əsr), Tağlar kəndi
- Ağ xaç kilsəsi (XIII-XIV əsrlər), Çinarlı kəndi
- Mavas monastırı (XIII əsr), Gavahın kəndi
- Məbəd (XIV əsr), Xərxər kəndi
- Kavakavəng, Zoğalbulaq kəndi
- Müqəddəs Məryəm ana kilsəsi (XVII əsr), Tağaser kəndi
- Müqəddəs Qriqoris kilsəsi (XVII əsr), Zavadıq kəndi
- Alban məbədi,Kəndxurd kəndi
- Bazilika, Çiraquz kəndi
- Alban məbədi, Ağcakənd
- Alban məbədi, Ataqud kəndi
- Alban məbədi, Banazir kəndi
- Alban məbədi, Xırmancıq kəndi
- Alban məbədi, Anaku kəndi
- Alban məbədi, Zamzur kəndi
- Alban məbədi, Məlikcanlı kəndi
- Alban məbədi, Bulutan kəndi
- Alban məbədi, Edilli kəndi
- Alban məbədi, Ağbulaq kəndi
- Alban məbədi, Tək kəndi
- Alban məbədi, Azıx kəndi
- Alban məbədi, Dolanlar kəndi
- Albanberd kilsəsi, Qarakənd kəndi
- Alban məbədi, Sur kəndi
- Alban məbədi, Üçoğlan kəndi
- Alban məbədi, Qızılqaya kəndi

## Qala və qəsrlər

- Dizaq məlik sarayı (XVIII əsr), Tuğ kəndi
- Ktiş qalası (X əsr), Tuğ kəndi
- Kürətağ qalası, Düdükçü kəndi



*Albanberd kilsəsi, Qarakənd kəndi*



*Alban məbədi, Məlikcanlı kəndi*

## AMARAS MONASTIRI (IV əsr), Cütçü kəndi

Amaras monastırı Qarabağda Qafqaz Albaniyasının ən mühüm dini və mədəni mərkəzlərindən biri olmuşdur. Azərbaycanın xristian memarlığının dəyərli abidələrindən sayılan, Qafqaz Albaniyası dövrünə aid Amaras monastırı Muğan düzündə Amaras çayının sağ sahilində inşa edilmişdir. Monastır Xocavənd rayonunun Cütçü kəndində yerləşir.

Cütcü kəndi Xocavənd rayonu Sos kənd inzibati ərazi dairəsində aid idi və 29 dekabr 1992-ci ilə qədər Maçkalaşen adlanırdı. 1992-ci ildən ölkənin bəzi yaşayış məntəqələrinin tarixi adlarının bərpası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə kəndin adı Cutcu kimi rəsmiləşdirilmişdir.

Amaras Albaniyanın ilk xristian məbədlərindəndir. Amaras abidəsi Qafqaz Albaniyası ərazisində erkən xristianlıq dövrünə aid ən qədim üçnefli bazilikadır. Arxeoloji tədqiqatların nəticələri təsdiq edir ki, Amaras monastırı IV əsrə aid qədim məbədin yerində, eyni memarlıq üslubuna kiçik əlavələr edilməklə X əsrdə yenidən inşa edilmişdir. Xristianlığın təbliğatçılarından olan IV Maarifçi Qriqori tərəfindən əsası qoyulmuşdur. IV əsrdən etibarən Qriqori Albaniyada, xüsusilə, Amarasın da daxil olduğu Haband vilayətində xristianlığı təbliğ etmişdir. Albaniyada xristianlığın dövlət dini olaraq formalaşdığı bir vaxtda Amaras onun ilk fəaliyyət məntəqələrindən biri olub. Hələ IV əsrin əvvəllərində Amaras vilayəti Maarifçi Qriqorinin mülk torpağı idi. Daha sonralar monastır kompleksinə çevrilən Amaras Qafqaz Albaniyasının yepiskopluq mərkəzi olmuşdur Amaras monastırı haqda məlumat verən VII əsr müəllifi Musa Kalankatuklu Amaras şəhəri yaxınlığında inşa edilmiş monastırın əsasının Haband vilayətində xristianlığı təbliğ edən Maarifçi Qriqori tərəfindən qoyulduğunu yazır. An-



*Amaras monastırı (IV-VI əsrlər), Cütçü kəndi*



*Amaras monastırı Qafqaz Albaniyasında erkən xristianlıq dövründən ziyarət edilən ən müqəddəs məbədlərdən biri olmuşdur.*

tik müəlliflərin verdiyi məlumata görə Amaras da daxil olmaqla Haband vilayəti Qriqoriyə məxsus idi. O, burada xristian kilsəsinin əsasını qoymuşdur (Göyüşov, 1975, s.28). Onun nəslindən olan Müqəddəs Qriqoris təxminən 325-330-cu illər arasında Albaniyanın ilk katolikosu təyin edilmişdir (Göyüşov, 1975, s.37). Kalankatuklu yazır ki, hələ on beş yaşında ikən gənc Qriqoris Albaniyanın yepiskopluq mənsəbinə layiq görülmüşdü. Məskutlar ölkəsində xristinalığı təbliğ edərkən 337-ci ildə şəhid edilən Qriqorisin nəşini şagirdləri tapıb Haband vilayətinin Amaras şəhərinə gətirmiş və orada ulu babası Qriqorinin tikdiyi kilsənin içində dəfn etmişlər. Alban salnaməçisi yazır ki, Müqəddəs Qriqoris kilsənin şimal tərəfində yerləşən sovmədə əbədi rahatlığını tapdı (Kalankatuklu, I k. f.30).

Tədqiqatlar Amaras məbədinin hələ xristianlıqdan öncə də böyük dini mərkəz olduğunu göstərir. Antik mənbələrdə Amaras şəhərinin adı Amare şəklində qeyd olunmuşdur və bu şəhərdə Ay məbədi olduğundan bəhs edilir (Страбон, XII, s.522). 1968-ci ildə Qarabağ abidələrini tədqiq etmiş Azərbaycan arxeoloqu Rəşid Göyüşov Amaras məbədi ərazisində apardığı qazıntılar zamanı burada qədim məbəd yerini təsbit etmişdir. Amaras məbədinin ətraf abidələrin hamısından daha qədim olduğu qənaətinə gələn arxeoloq monastır ərazisinin hələ xristianlığın yayılmasından əvvəl də kahinlərin yaşadığı böyük dini mərkəz olduğunu yazır (Göyüşov, 1970, s.62; Göyüşov, 1975, s.27). Arxeolaq Amaras məbədindən ellin mədəiyyəti üçün səciyyəvi olan sütunaltlıqları, artefaktlarla yanaşı eranın I əsrinə aid məbəd qalıqları aşkar etmişdir (Göyüşöv, s.38). Bu qədim məbəd e.ə. II əsrdən etibarən dini ibadətgah yeri olmuşdur. Günbəzli bazilika formasına malik məbədin planı, IV əsrə aid qədim məbədin planını kiçik əlavələrlə təkrar edir. Amaras məbədi yaxınlığındakı dağın zirvəsində aşkar edilmiş, yalnız bünövrə hissəsinin qaldığı Şendağ məbədinin qalıqları da antik dövrə aid edilir (Göyüşov, 1975, s.50).

Amaras məbədinin xristianlıqdan öncə də yerli əhalinin ziyarət yeri olduğunu yazılı mənbələr, həmçinin etnoqrafik tədqiqatlar da təsdiq edir. Ziyarət dağı və Müqəddəs dağ kimi qədim alban inanc yerlərinin yaxınlığında yerləşən Amarasla baglı VII əsr alban müəllifi Kalankatuklu yazır ki, çox qədim dövrlərdən, min illər öncə də sonsuzlar, qızdırmadan əziyyət çəkənlər Amaras kilsəsini ziyarət edər, müqəddəslərin nəşi olan yerdən torpaq götürər və şəfa tapardılar (Kalankatuklu, I k, X f.). Bu monastırın özəlliyi ondan ibarət olmuşdur ki Qafqaz Albaniyası ərazilərin-



*Amaras monastır kompleksi dörd küncündə dairəvi qüllələr yerləşən düzbucaqlı qala divarları ilə əhatə edilmişdir.*



*Qala divarında yerləşən monastır girişi*



*Monastırın həyət hissəsi*

də İslamın yayılmasından sonra da xalq arasında, həm xristian, həm də müsəlman əhali tərəfindən müqəddəs yer, ziyarətgah kimi qəbul edilmişdir.

XIX əsr müəllifi Barxudaryan yazırdı ki, məbəddə minbərin (altar) altında qədim bir məzar yeri olmuşdur. Bu, Qafqaz Albaniyasının yarıəfsanəvi ilk patriarxı, katolikosu olmuş Maarifçi Qriqorisin qəbir daşı idi. Qriqorisin məzar daşının olduğu bu yer xalq arasında əsas və qədim ziyarətgah sayılırdı. Ziyarətgaha həm xristian, həm də müsəlman əhali gəlirdi. Hətta ən ucqar kəndlərdən bura azərbaycanlılar gəlirdi (Бархударян, 1895, s. 229).

XX əsrin əvvəllərində bölgədə aparılan etnoqrafik tədqiqatlardan məlum olur ki, Amaras məbədində Maarifçi Qriqorisin qəbir daşının durduğu yer kilsənin əsas müqəddəs yeri sayılırdı (Ямпольскии, 1962, s35). Yerli əhali inancından asılı olmayaraq Qafqaz Albaniyasının yarıəfsanəvi ilk patriarxının (katalikos) qəbir daşının olduğu Amaras məbədində qızdırmalı xəstələr, sonsuz qadınların şəfa tapdığına inanmaqda idilər (bax: Ямпольскии, 1962, s.35). Əhali arasında müqəddəslərin cəsədlərinin basdırıldığı yerdən torpaq götürən xəstələrin şəfa tapacağına inam qalmaqda idi. Hətta Qarabağ əhalisi arasında Amaras torpağının münbitliyi çox zaman burada Qriqorisin dəfn edilməsi ilə əlaqələndirilmişdir (Göyüşov, 1975, s.23). Məbədin minbərinin altında, minbərə şaquli qoyulan böyük daş plitə əsas ziyarət yeri idi. Məbədin içərisində və girişində xoruz kəsərdilər. Məbədin içində olan qəbir daşında çoxlu şam qalıqları, kəsilən xoruzların lələkləri vardı (Ямпольский, 1962, s.228). Ətraf ərazinin əhalisi bazar günləri bu dərəyə gələr, qurbanlar kəsər və ibadət edərdi. Bura gələnlər xoruz kəsməklə yanaşı sütunaltı daşın üzərinə başlarını qoyub yatardılar. Bu qədim ziyarətgaha daha çox gələcəkdən xəbər tutmaq istəyənlər gələrdi (Ямпольскии, 1962, s.35).

Barxudaryan yazır ki, Amaras məbədinin yaxınlığında (8-9 ml məsafədə) üzərində xaç rəsmləri olan qədim qəbir yeri də xalq arasında Peyğəmbər qəbri kimi ziyarət edilirdi. XIX əsr müəllifi bu bölgədə vaxtilə utilərin yaşadığı və

məbədin onların qədim kilsəsi olduğundan bəhs edir (Бархударян, 1895, s.33).

Amaras məbədi 1992-1993-cü illərdə Qarabağın işğalınadək yerli əhalinin ziyarət yeri olmuşdur. Monastır Qafqaz Albaniyasında erkən xristianlıq dövründən ziyarət edilən ən müqəddəs məbədlərdən biri olmuşdur.

Amaras monastırı memarlıq quruluşuna görə Qafqaz Albaniyası ərazisində erkən xristianlıq dövrünün ən qədim üçnefli bazilikasıdır. Arxeoloji tədqiqatlar əsasında Amaras məbədinin IV əsr, X əsr, XIX əsr olaraq üç əsas inşaat mərhələsi müəyyən edilmişdir. Çoxsaylı inşaat, dağılma və yenidənqurma işlərinə baxmayaraq müasir məbəd binası öz ilkin formasını müəyyən qədər saxlaya bilmişdir. Qeyd etmək lazımdır ki, V əsrdə çoxsaylı məbədlər inşa etdirmiş Albaniya hökmdarı III Mömin Vaçaqan (487-510) yeni kilsələrlə yanaşı köhnə məbədləri də bərpa etdirmişdi. Amaras belə məbədlərdən idi.

IV-V əsrlərdə Qafqaz Albaniyasında Sasani işğallarının davam etdiyi dövrdə xristianlıq təqib edilir, alban məbədləri dağıdılırdı. Qafqaz Albaniyasında missionerlik fəaliyyətinin sonunda Müqəddəs Qriqoris də belə təqiblər nəticəsində öldürülmüşdü. Onun tələbələri din xadimini babasının əsasını qoyduğu Amaras məbədinin içərisində gizli bir yerdə dəfn etmişdilər. Kalankatuklu yazır ki, Qriqorisin dəfn edildiyi yer heç bir işarə ilə qeyd olunmamışdı, çünki tələbələri qorxurdular ki, ya quldurlar cəsədi məhv edər, ya da başqaları onu götürüb ayrı yerdə basdırarlar.

V əsrin sonlarında Alban kilsəsinin çiçəkləndiyi III Vaçaqanın dövründə Amaras kilsəsi də digər alban kilsələri kimi bərpa edilir. Bərpa zamanı III Vaçaqanın əmri ilə kilsənin əsasını qoymuş Müqəddəs Qriqorisin Sasani hökmranlığı dövründə kilsə ərazisində gizlədilərək yeri unudulmuş cəsədi aşkar edilmişdir. Mənbələrin verdiyi məlumata görə, alban çarı III Vaçaqan Müqəddəs Qriqorisin qəbri üstündə bir sovməə tikdirib ona "Müqəddəs Qriqoris sovməsi" adını verdi. Alban müəllifi Kalankatuklu yazır ki, bundan sonra Qriqoris Amarasdakı kilsənin şimal tərəfində yer-



*Qala divarında yerləşən monastır girişi*



*Amaras monastırının daxili hissəsi*



*Amaras monastırının daxili interyeri*

ləşən sövmədə əbədi rahatlığını tapdı (Kalankatuklu, I, 10)

Mənbələrin verdiyi məlumata görə, Amaras monastırının bərpasından sonra alban çarı III Vaçaqan bu məbədin ziyarətinə gəlişi zamanı, onun üçün Amaras çayının üstündə salınmış körpü ilə deyil, Qriqorisə hörmət əlaməti olaraq çayı piyada keçir. Alban salnaməçisinin yazdığına görə, III Vaçaqan Amarasa yola düşəndə də, qayıdanda da təxti – rəvanı piyada müşaiyət edirdi (Kalankatuklu, I k. f.30).

V əsrdən etibarən Amaras monastırı Qafqaz Albaniyası hökmdarı III Vaçaqanın dövründə ölkənin əsas ziyarətgahına çevrildi. Kalankatuklu yazır ki, hər il buraya qonşu vilayətlərdən əhali toplaşır və həmin günü tənrənəli şəkildə qeyd edirlər. Qriqorisin cəsədinin Amarasda tapıldığı iddia edilən qalıqlarının çox hissəsi aşkar olunduğu yerdə — Amarasda saxlanmaqla yanaşı, bir qismi də bütün Alban yepiskoplarına hissə-hissə paylanmışdı. Onlar da öz növbəsində müqəddəsin qalıqlarını kilsələri arasında bölüşdürdülər. Müqəddəs Qriqorisə məxsus qalıqlar Laçın rayonu ərazisindəki Ağoglan məbədinə də verilmişdi.

V-VII əsrlər boyu alban xrisrianlığının çiçəkləndiyi dövrdə Amaras Qafqaz Albaniyasının mühüm dini mərkəzlərindən birinə çevrilmişdi. Məbəd Qədim Şərq xristianlıq tarixində mühüm yer tutur. V əsrin 30-cu illərindən etibarən monastır yeparxiya mərkəzi olmuş və XIX əsrə kimi bu funksiyanı yerinə yetirmişdir.

VII əsrdə Qafqaz Albaniyasına ərəblərin yürüşləri zamanı Amaras yerli əhalinin milli azadlıq mübarizəsinin mərkəzinə cevrilmşdi. Amaras ərazisi VII əsr boyu alban knyazı Əbu Musa Yesainin ərəb qoşunlarından müdafiə qalası idi. VII-VIII əsrlər boyu Amaras dərəsi alban hökmdarı Cavanşirin və ayrı ayrı Beyləqan hökmdarlarının da sığınacaq yeri olmuşdur.

VIII-IX əsrlər Amarasın həyatında siyasi hadisələrlə dolu olan bir dövrdür. Bu mərhələdə Amaras məbədi ökənin istər dini, istərsə də dünyəvi işlərində mühüm rol oynayırdı və bütün kilsə məclislərində Amarasın baş kahini hökmən iştirak edirdi.

836-cı ildə də Amaras məşhur xalq hərakatının başçısı Babəkin sığınacaq yeri olmuşdur. VII-IX əsrlər böyu gedən Ərəb işğallarına qarşı mübarizə dövrü nəticəsində məbədin bir qismi dağılsa da, Ərəb xilafətinin zəiflədiyi IX əsrdə Beyləqan hakimi Yesai Əbu Musanın dəstəyi ilə yenidən bərpa edilmişdi.

Amaras monastır kompleksi IX əsrdən sonrakı yüzilliklərdə də dəfələrlə təmir edilmişdir. X əsrdə Ərəb xilafətinin zəifləməsilə Amaras monastırı da digər alban məbədləri kimi yenidən bərpa edilərək alban memarlıq ənənələrinə xas şəkildə genişləndirilmişdi. X əsrdə məbədin yenidən inşa edildiyini atxeoloji qazıntıların nəticələri də təsdiq edir (Göyüşov, 1975, s.45)

X-XIII əsrlər boyu Amarasın həyatında əsaslı bir dəyişiklik baş verməmişdir. Lakin XIII əsrdə, Azərbaycan ərazilərinin monqol yürüşlərinə məruz qaldığı zaman, Amaras şəhəri də monqollar tərəfindən dağıdılır. 1223-cü ildə Amaras monastırı monqollar tərəfindən talan edilərək xəzinəsi ələ keçirilmişdi. Monqolların qənimət kimi ələ keçirdiyi qiymətli əşyalar arasında monastırda IV əsrdən saxlanan Müqəddəs Qriqorisin əsası və qiymətli daşlarla bəzədilmiş böyük qızıl xaçı da olmuşdur. Bundan sonra monastır inzibati və siyasi əhəmiyyətini itirsə də, dini ibadətgah olaraq fəaliyyətini davam etdirmişdir.

Amaras monastırında vaxtilə mövcud olmuş kitabədən məlum olur ki, XIII əsrdə Amarasda Cəlal Dövlənin istəyilə Müqədddəs Qiqorisin şərəfinə bağ salınmışdı (Göyüşov, 1975, s.24). Yarım əsr sonra, 1387-ci ildə Amaras yenidən Əmir Teymurun yürüşlərinə məruz qalır və XIV əsrdən məbəd dağılaraq öz möhtəşəmliyini itirir.

Monastırın ikinci çiçəklənmə dövrü XVI əsrin II yarısına, alban Vərəndə məlikliyinin yüksəlişi dövrünə təsadüf edir. Bu dövrdə monastırda yenidənqurma işləri aparılmışdır. Alban məliklərinin formalaşdığı dövrdə daha da genişləndirilən Amaras monastırı Vərəndə məlikliyinin

ən müqəddəs ziyarətgahı olmuşdur. Xərxər kəndi ərazisində yepiskopun iqamətgahı inşa edilmişdir. Barxudaryan yazır ki, Vərəndə məlikliyinin yepiskopluğu Amaras, bəzən də Koçiz məbədi olub (Бархударян, 1895, s.4).

XVIII əsrdə Vərəndə məliyi II Şahnəzər monastırda inşaat işlərini yekunlaşdıraraq, kompleks ətrafında qala divarları inşa etdirir. II Şahnəzərin himayəsi altında həyata keçirilmiş inşaat işləri zamanı kompleksə çoxlu sayda otaqlar, hücrələr və digər məişət tikililəri əlavə edilir.

Amaras monastırı düzbucaq planlı olub küncləri dairəvi bürclərlə möhkəmləndirilmişdir. Onun həyətini dövrələyən qala divarları boyunca hücrələr, yaşayış və təsərrüfat otaqları tikilmişdir. Monastırın təsərrüfat hissəsi əlavə otaq sırası ilə kilsə həyətindən ayrılmışdır. Monastırın qala divarlarına əlavə möhkəmlik verən bu otaq yonulmamış daşlardan tikilmişdir. Monastırın həyətinə giriş qapısı cənub divarın qərb qurtaracağındadır. Kompleksin baş tikilisi olan kilsə həyətin ortasında ucalır. Kilsənin giriş qapısı qərb tərəfdədir. Amaras kilsəsinin ikienişli dam örtüyünün qərb ucunda altı sütunlu zəng rotondası qoyulmuşdur.Kilsənin bütün fasadı daş lövhələrlə üzlənmişdir.

Monastır kompleksinin mərkəzinə yerləşən əsas məbəd binası, 15.9x11 m ölçülərinə malik, uzun bazilikadır. Kvadrat formalı dörd sütun, onlar arasında inşa edilmiş tağlar vasitəsiylə neflərin tağvari tavanını saxlamasına kömək edir. Altar hissəsi uzun nalvari absidadan və onun hər iki tərəfində yerləşən oxşar formalı yan otaqlardan ibarətdir. Kilsə üçnefli bazilika (23.9x13.5 m) formasına malikdir. İki cüt sütunla üç nefə bölünən ibadət zalı tağvari örtüyə malikdir. Apsidanın hər iki tərəfində düzbucaqlı plana malik kiçik otaqlar yerləşir. Hər iki otaq tağ-tavan örtüyə malikdir. Otaqların dərinliyi 5 metrə çatır ki, bu da minbərin altında Müqəddəs Qriqorisin sərdabəsinin yerləşməsi ilə izah edilir. Kilsənin yeganə girişi qərb tərəfə açılır. Divarlarda yerləşdirilmiş üç böyük və geniş (xaricdən eni 1.4 m, daxildən eni 2 m) pəncərə ilə ibadət zalı yaxşı işıqlandırılır.



*IV əsrdə Albaniya katolikosu olmuş Müqəddəs Qriqorisin dağıdılmış məzar daşı*



*Müqəddəs Qriqorisin yenidən hazırlanmış məzar daşı*



*Amaras monastırını əhatə edən qala divarındakı dairəvi qüllələrdən biri*

Kompleks dörd küncündə dairəvi qüllələr yerləşən düzbucaqlı, 85 m uzunluğa, 5.9 m enə və 5 m hündürlüyə malik qala divarları ilə əhatə edilmişdir. Daxildən qala divarlarının bütün perimetri boyunca yaşayış otaqları, hücrələr və digər məişət tikililəri inşa edilmişdir. Kilsədən şərqdə yerləşən uzun otaqlar sırası bütün həyəti iki hissəyə bölür. Böyük qərb hissəsinin mərkəzində kompleksin əsas tikilisi olan Müqəddəs Qriqoris kilsəsi yerləşir. Bu hissədə yerləşən bütün yaşayış otaqlarının qapısı kilsəyə tərəf açılır. Kilsənin cənub qanadında baş keşişin iki mərtəbəli iqamətgahı yerləşir. Mülki xarakterli kiçik şərq həyətində iş otaqları, mətbəxlər, anbarlar və sair yerləşir. Monastır kompleksi ərazisinə yeganə giriş cənub-şərq tərəfdəndir.

Amaras kilsəsinin altarı altında yerləşən sövmə Albaniyada xristianlığın dövlət dini kimi rəsmi qəbulu dövründə IV əsrdən Albaniya katolikosu olmuş və ona görə də ilk katolikos kimi də qəbul edilən Müqəddəs Qriqorisin sərdabəsidir. Sərdabə düzbucaqlı formada (3.7x1.9 m) olub 3.5 m hündürlüyə, cənub və qərb tərəfdə yerləşən iki qapıya (qərb qapısı indi qapadılmışdır) malikdir. Cənub girişindən aşağı aparan pilləkənlə üzbəüz yerləşən divar və Qriqorisin başdaşı yepiskop tacı, əsa və xaçşəkilli həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Sərdabədə Müqəddəs Qriqorisin məzarı yerləşir və bu məzar monastırın əsas ziyarətgahı hesab edilir.

İkiqatlı dam üzərində yüksələn altı sütunlu rotonda kilsənin zəng qülləsi funksiyasını yerinə yetirir. Kilsədə aparılmış son yenidənqurma işlərindən əvvəl abidənin damında üç bu cür günbəzli rotonda yerləşirdi. Onlardan ən böyük olanı mərkəzdə, iki qismən kiçik olanı isə şərq və qərb künclərdə yerləşirdi.

1836-cı ildə Alban katolokosluğunun ləğvindən sonra bütün alban kilsələri kimi Amaras monastırı da dağılmağa başladı. XIX əsr müəllifi Barxudaryan yazırdı ki, vaxtilə alban katolikoslarının iqamətgahı olmuş bu kilsənin xarabalığa çevrildiyini görmək acıdır (Бархударян, 1895, s.104). 1836-cı ildən sonra ciddi dağıntılara məruz qalmış bina 1858-ci ildə köhnə özüllər üzərində yenidən inşa edilmişdir. Kompleks bugünkü görkəmini XIX əsrdə almışdır. Amaras monastırının yenidən qurulması zamanı inşaatçılar divar hörgüsündə istifadə edilmiş köhnə məbədə aid relyefli və epitafiyalı daşlar istisna olmaqla əvvəlki məbədin memarlıq kompozisiyasını, məbədin interyer və eksteryer dekorunu tamamilə dəyişdirmişlər. Məbədin içindəki Qriqorisin qəbir daşı dağıdılmışdır. 1898-ci ildə kilsənin şimal nefində Müqəddəs Qriqorisin yeni məzar daşı yerləşdirilmişdir.

Beləliklə, 1858-ci ildə erməni Qriqoryan kilsəsi tərəfindən monastırda aparılan yenidənqurma nəticəsində bu qədim alban abidəsi tamamilə saxtalaşdırılmış, abidənin qədim kitabələri, o cümlədən monastır ərazisindəki 925-ci ilə aid stella məhv edilmişdir. Kilsənin qərb fasadındakı portalın timpanı və onun üzərində yerləşən kiçik pəncərə yeri relyefli daşlarla əhatə edilmiş, frontonun altında isə xaç yerləşdirilmişdir. Kilsənin digər divarları demək olar ki, dekordan məhrum edilmişdir (Мамедова, 2004). Bütün bunlar 1836-ci ildə Alban Həvari Kilsəsinin Rus Sinodu tərəfin-

dən ləğvinin, Amaras monastırının da digər alban monastır və kilsələri kimi Erməni Qriqoryan kilsəsinin tabeliliyinə verilməsinin nəticəsi idi. 1836-ci ildə alban katolikosluğunun ləgvindən sonra Eçmiədzin bütün alban kilsələri kimi Amaras monastırını da saxtalaşdıraraq erməniləşdirmək niyyətində idi.

Abidənin daxilində və xaricindəki bəzi elementlərin silinməsi və ya dəyişdirilməsi işi Sovet dövründə də davam etdirilmişdir. 1988-ci ildə Sovet hökumətinin qərarı ilə Dağlıq Qarabağ ərazisində ermənilərə bəzi kilsə və monastırlarda fəaliyyət göstərməyə icazə verilsə də, Azərbaycan hökumətinin etirazı ilə bunun qarşısı alınmışdı. Amaras monastırının qapıları qeyri-qanuni olaraq ziyarətçilərin üzünə açıldıqdan iki gün sonra Azərbaycan hərbçiləri bunun qarşısını alır (David B. Barrett, ... 200, p.92 (876)



*İşğal illərində Amaras monastırında qanunsuz təmir işləri aparılaraq abidənin memarlıq quruluşunda ciddi dəyişikliklər edilmişdir.*

Lakin Qarabağın Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu 1992-2020-ci illərdə ermənilər monastırın saxtalaşdırılması işini rahatlıqla həyata keçirmək imkanı qazandılar. Erməni vandalları abidəyə məxsus elementləri silməklə və ya dəyişdirməklə abidəni mənimsəyə biləcəkləri düşüncəsi ilə 2000-ci ildən Amaras monastırının memarlıq quruluşunda ciddi dəyişiklik etməyə başlamışlar. Amaras monastırının divar yazıları bütünlüklə dəyişdirilmişdir. Monastırın giriş qapısının tağı da sökülüb forması dəyişdirilmiş, monastırın daxilindəki qəbir daşları belə yenilənmişdir. Abidənin divarlarına ermənilərə məxsusluğunu bildirən bir neçə saxta yazılı daş və xaç nümunələri yerləşdirilmişdir. Binanın daxili interyerində də kobud dəyişikliklər edilmişdir.

Azərbaycan, Rusiya, Ermənistan arasında imzalanan 10 noyabr 2020-ci il sazişindən sonra Amaras monastırı kompleksində qanunsuz təmir işləri qısa müddətə dayandırılsa da, abidənin yerləşdiyi ərazi Rusiya Sülməramlı Qüvvələrinin nəzarəti altına kecməsilə yenə də davam etməkdədir. Erməni mətbuatının 31 iyul 2021-ci il tarixli məlumatından aydın olur ki, Qarabağın rus sülhməramlılarının nəzarət etdikləri Amaras monastırındakı bu vandalizm aktını İran tarixi kilsə mərkəzinin rəhbəri Şerli Avetyan maliyyələşdirməkdədir. Məlumatda Ermənistan Respublikasının təhsil və Elm naziri L.Qaraxanyanla İran tərəfi arasında Amaras monastırında aparılan təmir işlərinə sərf olunacaq vəsaitin İran tərəfindən ödənilməsi ilə bağlı razılaşma öz əksini tapmışdır. Bu fəaliyyət Ermənistanın Azərbaycanın mədəni irsinə təcavüzü kimi dəyərləndirilməlidir.

Ermənistan hökumətinin bu fəaliyyəti Beynəlxalq Hüquqa və Cenevrə Konvensiyasının müvafiq müddəalarına, eləcə də Azərbaycan, Rusiya, Ermənistan arasında imzalanan 10 noyabr 2020-ci il sazişinə ziddir. Rus Sülhməramlılarının belə saxtakarlıqlara şərait yaratması təəssüf doğurur. UNESCO-nun 17 oktyabr 2003-cü il tarixli Paris bəyannaməsinin bəşəriyyət üçün böyük əhəmiyyəti olan mədəni irsi qəsdən dağıdan, yaxud mədəni irsin qəsdən dağıdılmasının qarşısının alınması, son qoyulması və cəzalandırlması üçün tədbir görməyən dövlətin beynəlxalq hüququn müəyyən etdiyi ölçüdə qəsdən dağıdılmaya görə məsuliyyət daşıdığı (39, VI) müddəlarının onların nəzərinə çatdırılmasına ehtiyac vardır.

# XUTUDƏRƏ MONASTIRI (V-VI əsrlər), Binə kəndi

Xutudərə monastır kompleksi Xocavənd rayonunun 1992-ci ilədək Domı adlandırılan Binə kəndi ərazisində, kəndin şimalında yerləşir. Xutudərə monastır kompleksinin inşaat xüsusiyyətlərinə əsasən V-VI əsrlərdə inşa edildiyi ehtimal edilir. Kompleksin iki kilsəsi dövrümüzə daha yaxşı vəziyyətdə gəlib çatmışdır. Bu kilsələr erkən orta əsrlərdə alban məbədləri üçün ənənəvi memarlıq üslubu olan birnefli bazilika formasına malikdir. Hər iki kilsə planda qeyri bərabər tərəfli rombvari formaya və nalvari apsidaya malikdir. Kilsələr düzbucaqlı formalı dəhliz ilə əlaqələndirilir. Hər iki başında kilsə yerləşən dəhliz, şərq-qərb oxu boyunca uzanan və planda düzbucaqlı formala malik olan 6x3.7 metr ölçülü zaldır. Dəhliz dövrümüzə yalnız qalıqları çatmış üç tağlı zalın davamı kimi nəzərdə tutulub və vaxtilə dam örtüyünə də malik olmuşdur. Bütün kompleks arasında əlaqələndirici mövqeyini həyata keçirən bu mühüm memarlıq elementi Xaçın sarayı və sonrakı dövrlərdə inşa edilmiş məlik saraylarında da istifadə edilmişdir.



*Xutudərə monastırının planı*

Dəhlizin cənub tərəfində yerləşən kilsə 8.5x4 metr ölçüyə malik birnefli bazilikadır. Düzbucaqlı plana malik olan zal, şərq tərəfdən nalvari apsida ilə tamamlanır. İbadət zalında dərin niş var, kilsənin yeganə qapısı isə şimal tərəfdən açılır. Kilsə heç bir pəncərəyə malik deyil, yeganə işıq mənbəyi isə dəhlizə açılan qapıdır. Lakin, kilsənin hazırda qismən dağılmış tağtavandakı dəliklə də işıqlandırıldığı güman edilir.

Dəhlizin şimalında yerləşən ikinci kilsə isə daha kiçik ölçüdə olub planda rombvari görünüşə malik birnefli bazilikadır. Kilsə nalvari apsidaya malikdir və cənub divarında kvadrat formalı niş vardır. Birinci kilsə kimi, ikinci kilsə də pəncərələrə malik deyil. Kilsənin qapısı cənub divarında yerləşir.

Ümumilikdə kilsələrin memarlığı Mingəçevir kilsə kompleksinə daxil olan tikililər, Pipan bazilikası, Yeddi qapı monastırı, Vaquas və Əyrivəng kilsəsinə yaxındır. Kapitellər, timpanlar, sütunlar və tağ kəmərləri istisna olmaqla, kompleksin bütün tikililəri əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud işlənmiş daşlardan hörülmüşdür. 140-200 sm qalınlığa malik divarlarn hörgüsündə qonşuluqdakı Susanlıq kəndindəki Yeddi qapı monastırında istifadə edilmiş hörgü texnikasından istifadə edilmişdir. Monastır ətrafında müdafiə divarlarının, ərazidə isə sovməə və mülki tikililərin qalıqları müşahidə edilir.



*Katarovəng məbədi Ziyarət dagının zirvəsində, dəniz səviyyəsindən 2150 m hündürlükdə yerləşir.*

## KATAROVƏNG MƏBƏDİ (IV-VI əsrlər), Çaylaqqala kəndi

Katarovəng məbədi Xocavənd rayonunun-Çaylaqqala və Köhnə Tağlar kəndləri arasında yerləşir. Katarovəng monastırının yerləşdiyi ərazi Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən 1992-ci il oktyabrın 2-də işğal edilmiş, 2020-ci ildə işğaldan azad edilmişdir.

Bu tarixi-memarlıq abidəsi Qarabağ silsiləsinin cənub-şərqində Ziyarət dağının zirvəsində, dəniz səviyyəsindən 2150 metr hündürlükdə yerləşir. Ziyarət dağının adı alban tarixçisi Kalankatuklunun "Alban tarixi" əsərində Dizaypat kimi çəkilir. Dizaypat dağı və bu dağda olan Kataro vəngi Alban salnaməsində V əsrdən gec olmayaraq baş verən hadisələrlə baglı yad olunur. Müəllif yazır ki, Dizaypat dağında yerləşən Kataro vəngindəki sovmə düşmənlər tərəfindən hələ Abbasın Albaniya ölkəsinin katolikosluğuna seçilməsindən (596-ci il M.P.) qabaq yandırılmışdır (KalankatukluI k.II, f.34).

Kalankatuklu Müqəddəs Qriqorisin fəaliyyətindən bəhs edərkən qeyd edir ki, onun xristianlığı təbliğ etməsi massaget çarı Sanesanın (Sanatürk) xoşuna gəlmir. Çarın əmri ilə Müqəddəs Qriqoris Xəzər sahilindəki Vatnean düzündə vəhşi atın quyruğuna bağlanaraq şəhid edilir (Kalankatuklu, Ik.X f). Sanesanın xristianlığı qəbul etmiş oğlanları Massaget ölkəsinin digər xristianları ilə birlikdə müqəddəsin cəsədini götürərək Alban katolikosluğunun mərkəzi Çolaya qaçırlar. Oğlanlarını təqib edən Sanesan Çolaya girərək şəhəri dağıdır, kilsələri və müqəddəs kitabları yandırır (Kalankatuklu, IIk. f. XIV) Təqib olunanlar Qafqaz Albaniyasının içlərinə doğru irəliləyərək Haband vilayətiə sığınırlar. Çar Sanesanın oğlanları Dizaypat dağında gizlənib, özlərinə yurd saldılar. Qardaşlarla birlikdə burada 3870 kişi də vardı. Onlar hamısı Dizaypatda yaşayırdı. Lakin qaçqınları izləyən massaget ordusu Sanesanın rəhbərliyində Haband vilayətinə kimi irəliləyərək qaçqınların gizləndiyi Katarovəng monastırını oda verir (Kalankatuklu, II. V f).

Monastırın adı mənbələrdə Qafqaz Albaniyasında IV-VI əsrə aid hadisələrlə bağlı xatırlansa da, dövrümüzə çatmış tikili XVII əsrə aiddir. Monastırın qədim tikililərindən heç biri dövrümüzə çatmamışdır. Tədqiqatçıların fikrincə, hətta XVII əsrə aid kilsənin tikintisi belə qədim tikililərin təməlində inşa edilməmişdir.

Ziyarət dağı bütün dövrlərdə yerli əhalinin ibadətgah yeri olmuşdur və XX əsrə qədər də dini



*Katarovəng məbədi (IV-VI əsrlər), Çaylaqqala kəndi*



*İşğal dövründə məbəddə qanunsuz təmir işləri aparılmış, dam örtüyü tamamilə yeni və müasir materiallarla qurulmuşdur.*



*Qanunsuz tikintidən sonra abidə ermənilər tərəfindən erməni kilsəsi kimi təqdim edilmişdir.*

mənsubiyyətindən asılı olmayaraq həm xristian, həm də müəsəlman əhalinin qədm inanc yeri olaraq qalmaqda idi (Ямпольский, 1962, s. 92). Azərbaycan ərazisində müqəddəsləşdirilən butun dağlar kimi Ziyarət dağı da əsasən sonsuzların getdiyi inanc yeri idi. Ziyarət dağına gələnlər burada torpaq yeyır və ya torpağı bugda və arpa dənələri ilə qarışdırıb götürər, evdə yandırardılar. Əgər yanmış külün içində bugda dənəsi olardısa oglan, arpa dənəsi qalardısa qız doğulacağına inanardılar (Ямпольский, 1962, s. 92). Ziyarət dağında bütün Azərbaycan pirlərində olduğu kimi qurban daşları var idi. Onların üstündə şam yandırar, bişmiş, nəzir qoyardılar. Ziyarət dağı yaxınlığındakı Soltan bulağı yanında insan fiqurlu daş heykəl də 1992-ci ilədək yerli əhalinin ziyarət yeri olmuşdur.

Ziyarət dağı ilə bağlı XIX əsr alban müəllifi Barxudaryan yazır ki, bu dağın zirvəsində xristianlıqdan əvvəlki dövrə aid məbədlərin xarabalıqları var. Xalq arasında dolaşan bir əfsanəyə görə, hələ Qriqori ilk dəfə bu yerlərdə xristianlığı yayarkən həmin dağa qalxıb onun zirvəsindəki məbəddə bütün gecəni dua oxumaqla keçirmişdir (Бархударян, 1890, s.32-33). XIX əsrdə bu dağda monastır və qala olmuşdur. Barxudaryan yazırdı ki, Dizapayt (Ziyarət) dağının zirvəsində Kataro adlı möhtəşəm monastır var idi. Lakin Dizaypat dağındakı kilsənin keçmişi bizə məlum deyil. Bu monastırda Sanesanın 3 oglu sığınacaq tapmışdı (Бархударян, II). Monastır Yeddi qapı monastırının yaxınlığında yerləşir.

Katarovəng məbədi Alban dövrü memarlığının ən kütləvi formalarından biri olmuş sövmə formasındadır. Sövmənin tikinti üslubu özünəməxsus xüsusiyyətlərə malikdir. Sovmələr karvan yolları kənarında kiçik ibadətgah rolunu oynasalar da, onlar əslində, momerial tikililərdir. Həm mehrabsız, həm də mehrablı sövmələrə təsadüf olunur. Bu sövmələrin divarları, bir qayda olaraq, zərif naxışlara malik nişan daşları ilə bəzədilir. Bu tipli tikintilər yalnız ibadət üçün nəzərdə tutulmurdi.

Karvan yolları üzərində sovmələrin tikilməsində əsas məqsəd insanların səfər zamanı əziy-

yətli yolçuluqdan sonra dincəlib istirahət etmələri, soyuqdan və yağışdan qorunmaları, axşama düşdükdə gecələmələri üçün idi.

Son bərpa dövrü XVII əsrə aid olan Katarovəng kilsə binası planda düzbucaqlı formaya malik, ikitərəfli damla örtülmüş birnefli bazilika idi. Tikilinin inşasında əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud yonulmuş yerli daşlardan istifadə edilmişdi. Şimal divarı yarıya qədər yerin altında idi, cənub divarı isə çılpaq qaya üzərində tikilmişdi.

1992-2020-ci il illərdə Katoravəng məbədinin yerləşdiyi Çaylaqqala, Tağlar kəndləri ərazilərinin işğal altında olduğu dövrdə Azərbaycanın Qarabağ bölgəsinin bütün alban abidələri kimi, Ziyarət dağında inşa edilən Katoravəng məbədinin də ilkin görkəmi məhv edilmişir. Kilsə bütün dekor elementlərindən məhrum edilib. 2015-2016-cı illərdə ermənilər tərəfindən bu qədim alban kilsəsində qanunsuz təmir işləri aparılmış, dam örtüyü tamamilə yeni və müasir materiallarla qurulmuşdur. Abidə ermənilər tərəfindən erməni kilsəsi kimi təqdim edilmişdir.

## BRİ MONASTIR KOMPLEKSİ (V-VII əsrlər), Çörəkli kəndi

Bri monastır kompleksi Xocavənd rayonunun Çörəkli kəndi ərazisində yerləşir. Qədim monastır kompleksi bozumtul təpəlik ərazidə inşa olunmuşdur. Bu tarixi-memarlıq kompleksi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Kompleksin inşa tarixinə dair kitabələr XII-XIII əsrlərə aid olsa da, ərazidə aşkarlanmış daha qədim dövrlərə aid tikililərin qalıqları abidənin inşa tarixinin daha qədim olduğunu göstərir. Kompleks dövrümüzə xarabalıq, yarıdağılmış vəziyyətdə çatmışdır. Memarlıq elementləri kilsənin alban çarı Mömin Vaçaqanın adı ilə bağlı olan kilsələrdən biri olduğunu göstərir. Bri monastır kompleksinin yerləşdiyi ərazi boyunca qədim tikililərin qalıqları – dördguşəli stellalar, V-VII əsrlərə aid ornamentli plitələr, karnizlər, kapitellər, erkən orta əsrlər memarlığının forma və xüsusiyyətlərini daşıyan sütun altlıqları səpələnmiş olması tikilinin qədim tarixindən xəbər verir.

Kalankatuklu yazır ki, alban hökmdarı Mömin Vaçaqan ölkədə ilin günlərinin sayı qədər



*Bri kilsəsi (XII-XIII əsrlər), Çörəkli kəndi. Kompleksin dövrümüzə çatmış xarabalıqları.*



*Tovuz quşu kompozisiyası*

kilsələr inşa etdirmişdir. Görünür, Bri kilsəsi də bunlardan biri olmuş, erkən orta əsrlərə aid xristian, hətta bütpərəst dini kompleksinin yerində inşa edilmiş qədim məbəddir.

Monastır kompleksindən dövrümüzə dörd kilsə, narteks, xaçdaşlarla bəzədilmiş üç niş, sovmə xarabalığı, mülki tikili qalıqları və orta əsrlər dövrünə aid nekropol gəlib çatmışdır.

Kompleksin ilk orta əsrlər dövründə inşa edilmiş birinci kilsəsi təpənin üstündə, şimal-şərq istiqamətində, narteksin yanında yerləşir. Kilsə kiçik ölçülərə malik, birnefli zal kilsəsidir. Daha qədim bütpərəst məbədinin yerində inşa edilmişdir. Kilsənin olduğu ərazidən qədim memarlıq elementləri arasında dövrümüzə çatmamış stellanın postamenti, iki kapitel, Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan həndəsi və nəbati naxışlarla, həmçinin bərabərtərəfli xaçlarla bəzədilmiş üç sütun altlığı aşkarlanmışdır. Kilsənin qərb fasadında yerləşən qapı çərçivəsi bir-birinə keçən kvadratlar və xaçlarla bəzədilmişdir.

Kompleksə daxil olan ikinci kilsə şərq tərəfdən birinci kilsəyə bitişikdir. Kiçik ölçülərə malik olan birinci kilsə kimi, ikinci kilsə də planda düzbucaqlı formaya malik birnefli bazilikadır.

Üçüncü kilsə təpənin ən yüksək hissəsində, narteksdən 4 metr qərbdə yerləşir. Bu birnefli bazilikada zalın döşəməsi tamamilə məzar daşları ilə örtülmüşdür. Yarımdairəvi timpan xaç və romblardan ibarət kompozisiya ilə bəzədilmişdir. Portalın yuxarı künclərində iki quş təsviri vardır. Bu kompozisiya Gəncəsər monastırındakı Müqəddəs İohann kilsəsinin giriş portalı və Mingəçevirdən tapılmış altar daşı üzərindəki dekorativ kompozisiyanı xatırladır. Divarın səthi oyma xaç təsvirləri ilə bəzədilmişdir. Quş təsvirlərinin yanında iki kitabə yerləşdirilmişdir. Kitabələr XIII əsrə aid olub kilsənin memarı və inşa dövrü haqda məlumat verir. 1270-ci ilə aid kitabə mətnindən məlum olur ki, buradakı xaçdaş Nersesin yepiskopluğu dövründə ucaldılmışdır. Birinci kitabədə adı xatırlanan memar həmin təpənin cənub ətəyində yerləşən və xaçdaşları saxlayan böyük nişin də memarıdır. Stellanın fronton hissəsi dağılmışdır. Bu kompleksi XIX əsrdə tədqiq etmiş Barxudaryanın məlumatına görə aşağı hissədə bir sırada düzülmüş səkkiz daş üzərində altı uzun sətirdən ibarət kitabə olmuşdur. Nişin içində dörd xaçdaş yerləşdirilmişdir.

Kompleksə daxil olan dördüncü kilsə kompleksin ən cənub tərəfində, kəndə yaxın hissədə, təpənin ətəyində yerləşir. Ölçü baxımından digər üç kilsədən daha kiçik olan kilsənin dam örtüyü dağılmışdır. Qərb fasadının hörgüsündə müxtəlif ölçü və formalara malik onlarla xaçdaşdan istifadə edilmişdir. Həmin divarda yerləşən yeganə qapı yeri naxışlı çərçivəyə malikdir. Yarımdairəvi timpan şahmat təsviri üzərində xaç naxışı ilə bəzədilmişdir. Timpanın hər tərəfində isə bir tovuzquşu fiquru yerləşdirilmişdir. Bu kompozisiya alban dini tikililərin memarlığının xüsusiyyətlərini daşıyır.

Divarın yuxarı qərb küncündə beş sətirlik inşaat kitabəsi olmuşdur. Cümlələrin ilk sözlərinin baş hərfi yazılan daş plitə yox edilmişdir. Məlumdur ki bütün alban kitabələri "mən alban" sözü ilə başlayır. Butun alban kilsəsi kitabələrində olduğu kimi  Bri kilsəsində də məhz ilk kəlmələr belə saxtalaşdırılaraq silinmişdir. Kitabədən məlum olur ki, kilsə Alban katolikosu Hovannes və onun kiçik qardaşı Nersesin hakimiyyəti dövründə, yəni 1235-ci ildən əvvəl inşa edilmişdir. Bu kitabənin yanında memarın xatirə kitabəsi yer alır.

Kompleksin narteksi birinci və ikinci kilsələrin qərb fasadına birləşir və hər iki kilsə üçün giriş rolu oynayır. Erkən xristian kilsələri və Bizans bazilikaları üçün səciyyəvi olan narteks qarşılıqlı şəkildə kəsişən dörd tağdan ibarətdir. Bu narteks həm də kilsə portallarının parad xüsusiyyətinin olduğunu göstərir. Əksər monastır narteksləri kimi, bu narteksdən də, həm türbə, həm də dini və siyasi yığıncaq yeri kimi istifadə edilmişdir. Narteksin şərq hissəsində, tağla əhatələnmiş böyük nişlərdə xaçdaşlar, məzar daşları, naxışlı stellalar mövcud olmuşdur.

Narteksin interyerinin şərq divarındakı nişlərdə altı xaçdaş, xaçdaşların ətrafında isə nəbati naxışlı və məişət səhnələri olan plitələr üzərində milli geyimli insan təsvirləri mövcud olmuşdur.

## MÜQƏDDƏS TANRI ANA KİLSƏSİ (XII əsr), Çörəkli kəndi

Xocavənd rayonunun Çörəkli kəndində daha bir alban məbədi Müqəddəs Tanrı ana kilsəsi yerləşir. Kilsə Cörəkli kəndinin düz mərkəzində, məktəb binasının yanında yerləşir. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirilyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Kilsədə inşaat kitabəsi aşkarlanmasa da ərazisindəki zəngin dekorlu dörd xaçdaş üzərindəki tarix kilsənin artıq XII əsrdə fəaliyyət göstərdiyini soyləməyə imkan verir. Kilsə XVI-XVII əsrlərdə daha qədim dini kompleksin yerində inşa edilmişdir.



*Müqəddəs Tanrı ana kilsəsi (XII əsr), Çörəkli kəndi*

Birnefli bazilika formasına malik tikili tağtavanlı dama malikdir. Planda düzbucaqlı formaya malik kilsənin ölçüləri 12.6x6 metrdir. İnşasında yaxşı yonulmuş yerli daşlardan istifadə edilmişdir. Apsidanın hər iki tərəfində köməkçi otaqlar vardır. Kilsənin əsas girişi cənub tərəfdəndir. Buna baxmayaraq, şimal divarında da giriş qapısı olmuş, lakin, sonrakı dövrdə həmin qapı hörülərək qapadılmışdır. Ehtimal ki, şimal qapısı vasitəsi ilə kilsə şimal tərəfdə yerləşən məqbərə-sovmə və ya hansısa digər tikili ilə əlaqələndirilmişdir. Kilsənin iki tərəfli damı divarönü pilonlar üzərində dayanan tağlarla saxlanılır.

## YEDDİ QAPI MONASTIRI (VII əsr), Möhrənis/ Susanlıq kəndi

Yeddi qapı monastırı Xocavəndin Susanlıq kəndinin yaxınlığında (3.5 km), Yuxusən dağının ətəyində, meşəlik ərazidə yerləşir. Tədqiqatlar monastırın əsas kilsəsinin inşa tarixinin VI əsrə aid olduğu göstərir. Kilsənin bu dövrə aid ediməsini həm də onun memarlıq üslubu təsdiq edir (bax: Мамедова, 2004, s. 76). Yeddi qapı monastırı elmi ədəbiyyatda Susanlıq kəndinin keçmiş adına uyğun olaraq Möhrənis kilsəsi kimi də tanınır. XIX əsr müəllifi Barxudaryan kilsəni Möhrənis və ya Yeddi qapı kilsəsi adlandırır və kilsənin kənddən aralıda yüksəklikdə, dağın başında yerləşdiyini yazır (Бархударян, 1895, s.75). Abidə Kitşvəng monastırının yaxınlığındadır.



*Yeddi qapı monastırı (VII əsr), Möhrənis kəndi*

Erkən orta əsrlərə aid edilən bu alban monastırı əfsanəyə görə ölkələrinin azadlığı uğrunda döyüşərək vəfat etmiş yeddi qardaşın tək bacısı tərəfindən qardaşlarının xatirəsinə inşa edilib. Yeddi qardaşın şərəfinə tikilmiş xatirə abidəsi kimi tanınan bu alban məbədi bölgənin böyük ziyarıətgahlarından biri olmuşdur. Vəfat etmiş yeddi qardaşın şərəfinə ziyarətgaha gələnlər burada yeddi şam yandırardılar. Xatirə abidəsini tikdirmiş bacının məzarı da məbədin həyətindədir. Onun məzarı monastır həyətindəki bulağın yaxınlığında yerləşir və "Bacı məzarı" ziyarətgahı kimi tanınır. "Bacı məzarı"nda, bütün Azərbaycan ziyarətgahlarında olduğu kimi, nəzir olaraq qurbanlıq qoyunu öncə monastırın ətarfında 3 dəfə dolandıraraq kəsərdilər. Bu qədim ayin hazırda Azərbaycanın bütün ziyarətgahlarında, eyni zamanda alban xristian məbədlərində icra olunan qədim ənənədir. Hətta Qəbələnin Nic kəndindəki qədim alban məbədində belə qurban mərasiminin icra edilməi üçün xüsusi qurbangah daşı var. Xristian udilər Qəbələnin Komrad ziyarətgahında da dini bayram mərasimlərində qoyun qurban kəsərlər.

Kompleksin əsas kilsə binasının quruluşuna görə Cənubi Qafqaz ölkələrinin memarlığında anoloqu yoxdur (Мамедова, 2004, s.75). Abidə qeyri-adi memarlıq üslubuna malikdir və digər mərkəzi günbəzli alban məbədlərindən fərqlənir.

Abidənin memarlıq quruluşu və tikinti üslubu, onu V-VI əsr abidələrindən kəskin şəkildə



*Yeddi qapı monastır kompleksi üç böyük və bir neçə kiçik tikilidən ibarət olmuşdur.*

fərqləndirir. Bu, məbədin inşa tarixinin daha qədim olduğunu göstərir. Yeddi qapı məbədi xüsusi memarlıq quruluşuna malik abidədir və onun oxşarına Azərbaycanın digər ərazilərində rast gəlinmir. Dairəvi formada inşa edilmiş Möhrənis kilsəsi quruluşuna görə dairəvi dolama hissənin tetrakonx ilə birləşdirildiyi Qax rayonundakı Ləkit kilsinə daha yaxın abidə olaraq göstərilir (Мамедова, 2004, s.75).

Monastır kompleksi üç böyük və bir neçə kiçik tikilidən ibarət olmuşdur. Digər iki tikili ilə müqayisədə kilsə binası nisbətən yaxşı formada dövrümüzə çatmışdır. Orta əsrlər dövründə inşa edildiyi güman edilən narteks binası tamamilə dağılmışdır. Xidməti bina kimi istifadə olunmuş ikinci tikilinin isə divarlarının yalnız aşağı hörgü qatı dövrümüzə çatmışdır. Üçüncü bina monastırın əsas kilsə binasıdır. Narteks və digər tikililərin qalıqları əsas kilsə binasına şimal-qərb tərəfdən birləşir. Məbədin yerləşdiyi ərazinin yaxınlığında səpələnmiş vəziyyətdə bir neçə yaşayış yerinin qalıqları var.

Kilsənin günbəzaltı hissəsini dörd nalvari apsida və dörd niş əhatə edir. Apsidalar hər biri 2 metr enə və təxminən elə o qədər də dərinliyə malikdirlər. Diaqonal nişlər isə 3/1 m ölçüyə malik olmaqla hər biri zalın mərkəzinə yönəlir. Apsida və nişlər bu tipli başqa abidələrdə rast gəlinməyən dairəvi pilyastrlarla bir-biri ilə əlaqələndirilir. Nişlərin kənar tağlarındakı pilyastrlar özünəməxsus və heç yerdə təkrarı olmayan ornamental kəmərlə bəzədilmişdir. Monastırın əsas kilsəsi dörd künc nişə malik tetrakonxdur (Мамедова, 2004, s.75). Arka və konxların forması, konxlarda bemin olmaması, apsidaların xarici yarımdairəvi (çoxtərəfli olmayan) forması və dekor xarakteri monastırın əsas kilsəsinin inşa tarixinin VI əsrə aid olmasını təsdiq edir (Мамедова, 2004, s. 76). Nişlər sırf dekorativ xüsusiyyət daşımaqla kiçik otaqlara keçid və ya dəhliz funksiyasına malik olmasalar da, öz növbəsində kilsənin mərkəzlik ideyasına tabe olan daxili həcmini vizual olaraq xeyli genişləndirmişdir. Həmçinin konxlardan nişlərə axıcı keçid təmin edilib. Kilsəyə daxil olan şəxslər bütün daxili məkanı müşahidə edə bilir və axıcılıqla bir-birinə keçən dairəvi məkanları müşahidə edirlər (Мамедова, 2004, s.76).

Monastırın adının etimologiyası yeddi qardaşın və kilsənin yeddi apsidası (qapı yerləşən



*Yeddi Qapı monastırının girişi*



*Yeddi Qapı monastırının həyatindəki qurbangah*



*Monastır qalıqları*

apsida nəzərə alınmamaqla) ilə əlaqəlidir. Belə ki, məbəddə yeddi qapını xatırladan, müxtəlif ölçülü, yeddi apsida tikilibdir. Kilsənin apsidaları alban memarlıq ənənələrinə xas nalvari formaya malikdir. Kilsənin günbəzaltı hissəsini dörd nalvari apsida və dörd niş əhatə edir. Əsas dörd apsidanın hər biri nal formasında qatlanaraq bir qədər tikilinin içinə daxil olur. Nazik və kobud yonulmuş daşların qübbə qabırğalarına yatırdılmış konx tağları da eyni formaya malikdirlər. Beş tağ yuxarısında qatlanmış çubuq forması olan sadə impost üzərində dayanır. Altar tağının impostu bir qədər daha çox haçalanmışdır. Belə dekor Qafqaz Albaniyası memarlığının erkən orta əsrlər dövrünə aid məbəd nümunələrinin bir çoxu üçün xarakterikdir. Kilsənin inşaat texnikası da əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud daş və əhəng məhlulu hörgüsünə əsaslanır.

Kilsənin yeganə girişi 1.06 m enə malikdir və kilsənin qərb tərəfində yerləşir. Həmçinin girişin timpanı da saxlanmışdır. Bu hissədən kilsə ciddi dağıntıya məruz qaldığından girişdən yuxarı hissədən heç nə qalmamışdır. Cənub və şimal divarları qismən daha yaxşı saxlanmışdır, şimal apsidasının hörgüsü hətta barabana qədər dövrümüzə çatmışdır. İşıqlandırma apsidalar və barabanda yerləşdirilmiş pəncərələr vasitəsiylə həyata keçirilmişdir (Мамедова, 2004, s.75). Şimal apsidasında yerləşən yeganə saxlanılmış pəncərə və qapı çərçivələri naxışsız, yonulmuş daşdan hazırlanmışdır.

Kilsənin xarici plan cizgiləri daxili haçalanma ilə tamamilə uyğunluq təşkil edərək dörd böyük və dörd kiçik qövsvari hissədən təşkil olunub. Məbədin, üzərində baraban və günbəz yüksələn zəif bükülmüş, demək olar ki, silindrik formaya malik olan aşağı həcmi kilsəyə əzəmətli, lakin dünyəvi görünüş verir (Мамедова, 2004, s.76).

Yeddi qapı məbədi də bölgənin digər alban kilsə və monastırları kimi işğal dövründə ermənilər tərəfindən ciddi dağıntılara və saxtalaşdır-

malara məruz qalıb. Abidənin giriş qapısı üzərinə ermənilər tərəfindən bura gətirilmiş yeni xaçdaşlar yerləşdirilmiş, üstündə dəmirlə müasir erməni dilində yazılar cızılmışdır. Xaçdaşın başqa ərazidən gətirildiyi açıq-aydın sezilir. Bu, Ermənistanın 30 il işğal altında saxladığı ərazilərimizdəki mədəni dəyərlərimizə qarşı törətdiyi növbəti saxtakarlığıdır. Məbəd ərazisindən saxta xaçdaşların və bu xaçdaşlar üzərində cızılmış yazıların Yeddi qapı məbədinin tikildiyi dövrə və məbədin özünə heç bir aidiyyatı yoxdur.

Belə saxtakarlıqlar cox təəsüf ki, Amaras, Xudavəng, Gəncəsər kimi bütün alban məbədlərində edilmişdir. Alban məbədləri Azərbaycanın mədəni irsi, xalqın milli və tarixi sərvətidir. Bir xalqın mədəni irsinin digər xalq, millət və ya xalqlar və ya millətlər tərəfindən dağıdılması, məhv edilməsi və ya vandalizmə uğradılması kimi hərəkətlər beynəlxalq qanunlar və konvensiyalara görə yolverilməzdir.

## MÜQƏDDƏS İOHANN MONASTIRI (X əsr), Böyük Tağlar kəndi

Müqəddəs İohann monastırı Xocavənd rayonunun Böyük Tağlar kəndində yerləşir. Bu tarixi-memarlıq abidəsi Böyük Tağlar kəndindən 10 km şimalda, meşələrlə örtülü dağlıq ərazidə inşa edilmişdir. Cənub tərəfdən kompleks sıldırım qayalarla əhatə olunub. Şərq tərəfdən abidə ərazisi sərt qayalarla çevrələnsə də şimala doğru qayalıq ərazi düzənliklə əvəzlənir. Monastırın şimal və qərb tərəfləri müdafiəsiz qaldığına görə həmin istiqamətlərdən monastırı qoruyan qala divarları tikilmişdir.

Monastırın dəqiq inşa tarixi bilinməsə də, qədim xarabalıqlardan aşkarlanmış xaçdaşlar üzərindəki kitabələr monastırın ən geci X əsrdən fəaliyyət göstərdiyini söyləməyə əsas verir. Kitabələrdən birində abidənin 997-ci ilə aid olması Amaras yepiskopu tərəfindən inşa edildiyi məlum olur. X əsrdən fəaliyyət göstərən monastıra Kirakos adlı rahib rəhbərlik edib. Digər kitabə isə XIII əsrin 1228-ci ilinə aid edilir.

Kompleks iki hissəyə bölünmüşdür. Bir qrup tikili sıldırım qayanın küncündə, digər qrup isə həyətin şimalında yerləşir. Birinci qrupa üç dini tikili, ikinci qrupa isə ikiqat divarlarla əhatə olunmuş kilsə daxildir. Bütün tikililər arasında uzun-



*Müqəddəs İohann monastırı (X əsr), Böyük Tağlar*



*Hadrut qəsəbəsi, 2021-ci il*



*Alban kilsəsi (1170), Hadrut qəsəbəsi*



*Kilsənin daxili interyeri*

vari plana malik, narteksli kilsə binası xüsusi diqqət çəkir.

Kilsə tamamilə dağıldığına görə, onun sahəsini dəqiq müəyyən etmək mümkün olmamışdır. Xarabalıqlar arasında kilsə divarlarından düşmüş bədii ornamentli xaçdaşlar və arxaik dizayna malik kapitel tikilinin qədimliyi haqda müəyyən təsəvvür yaradır. Xarabalıqlarda kilsə divarlarının, apsida və portalın aşağı hörgü qatları qalmışdır. Kilsə binası 1.5 metr qalınlığa malik hündür ikiqat müdafiə divarları ilə əhatə olunmuşdur. Kilsənin özü isə tərəfləri 6.5x3 metr olan düzbucaqlı formadadır. Tikili yüksəklik ərazidə tikildiyindən qala divarlarının qapısından kilsəyə aparan bazalt lövhələrdən hörülmüş pilləkən inşa olunmuşdur.

Kilsədən cənub-qərb tərəfdə düz ərazidə kvadrat formalı plana malik (ölçüləri 9x9 metr) tikilinin xarabalıqları vardır. Tikilinin divar hörgüsündə yaxşı yonulmuş, iri ölçülü daş bloklardan istifadə edilmiş, eyni zamanda karnizlər və digər dekorativ elementlərin qalıqları dövrümüzə çatmışdır.

## ALBAN MƏBƏDİ (1170), Hadrut qəsəbəsi

Hadrut Qozluçayın dərəsində Ərgünəş dağı yaxınlığında yerləşir. Hadrut bölgəsi Dizaq mahalının tərkibində olmuşdur. Hadrutda həm qədim, həm də erkən və orta əsr xristianlıq dövrünə aid abidələr mövcud idi.

Hadrut qəsəbəsinin mərkəzində alban məbədi yerləşir. Məbəd ərazisində vaxtilə inşa edilmiş kitabədə kilsənin inşa tarixi 1170-ci il olaraq qeyd edilmişdir.

Hal-hazırda kitabə kilsənin ərazisində yoxdur.

## MÜQƏDDƏS TANRI ANASI KİLSƏSİ (XII əsr), Hünərli kəndi

Müqəddəs Tanrı anası kilsəsi Xocavənd rayonunun Hünərli kəndində yerləşən alban tarixi-memarlıq abidəsidir. Hünərli kəndinin keçmiş adı XIX əsr rus mənbələrində Zakuri, Zakurli olaraq keçirdi. 1992-ci ildən rəsmi olaraq Zakirli adlandırılsa da 2020-ci il 7 noyabr tarixində Azərbaycan Silahlı qüvvələri kəndi işğaldan böyük hünər göstərərk azad etdikləri üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 noyabr 2020-ci il tarixli sərəncamı ilə kənd Hünərli adlandırılmışdır.

Hünərli kəndindəki Müqəddəs Tanrı anası kilsəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Vaxtilə burada mövcud olmuş qədim monastır kompleksindən dövrümüzə yalnız əsas kilsə binası çatmışdır. Kilsə Hünərli kəndinin mərkəzində, meyvə bağlarının arasında yerləşir.

Müqəddəs Tanrı anası kilsəsinin divarlarında vaxtilə mövcud olmuş kitabələr bu monastırın artıq XII əsrdən fəaliyyət göstərdiyini söyləməyə əsas verir. Kilsə ərazisindəki ən qədim tarixə malik xaçdaşlardan biri üzərindəki yazı "1198-ci ilə" aidddir. Kilsə timpanındakı digər kitabədən tikilinin 1682-ci ildə köhnə kilsənin əsasında bərpa edildiyi məlum olur. Kilsənin portalının qabarıq dekorasiyası onun daha sonrakı dövrə aid olduğunu göstərir. Yarımdairəvi timpann mərkəzində kiçik xaçdaş yerləşdirilmiş, yanlarda isə kilsənin bərpası haqda məlumat verən kitabələr olmuşdur. Kitabədə qeyd edilir ki, 1682-ci ildə köhnə kilsə bərpa edilmişdir (Бархударян, s.73).

Kilsə xaricdən düzbucaqlı, daxildən isə günbəzli bazilika formasındadır. Kilsə divarları daxildən əhəng məhlulu ilə suvanmışdır. Tağlar, nişlər və altar karnizlərinin inşasında yaxşı yonulmuş mavi tonlu daşlar, digər divar hörgüsündə isə ko-



*Hünərli kəndi, 2022-ci il*



*Müqəddəs Tanrı anası kilsəsi (XII əsr), Hunərli kəndi*



*2021-ci il martın 15-də Azərbaycan Respublikasının Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədinin vəziyyəti ilə tanış olublar.*



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Hünərli kəndindəki alban məbədində*

bud yonulmuş yerli daşlardan istifadə edilmişdir. Divarların qalınlığı bir metrdən artıqdır. Altar yanlarında yerləşən köməkçi otaqlar, altar və onun iki tərəfindən dama qalxan pillələnlərin inşaat detalları Kitşvəng monastırının baş kilsəsinin analoji hissələrinin memarlıq detalları ilə oxşarlıq təşkil edir. Kilsənin sol tərəfdəki köməkçi otağının tavanında qədim dövrə aid olduğu ehtimal edilən ilan qabartması formasında bədii ornament mövcuddur.

Kilsənin xarici görünüşü onun vaxtilə günbəzlə tamamlandığını deməyə imkan verir. XIX əsrdə Müqəddəs Tanrı anası kilsəsi haqda məlumat verən Makar Barxudaryan da kilsənin vaxtilə günbəzli olduğundan bəhs edir: "Tağlardan yuxarıda günbəz yerləşirdi, dövrümüzdə həmin günbəz dağılmışdır. Ola bilsin ki, burada əvvəllər monastırın başkilsəsi olmuş, sonradan o, adi kilsəyə çevrilmişdir" (Бархударян, 1895). Belə ki, kilsənin ibadət zalı zal-günbəz kilsələri üçün xarakterik olan həcmdədir, həmçinin günbəzi saxlamaq üçün inşa edilən günbəzaltı kvadrata malikdir. Məlumdur ki, Qafqaz Albaniyası memarlığında günbəz memarlığı erkən orta əsrlərdən başlayaraq kilsə tikintisində mühüm rol oynamışdır. Günbəz memarlığının inkişafı və günbəzin səma sferası kimi ideya-məzmun təfsirinin yayılmasından sonra erkən orta əsrlərdən zal kompozisiyalı kilsələrə də günbəzlər əlavə edilməyə başlamışdı. Qafqaz Albaniyasında günbəzli zal kilsələrin meydana gəlməsi VII əsrə aid edilir (Мамедова, 2004, s. 42). V-VII əsrlərdə Qafqaz Albaniyasının memarlığında öz təsdiqini tapmış günbəz memarlığı, IX-X əsrlərdə artıq mövcud olan memarlıq tiplərinin çoxsaylı formalarının yaradılması ilə inkişaf etdirildi (Мамедова, 2004, s. 94).

1992-2020-ci illər erməni işğalı dövründə ermənilər qədim Azərbaycan torpaqlarında özləri üçün saxta tarix yaratmaga çalışaraq bu qədim alban kilsəsini də erməniiləşdirilməyə çalışıblar. Kilsə ciddi dağıntılara məruz qalmış, divarlarına saxta yazılar yazılmışdır. İşğalçılar bu illər ərzində Qarabağ və Şərqi Zəngəzur torpaqlarındakı bütün maddi-mədəni, dini abidələr kimi bu qədim alban məbədini də vəhşicəsinə dağıtmış, üzərində yazılar yazaraq təhqir etmişdilər. Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü Qarabağın və Zəngəzur torpaqlarını azadlığa qovuşdurmaqla yanaşı, Azərbaycanın tarixi, mədəni irsini də erməni vandallarından xilas etdi.

Prezidenti İlham Əliyev 2021-ci il martın 15-də Füzuli və Xocavənd rayonlarına səfəri zamanı Xocavənd rayonunun Hünərli kəndindəki alban məbədinin acınacaqlı vəziyyətinin, bu qədim alban məbədinin divarlarında yazılar yazılaraq ermənilər tərəfindən necə təhqir edildiyinin şahidi olmuş və bununla bağlı demişdir: "Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması

bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar. Uçurublar, dağıdıblar, qapını da yandırıblar. Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur!? Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar"*.

Bu gün azad Qarabağ və Zəngəzur torpaqlarında böyük tarixi, mədəni, dini abidələrin bərpa edilməsi istiqamətində geniş quruculuq işləri aparılır. 2021-ci il noyabr ayında Hünərli kəndindəki bu qədim alban kilsəsini Azərbaycan xalqının tolerantlığı sayəsində alban xristainlıq ənənələrini bu günədək qoruyub saxlamış udilər ziyarət etmişlər. Alban udilər burada dini ayin icra edərək, bu torpaqların azad edilməsi ugrunda canlarından keçərək şəhid olmuş Azərbaycan əsgərlərinin ruhuna şamlar yandırıb, dualar oxumuşlar.



*Kilsə xaricdən düzbucaqlı, daxildən isə günbəzli bazilika formasındadır.*



*Udi Alban Xristian İcması Hünərli kəndindəki alban məbədində, 4 noyabr 2021-ci il*

## MÜQƏDDƏS YELISEY MONASTIRI, Çartar kəndi

Müqəddəs Yelisey monastırı Xocavənd rayonu Çartar kəndi ərazisində yerləşən tarixi-memarlıq abidəsidir. Monastır Çartar kəndinin cənubunda, yüksək dağlıq ərazidə yerləşir. Barxudaryan Sos (hazırda Cütçü) kəndi ilə Quzey Çartar arasındakı ərazidə yüksələn dağın başında Yeliseyin şərəfinə tikilmiş monastır qalıqlarından bəhs edir.

Monastırın başkilsəsi daha qədim kilsənin yerində inşa edilmişdir. Kompleksin yeganə kilsəsi olan baş kilsə kitabələrdə Müqəddəs Yelisey kilsəsi adlandırılır. Barxudaryan qədim kilsənin iki sütun üzərində ucaldıldığını yazır. Qədim kilsənin inşaat tarixi dəqiq bilinmir.

Monastır ərazisində aşkar edilmiş XII əsrə aid kitabədən məlum olur ki, bura, əyalətin ən mühüm ziyarətgahlarndan biri olmuşdur. Kitabədə kilsənin 1124-cü ildə Albaniyanın, həmçinin Gəncəsərin ilk katolikosu Müqəddəs Yeliseyin şərəfinə tikildiyi yazılır (Бархударян, 1895, s.107). Güney Çartardakı kilsənin altarında yerləşdirilmiş

* *https://president.az/az/articles/view/50893*



*Müqəddəs Yelisey monastırı (XII əsr), Çartar kəndi*

epiqrafik yazıda monastırın 1236 -ci ilə "Xanımın şərəfinə" təmir edildiyi yazılır. Kitabədə kilsəni inşa edən "Usta Toni"nin adı qeyd edilib. XIX əsr müəllifi Barxudaryan yazır ki, monastırda üzərində epiqrafik yazı olan qədim xaçdaş olub. Müəllif xaçdaşın kilsənin ətarıfndakı başdaşından qoparılaraq bura gətirildiyini yazır. Üzərindəki yazılardan məlum olur ki, bu qədim xaçdaş Məlik Şahnəzərin nəslindən olan Mirzəxanın Güləsmər, Mumxanım, Nazlı və s. ibarət ailəsinin xatirə daşıymış (Бархударян, 1895, s.105). Barxudaryanın verdiyi məlumata görə, xaçdaşın üzərində yazılır: Mən aqvan bu daşı öz ailəmin, xanımım Nazlının, oğul və qızlarımın xilası üçün ucaltdım (Бархударян, 1895, s.107). Barxudaryanın Qarabağ kilsələri ilə baglı məlumatlarından bu da aydın olur ki, bölgənin, demək olar bütün kitabələrində alban (aqvan) ifadəsinə və türkmənşəli adlara rast gəlinir. Bu da, Qarabağın xristian alban nəsillərinin türk köklərindən xəbər verən mühüm faktlardandır.

Divarın ön hissəsindəki kitabədən isə bəlli olur ki, dağıdılmış qədim kilsənin yerində XVII əsrdə yeni kilsə tikilmişdir. Divar hörgüsündə qədim tikilinin çoxlu sayda qalıqlarından – xaçdaşlar, ornament və məişət səhnələri ilə bəzədilmiş plitələr, kitabəli daşlardan istifadə edilmişdir.

İki pilonu və tağtavanı ilə Müqəddəs Yelisey kilsəsi memarlıq baxımından son orta əsrlər dövrünün tipik xüsusiyyətlərinə malikdir. Altarın hər iki tərəfində düzbucaqlı formaya malik köməkçi otaqlar yerləşir. Divarlarda iç tərəfdən üç böyük niş vardır. Kilsənin yeganə giriş qapısı onun qərb divarında yerləşir. Tağlar, pilonlar, pəncərə və qapı çərçivələrinin inşasında yaxşı yonulmuş daşlardan istifadə edilmişdir. Digər divar yerlərinin hörgüsündə yonulmamış bazalt daşlarından istifadə olunub. Divar hörgüsündə həm də qədim tikilinin çoxlu sayda qalıqları – kvadrlar, xaçdaşlar, ornament və məişət səhnələri ilə bəzədilmiş plitələr, kitabəli daşlardan da istifadə edilmişdir. Kilsənin

divarları daxildən əhəng məhlulu ilə suvanmış olsa da, suvaq dövrümüzə yalnız divarın bəzi hissələrində çatmışdır.

Monastırın icərisindəki qədim qəbir daşı əsas sitayiş yeri idi. Şam və ağcaqayın ağacları arasında yerləşən monastırın ətrafında zəngin ornamentli müxtəlif xaçdaşlar və qədim qəbir daşları olmuşdur.

XIX əsr müəllifi Barxudaryan Quzey Çartar kəndindəki bu kilsədə incilin qədim əlyazması olduğundan bəhs edir (Бархударян, 1895, s.108) Əslində alban kilsələrində qorunub saxlanılan Alban incilləri yalnız dini rituallar üçün deyil, həm də Alban din xadimləri tərəfindən tərtib edilən bir növ tarixi salnamə olub, Alban kilsəsinin tarixinin öyrənilməsi və nəsildən-nəslə ötürülməsi üçün qiymətli mənbə rolunu oynayırdı. Xüsusilə də bu kitablardakı xatirə qeydləri alban tarixinin salnamələr şəklində yazılması ənənəsinin bir növ davamı idi və yazıldığı dövrü xarakterizə edən qiymətli mənbə idi. Alban kilsəsində aşkar edilən incil kitabının səhifələrinə qeyd edilmiş xatirə yazılarından Alban Apostol Avtokefal Kilsəsinin XIX əsrə qədər müstəqil olduğu məlum olur. Xatirə yazıları sayəsində alban katolikoslarının fəaliyyətini XVIII əsrə qədər izləmək mümkün olmuşdur. Ona görə də Çar hökumətinin fərmanı ilə 1836-cı ildə Alban Katolikosluğu ləğv edildikdən sonra monastırların fiziki olaraq məhv edilməsi, dağıdılmasilə yanaşı, alban monastırlarından hər şey, o cümlədən də belə xatirə qeydləri olan alban İncilləri müəmmalı şəkildə yox olmağa başlamışdı. Erməni kilsəsi səylə bütün üzərində xatirə yazıları olan alban İncillərini də məhv etməyə başladı. Barxudaryan yazır ki, XIX əsrin sonunda alban İncilləri Qarabağın yalnız bəzi bölgələrində ayrı-ayrı kilsələrdə tək-tük qalmışdı. Belə xatirə yazılarının olduğu İncilərdən biri də Çartar kəndindəki Müqəddəs Yelisey monastırında olmuşdur.

## Tuğ kəndinin alban abidələri

*"Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq. Bura qədim Azərbaycan torpağıdır".*

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

Azərbaycanın həm qədimliyi, həm də tarixi-mədəni abidələrinin zənginliyi ilə seçilən Tuğ kəndi Azərbaycan tarixində və mədəniyyətində əhəmiyyətli rol oynamışdır. Tuğ kəndinin tarixi çox qədim dövrlərə gedib çıxır. Qədim türkmənşəli kəlmə olub "zirvə", "bayraq" kimi mənalar daşıyan Tug/Tuq deyimi həm də məşhur qıpçaq tayfalarından birinin adı ilə bağlıdır.

Qarabağın ən qədim kəndlərindən biri olan Tuğ kəndi VIII əsrə aid hadisələrdə xatırlanır. VIII əsrdə Beyləqan hakimi ərəb işğalçılarından müdafiə olunmaq üçün Tuğ kəndi yaxınlğındakı məşhur Ktiş qalasına pənah aparmışdı.

Tuğ kəndi Qarabağ xanlığı dövründə Dizaq mahalının başkəndi olmuşdur. 1939-cu ilə qədər Tuğ Dizaq mahalının mədəni mərkəzi, paytaxtı olaraq qalmaqda idi.

Alban məliklərinin idarə etdiyi Dizaq mahalının iqamətgahı Tuğda yerləşirdi. Bu kənddə Məlikyeqanovlar, Məlikaslanovlar, Cahangirlilər, Mehdibəylilər, Aslanbəylilər, Gülməmmədlilər, Talıbxanlılar, Budaqlılar, Səlimbəylilər, Cəfərlilər, Vəliuşağılar kimi məlik nəsilləri yaşamışlar. Dizaq məlikliyinin sarayı, Ağa bəy Məlikaslanovun, Mahmud bəy Məlikaslanovun mülkləri kənddə bu günədək qalmaqdadır. Tuğ məzarlığında "Qarabağnamə"nin ilk müəlliflərindən biri Mirmehdi Xəzani dəfn olunmuşdur.

Tuğ kəndi, xüsusilə, Qafqaz Albaniyası dövrü abidələri ilə zəngindir. Kənddə Müəqəddəs Stefan



*Tuğ kəndi, 2022-ci il*



kilsəsi (XII əsr), Müqəddəs İohan kilsəsi(XIII əsr), Müqəddəs Məryəm kilsəsi, Qırmızı kilsə, Dizaq məlikliyinin sarayı (XVIII əsr), Tuğ dağının zirvəsindəki Kitş qalası kimi çox sayda qiymətli tarixi-memarlıq abidələri mövcuddur.

1991-2020 ci illər boyu Tuğ kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında olmuşdur. Bu dövrdə kəndin tarixi əhəmiyyətli abidələrinin, qədim qəbristanlıqlarının böyük bir qismi dağıdılaraq yararsız hala salınmışdır. Kəndin alban dövrünə aid tarix və mədəniyyət abidələri isə bərpa adı altında saxtalaşdırılaraq əvvəlki görünüşləri dəyişdirilmiş, işğal illərində erməni mədəniyyət nümunələri kimi təqdim edilmişdir.

Xüsusilə də, Tuğ kəndinin mərkəzində yerləşən, XII-XIII əsrlərə aid edilən alban kilsəsi ermənilər tərəfindən ciddi vandalizmə uğradılmış abidələrindəndir. Kilsə ətrafına xeyli sayda yeni qəbir daşları düzülmüş, abidənin giriş qapısı sökülərək yenilənmiş, kilsənin damı dəmir təbəqə ilə örtülmüş, divarları üzərindəki bədii ornamentlər silinmiş, divar yazıları yenilənmişdir.

İşğal dövründə Tuğ kəndindəki Dizaq məlikliyi saray kompleksinin ilkin tarixi görünüşü də dəyişdirilmiş, ermənilər bu tarixi memarlıq abidəsində bir sıra qanunsuz tikintilər apararaq binanın arxitekrurasını dəyişdirmişlər.

2020-ci il noyabr ayının 9-u Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilməsilə Tuğ kəndinin, ümumiyyətlə, Qarabağ və Zəngəzurun yeni dövrü başlamışdır. 2021-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümü münasibətilə Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tuğ kəndində olmuş, sakinlərə Tuğun bərpası üçün ayrıca konsepsiya hazırlandığını bildirmişdir*.

* *https://president.az/az/articles/view/53402*



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocavənd rayonuna səfəri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tuğ kəndində olub. 9 Oktyabr 2021-ci il.*



*"Tuğ kəndinin bərpa konsepsiyası hazırlanır..."*
*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*



*Müqəddəs Stefan kilsəsi (XII əsr), Tuğ kəndi*



*Müqəddəs Stefan kilsəsi*

## MÜQƏDDƏS STEFAN KİLSƏSİ (XIII əsr), Tuğ kəndi

Müqəddəs Stefan kilsəsi Tuğ kəndinin cənub-qərb tərəfindəki qədim qəbirstanlıq ərazisində yerləşir. Kilsə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydiyyata alınmışdır.

Müqəddəs Stefan kilsəsinin inşa tarixi dəqiq bilinməsə də, kilsə ərazisindən aşkar ediilmiş kitabədən məlum olur ki, XII əsrdə ibadətgah qədim tikilinin təməli üzərində inşa edilmişdir. M.Barxudaryan kilsənin girişində timpandakı kitabədən 1747-ci ildə Məlik Yeqan və oglu Məlik Yesainin Müqəddəs Stefan kilsəsini bərpa etmələri barədə məlumatı oxumuşdu (Бархударян, 1895, s.77). Makar Bərxudaryan kilsənin çox qədim olduğunu, təxminən XII əsrdə tikildiyini yazırdı. Timpandakı kitabədən məlum olur ki, kilsə daha əvvəl də mövcud olub və Məlik Yeqan oğlu ilə birlikdə onun təmirini həyata keçiriblər. Kilsə bir çox alban məbədləri kimi qədim bütpərəst inanc yeri üzərində inşa olunmuşdur. Burada həmçinin orta əsrlərdə monastır kompleksinin olması da ehtimal edilir. Qarabağın alban abidələrinin bir çoxu kimi kilsə də daha qədim məbədin təməli üzərində inşa edilib. Müəyyən tarixi dövrlərdə XIV-XV əsrlərdə, daha sonra XVI-XVIII əsrlərdə kilsə yenidən bərpa edilmişdir. Təmir zamanı qədim tikili qalıqları və inşaat materiallarından istifadə olunmuşdur.

Burada qədim divarların qalıqları müşahidə edilirdi. Kilsənin divarlarına hörülmüş müxtəlif ornament, motivlər, yazıların olduğu xaçdaşları və digər qədim tikili qalıqları mövcuddur. Kilsənin bünövrəsindəki hörgüdə alban memarlığı üçün səciyyəvi olan ağ rəngli tuf daşlarından istifadə olunmuşdur.

Kilsə, planda düzbucaqlı zal formasına malik olmaqla, tağtavan (12x7.8 m), şərq tərəfində isə altar və köməkçi otaqlara malik tikilidir. Kilsənin divarları çapılmış və kobud yonulmuş daşlardan tikilmişdir. Fasad üzləmələrində kobud yonulmuş daşlardan, tağ, həmçinin pəncərə və qapı çərçivələrinin hörgüsündə isə yaxşı yonulmuş daş-

lardan istifadə edilmişdir. Abidə ön tərəfdən bir, arxa tərəfdən isə üç kiçik pəncərəyə malikdir. İçəri məhz bu pəncərələr hesabına işıqlanır. Kilsənin mərkəzində yerləşən qeyri-adi formalı pilon onun həcmini iki hissəyə bölür: kiçik hissədə qədim məzarlar vardır. Kilsənin altarı 50 sm hündürlüyündədir. Ərazinin relyef xüsusiyyətlərinə görə, kilsənin döşəməsi yer səviyyəsindən 1.5 metr aşağıda qalıb.

Müqəddəs Stefan kilsəsinin girişinin hər iki tərəfinə böyük xaçdaşlar hörülüb. Ümumiyyətlə, kilsənin bütün divarları xaçdaşlarla hörülmüşdür. Üzəri xaçdaşlarla örtülü, çox hissəsi kobud yonulu daşlarla tikilmiş kilsənin divarlarında bərabər tərəfli alban xaçlarının olduğu çoxlu xaçdaş vardır. Xaçdaşların bir çoxu kitabələrlə bəzədilmişdi. Qədim kilsənin həyətində üstünü mamır basmış xeyli zəngin bədii ornamentli qədim məzar daşları olmuşdur. Daşların üstü atlı, ovçu, musiqiçi motivləri ilə zəngindir. Kilsə ətrafndakı onlarla qədim məzar daşları üzərində Azərbaycan xalqına xas milli ornamentlərlə bəzədilmiş çoxlu bədii səhnələr vardır. Qədim bütpərəst məbədinin yerində inşa edilmiş bu alban kilsəsini yerli azərbaycanlılar ocaq, pir kimi ziyarət edib, xoruz kəsərdilər.



*Müqəddəs Stefan kilsəsinin içərisi*



*Müqəddəs Stefan kilsəsinin planı*



*Müqəddəs Stefan kilsəsinin divarlarına hörülmüş böyük xaçdaşlar*

Kilsənin divarlarında 51 xaçdaş olmuşdur. Zəngin ornamentli bu xaçdaşlar xronoloji baxımdan bərabərtərəfli qədim alban xaçlarından XIII əsrə aid klassik kompozisiyalara qədər müxtəlif dövrləri əhatə edirdi. Kilsənin ətrafındakı təpəlik ərazidə işğal dövründən öncə üzərində döyüşçü, ovçu, musiqiçi təsvirlərinin olduğu zəngin süjetli yüzlərlə qədim başdaşları olmuşdur (Мкртчян, 1988, s.78).

Hazırda abidənin çox hissəsi torpağın altında qalıb, sol divarının daşlarının isə xeyli hissəsi sökülüb. Abidə acınacaqlı haldadır, damını ot basıb, dağılmaq təhlükəsi ilə üz-üzədir.

## MÜQƏDDƏS İOHANN KİLSƏSİ (XIII əsr), Tuğ kəndi

Tuğ kəndinin mərkəzində daha bir alban məbədi – Müqəddəs İohann kilsəsi yerləşir. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Müqəddəs İohann kilsəsi erkən orta əsrlər dövrünə aid bazilikadır. Tuğ kəndindəki Müqəddəs Stefan məbədi kimi, bu kilsə də daha qədim dövrə aid tikilinin təməli üzərində inşa edilmişdir. Kilsənin hazırkı binası XIII əsrdə qədim bir məbəd yeri üzərində tikilmişdir. Makar Barxudaryan binanın özülünün daha qədim tarixə malik olmaqla ən geci XIII əsrdə inşa edildiyini yazır (Бархударян, 1895, s.75). Kilsə apsidasının sağ tərəfində, köməkçi otağın girişinin qarşısında döşəmə səviyyəsindən bir qədər yüksəkdə nəhəng sütun altlıqlarının qalıqları görünür.



*Müqəddəs İohann kilsəsi (XIII əsr), ilkin görünüşü.*



*Müqəddəs İohann kilsəsi, 2021-ci il. İşğal illərində ermənilər tərəfindən qanunsuz bərpa işlərinə məruz qalmış kilsənin ilkin görünüşü dəyişişdirilmiş, ətrafına xeyli sayda kənardan gətirilmiş qəbir daşları düzülmüşdür.*





*Müqəddəs İohann kilsəsi*



*Müqəddəs İohann kilsəsinin cənub divarındakı qapı qədim qəbir daşlarının olduğu kiçik həyətə açılır.*



*Tuğ kəndi, 2022-ci il*

Vaxtilə giriş qapısı üzərində Müqəddəs İohann kilsəsinin damının 1736-cı ildə Dizaq məliyi Məlik Yeqan tərəfindən bərpa etdirildyi barədə məlumat verən kitabə olmuşdur. Kilsənin divarında qeydə alınmış kitabədə deyilirdi: "1736-cı ildə. Müqəddəs İohann kilsəsinin damı vardapet Qukasın oğlu Məlik Yeqan tərəfindən bərpa etdirilmişdir. Kim oxusa, heç olmasa bir dəfə desin: Allah rəhm elə" (Бархударян, 1895, s.74). Lakin hal-hazırda kitabə yox edilmişdir.

Müqəddəs İohann kilsəsi böyük mailliyə malik ərazidə inşa edilmişdir. Kilsənin qərb divarı bütövlükdə qayaya sıxılmış olsa da, şərq divarı tamamilə açıqdır və hətta təməli də görünür. Buna görə də qərb divarında bir, şərq divarında isə üç pəncərə yeri açılmışdır. Kilsənin yeganə qapısı cənub divarında, daş qala divarları ilə əhatə olunmuş kiçik həyətə açılır. 12.9x21.7 metr ölçülərə malik zalın tavanı yerli daşlardan hazırlanmış dörd pilona söykənir. Cənub divarının hörgüsündə yaxşı yonulmuş kvadrat formalı daşlar, digər divarlarda isə yarımyonulmuş daşlardan istifadə edilmişdir. Tağtavanın yüksəkliyi səbəbiylə damın tərəfləri sərt mailiyə malikdir. Ümumi xüsusiyyətləri və nisbətləri ilə Xocalının Çanaqçı kəndindəki kilsəni xatırladır.

Həyətin cənub-şərq tərəfi dairəvi qala bürcü ilə əhatə olunmuşdur. Buradan bütün kənd ərazisinə, həmçinin ətraf bağlar və dağlara gözəl mənzərə açılır. Həyətin cənub tərəfində iki mərtəbəli bina vardır. Binanın ikinci mərtəbəsinin qapısı həyətə açılır, birinci mərtəbəsi isə yalnız həyətdən görünür.

Abidənin ərazisində müxtəlif ölçülü və üzərində zəngin ornamentlər, insan fiqurları həkk edilmiş sənduqələr yerləşir. Kilsənin sol tərəfində tikilmiş dar və uzun sövmədə məlik nəslinə məxsus şəxslər – Məlik Qukas, Məlik Yeqan, Məlik Aram, Məlik Yesaya dəfn olunub.

Tuğ kəndinin mərkəzində olan bu alban kilsəsi sovet dövründə klub kimi fəaliyyət göstərib. 30 illik işğal ərzində isə bu qədim alban abidəsi ermənilər tərəfindən qanunsuz bərpa işlərinə məruz qalmışdır. Nəticədə ilkin görünüşü dəyiş-













*Kilsənin ərazisində süvari, musiqiçi təsvirləri , məişət səhnələri olan sənduqələr, xaçdaşlar, bədii təsvirli başdaşlar,*



*Alban-Udi Xristian Dini İcmasının üzvləri Müqəddəs İohann kilsəsində digər alban kilsələrində olduğu kimi  dini ayin icra edərək, şamlar yandırıb, dualar oxumuşlar. 2021-ci il*

dirilən kilsə erməni kilsəsi kimi istifadə olunmuşdur. Kilsənin ətrafına xeyli sayda kənardan gətirilmiş qəbir daşları düzülmüşdür. Abidənin giriş qapısı sökülərək yenilənmiş, kilsənin damı dəmir təbəqə ilə örtülmüş, divarlar üzərindəki ornamental görüntülər silinmiş, divar yazıları isə yenilənmiş, konstruksiyaya zəng qülləsi əlavə edilmişdir.

İşğaldan azad edilən Xocavənd rayonunun Tuğ kəndindəki bu qədim Alban məbədi uzun illərdən sonra 2021-ci ildə Alban kilsəsinin son varisləri olan alban udilər tərəfindən ziyarət edilib. Alban xristian ənənələrini tolerant və multikultural Azərbaycan cəmiyyətində yaşadan Alban-Udi Xristian Dini İcmasının üzvləri Müqəddəs İohann kilsəsində, digər alban kilsələrində olduğu kimi dini ayin icra edərək, şamlar yandırıb, dualar oxumuşlar.



*Tuğ kəndinin mərkəzində yerləşən Müqəddəs İohann kilsəsinə uzanan yol*



*Müqəddəs İohann kilsəsi əhatə olunmuşdur.*

# MÜQƏDDƏS MƏRYƏM KİLSƏSİ,
## Tuğ kəndi

Tuğ kəndində Müqəddəs Stefan kilsəsindən təxminən 200 metr yuxarıda, dağın döşündə daha bir alban abidəsi Müqəddəs Məryəm kilsəsi yerləşir. Bu tarix-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydiyyata alınmışdır.

Kilsə, Tuğ kəndinin şimal-qərb hissəsindəki qədim qəbirstanlıq ərazisində, hündür qoz ağacları ilə əhatə olunmuş sahədə yerləşir. Tuğun bu hissəsi yerli əhali tərəfindən Qızlar düzü adlandırılırdı. Yampolski yazır ki, XIX əsrdə Tuğ monastırında müqəddəs ağacların kəsilməsi katalikos tərfindən qadağan edilmişdi. Bunun uğursuzluq gətirəcəyinə inanırdılar (Ямпольский, 1962). Kilsə digər alban kilsələri kimi daha qədim bir tikili üzərində inşa edilmişdir. Buradakı bir-birlərinə yaxın yerləşən kilsələr və hücrə qalıqları, Barxudaryanın da yazdığı kimi, nə zamansa bu ərazidə mövcud olmuş monastıra daxil imiş.

Kilsə memarlıq baxımından tərəfləri 2x3 metr ölçüyə malik sadə düzbucaqlı zal-kilsə formasına malikdir. Demək olar ki, yarıya qədər yerin altında olduğu üçün kilsənin cənub divarındakı qapı vasitəsiylə içəri girmək mümkün deyil. İbadət zalı, apsida və köməkçi otaqlar da qismən yerin altında qalmışdır.

Kobud çapılmış daşlardan hörülmüş kilsənin arxa divarı bütövlükdə dağın içinə girib və tikilinin damı dağla birləşib. Digər divarlarının da çox



*Müqəddəs Məryəm kilsəsi, Tuğ kəndi*



hissəsi torpağın altında qalıb. Kilsənin yandan olan giriş qapısının üzərində xaçdaş var. Mehrabın (altar) ölçüsü bütün alban məbədlərində olduğu kimi 50-60 santimetr hündürlüyündədir. Kilsənin yaxınlığında çoxlu sayda rahib hücrələri və mülki tikililərin qalıqları, həmçinin məzar daşları vardı. Məbədin içərisində 3 məzar var. Kilsəsinin həyətində də çoxlu sayda qəbir daşları, sənduqələr yerləşir. "Burada Məlik Bahtamın (Dizaq mahalının məliyi Melik Yeqanın oglu – *M.P.*) məzarı yerləşir. Abidə işğal dövründə acınacaqlı hala düşmüşdür, hazırda dağılmaq təhlükəsi ilə üz-üzədir.

## QIRMIZI KİLSƏ (X əsr), Tuğ kəndi

Qırmızı kilsə Xocavənd rayonunun Tuğ və Binə kəndlərinin arasında, kiçik təpə üzərində yerləşir. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Dövlət əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Kilsənin inşa kitabəsi X əsrə aiddir. Kitabə kilsənin qərb qapısı üzərində aşkar edilib. Kitabədə deyilir: "1000-ci ilin yayında, Musanın oğlu Qaqikin hakimiyyəti dövründə mən, Musanın qızı Voski özüm və valideynlərimin ruhunu xilas etmək üçün Tanrı evini tikdirdim (Бархударян, 1895, I k., s.75).

Qırmızı kilsə memarlıq və bədii dəyəri baxımından böyük əhəmiyyətə malik olmaqla yanaşı



*Qırmızı kilsə (X əsr), Xocavənd rayonunun Tuğ və Binə kəndləri arasında yerləşir.*

Qafqaz albanlarının tarixi şəxslərinin adlarını qoruyub saxlamış ən erkən tarixə malik kitabəsi olan abidə kimi də böyük əhəmiyyət daşıyır.

Kilsə binası ümumilikdə 11 metr uzunluq və 6.45 metr enə malik kiçik ölçülü bazilikadır. Alban memarlığı üçün Ərəb istilasından əvvəlki dövrə aid birnefli bazilikalarla müqayisədə X əsrdə ölçülərinin daha kiçik olması səciyyəvi idi. Qırmızı kilsə bu tip tikili nümunəsidir. Ərəb istilası dövründə Qafqaz Albaniyasında dövlətçiliyin və xristian dininin dövlət dini statusunu itirməsi, rəsmi ideologiyadan məhrum edilmə, ibadətçilərin sayının qəfil azalması və sonradan alban əhalinin tədricən deetnizasiyası alban dini memarlığının iqtisadi və siyasi əsasını da dəyişdimişdi. Bu dövrdən etibarən keçmiş Qafqaz Albaniyası ərazisində xristian dini memarlıq nümunələrinin sayının ciddi azalmaları ilə yanaşı daha kiçik və sadə sövmə tipli kilsələr inşa olunmaqda idi. Qırmızı kilsə də məhz bu dövrdə inşa olunan kilsələrdən idi. Kobud işlənmiş daşlardan inşa edilmiş kilsə cənub və qərb divarlarında yerləşən iki qapıya malikdir (Мамедова, 2004).

Kilsənin dam örtüyü və cənub divarı dağılmışdır. Ətrafda kilsəni əhatə etmiş digər tikililərin xarabalıqları və təpəni əhatə edən qala divarlarının qalıqları müşahidə olunur.

## KTİŞVƏNG MONASTIRI (X-XIII əsrlər), Tağlar kəndi

Ktişvəng monastırı Tağlar kəndinin qarşısındakı yüksəklikdə Toxasar dağının şimal-şərq ətəyində yerləşir. Quruçayın sağ sahilində sıx meşəlik ərazidə ucaldılmış monastır XIII əsrə aid tarixi abidədir. Lakin XIX əsrdə monastırın içində daha qədim kilsə qalıqlarının aşkar edilməsi abidənin daha qədim dövrdə inşa edildiyini söyləməyə əsas verir (Barxudaryan I k. s.76) Kilsənin divarlarına hörülmüş ornamentli xaçdaşlardan biri üzərində 1000-ci il tarixi göstərilmişdir. Bu, dövrümüzə çatmış monastırın yerində vaxtilə daha qədim bir kilsənin olmasını göstərir.

XIII əsrdə yeni tikililər və əlavələr hesabına Ktişvəng monastırı da genişlənir. XI-XIV əsrlər alban xristian mədəniyyətinin yüksələrək yeni çiçəklənmə mərhələsinə keçməsilə Alban memarlığında da yeni bir dövr başlanmışdı. Məhz bu mərhələdə, xüsusilə də XIII əsrdən etibarən Azərbaycanın memarlıq xəzinəsinə daxil olan çoxlu sayda alban abidələri yaranmışdır. Bu dövrdə Xaçın knyazlığının yüksəldiyi Qarabağda alban knyazları sarayların, müdafiə və dini qurğuların tikintisi ilə yanaşı, monastırların tikilməsinə də çoxlu vəsait sərf edirdilər. Bu komplekslər ayrı- ayrı vilayətlərin mədəni və ictimai həyatının mərkəzinə çevrilirdi. Ktişvəng monastırı XIII əsrdə belə dini siyasi mərkəzlərdən birinə çevrilmişdi.

Ktişvəng Qarabağın əsas dini və siyasi mərkəzlərindən biri olmuşdur. Xüsusilə Dizaq məlikləri Avan və Yeqanın dövründə Qafqazın ən məşhur monastır komplekslərindən birinə çevrilir. Barxudaryan Ktişvəng monastırının Dizaq məlikliyinin yepiskopluğu olduğunu yazır (Бархударян,



*Ktişvəng monastırı (X-XIII əsrlər), Tağlar kəndi*



*Ktişvəng monastırı Qarabağın əsas dini və siyasi mərkəzlərindən biri olmuşdur.*

1895, s.4). Kalankatuklunın əsərində Ktişvəng monastırının adı çəkilmişdir.

Monastır ərazisində bir neçə kitabə aşkar edilmişdir. Monastırın divarlarında yerləşdirilmiş kitabələr və xaçdaşlar bölgənin orta əsrlər dövrü ilə bağlı əhəmiyyətli məlumatlar verir. Kitabələr erkən monastır tikililərinin ərəblərin Azərbaycanı işğal etməsindən sonra dağıdıldığından xəbər verir. Monastır ərazisindəki kitabələrdən birində monastırın XIII əsrdə ölkənin agır fəlakətlə üzləşdiyi monqol işğalları dövründə inşa olunmasından bəhs olunur. İnşaat işləri 1241-ci ildə başlamış, 1248-ci ildə tamamlanmışdır. Monastırın şimal divarında Yepiskop Sarkisin 1241-ci ildə bu kilsənin əsasını qoymasından bəhs edilir. Kitabədən kilsə tikintisinin 1248 də başa çatdığı məlum olur (Бархударян, 1895, s.77). Kitabədə oxatanlar qəbiləsi adlandırılan monqolların monastırlara vurduğu ziyandan da bəhs edilr. Kilsə binasının şimal divarındakı kitabə mətnindən məlum olur ki, Amaras monastırının dağıdılmasından sonra orada xidmət etmiş iki yepiskop qardaşlar Ktişvəng monastırına köçmüş və dağıdılmış köhnə kilsənin təmələri əsasında monastırın kafedral kilsəsini tikdirmişlər. Kitabədə bu hadisələrlə baglı yazılır: "Kilsə oxçular qəbiləsinin (monqollar nəzərdə tututlur) bütün ölkəni xarabalıqlara çevirdiyi və Amarası da dağıtdığı çətin bir vaxtda inşa edilmişdir."

Monastırın giriş qapısının sağ və sol tərəfində biri cənubda 1246-ci ilə, digəri şimalda1717-ci ilə aid iki bədii ornamentli xaçdaş olmuşdur. 1246-ci ilə aid xaçdaş monastırın keşişinin şərəfinə ucalıdlmışdı. 1717-ci ilə aid xaçdaş kitabəsinin mətnindən kilsə günbəzinin Tuğ sakini Sayə və xanımı Heriknazın xatirəsinə ucaldıldığı məlum olur (Бархударян, 1895, s.77).

Monastır kompleksində bir neçə yepiskop və alban feodallarının qəbir daşı var. Monastırın kitabələrindən birindən məlum olur ki, Ktişvəng monastırına Məlik Yeqanın xeyir duası ilə yepiskop təyin edilmişdir. Kitabə 1747-ci ilə aiddir. Kitabədən monastırdakı qəbir daşının kilsə keşişinə aid olduğu anlaşılır.

Monastır ərazisindəki kitabələrdə həmçinin kilsəyə bagışlanan torpaqlardan bəhs olunur. Kitabələrdə kilsənin inşa tarixi və kompleksin bərpası ilə bağlı ətraflı məlumatla yanaşı, Dizaq məliklərinin varislərinin monastıra bağışladığı torpaq mülkləri haqqında məlumat verilir: "Alban çayından başlayaraq Araz çayına kimi uzanan ərazilərdə, Həkəri (Zəngilan), Beyləqan, Dizaq kimi

bir çox ərazilərdə olan mülklərdən bəhs edilir (Бархударян, 1895, s.81) Kitabənin sonunda Tuğ, Möhrənis, Axullu kəndlərinin də monastır torpaqlarına aid olduğu yazılır. Lakin XIX əsrdə monastır torpaqları tamamilə qarət edilib dağıdılmışdır (Бархударян, 1895, I k. s. 77). Müəllif təəsüf hissilə yazır ki, bu möhtəşəm monastır tədricən dağılır, monastıra məxsus olan torpaqlar tamamilə qarət edilmişdir (Бархударян, 1895, I k. s.78)

Kompleksin əsas elementi kafedral kilsədir. Xaricdən 10x7.5 metr ölçüyə malik düzbucaqlı, daxildən isə mərkəzi günbəzli tikili, qoşa divar pilonları və yarımdairəvi apsidanın hər iki tərəfində yerləşən iki mərtəbəli otaqlara malikdir. Otaqların ikinci mərtəbəsinə girişlər daş pilləkənlərin apardığı apsidadan açılır. Qövsvari tağlar divar qabağındakı pilonları birləşdirməklə, həm də kilsənin çox iti uclu olmayan, lakin kifayət qədər yüksəkdə yerləşən günbəzini saxlayır. Silindrik baraban üzərində yerləşən günbəz, ikipilləli dam kərpiclərindən yığılmış yelpik formalı örtüyə malikdi. Kafedralın fasadları qoşa üçbucaqlı nişlərlə bəzədilmişdir. Pəncərə yerləri naxışlarla bəzədilmiş düzbucaqlı çərçivəyə malikdir. Kilsənin divarları həm xaricdən, həm də daxildən kifayət qədər sadə görünüşə malikdir. Kilsə ilkin görünüşünü dövrümüzə qədər saxlaya bilmişdir. Kilsənin memarlığındakı dekorativ motivlərin bir qismi Amaras monastırı və Gəncəsər monastırındakı motivlərlə oxşarlıq təşkil edir.

Kilsə yerli sarımtıl daşdan inşa edilmişdir. Kilsənin divarlarında qırmızı kərpiclə hörgü işləri müşahidə olunur ki, bu da XVII əsrdə həyata keçirilmiş bərpanın nəticəsidir. Monastır ərazisində kilsə binasından başqa tikillilər də var. Kilsə binasına bitişik böyük narteks, Makar Barxudaryanın fikrincə, kilsə binasından daha qədimdir. Kifayət qədər geniş olan narteksin şimal tərəfində ucaldılmış sütunlar əlavə həcm yaratmaqla yanaşı, həm də narteksin daxili həcmini genişləndirmişdir. Əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud yonulmuş bazalt daşlarından tikilmiş və tağ-tavanla örtülmüş narteks yalnız toplantı yeri olmamış, həm də türbə kimi istifadə edilmişdir. Narteksin döşəməsi monastırda xidmət etmiş din xadimləri və bir neçə yerli məliyin məzar daşları ilə örtülmüşdür. İncə oyma naxışlarla bəzədilmiş məzar daşlarının hər biri üzərində həm də kitabələr vardır. Bir neçə məzar daşı isə kilsənin içində yerləşir.

Şimaldan kilsə və narteksə daha kiçik ölçülü bir kilsə binası da birləşir. Düzbucaqlı plan və altara malik birnefli zal kilsəsinin üstü çatma tağla örtülmüşdür. Kilsə narteks ilə cənub çıxışı vasitəsiylə əlaqələndirilmişdir. Buna görə də kompleksə daxil olan hər iki kilsənin narteksi ümumidir.



*Monastır ərazisində kilsə binasından başqa tikillilər də var.*



Kompleksin qərb tərəfində yaşayış binaları və kompleksi əhatə edən qala divarlarının qalıqları dövrümüzə çatmışdır. Monastır ətrafında yerləşən qəbirstanlıq illər ərzində baxımsız qaldığından torpaq altına batmış və yalnız məzar daşlarının yuxarı hissələri görünməkdədir

Monastır ərazisində cox sayda ornamentli xaçdaşlar da olmuşdur. Bunların bir çoxundan kilsə divarlarının hörgüsündə də istifadə edilmişdir. Kilsənin divarlarına hörülmüş belə xaçdaşlardan birinin üzərində 1000-ci il tarixi yazılmışdı. Monastır ərazisində səpələnmiş zəngin bədii ornamentli çoxsaylı xaçdaşların ən qədimi IX əsrə, ən yenisi isə XIX əsrin əvvəllərinə aiddir. Bu məlumat 1828-ci ildən etibarən zəngin alban irsinə xas xaçdaşların artıq hazırlanmadığını göstərir.

Ktişvəng monastırındakı xaçdaşlar arasında öz incə naxışları və yüksək bədii tərtibatı ilə seçilən, kafedral kilsənin giriş qapısının sağ və sol tərəflərində yerləşdirilmiş xaçdaşlar olmuşdur. Hazırda bu xaçdaşlar kilsə ərzisində yoxdur. Onlardan biri hələ SSRİ dövründə monastır ərazisindən götürülərək Ermənistana, Eçmiədzinə aparılmışdır və hazırda Eçmiədzin kilsəsində sərgilənir.

2007-ci ildə erməni falsifikatorları tərəfindən Ktişvəng monastırında tarixi abidələrin bərpa qaydalarına uyğun olmayan təmir işləri aparılmışdır. Abidənin memarlıq quruluşunda qeyri-qanuni dəyişiklik edilib. Həmçinin abidənin üzərindəki kitabələr çıxarılaraq Ermənistana – Matenadaran muzeyinə daşınmışdır.

## AĞ XAÇ KİLSƏSİ (XIV əsr), Cinarlı kəndi

Ağ xaç kilsəsi Xocavənd rayonun Çinarlı kəndində yerləşir. 1992-2020-ci il illərdə erməni işğalı altında olduğu dövrdə kənd Vəng adlanırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən işğaldan azad olunduqdan sonra kəndin adı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Çinarlı olaraq dəyişdirilmişdir.

Ağoglan kilsəsi yaxınlığında yerləşən bu tarixi-memarlıq abidəsinin inşa tarixi dəqiq bilinməsə də, bir çox memarlıq detallarına əsasən kilsənin ən geci XIV əsrdə artıq fəaliyyət göstərdi məlum olur. Kilsə interyerində, şimal tağının altında yerləşdirilmiş xaçdaş 1333-cü ilə aiddir (Бархударян, 1895, səh. 66). Kilsə binasında XI əsrə aid kitabə qeydə alınmışdır (Ямпольский, 1962, s.105). Narteksin portal timpanındakı kitabədə isə kilsənin 1735-ci ildə bərpa olunduğu qeyd edilmişdir. Kilsədə vaxtilə onun inşası, zəng qülləsinin qoyulması ilə bağlı kitabələr olmuşdur. Hazırda bu kitabələr yox edilmişdir. Kilsənin zəng qülləsində aşkar edilmiş kitabədən zəng qülləsinin 1674-cü ildə inşa edildiyi məlum olur. Zəng qülləsindən qərb tərəfdəki nişdə zəngin bədii ornamentli xaçdaş üzərindəki kitabə isə 1348-ci ilə aiddir.

Ağ xaç kilsəsi də digər alban məbədləri kimi Azərbaycan əhalisinin qədim inanc yeri olmuşdur. IV əsrdən xristianlıq Albaniyanın dövlət dini olduqdan sonra bütpərəst inanc yerləri, pirlər xristian məbədlərinə çevrildilər. Arxaik pirlərin yerində xristan kilsə və monastırları tikilməyə başladı. Ağ xaç monastırı da belə ibadətgahlardan olmuşdur. Bu ibadətgaha tək kəndin əhalisi deyil, ətraf ərazilərdən 100 km uzaqlıqdan belə gələnlər olurdu (Ямпольский, 1962, s.105).

Əfsanəyə görə, kilsənin adı bir rahibin buraya möcüzəvi güçü olan xaç gətirməsindən qaynaqlanır. Kənd əhalisinin inancına görə, dəfələrlə bu xaçın yerini dəyişdirməyə çalışsalar da xaç öz-özünə geri qayıdırmış və ağ işıq saçırmış. Lakin artıq XX əsrin əvvəllərində kənddə aparılan etnoqrafik tədqiqatlar burada xaç olmadığını təsbit etmişdi. Kilsədə yalnız əfsanəvi xaçın təsviri vardı. Ağ xaç



*Ağ xaç kilsəsi (XIV əsr), Çinarlı kəndi*

kilsəsindəki əfsanəvi xaça inamın təsirilə, insanlar uzunömürlü, sağlam olacaqlarına, düşmənə qalib gələcəklərinə, sonsuzların övlad sahibi olacağına inanardılar. Bütün Azərbaycan ziyarətgahlarında olduğu kimi bu ziyarətgahda da şam yandırar, kilsəyə xoruz, qoyun nəzir edərək kilsənin həyətində kəsər, pul nəzir edər, məbədin divarlarını öpərək dua edərdilər. Bura həftənin bütün günlərində ziyarətə açıq idi.

XX əsrin əvvəllərində yarıdağılmış kilsənin şərq tərəfindəki divarından gözəl bədii ornamentli relyefli yonulmuş daşlar düşmüşdü. Kilsənin yaxınlığında da ornamentli başdaşları vardı. IX əsrdə albanların Ktiş qalasında Ərəb xilafəti ordusuna qarşı azadlıq mübarizəsi dövründə Ağ xaç kilsəsi də dağıntılara məruz qalmışdı.

Ağ xaç kilsəsi vaxtilə bu ərazidə yerləşən monastırın başkilsəsi olmuşdur. Birnefli bazilika formasında olan kilsə, əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq müxtəlif tipli yonulmamış yerli daşlardan əhəng məhlulu ilə inşa



*Ağ xaç kilsəsinin həyətində qədim tikili*



*Ağ xaç kilsəsi vaxtilə bu ərazidə yerləşən monastırın başkilsəsi olmuşdur.*









*Kilsənin yaxınlığındakı həyat ağacı, günəş, ulduz təsvirləri olan zəngin ornamentli qəbir daşları*

edilmişdir. Zəng qülləsi ibadət zalının mərkəz hissəsi üzərində inşa edilmişdi.

Kilsənin narteks ilə birlikdə uzunluğu 15 m 75 sm, eni isə 7,1 metrə bərabərdir. İbadət zalının mərkəzində memarlıq baxımından maraqlı formaya malik altı sütun və sütunlar üzərində ucalan piramidavari dama malik zəng qülləsi inşa edilmişdir. Zəng qülləsindən qərbdə zəngin ornamentli xaçdaş olmuşdur. Xaçdaş 2, 5 metr hündürlüyə malik olmuşdur və səthi tamamilə qabarıq və oyma naxışlarla örtülmüşdür.

Kilsənin nalvari tağları, həmçinin yaxınlıqdakı qəbir daşları at, həyat ağacı, günəş, ulduz, quş təsvirləri olan zəngin ornamentlərə malik olmuşdur (Ямпольский, 1962, s.105). Kilsə ətrafındakı böyük orta əsrlər qəbirsanlığındakı məzar daşlarının hamısı naxışlar və məişət səhnələri ilə zəngindir. Təsvirli məzar daşlarında ovçuluq, əkinçilik, döyüş səhnələrini görmək mümkündür. Kilsədən şimalda, qəbiristanlıq ərazisində 1735-ci ildə inşa edilmiş və ziyarətçilərin dincəlməsi üçün istifadə olunan tikilinin xarabalıqları vardır.







*Ağ xaç kilsəsinin həyətindəki qəbir daşları*

## MAVAS MONASTIRI (XIII əsr), Gavahın kəndi

Mavas monastırı Xocavənd rayonunun Gavahın kəndi yaxınlığında yerləşir. Bu tarixi-memarlıq abidəsi XIII əsrə aid edilir. Monastırın həyətində aşkarlanmış kitabəyə əsasən onun XIII əsrdə inşa edilyi müəyyən olunub.

Əlçatmaz qayalıq ərazidə inşa edilmiş Mavas monastırı həm də müdafiə divarları ilə möhkəmləndirilmişdir. Buna görə də monastır yüzillər boyunca həm də yerli əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə müdafiə qalası kimi istifadə edilmişdir. Vaxtilə bir qayadan digərinə uzanaraq bütün kompleksi əhatə edən qala divarlarının dövrümüzə yalnız xarabalıqları çatmışdır.

Mavas monastırından dövrümüzə üçnefli bazilika, ona birləşən narteksin xarabalıqları və müxtəlif mülki tikililərin qalıqları çatmışdır. Tağtavan iki pilon və divarlar boyunca düzülmüş yarımpilonların üzərində durur. Düzbucaqlı ibadət zalı 4,8x8,1 metr ölçüyə malikdir. Narteksin xarabalıqlarından onun kvadrat formaya malik olması aydın olur. Kilsənin ibadət zalı gözəl tağlar, pilonlar, apsidalar, içəri doğru genişlənən pəncərə yerləri ilə bəzədilmiş maraqlı memarlıq abidəsidir. Kilsə binasında və altar yüksəkliyi altındakı dörd məzar üzərində yüksək bədii tərtibata malik iki xaçdaş və naxışlı sinədaşları mövcud olmuşdur.

## ALBAN MƏBƏDİ (XIV əsr), Xərxər kəndi

Xocavəndin Xərxər kəndi ərazisində qədim qəbristanlıq ərazisində alban abidəsi yerləşir. Abidənin inşa tarixi XIV əsrə aid edilir. Barxudaryan Xərxər kəndindəki bu məbədin Müqəddəs Qriqoris kilsəsi olduğundan bəhs etmişdir (Бархударян, 1895, s.99).



*Alban kilsəsi (XIV əsr), Xərxər kəndi.*
*İşğal illərində abidədə qanunsuz təmir işləri aparılmış, kilsə öz tarixi görünüşündən məhrum edilmişdir.*

1991-ci ildən bu ərazilər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra abidədə qanunsuz təmir işləri aparılmış, kilsə öz tarixi görünüşündən məhrum edilmişdir. Xərxər kəndində qanunsuz məskunlaşmış ermənilər 2000-2011-ci illərdə kəndin bir çox tarixi abidələri, qədim inanc yerlərinin bir qismini tamamilə məhv etmiş, digərlərinin isə öz ilkin formasını dəyişdirmişlər. Xərxər kəndindəki Alban memarlığının unikal nümunələrindən olan məbəd də ermənilərin belə vandalizm aktlarının qurbanı olmuşdur. Ermənilər tərəfindən abidənin əsas hissəsi sökülərək tikilinin ilkin görkəmi dəyişdirilmiş, sahəsi genişləndirilərək divarları yenilənmiş, abidənin damı dəmir təbəqə ilə örtülmüşdür. Abidənin üzərindəki bədii daş nümunələri məhv edilmişdir. Ermənilərə bu vandal hərəkətləri həyata keçirmək üçün 2000-2011-ci illərdə Fransanın dini idarələri tərəfindən maliyyə yardımı ayrılmışdı.

# KAVAKAVƏNG, Zoğalbulaq kəndi



*Kavakavəng kilsəsi, Zoğalbulaq kəndi*

Kavakavəng və ya Müqəddəs Məryəm kilsəsi Xocavənd rayonunun Zoğalbulaq kəndi ərazisində yerləşir. Kəndin adı 29 dekabr 1992-ci ilə qədər Traxtik olmuşdur. Kavakavəng tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Kilsə Quruçayın sağ sahilində konusvari təpənin zirvəsində yerləşir. Düzənlik ərazi ilə əhatə olunmuş kilsənin həyətindən ətraf ərazilərə, xüsusilə Ziyarət dağına gözəl mənzərə açılır.

Kilsədə mövcud olmuş kitabə haqqında Barxudaryan məlumat verir. Kitabənin mətnindən məlum olur ki, buradakı qədim kilsə 1742-ci ildə Dizaq məliyi Məlik Yeqanın təşəbbüsü ilə bərpa edilmişdir. Kilsədə hər il Merac bayramı keçirilirdi (Бархударян, 1895, s.109). Barxudaryan kilsənin yerində mövcud olmuş qədim pirdən də bəhs edir. Buradakı dağın zirvəsində ağ daşdan başdaşı olan müqəddəs Yaqubun qəbir yeri olduğunu yazır. Xalq arasında Kavak piri olaraq bilinən bu ziyarətgahda qədim xaçdaş və qəbir daşı vardı.

Qədim monastır kompleksindən dövrümüzə çatan yeganə tikili Müqəddəs Məryəm kilsəsidir. Müəllif qeyd edir ki, kilsə vaxtilə böyük monastır kompleksinin mərkəzi olmuş və yadellilər tərəfindən qarət edilərək dağıdılmışdır (Бархударян, 1895, s.75). Vaxtilə monastır möhkəm qala divarına, rahib hücrlərinə və zəvvarlar üçün xüsusi otaqlara malik olmuşdur. Kilsə XIX əsrdə artıq xarabaya çevrilmişdi (Бархударян, 1895, s.75).

Kompleksə daxil olan tikililərdən dövrümüzə yalnız kilsə binası çatmış, dağılmış digər binaların daşları isə təpənin ətəyinə səpələnmişdir. Kilsə ətrafında müxtəlif tikililərin qalıqları, memarlıq detalları, naxışlı plitələr, xaçdaşlar və qəbir daşları vardır.

Üçnefli bazilika formasında olan olan kilsə, 12.8x9.8 metr ölçülərə malikdir. Barxudaryanın verdiyi məlumatdan ayrın olur ki, 4 sütünun üstündə inşa edilmiş, orta ölçülərdə olan kilsənin inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud daş və əhəng məhlulu hörgüsünə əsaslanır.

Kilsənin memarlığında yaxşı yonulmuş daşlardan hazırlanmış portal diqqəti cəlb edir. Kilsənin qərb portalı onu analoji tikililərdən fərqləndirən yeganə xüsusiyyətidir. Portal ağ daşlardan hazırlanmış və qeyri-adi naxışlarla bəzədilmiş kəmərlə çərçivələnmişdir.

## MÜQƏDDƏS MƏRYƏM ANA KİLSƏSİ (XIII əsr), Tağaser kəndi

Müqəddəs Məryəm ana kilsəsi Xocavənd rayonunun Tağaser kənd ərazisində yerləşir. Kilsənin xarabalıqları Tağaser kəndinin qərbindəki təpənin üstündədir. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Abidə Köndələnçayın sağ sahilində Tuğ və Binə kəndləri yaxınlığında, Tağaser dağının zirvəsində, meşənin içərisində yerləşir. Xüsusi tarixi əhəmiyyətə malik bu ərazi vaxtilə Qarabağın inzibati idarə mərkəzlərindən biri olub. Məbəd Qafqaz Albaniyası dövrü memarlığının nadir nümunələrindən olan Ktişvəng qalasının yaxınlığında yerləşir.

İnşaat kitabəsinə əsasən kilsənin 1635-ci ilində bərpa edildiyi müəyyən edilmişdir. Barxudaryan Yuxarı Tağaser ərazisində olan bu tikilinin XIII əsrə aid ibadətgah olduğunu və burda



*Müqəddəs Məryəm ana kilsəsinin xarabalıqları, Tağaser kəndi*

Faddeyin qalıqlarının (müqəddəs parçaları) dəfn edildiyinə inanıldığını yazır (Бархударян, 1895, s.87). Kilsə iki inşaat kitabəsinə malik olmuşdur. Kitabələrin hər ikisi iç tərəfdən portal timpanına yerləşdirilmişdir. Kitabələrdən məlum olur ki, kilsə kənd sakinlərinin iştirakı ilə inşa edilmişdir. Bu kilsə vaxtilə mövcud olmuş daha qədim və daha kiçik ölçülü kilsə yaxınlığında inşa edilmişdir.

Planda sadə düzbucaqlı formaya malik olan kilsə, 15x5.3 metr ölçülərə malikdir. İbadət zalının şərq hissəsində tağlı örtüyə malik altar apsidası və iki kiçik köməkçi otaq yerləşir. Tikili tamamilə yerli daşlardan inşa edilmişdi. Kompleksin şimal tərəfini əhatə etmiş müdafiə divarlarının yalnız qalıqları dövrümüzə çatmışdır.

Müqəddəs Məryəm ana kilsəsi dörd pilona malik bazilikadır. Kilsə narteksindən dövrümüzə yalnız yarıdağınıq kilsə binası qalmışdır. Böyük ölçülərə malik kilsə tağtavana və iki tərəfli dam



örtüyünə malikdir. Şərq apsidasının hər iki tərəfində köməkçi otaqlar yerləşir. Divar hörgüsündə kobud yonulmuş bazalt daşlardan və əhəng məhlulundan istifadə edilmişdir. Adi daşlarla yanaşı hörgüdə qədim məzar daşları və xaçdaşlardan da istifadə edilib. Kilsənin cənub və qərb tərəflərində daha iki tikilinin xarabalıqları vardır. Təpə ətəyində yerləşən kilsə, tut və qoz bağları ilə əhatə olunmuşdur.

## MÜQƏDDƏS QRİQORİS KİLSƏSİ (XVII əsr), Zavadıq kəndi

Müqəddəs Qriqoris kilsəsi Xocavəndin Zavadıq kəndində yerləşən alban abidəsidir. Xudavəng məbədində 1182-ci ilə aid kitabədə Zavadıq kəndinin adı Tsovatex şəklində çəkilir. 1727-ci ilə aid mənbədə Zəvadıq kəndinin Yuxarı Qarabağın Köçəz nahiyəsinə aid olduğu yazılır.

Zavadıq kəndi ərazisindəki Müqəddəs Qriqoris kilsəsindən aşkar edilmiş kitabədə abidənin inşa tarixi barədə məlumat verilir. Kitabədən kilsənin XVII əsrdə Alban Apostol Kilsəsinin katolikosu IV Petrosun sifarişilə 1667-1676-cı illərdə inşa edildiyi məlum olur. Alban katolikosu IV Petrosun adı Gəncəsər monastırındakı alban kalikosları siyahısında keçir. Abidə üzərindəki kitabədən kilsənin Amaras monastırının yay iqamətgahı kimi istifadə olunduğu bəlli olur. Kilsədə dəyərli xaçdaşlar, tarixi əlyazmalar və artefaktlar olmuşdur.

Kilsə dörd pilonlu günbəzli bazilikadır. Erkən orta əsrlər Qafqaz Albaniyası memarlığına xas xaç-günbəz formalı məbədlərdəndir. Günbəzin alçaq barabanı xaçvari xarici həcmdə demək olar ki, görünmür. Kilsə divarlarının hörgüsündə yaxşı yonulmuş daş bloklardan istifadə olunmuşdur. Tağtavanlı örtüyə malik üçnefli ibadət zalı 19.24 m uzunluq, 13.63 m en və 8 m hündürlüyə malikdir. Ölçü xüsusiyyətləri baxımından kilsə, Amaras monastırındaki Müqəddəs Qriqoris sövməsinin xüsusiyyətlərini xatırlatsa da, daha kiçikdir. Tağtavan və onu örtən iki tərəfli dam dörd pilon və onları birləşdirən tağlar üzərində dayanır. İnteryerin ən yaxşı saxlanmış hissələri sütunlar, pəncərə və qapı çərçivələridir.

Kilsədən sövet dövründə anbar kimi istifadə olunmuşdur. Həmin dövrdə kilsənin altar hissəsi dağıdılmışdır.

## ALBAN MƏBƏDi, Kəndxurd kəndi

Xocavəndin Kəndxurd kəndində Alban memarlığına aid abidə yerləşir. Giriş qapısı qərb tərəfdən olan abidənin dam örtüyü ikiqatlıdır. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən Kəndxurd kəndi işğal edildikdən sonra bu qədim alban abidəsi yararsız hala salınmışdır.

30 ilə yaxın Ermənistanın işğalı altında qalan abidə, xüsusilə 2000-ci ildə ermənilər tərəfindən dağıdılmış, ilkin memarlıq quruluşu tamamilə dəyişdirilmişdir.

## BAZİLİKA, Çiraquz kəndi

Çiraquz kəndində alban memarlığına aid abidə yerləşir. Abidə daha qədim tikilinin bünövrəsi üzərində inşa edilmişdir. Çiraquz bazılıkasının 1742-ci ildə bərpa olunduğu güman edilir. Abidənin uzunluğu 12, 8 metr, eni 9, 8 metr, hündürlüyü isə 5 metrdir. Giriş qapısı qərb tərəfdəndir. Abidənin üstü ikiyamaclı daşlarla örtülmüşdür. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən ərazi işğal edildikdən sonra abidə erməni millətçiləri tərəfindən dağıdılaraq yararsız hala salınmışdır.



*Alban məbədi, Kəndxurd kəndi*



*Bazilika, Çiraquz kəndi*



*Alban məbədi, Ağcakənd*



*Alban məbədi, Ataqud kəndi*

## ALBAN MƏBƏDİ, Ağcakənd

Məbəd Xocavənd Rayonunun Köhnə Tağlar inzibati ərazisinə aid Ağcakənddə yerləşir. Qarabağ silsiləsinin ətəyində yerləşən Ağcakənd kəndi Ermənistan Respublikası Siahlı Qüvvələri tərəfindən 1993-cü ildə işğal edilmişdi. 20 oktyabr 2020-ci ildə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir.

## ALBAN MƏBƏDİ, Ataqud kəndi

Xocavənd rayonu Ataqut və Dərəkənd kəndləri yaxınlığında Qafqaz Albaniyası dövrünə aid məbəd yerləşirdi. Bu qədim alban məbədi 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmışdır.

## Qala və qəsrlər

## DİZAQ MƏLİK SARAYI (XVIII əsr), Tuğ kəndi



Tuğ kəndi Fuzuli, Cəbrayıl bölgələrini əhatə edən Dizaq mahalının baş kəndi, Dizaq məliklərinin iqamətgahı olmuşdur. Dizaq məlikliyi alban Xaçın knyazı Həsən Cəlalın nəslindən XV əsrdən etibarən ayrılmış beş məliklikdən biridir. XV əsrdə Həsən Cəlal sülaləsi Qaraqoyunlu Cahanşahdan "məlik" titulu aldı. Sonralar Alban məlik nəsillərinin nümayəndələrinin soyadlarına "Məlik" titulu əlavə edilirdi (Məlik-Yeqanov, Məlikaslanov, Məlikabbasov və s.). Məlik titulunu alan albanlar sadəcə Qarabağda deyil, İrəvan, Sünik və Şəkidə də olmuşdur. Daha sonrakı mərhələlərdə Həsən Cəlal sülaləsi Xaçın, Gülüstan, Çiləbörd, Vərəndə, Dizaq kimi beş alban məlikliyinə parçalanmışdır.

Dizaq məlikliyi, digər alban məlikləri kimi Səfəvi dövlətinin, Nadir şah Əfşarın və daha sonra Qarabağ xanlığının tərkibində olmuşdur. Dizaq məliklərinin Nadir şahın zamanında xüsusi imtiyazları olsa da, Qarabağ xanlığı dövründə bu imtiyazlar Pənahəli xan tərəfindən ləgv olunmuşdur. 1781-ci ildə İbrahimxəlil xan Dizaq məlikliyinin idarəçiliyini Məlik Yesayadan alıb Bahtama vermişdi.

XVIII əsrdən etibarən Tuğ kəndinin alban məlikləri Dizaq mahalını idarə etmişlər. XVIII əsrin sonlarından–XIX əsrin əvvəllərinədək Məlik Yeqan (1737–1744), Aram (1744–1745), Yesaya (1745–1781), Avaq Məlikyeqanlı (1781–1785), Vaxtanq Məlikyeqanlı (1785–1789), Abbas Məlikyeqanlı (1789–1805), Aslan bəy Məlikyeqanlı (1805–1822) kimi alban məlikləri Dizaq mahalını idarə etmişlər. Məlik Yeqan (1737–1744) sülaləsindən Məlikyeqanovlar, Aslan bəy Məlikyeqanlının (1805–1822) sü-



*Tuğ kəndi, Dizaq məlik sarayı (XVIII əsr)*



*Dizaq məlikliyinin iqamətgahı. Qəbul otağının kitabəli portalı*

laləsindən Məlikaslanovlar, Abbas Məlikyeqanlının (1789–1805) sülaləsindən Məlikabbasovlar kimi müasir alban əsilli nəsillər törəmişdir. Tuğ kəndindəki məlik sülaləsindən olan Rza bəy Məlikyeqanov, Xudat bəy Məlikaslanov kimi alban məlik nəsillərinin nümayəndələri Azərbaycanın görkəmli ictimai-siyasi xadimləri olub Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurucularından olmuşlar.

XVIII əsrdən Tuğ kəndinin mərkəzində Dizaq məliklərinin sarayı yerləşirdi. 30 illik işğal dövründə ermənilərin tikilinin arxitekturasında bəzi dəyişikliklər etməsinə baxmayaraq, bu tarixi-memarlıq abidəsi dövrümüzədək ilkin görünüşünü qoruyub saxlaya bilmişdir. Saray öz dövrünün ən gözəl mülki memarlıq nümunələrindən biri hesab edilir.

Dizaq məliklərinin saray kompleksi 38x13.24 metr ölçülərdə olub düzbucaqlı formaya malikdir. Sarayın şimal və cənub-şərq tərəflərində qala divarlarının qalıqları vardır. Kompleksə daxil olan tikililərin bədii-memarlıq xüsusiyyətləri, həmçinin epiqrafika nümunələri onun müxtəlif hissələrinin ayrı-ayrı vaxtlarda inşa edildiyini göstərir. Əsas saray binasının birinci mərtəbəsi XVIII əsrdə, ikinci mərtəbəsi isə XIX əsrdə tikilmişdir. Lakin saray kompleksinin daha qədim tikililərin yerində inşa edildiyi ehtimal olunur.

Məlik Yeqanın iki mərtəbəli qəbul otağı sarayın cənub hissəsində, qala divarlarından 25 metr aralıda yerləşir. Otaq ilkin görünüşünü saxlayaraq dövrümüzə çatmışdır. Qəbul otağının giriş timpanı yaxşı yonulmuş daşlardan yüksək sənətkarlıqla inşa edilmişdir. Giriş qapısında kitabə olmuşdur. Kompleksin qəbul otağının giriş qapısı üzərindəki portalda yerləşdirilmiş kitabədən sarayın qəbul otağının Məlik Yeqan tərəfindən 1737-ci ildə tikildiyi məlum olmuşdur. Kitabənin mətnindən Məlik Yeqanın hələ Səfəvi dövləti dövründə Səfəvi hökmdarları Sultan Hüseyn və Təhmasib şahdan məliklik titulu almasından bəhs olunur. Kitabədə yazılır: "... Mən Məlik Yeqan ... ölkədə qarışıqlar zamanı şah Sultan Hüseyn və şah Təhmasibə xidmət etdim və o, məni, məlik kimi təsdiq etdi. Sonra Osmanlı gəldi və taxtı onun əlindən aldı. Mən ona da xidmət etdim... qüdrətli Nadir şah öz qoşunu ilə gələrək ölkəni Osmanlının əlindən aldı. Ona da xidmət etdim və o, məni 6 xristian əyaləti- Talış, Çiləbürd, Xaçın, Vərəndə, Köçəz, Dizaq üzərində bəylərbəyi elan edərək şərəf verdi".

Məlik Yeqanın 1744-ci ilə aid məzar daşı üzərindəki kitabədə yazılır: Bu, Mömin Vardapetin oğlu, Yeqan adlı cəsur knyaz, böyük məliyin məzarıdır. O, hər kəs, o cümlədən, Nadir şah tərəfindən sevilmişdir. Alban ölkəsinin Arsak əyalətində hakimiyyət sürmüşdür (Бархударян, 1895, s 75).

Qəbul otağının birinci mərtəbəsi tamamilə yerin altında, zirzəmi qatında yerləşmişdir və yeraltı yola malik olmuşdur. Sarayın birinci mərtəbəsindəki otaqlar tağtavanlı ənənəvi yaşayış evlərini xatırladır. Şübhəsiz ki, bu otaqlar sarayın ən

qədim tikililəridir. Birinci mərtəbənin otaqlarının pəncərə və qapı yerləri daş çərçivəlidir. Otaqların interyerlərində buxarı və nişlər vardır. Birinci mərtəbənin otaqlarındakı kaminlər və dərin nişlər tikilinin mülki xarakter daşıdığını göstərir.

İkinci mərtəbənin otaqları sonradan, XIX əsrdə tikilib və plan xüsusiyyətlərinə görə Tuğun ənənəvi evlərini xatırladır. Qəbul otağının yer səviyyəsində yerləşən ikinci mərtəbəsində üç tərəfdən geniş və çoxsütunlu eyvanlarla əhatə olunmuş geniş pəncərə çərçivələri olan yaşayış otaqları inşa edilmişdir.

Sarayın qonaq və yaşayış otaqları üç istiqamətdə qruplaşdırılmışdır. Otaqların bir neçəsi birbaşa saray həyətinə açılır. Sarayın şimal-şərq hissəsinin birinci mərtəbəsində iki otaq, onların üstündə – ikinci mərtəbədə isə eyvanlı böyük zal yerləşir.

Düzbucaqlı həyətin qərb tərəfindəki tikili yaxşı yonulmuş daşlarla üzlənmiş fasad və sütunlu eyvana malik idi. Həyətin ən yüksək yerində inşa edilmiş sütunlu eyvandan həyətə daş pilləkənlər uzanır. Bu eyvan saray tədbirləri zamanı tribuna funksiyası da daşıyırdı. Əsas giriş binanın qərb tərəfində olsa da, ikinci mərtəbədəki eyvandan enən daş pilləkənlər də binanı saray həyəti ilə əlaqələndirir.

Saray binasının ən böyük zalı əsas giriş pilləkənindən sağda yerləşir. Zalın üç qapısı var. Əsas qapı qərb divarında, digər iki qapı isə şərqdə yerləşir. Sarayın qonaq otağı əsas giriş pilləkəninin üstündə yerləşir, bütün tikililərdən yüksəkdədir. Otağın eyvanından bütün ətraf ərazilərə gözəl mənzərə açılır.

Saray kompleksinin inşası zamanı Füzuli rayonu ərazisindəki daş karxanasından olan ağ və sarımtıl rəngli əhəng daşlarından, həmçinin yaxşı



*Sarayın birinci mərtəbəsi ənənəvi yaşayış evlərini xatırladır.*



*Dizaq məlikliyi iqamətgahının qalıqları. Xocavənd, Tug kəndi, 2022-ci il*







yonulmuş boz bazalt daşlarından istifadə olunmuşdur.

1885-ci ildən Dizaq məliklərinin saray kompleksinə daxil olan binalardan birində Tuğ məktəbi fəaliyyət göstərmişdir. Dövrünün məşhur ədibi olmuş Mirmehdi Xəzani bu məktəbdə dərs demişdir. 1894-cü ildə vəfat etmiş şairin məzarı Tuğ kəndindən bir qədər aralıda, yüksək dağın zirvəsindəki qəbiristanlıqda yerləşir.

Dizaq məlikliyinin iqamətgahında işğal dövründə ermənilər bir sıra qanunsuz tikintil işləri aparmış, giriş qapısını sökərək binanın arxitekrurasını dəyişmişər.

## KTİŞ QALASI (VII əsr), Tuğ kəndi

Ktiş qalası Tuğ kəndi yaxınlığında Toxasar dağının zirvəsində, Ktişvəng kilsəsinin qarşısında yerləşir. Dövrümüzə yalnız xarabalıqları çatmış bu möhtəşəm qalanın dəqiq inşa tarixi bilinmir. Ktiş qalasının adı mənbələrdə Ərəb xilafətinin Azərbaycan ərazilərini işğal etdiyi dövrlərdən çəkilməyə başlayır. Rəvayətə görə, Ktişvəng monastırının yaxınlığında yerləşdiyi üçün Ktiş adlandırılan qala Beyləqan hakimi olmuş Yesai əbu Musa adlı alban knyazının iqamətgahı olmuşdur. Kalankatuklu mənbələrdə Beyləqan hakimi kimi xatırlanan Əbu Musanın Qafqaz albanlarının soyundan olduğunu yazır.

Əbu Musa digər alban knyazları kimi Ərəb xilafətinə qarşı mübarizədə əvvəlcə Babəklə ittifaqda olmuşdur. Lakin Babəkin zəifləməsi ilə Əbu Musa ondan uzaqlaşmışdı. Ərəblərə qarşı üsyançı mövqeyini davam etdirən knyaz Yesai Əbu Musa ərəblərin onu əzmək üçün qoşun göndərdiyi zaman Beyləqanın 10 fərsəngliyində yerləşən Ktiş qalasında müdafiə mövqeyi tutmuşdu (Ət-Təbəri, III, səh. 1416). Bəzz qalasının süqutundan sonra Babəkin qardaşı Abdullah Ktiş qalasında sığınacaq tapmışdı.



*Alban məbədi, Məlikcanlı kəndi*

Kitş qalası X əsrdən etibarən Dizaq məlikliyinin mərkəzi olmuşdur. XIX əsr müəllifi Barxudaryan yazır ki, bu qalada Dizaq məliyi Məlik Yesai döyüşərək İbrahim Çirxana qalib gəlmişdir. Müəllif Tuğ məliklərinin Tuğ kəndini əhatə edən qala divarları və Tuğ qalası ilə birikdə Kitş qalasını da bərpa etməsindən bəhs edir (Бархударян, 1895, II)

Qala olduqca əlverişli strateji mövqedə yerləşir. Belə ki, qalanın dörd bir tərəfi sıldırım qayalıqlarla əhatə olunub. Qalaya yalnız çox kiçik bir cığırla getmək mümkündür. Ərəb salnaməçisi Məsudi Ktiş qalasını öz əsərində belə təsvir etmişdir: “Ktiş qalası, doğrudan da, əlçatmaz qala idi. Onun təpəsi buludlar içində idi, dağın sərt və sıldırım yamacları meşə ilə örtülmüşdü. Qalaya çətin keçilən dar bir cığır gedirdi” (Bünyadov, 2005).

Mənbədə qeyd olunan cığır əslində qalaya gedən yeganə yol olmamışdır. Belə ki, bu çığırdan başqa, qalanın şimal tərəfində qayalarda gizli yeraltı yol da qazılmışdı. Yeraltı yol Qarabağ qalaları üçün xarakterikdir və Qarabağın digər həmdövr qalalarında da müşahidə olunur. Belə yeraltı gizli yollar Qarabağda yerəşən Laçınqayası, Löh qalası, Qalaboynu qalası kimi müdafiə qalalarında da mövcuddur.

## KÜRATAĞ QALASI, Düdükçü kəndi

Küratağ qalası Xocavənd rayonu kəndi yaxınlığında, dağlıq ərazidə yerləşən tarixi-memarlıq abidəsidir.

Əlçatmaz yüksək ərazidə inşa edilmiş qaladan bütün ətraf ərazilərə nəzarət etməyə imkan verən mənzərə açılır. Qala üç tərəfdən sıldırım qayalarla əhatə olunmuşdur. Bu müdafiə qalasını xarici aləmlə əlaqələndirən yalnız bir yol vardır. Qalanın ən yüksək hissəsində, iki qüllə arasında giriş qapısı yerləşir.

Küratağ qalasının ərazisi düzləşdirilmiş relyefə malik olmaqla 300 $m^2$ sahəyə malikdir. Qala ərazisində su saxlancı kimi istifadə edilən geniş daş hovuz yonulmuşdur. Qala yaxınlığındakı saxsı boru qalıqlarının istiqamətindən müəyyən edilmişdir ki, su hovuza qalanın cənub tərəfindəki bulaqdan axıdılırmış.

Qala dövrümüzə ciddi dağıntılara məruz qalmış şəkildə çatmışdır. Onun yerləşdiyi ərazidə qala divarlarının və yarımdairəvi qüllələrin qalıqları vardır. Qala divarlarınn inşası zamanı ərazinin relyefi də nəzərə alınmışdır və buna görə də, qala qeyri-səlis dördbucaqlı formaya malikdir. Qala ərazisi vaxtilə qala divarları ilə əhatə olunmuşdu.



*Alban məbədi, Edilli kəndi*



*Alban məbədi, Sur kəndi*



*Albanberd kilsəsi, Qarakənd kəndi*



*Alban kilsəsi, Günəşli kəndi*









# TƏRTƏR RAYONU

Qarabağ düzündə yerləşən Tərtər rayonu Azərbaycan Respublikasının mühüm inzibati ərazilərindən biridir. Rayon hələ antik müəlliflərin əsərlərində adı çəkilən Tərtər və Xaçınçay kimi gur sulu çayların sahillərində yerləşir. Kür – Araz ovalığının qərb hissəsini əhatə edən Tərtər rayonu orta əsrlərdə qədim karvan yolunun üstündə yerləşən mühüm məntəqələrdən biri olmuşdur.

Orta əsrlərin mühüm ticarət yollarının kəsişməsində yerləşən bölgənin keçmişdə adı Çaparxana (yolüstü məntəqə) olub. Bu da onun tarixi mövqeyini əks etdirirdi. Belə ki, qədim karvan yolu üzərində yerləşən Tərtər ərazisində vaxtilə karvansara və qala olmuşdur. Tərtərçayın sağ və sol sahillərini əhatə edən müasir Tərtər şəhəri Alban dövlətinin qədim paytaxtı Bərdədən 17 km-lik məsafədə yerləşir.

1920-1922-ci illərdə Tərtər ərazisi Cavanşir qəzasının, 1923-1929-cu illərdə, Ağdam qəzasının 1929-1930-cu illərdə isə Qarabağ dairəsinin tabeliyində olmuşdur. 1930-cu ildə ayrıca Tərtər rayonu yaradılmışdır. Tərtər rayonu 1931-ci ildə Bərdə rayonunun inzibati tabeliyinə verilsə də, 1934-cü ildə yenidən Tərtər rayonu yaradılmışdır.

Sovet dövründə – 1949-cu ildə rayonun adı dəyişdirilərək Mirbəşir adlandırılıb, 1991-ci ildən isə yenidən əvvəlki adı qaytarılıb. 1992-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Ağdərə rayonu ləğv edilərək həmin rayonun Ağdərə qəsəbəsi və 28 kəndi Tərtər rayonunu inzibati tərkibinə verilmişdir.

1993-2020-ci illərdə Tərtər rayonunun Suqovuşan, Talış, Çaylı kəndləri Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmışdı. Torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun keçirdiyi hərbi əməliyyatlar nəticəsində 2020-ci ilin 3 oktyabrında Tərtər rayonunun Suqovuşan və Talış kəndləri,



*Tərtər, Suquvoşan kəndi*

9 oktyabrda isə Çaylı kəndi işğaldan azad edilmişdir. Hazırda Ağdərə rayonundan Tərtər rayonuna verilmiş 26 yaşayış məntəqəsindən Şixarx qəsəbəsi, Çaylı, Həsənqaya, Talış, Suqovuşan kəndləri istisna olmaqla, digər 2 yaşayış məntəqəsi (Qızıloba və Seysulan) təmas xəttində, 18-i isə müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarətindədir.

İşğal dövründə Tərtər rayonunun yaşayış məntəqələrinə, o cümlədən tarixi abidələrə Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində xeyli zərər dəymişdir. Hazırda Sülhməramlıların nəzarətin altında olan tarixi-mədəniyyət və dini abidələrin taleyi isə məlum deyildir.

Qarabağın səfalı guşələrindən olan Tərtər rayonu tarix və mədəniyyət abidələri ilə zəngin bölgədir. Dağ ilə aranın qovuşduğu ərazidə yerləşən Tərtər rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən hesab edilir. Bu ərazidə e. ə. III minilliyin əvvəllərinə, tunc və ilk dəmir dövrünə aid edilən dünya əhəmiyyətli Borsunlu kurqanları aşkar edilmişdir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi dövrdə cəbhəyanı ərazilərdə yerləşən Azərbaycanın tarixi abidələri, mədəni irsi məhv edilirdi. Borsunlu kurqanları təmas xəttində yerləşdiyi üçün kurqanların qorunması demək olar ki, qeyri mümkün olmuşdur. XX əsrə aid memarlıq abidəsi olan Cümə məscidinə hələ Birinci Qarabağ müharibəsi zamanı ciddi ziyan dəymişdir.

Tərtər rayonunun alban xristian abidələri isə Qarabağ ərazisindəki digər alban abidələri kimi saxtalaşdırlmaya və vandalizm aktlarına məruz qalmışdır.

## Tərtər rayonu ərazisindəki alban abidələri

- Müqəddəs Yelisey monastırı (XII əsr), Təpəkənd və Suqovuşan kəndləri arası
- Ürəkvəng monastırı, Talış kəndi
- Məbəd, Cardaqlı kəndi
- Üç körpə monastırı, Çiləbürd kəndi
- Caraberd/Çiləbürd monastırı, Çiləbürd kəndi
- Dutakan alban kilsəsi (XII əsr)

**Saray və qalalar**

- Caraberd/Çiləbürd qalası, Çiləbürd kəndi
- Gülüstan məlik sarayı, Talış kəndi
- Gülüstan qalası

# MÜQƏDDƏS YELİSEY MONASTIRI (V əsr), Suqovuşan, Təpəkənd







Müqəddəs Yelisey monastırı Tərtər çayının sahilində Suqovuşan (kənd 2020-ci ilə qədər Madagiz adlanırdı) və Təpəkənd (İşğal dövründə kənd ermənilər tərəfindən Tonaşen adlandırılırdı) kəndləri arasında yerləşir. Bu tarixi-memarlıq kompleksi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır.

Qafqaz Albaniyasında xristianlığın yayılmasında böyük xidmətləri olmuş alban müqəddəsi Yeliseyin xatirəsinə Azərbaycanın Şəki, Qəbələ, Xocavənd, Tərtər kimi bölgələrində bir çox məbədlər tikilmişdir. Bunlardan dövrümüzədək gəlib çatanlardan biri də, Tərtər rayonu ərazisindəki Müqəddəs Yelisey monastır kompleksidir.

Müqəddəs Yelisey monastır kompleksi mürəkkəb relyefə malik dağlıq ərazidə, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, əlçatmaz bir mövqedə inşa edilmişdir. Murov dağ silsiləsinin ətəklərindən birində, hündür bir dağın zirvəsində ucaldılan monastırın ətrafı sıldırım qayalar və sıx meşəliklə əhatə olunmuşdur. Monastır kompleksi üç tərəfdən möhkəm qala divarları ilə əhatə olunmuşdur. Kompleksin yerləşdiyi sıldırım qayalıqlarla əhatələnmiş yüksək təpəyə yalnız cənub tərəfdən dar cığırlar ilə qalxmaq mümkündür.

Müqəddəs Yeliseyin adını daşıyan monastır hələ xristianlığın yayılmasından öncə qədim ibadət yeri olmuşdur. Mənbələrdən məlum olur ki, bu qədim tikili öncələr Ners Mihra məskəni adlanırdı. Alban müəllifi Musa Kalankatuklunun "Alban tarixi" əsərindən aydın olur ki, məbəd öncə Ners-Mihra qardaşlığına mənsub olmuşdur. Görünür, əvvəllər burada müqəddəs Ners-Mihra qardaşlığının kilsəsi tikilmiş, kilsə onların adını daşımışdır. Müqəddəs Yeliseyin nəşinin qalıqlarının



*Müqəddəs Yelisey monastır kompleksi (V əsr), Təpəkənd*

bir hissəsinin Tərtər rayonunun Talış kəndindəki Urəkvəng monastırından buraya gətirilməsindən sonra yüksək ərazidə III Vaçaqan Müqəddəs Yeliseyin şərəfinə monastır inşa etdirmişdir.

Musa Kalankatuklunun məlumatlarından aydın olur ki, bu monastır erkən alban xristian tikililərindən biri olmuşdur. Kalankatuklu yazır: "Albaniyada xristianlığın əsasını qoymuş və Zərqun dərəsində şəhid edilmiş Müqəddəs Yeliseyin sümükləri və kəlləsi ilk vaxtlar Urekan adlı yerə (Ürəkvəng — M.P.) aparılsa da, daha sonra sümüklər oradan müqəddəs Nersmehr (indi onun adı Cırvişdikdir) kilsəsinə (Müqəddəs Yelisey monastırına — M.P. ) aparılmışdır". Çox illər keçəndən sonra alban çarı Mömin III Vaçaqan şəhidin sümükləri tapılan xəndəyin üstündə bir rukn (ibadət evi — M.P.) tikir (Kalankatuklu,1861, I k., 7 f.). Bu səbəbdən öncə Ners Mihra, Cırvişdik adlanan monastır daha sonra Müqəddəs Yelisey monastırı adlanmağa başladı.

V əsrdə Albaniya hökmdarı olmuş Mömin III Vaçaqan kilsələrin tikintisinə böyük diqqət yetirirdi. Qafqaz Albaniyasının ən böyük kilsə və monastırları onun dövründə tikilmişdir. Müqəddəs Yelisey monastır kompleksi bu tikililər arasında xüsusi yer tutur.

XIX əsrdə abidədə ilkin tədqiqat işləri aparmış Barxudaryan yazır ki, tağlı zal formasına malik olan kilsə "...çox qədim dövrə aiddir, onun memarlığı sadə, hündürlüyü qeyri-adi yüksəkliyə malikdir (Бархударян, 1895, s. 23). Barxudaryanın verdiyi məlumata görə, monastırdakı sövmələrdən birində Alban hökmdarı mömin Vaçaqanın (487-510) qəbri olmuşdur (Бархударян, 1895, s.247). Barxudaryan monastırın ərazisində həm qədimliyi, həm də memari baxımdan olduqca zəngin xaçdaş olduğunu və üzərində olan yazıdan daşın çar III Vaçaqana aid olduğunu qeyd edir (Бархударян, 1895, s.247).





*Müqəddəs Yelisey monastırı kompleksinə daxil olan sövmələr*



Hələ sovet dövündə, 1970-ci ildə Müqəddəs Yelisey monastırında Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşlarından ibarət qrup Albaniya hökmdarı mömin Vaçaqanın qəbrini tapmaq məqsədilə tədqiqatlar aparmışlar. Ekspedisiya müddətində monastır ərazisində arxeoloji kəşfiyyat işləri aparmaq, abidələrin üzərində olan yazıları qeydə almaq, xüsusən də Albaniya hökmdarı mömin Vaçaqanın qəbrini tapmaq nəzərdə tutulmuşdu. Ekspedisiyaya rəhbərlik edən arxeoloq Rəşid Göyüşov yazır: "...Bu məbəd Albaniyada xristianlığın ilk təbliğatçısı Yeliseyin şərəfinə tikilmişdir, həmçinin alban çarı mömin Vaçaqan burada dəfn edilmişdir". Aparılan arxeoloji tədqiqatlar nəticəsində bu monastırın XI əsrdə inşa edildiyi, lakin tikilinin daha qədim abidə olub IX-X əsrlərdə dağılmış bir məbədin üzərində tikildiyi məlum olmuşdur.

Monastır ərazisindəki kitabələrdən də burada daha qədim tikililərin mövcud olması məlum olur. Baş kilsənin divarında həkk olunmuş yazıda deyilir: «Mən, arxidyakon Serob bu müqəddəs guşədə əvvəlki özül üzərində müqəddəs apostolun kilsəsini tikdirdim».

Kilsənin bünövrəsindəki qədim tikilinin üzə çıxarılması üçün baş kilsənin Şərq divarı yanında arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar nəticəsində xeyli qədim tikinti qalıqları və məişət əşyaları aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, Müqəddəs Yelisey məbədi 8,7 metr uzunluğunda üçnefli bazilikadır. Məbədin şərq tərəfi nalşəkilli səcdəgah absidası ilə başa çatır. Bazilikanın yan neflərinin sonlarında keşiş cübbələrinin saxlandığı yerlər vardır.

Tarixi məlumatlar, monastırın V əsrdə tikildiyini söyləməyə əsas verir. Arxeoloji tədqiqatlar məbədin IX-X əsrlərdə dağıdılmış qədim tikilinin yerində XI əsrdə yeni monastır kompleksi inşa olunduğu təsdiq etsə də, monastır kompleksində ən erkən epiqrafik yazı XII əsrə aiddir. Kilsənin timpanında yerləşdirilmiş kitabədən məlum olur ki, tikili 1264-cü cü ildə inşa edilmişdir. Monastır kompleksinin əsas kilsə binası köhnə kilsənin

daşlarının istifadə edilməsi ilə yenidən inşa olunmuşdur(Мамедова, s.106). Kitabələrdən məlum olur ki, XII-XIII əsrlər Xaçın knyazlığı dövründə burada geniş inşaat işləri aparılmış, böyük baş kilsə binası, altı kiçik kilsə, bir neçə yaşayış və təsərrüfat binaları tikilmişdir.

Monastır kompleksinə kafedral kilsə, yeddi sovmə, yaşayış və təsərrüfat binaları, güclü müdafiə divarları, məzarlıq və digər tikililər daxildir. Kilsənin hər iki tərəfində ondan eyni məsafə aralığında sövmələr yerləşir: cənub tərəfdə onların sayı üç, şimal tərəfdə isə dörd ədəddir. XI-XIV əsrlərdə əsasən tağtavanlı zal kilsələr və bazilika tipli dini tikililər inşa edilirdi. Bu cür tikililər əsasən kənd kilsələri, böyük monastır komplekslərinə daxil olan kiçik məbədlər, sövmələr və narteksİər idi. Yelisey monastırına daxil olan sövmələr bu tip tikiliərdəndir.

Düzbucaqlı altar apsidaları Qafqaz Albaniyası memarlığı üçün geniş yayılmış xarakterik xüsusiyyətlərdən biridir. Müqəddəs Yelisey monastırı ilə yanaşı bu cür altarlara Ktişvəng, Xudavəng, Yeddi kilsə, Xatırvəng və digər komplekslərdə də rast gəlmək mümkündür. Qeyd etmək lazımdır ki, Tərtər rayonundakı Müqəddəs Yelisey monastırı Şəki rayonunun Kiş kəndindəki Yelisey məbədi, Orta Zəyzid kəndindəki birnefli alban məbədi və Oğuz rayonundakı Yelisey məbədi plan quruluşları ilə, demək olar ki, eyniyyət təşkil edir.

Sövmələrdən ən böyüyü kilsənin cənub tərəfində yerləşir. Düzbucaqlı formaya malik olan tikilinin daxili həcmi pilyastrlar vasitəsiylə iki hissəyə ayrılmışdır (Мамедова, 2004, s.106). Planda kvadrat formaya malik olan (3.65x3.70 m) birinci hissə yarımdairəvi tağtavanla örtülmüşdür. İkinci hissə yer səviyyəsindən 40 sm yuxarı qaldırılmış və bərabər ölçüyə malik tağtavan örtülü və yarımdairəvi formalı iki apsidaya malikdir. Apsidaların hər biri şərq divarında yerləşən kiçik pəncərə ilə işıqlandırılır. Cənub və şimal divarları isə iki nişə malikdir. Şimal tərəfdə, kilsədən ən uzaqda yerləşən sövmə də anoloji memarlıq həllinə malikdir. Ölçülərinə görə birinci sövmədən



*Müqəddəs Yelisey monastırının daxili interyeri*



*Monastır kompleksi müdafiə divarları ilə əhatə olunmuşdur.*





kiçik olan (2x72x4.60 m) bu tikilinin apsidalarında nişlər yoxdur. Ümumilikdə sövmələrin hamısının inşasında kobud yonulmuş daşlardan istifadə edilmişdir (Мамедова, 2004, s.106).

Kilsə planda tərəfləri 4x8 metrə bərabər düzbucaqlı formaya malikdir (Мамедова, 2004, s.106). Kilsənin altar yerləşən şərq tərəfi yer səviyyəsindən 60 sm yuxarı qaldırılmışdır və daxildən yarımdairəvi formaya malikdir (Мамедова, 2004, s.106). Hazırda onun əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud daşdan tikilmiş divarlarının hörgüsündə arxaik memarlıq detallarına malik daha qədim kvadrat formalı daşları da görmək mümkündür. 10x5.8 metr ölçülərə malik olan əsas kilsə binasının iki giriş qapısı vardır: qapılar cənub və qərb tərəfdə yerləşir.

Monastırın başkilsəsi olan Müqəddəs Yelisey kilsəsinin planlaşdırma həlli, zalla eyni enə malik olan altar apsidası, dəstək tağlarının olmaması və iki giriş qapısı ilə erkən orta əsrlərə aid Qafqaz Albaniyası bazilikalarını, xüsusilə Gavurqala və Müngəçevir kilsələrini xatırladır (Мамедова, 2004, s.106). Müqəddəs Yelisey kilsəsinin erkən orta əsrlərə aid daha qədim kilsənin təməlləri üzərində inşa edildiyi və onun memarlıq xüsusiyyətlərini təkrarladığına şübhə qalmır (Мамедова, 2004, s.106).

Cilalanmış daşdan tikilən baş kilsənin ikimailli damının üstündə dörd sütunlu ratonda ucalır. Kilsə geniş ibadət zalından və silindrik tağbəndlərlə tamamlanan sütunları olan kvadrat formalı otaqdan ibarətdir. Planda kvadrat formaya malik zaldan ibarət olan tikilinin tağtavanı iki pilon vasitəsiylə saxlanılır.

Monastır kompleksində dəfələrlə yenidənqurma və inşaat işləri aparılmışdır. Əsrlər boyunca monastırın başkilsəsi müxtəlif inşaat və yenidənqurma işlərinə məruz qalmışdır. Xaçın knyazlığı dövründə burada geniş inşaat işləri aparılmış, baş kilsə binası və sövmələr, yaşayış və təsərrüfat binaları tikilmişdir. Bu alban kilsəsi geniş ibadət zalından və silindrik tağbəndlərlə tamamlanan sütunları olan kvadrat formalı otaqdan ibarətdir.

Sövmələrin hamısının inşasında yerli yonulmuş daşlardan istifadə edilmişdir. Kompleksin iki apsidalı sövmələri nə Qafqaz Albaniyası memarlığında, nə də qonşu ölkələrin memarlığında anologiyaya malik deyil (Мамедова, 2004, s.107). Sövmələr bir neçə dəfə bərpa olunmuş və onlardan sərdabə və ya türbə kimi istifadə edilmişdir. Kilsənin içində və ətrafında onlarla qədim məzar vardır. Sərdabələrdən birində III Vaçaqanın, ikincisində Çiləbürd məliyi knyaz Atamın, digərində isə yepiskop Məliksətin məzarları var.

Müqəddəs Yelisey monastırı istər Qafqaz Albaniyası, istərsə də sonrakı dövrlərdə alban köklü Qarabağ məlikliklərinin siyasi və mədəni həyatında böyük rol oynayıb. Monastır kompleksinin içində və ətrafında çoxlu sayda tarixi abidələr, qədim məzar daşları, o cümlədən müxtəlif dövrlərə aid xaçdaşlar, XIII əsr və daha sonrakı dövrlərə aid məzarlar vardır. Burada həmçinin Çiləbürd mahalının görkəmli məliyi Məlik Adəmin qəbri yerləşir.

Ermənilər 30 illik işğal dövründə bu abidəni də siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərmişlər. Əsas hədəf isə Qafqaz Albaniyası tarixinin təhrif edilməsi olub. Monastırda vaxtilə mövcud olmuş alban çarı III Vaçaqanın qəbri ermənilər tərəfindən dağıdılmışdır. Müqəddəs Yelisey monastırını erməniləşdirməyə səy göstərən ermənilər işğal dövründə məbədin müxtəlif yerlərində qriqoryan xaçlarının təfsirlərini yerləşdirmişlər. Lakin Vətən torpagını işğaldan azad etmiş Azərbaycan dövləti bir çox tarixi-dini tikililər kimi bu monastırı da işğaldan azad etmişdir.



*Müqəddəs Yelisey monastırının daxili interyeri*



# ÜRƏKVƏNG MONASTIRI (XIII əsr), Talış kəndi

Tərtər rayonunun Talış kəndi XVIII-XIX əsrlərdə Gülüstan məlikliyinin mərkəzi olmuşdur. Ürəkvəng monastırı Talış kəndinin şimalında dağların qoynunda meşəlik ərazidə yerləşən XIII əsrə aid alban xristian monastır kompleksidir. Bu kompleks tarixi ədəbiyyatlarda Urek, Urekan, Qloxavank adları ilə qeyd olunmuşdur.



*Ürəkvəng monastırının divar hörgüsündə çoxsaylı qədim xaç daşlarından istifadə edilmişdir.*



*Ürəkvəng monastırı (XIII əsr), Talış kəndi*

Kilsənin giriş qapısı üzərindəki yarımtağ şəkilli portalın timpanında yerləşdirilmiş kitabədə kilsə binasının inşa tarixi 1279-cu il olaraq göstərilirdi (Мамедова, 2004 s.41). Narteksin portalının timpanındakı digər kitabədən bəlli olur ki, 1284-cü ildə narteks binası inşa edilmişdir. Kitabədə Hülakü xanının oglu, II Elxan Abaqa xanın adı çəkilir və narteksin Abaqa xanın hökmranlığı dövründə inşa olunduğu qeyd edilir.

Monastır kompleksindəki kitabədə inşa tarixi XIII əsrə aid olsa da, mənbələr bu kilsənin daha qədim tarixə malik olduğunu göstərir. Kilsə V əsrdə tikilmiş daha qədim tikilinin əsasında bərpa edilib. Kilsənin divarlarında müxtəlif dövrlərə aid xaç daşları vardır. Ürəkvəng monastırının adı VII əsrə aid alban salnaməçisi Kalankatuklunun "Albaniya tarixi" əsərində çəkilir. Alban müəllifi Qafqaz Albaniyasının ilk xristian kilsəsinin əsasını qoymuş Müqəddəs Yeliseyin nəşinin qalıqlarının burada dəfn edilməsi haqqında xəbər verir. Kalankatuklunun əsərindən məlum olur ki, Urekan adlı yerin Stepannos adlı keşişi Müqəddəs Yeliseyin sümüklərinin arasından kəlləni oğurlayıb Urekana (Ürəkvəng) gətirmişdir. Daha sonra camaat müqəddəs Yeliseyin sümüklərini də götürüb, keşişin kəlləni apardığı yerə, yəni Urekan kəndinə apardılar və oradaca qoydular (Kalankatuklu, 1861, I k., 7 f.). XIX əsr müəllifi Barxudaryan bu məlumatın əsasında yazır ki, Apostol Yeliseyin kəlləsi Ürəkvəng monastırına gətirilib və III Vaçaqanın dövründə burada dəfn edilib. Mənbə Müqəddəs Yeliseyin kəllə sümüyünün Ürəkvəng kilsəsinin altar hissəsində dəfn olunduğunu yazır. Apostolun sümükləri isə III Vaçaqan tərəfindən Müqəddəs Yeliseyin şərəfinə ucalıdımış monastırda dəfn olunmuşdur (Бархударян,1895).



*İşğaldan azad edilmiş Talış kəndi, 2021-ci il*

Qala divarları ilə əhatə edilmiş kompleks kilsə, zəng qülləsi, narteks, geniş monastır məzarlığı və çoxsaylı yarımdağılmış vəziyyətdə tikililərdən ibarət olmuşdur.. Ərazidəki digər məbədlər kimi Ürəkvəng monastırı da zaman zaman talanlara məruz qalmış, lakin hər dəfə bərpa edilmiş və yenidən qurulmuşdur.

Ürəkvəng monastırı alban memarlıq ənənəsinə xas birnefli bazilika formasında inşa olunsa da zaman keçdikcə onun ölçüləri kiçilmişdir. Qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının dönüş nöqtəsi rolunu oynamış ərəb istilalarından öncəki birnefli bazilikalarla müqayisədə tağlı zal kilsələrin ölçüləri kiçilmişdi. Bunun səbəbi Qafqaz Albaniyasında dövlətçiliyin və xristian dininin dövlət dini stusunun itirilməsi, ibadətçilərin sayının kəskin azalması və alban əhalisinin tədricən deetnizasiyası prosesləri idi. Bütün bunlar Qafqaz Albaniyasının dini memarlığına da təsir göstərmişdi. Ərəb xilafətinin bölgədə hakimiyyəti dövründə keçmiş Qafqaz Albaniyası ərazisində xristian dini memarlığı daha çox konkret dağlıq ərazilərdə cəmlənmişdir. Əksər Alban abidələri daha sadə, diqqət çəkməyən və kiçik



*Talış kəndi, məbəd qalıqları*

ölçülərdə inşa edilirdi. Bu baxımdan Ürəkvəng kilsəsi və narteksləp sadə, ciddi memarlıq həllinə malikdir. Kilsə binasının uzunluğu 7.60 m, eni 4.35 m, narteksin uzunluğu 7.75 m, eni 7 m-dir (Бархударян, 1861, II k, 241). Monastırının kafedral kilsəsi düzbucaq planlı apsidaya malik kilsə nümunələrindəndir. XIX əsrdə Barxudaryanın monastır haqda verdiyi məlumata görə, buradakı kilsə binası tamamilə tutqun, dar, kiçik olub, çox qədim tikilidir (Бархударян, 1861, II, 241). Qafqaz Albaniyasının erkən orta əsr zal kilsələri arasında rast gəlinən düzbucaq formalı altara malik kilsələr sonradan geniş yayılaraq alban kilsə memarlığının əsas xüsusiyyətlərindən birinə çevrilmişdir.

Monastırın kilsə binası birnefli zala malikdir. XIII əsrdə köhnə kilsənin zirzəmisi və salamat qalmış memarlıq elementlərindən istifadə olunmaqla qədim kilsənin bünövrəsi üzərində yenisi inşa edilmişdir. Kilsə V əsrə aid apsida əsasında bərpa edilib. Qədim kilsənin bədii ornamentli daşları yeni kilsənin inşası zamanı tikinti materialı kimi divar hörgüsündə istifadə edilmişdir. Ürəkvəng monastırındakı pəncərə çərçivələri və divar hörgüsündə çoxsaylı qədim xaçdaşlardan istifadə edilmişdir.



*Yelisey monastr kompleksinə aid edilən tikili.*

Əksər alban kilsələri kimi Ürəkvəng kilsəsində də müxtəlif dövrlərdə inşaat-yenidənqurma işləri aparılsa da, altar apsidası ilkin memarlıq quruluşunu saxlamışdır (Мамедова, 2004, s.41). Kilsənin məhz bu hissəsinin toxunulmaz saxlanmasının səbəbi altarda Müqəddəs Yeliseyin qalıqlarının dəfn edilməsi ilə bağlıdır. M.Kalankatuklu altarda Qafqaz Albaniyasının ilk maarifçisi Müqəddəs Yeliseyin qalıqlarının dəfn edilməsindən bəhs edir.

Kilsə binasının birbaşa divarlar üzərində bərkidilmiş tağlar tərəfindən saxlanan tavanı ikitərəfli damla örtülüb. Düzbucaqlı ibadət zalı kifayət qədər arxaik və qeyri-adi formaya malikdir. Dərinliyində zirzəmi yerləşən kvadrat formalı apsida zaldan hündürdə yerləşir. O, təxminən zalın yarısını tutur və iki tərəfdən pilləkənlərə malikdir. 7.6x4.3 metr ölçüyə malik uzun, ensiz, kilsə binasına bitişik narteks inşa edilmişdir. Narteksin 7x7.5 metr ölçüyə malik kvadrat formalı binası günbəzformalı örtüklə tamamlanır. Kilsə binasında rahib hücrələrinin qalıqları vardır. Narteksdən eyni zamanda monastır yepiskoplarının türbəsi kimi də istifadə edilmişdir. Buradakı məzar daşları yüksək bədii zövqlə işlənmiş müxtəlif ornamentlər və kitabələrlə bəzədilmişdir. Monastırın zəng qülləsi XVII əsrdə inşa edilmişdir. Bu kiçik, sadə tikili qərb tərəfdən narteks binasına birləşmişdir.

Kilsənin inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud daş və əhəng məhluluna əsaslanır. Kompleksə daxil olan tikililərdə divarlar kobud işlənmiş nəhəng əhəngdaşı bloklarından ucaldılmış, yalnız gi-



*Yelisey monastr kompleksinə aid edilən tikili.*

rişlər və pəncərə yerləri yaxşı yonulmuş daşla çərçivələnmişdir.

Kilsənin divarlarında müxtəlif dövrlərə aid xaçdaşlar vardır. Bundan başqa XIII əsr və daha sonrakı əsrlərə aid onlarla xaçdaşlar monastırın şimal həyəti boyunca səpələnmişdir. Barxudaryan yazır ki, monastırın ətarafını gözəl ornamentli başdaşlar, xaçdaşlar bəzəyir (244) Bu abidələr üzərində atlılar, din xadimləri, musiqiçilər, müxtəlif məişət səhnələri ilə bağlı təsvirlər, həndəsi və nəbati naxışlar yer almışdır.

Monastırın geniş məzarlığında yarımdağılmış vəziyyətdə olan sərdabə günümüzə çatmışdır. Sərdabənin içərisində iki böyük, düz daş plitə vardır. Monastır məzarlığında zəngin ornamentli məzar daşları var. Buradakı məzar daşları iki metr və daha çox hündürlüyə, bir metrdən çox en ölçülərinə malikdirlər. Barxudaryanın yazdığına görə, burada çox sayda yepiskop, dyakon dəfn edilib. Məzarlıqda XIX əsrə aid Saruxan bəy, Məlik Bəylər, general Şamil xanın məzar daşları da var (Бархударян, 1895, s.245 ).



*Monastır kompleksinin ətrafında müxtəlif dövrlərə aid xaçdaşlar, XIII və sonrakı əsrlərə aid məzar daşları vardır.*

## ALBAN KİLSƏSİ (XIII əsr), Umudlu kəndi

Abidənin yerləşdiyi Umudlu kəndi 1992-ci ildə Ağdərə rayonunun ləğv edilməsilə Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir. XIII əsrə aid edilən alban məbədi Umudlu kəndinin yuxarı hissəsində sıx meşəlik ərazidə, Sərsəng su anbarından şimalda, Murovdağın ətəyində yerləşir. İşğal dövründə kompleks tamamilə dağılmışdır.

## ÜÇ KÖRPƏ MONASTIRI (XVII əsr), Təpəkənd

Üç körpə monastırı Tərtər rayonunun işğal dövründə ermənilər tərəfindən Tonaşen adlandırılan Təpəkənd kəndi ərazisində yerləşir. XIX əsrdə Barxudaryan bu kəndin əhalisinin Çiləbürd mahalından olduğunu yazır (Бархударян, 1895, s.95). Bu tarixi-memarlıq abidəsi Mrovdağ yaxınlığında Çiləbürd qalasının 7 kilometrliyində meşəlik ərazidə yerləşir.

Qarabağda son orta əsrlərdə tikilmiş monastırlardan olan bu abidə 1691 ci ildə Çiləbürd mahalında inşa edilmişdir. Barxudaryanın verdiyi məlumata görə, məbədin fasadındakı kitabədə bu kilsənin əsasının İsa Məsihin şərəfinə 1664-cü ildə qoyulmasından bəhs edilir. Kilsənin girişində isə monastırın Sultan Süleyman dövründə 1691-ci ildə alban katolikosu



*Üç körpə monastırı (XVII əsr),Təpəkənd, Tərtər*

Simeon tərəfindən inşa edildiyi barədə məlumat verən kitabə olmuşdur (Бархударян, II, s.244-245). Barxudaryan kilsənin yaxınlığındakı qədim monastır qalıqları olduğunu yazır və kilsə altarının altında 4 qədim qəbir yerinin olmasından bəhs edir (Бархударян, s.95).

Monastır ərazisində mövcud olmuş inşa kitabəsindən Üç körpə monastırının başkilsəsinin tarixdə Sam Mirzə, II Şah Səfi, Süleyman (1666-1694) adları ilə tanınan Səfəvi şahının himayəsi ilə tikildiyi məlum olur. Kilsənin kitabəsindən məlum olur ki, 1691-ci ildə inşasına başlanılıb və 1694-cü ildə bitmişdir. İnşaat kitabəsindən kilsənin Alban Həvari kilsəsinin katolikosu VI Simeonla yanaşı onun qardaşı, arximandrit İqnatios və ziyarətçilərin də maddi dəstəyi ilə inşa edildiyi məlum olur.

Üç körpə monastırının divarlarında 1571, 1620, 1745-ci illərə aid xaçdaşları olmuşdur. Yazılı kitabədən onlardan birinin Məlik Şahnəzərin xanımı tərəfindən ucaldıldığı məlum olur (Бархударян, 1895, s.95). Monastır ərazisində müxtəlif dövrlərə aid bədii təsvirli alban xaçdaşları da olub.

Planda düzbucaqlı formaya malik olan əsas kilsə binası assimmetrik konstruksiyaya malik üç nefli günbəzli bazilikadır. Yarımdaşıyıcı tağlar vasitəsiylə saxlanan günbəz dörd zərif sütun üzərində dayanır. Portal timpanının bütün səthi incə naxışlarla işlənmişdir. 13.5x9.5 metr ölçülərinə malik olan ibadət zalı geniş və işıqlıdır. Zalın şərq tərəfində altar-apsida, apsidanın hər iki tərəfində isə düzbucaqlı plana malik iki mərtəbəli köməkçi otaqlar yerləşir. Ktişvəng monastırının baş kilsəsinin iki mərtəbəli köməkçi otaqlarında olduğu kimi, ikinci mərtəbədəki otaqların qapıları apsidaya açılır və oradan pilləkənlər ikinci mərtəbədəki otaqlara aparır. Yarımdairəvi altarın yan divarlarında yeddi niş vardır.

İbadət zalının şimal tərəfində, altarın yaxınlığında vəftiz piyaləsinin yeri qalmışdır. Kilsənin orijinal qapısı, günbəzin qalpaq formalı yuxarı hissəsi və yonulmuş daşlardan hazırlanmış





*Monastır ərazisindəki antropomorf tanrı və buta ornamentli xaçdaş*

döşəmə örtüyü də ilkin görünüşündə dövrümüzə çatmışdır. Cənub pilonu üzərindəki kitabədən məlum olur ki, zalın pilonları ilkin xaçvari formada olmuşdur. XVIII əsrdə isə növbəti bərpa zamanı iki şərq pilonunu möhkəmləndirmək üçün onlar kvadrat formaya salınmışdır.

Monastırın başkilsəsinin günbəzi ənənəvi olaraq ibadət zalının mərkəzində deyil,qərb tərəfində yerləşir. Assimmetriya yalnız günbəz konstruksiyasında deyil, həm də şimal və cənub divarlarında yerləşdirilmiş pəncərələrdə, həmçinin dekor elementlərində də müşahidə olunur. Kilsənin yeganə qapısı cənub divarında yerləşir.

Kompleksin inşa texnikasında günbəz və fasadın yuxarı hissələri yaxşı yonulmuş sarımtıl ağ daşlardan, digər divarlar isə adi bozumtul-mavi daşlardan hörülmüşdür. Monastırın mülki tikililəri, o cümlədən rahib hücrələrinin dizayn-memarlıq xüsusiyyətləri Kəlbəcərin Kolatag kəndi ərazisindəki Böyük Aran monastırını xatırlatsa da, daha geniş ərazi və böyük ölçülərə malikdir. Rahib hücrələrinin hər birinin buxarısı və pəncərələri var.

Kilsə son orta əsrlərdə Erməni Qriqoryan kilsəsinin təzyiqinə qarşı Alban kilsəsinin avtokefallığının qorunması ugrunda mübarizə aparan Qarabağın alban xristian məclisinin əsas istinadgahlarından olmuşdur.

## KALANKAT YAŞAYIŞ YERİNİN QALIQLARI, Çardaqlı kəndi

Kalankat və ya Kalankatuk kəndi Qafqaz Albaniyasının Uti vilayətində yerləşən qədim alban kəndi olmuşdur. “Albaniya tarixi” əsərinin müəllifi Musa Kalankatuklunun vətəni kimi tanınan tarixi yaşayış məntəqəsidir. Ərəb tarixçisi Əl-İstəxri “Kitab əl məsalik vəl-məmalik” adlı əsərində bu kəndi Bərdə-Dəbil yolu üzərindəki əsas dayanacaqlardan biri kimi təsvir etmişdir. Müəllif kəndi Kalkutus adlandırmış və onun Bərdədən 9 fərsəx (təxminən 62 km) məsafədə yerləşdiyini qeyd etmişdir.

Hazırda kəndin xarabalıqları Tərtər rayonunun Çardaqlı kəndi yaxınlığında yerləşir. Kalankat kəndində erkən orta əsrlərə aid kilsə və ya monastır olması ehtimal edilir. V əsrdə çağrılan Aguen kilsə məclisində Kalankat din xadiminin də iştirakından bəhs edilir (Kalankatlı, I, s.26). Hətta alban müəllif Kalankatlının təxəllüsünü bu monastırın adı ilə əlaqələndirirlər (Мамедова, 2005, s.32).

## DUTAKAN ALBAN KİLSƏSİ (XII əsr), Talış və Suqovuşan kəndləri arasında

Dutakan kəndunun xarabalıqları Talış və Suqovuşan kəndlərinin arasındakı meşədə yerləşir. Musa Kalankatuklunun “Albaniya tarixi” əsərində adı çəkilən Dutakan Qafqaz Albaniyası hökmdarlarının yay iqamətgahı olmuşdur. XIX əsr müəllifi Makar Barxudaryan Dutakan kəndinin III Vaçaqanın yay iqamətgahı olduğunu yazır (Бархударян, II, s.242). Müəllif kəndin ərazisində XII əsrə aid kilsə xarabalıqlarından da bəhs etmişdir. Burada uzunluğu 13 m, eni 7 m olan yarıdağılmış kilsə qalmaqdadır. İnşa kitabəsindən tikilinin 1151-ci ildə alban katolikosu tərəfindən inşa edildiyi məlum olmuşdur.

## CARABERD / ÇİLƏBÜRD MONASTIRI (XVIII əsr), Çiləbürd kəndi

Çiləbürd monastırı Tərtər rayonu Çiləbürd kəndi ərazisində yerləşən tarixi-memarlıq abidəsidir. Kənd 29 dekabr 1992-ci ilə qədər Cerabert adlanırdı. Çiləbürd monastırı Tərtər çayının sağ sahilində, Çiləbürd qalasının 2 kilometr şimal-qərbində, Üç körpə monastırının yaxınlığında yerləşir.

Monastır bölgənin ən qədim və məşhur mədəni mərkəzlərindən biri olmuşdur. Kompleksə daxil olan tikililər – kilsə, rahib hücrələri və digər mülki tikililər XVIII əsrdə daha qədim tikililərin yerində inşa olunmuşdur (Мкртчян, 1989, s.59). Kompleks ərazisində yeni tikililərin inşası zamanı daha qədim tikililərin daşlarından, həmçinin ərazidə olan xaçdalar və kitabəli daşlardan istifadə edilmişdir.

Çiləbürd monastırının başkilsəsi birnefli baziliika formasına malikdir. Monastırın iki tərəfli damı qoşa pilyastrlar tərəfindən dəstəklənir. Kilsənin giriş qapısı qərb divarında yerləşir. Cənub divarında iki, şərq və qərb divarlarında isə bir pəncərə yeri var. Hazırda dağılmış vəziyyətdədir.



*Çiləbürd qalası (XVIII əsr)*

## Saray və qalalar

# CARABERD / ÇİLƏBÜRD QALASI

Çiləbürd qalası/Çaraberd qalası Tərtər rayonu Çiləbürd kəndində yerləşən tarixi-memarlıq abidəsi Qala, Tərtər və Turagay çaylarının birləşdiyi yerdə, sıldırım qaya üzərində inşa edilmişdir.

Çardaqlı və Ulu Qarabəy kəndləri arasındakı qədim yaşayış məskəni xarabalıqlarında yerləşən Çiləbürd məliklərinin sarayı barədə XIX əsrdə Barxudaryan məlumat verir (Бархударян, II, s.232, 235).

Orta əsr mənbələrində qala həm də Craberd və Çaraberd adı ilə qeyd edilən Çiləbürd qalası ilk dəfə VII əsrin 20-ci illərində xəzərlərin Qafqaz Albaniyasına yürüşləri ilə bağlı Musa Kalankatuklu tərəfindən xatırlanır. Çiləbürd qalası Musa Kalankatuklunun əsərində Caraberd kimi qeyd olunur. Müəllifin verdiyi məlumata görə alban katolikosu Viro xəzər basqınlarından qurtulmaq üçün «ölkənin bütün adlı- sanlı adamlarını, çar nəslindən olan bütün zadəganları, vilayət valilərini, kəndxudaları, keşişləri və məmurlarını Caraberd qalasına çagırdı» (Kalankatuklu, 1861, IIk XIX f.)



*Murövdağın ətəyində, dəniz səviyyəsindən 1700 m yüksəklikdə yerləşən Gülüstan qalası, Tərtər*

Mxitar Qoş öz əsərində Arrana yürüşlərdən bəhs edərkən “Caraberd vilayəti və onun qalalarının knyazı” ifadəsini işlədir (Mxitar Qoş, 2006 s.396).

XVII-XVIII əsrlərdə qala alban məliklərinin iqamətgahı olmuşdur. Çiləbürd mahalının Vaxtanq, Həsən Calal, Atabəy kimi hakimləri məlik nəsillərindən idilər.

Çiləbürd məliklərinin daha iki sarayı Kiçik Qarabəy kəndində yerləşir. Barxudaryan XIX əsrdə Möhrətağ (Kiçik Qarabəy) kəndində Meyrəkavak deyilən yerdə Kolatağ və Tuğraçay, Tərtər çayları qovuşağında, qayanın zirvəsində Caraberd (Çiləbürd – *M.P.*) qalalarından bəhs edir (Бархударян, II, s.234, 251-252).

Böyük ərazini əhatə edən Çiləbürd qalasının divarları daxilində çoxlu sayda tikililərin qalıqları və məzar daşları vardır. Qalanın xarabalıqları dövrümüzə qədər qalmışdır. Burada hərbi və təsərrüfat tikililərinin divarları, qala darvazası var.

Əsrlərdən bəri bölgənin əsas müdafiə mərkəzi olan Çiləbürd qalası xırda çığırlar və dağ yolları vasitəsiylə Müqəddəs Yelisey, Ürəkvəng, Üç körpə, Gəncəsər kimi monastırlar, həmçinin bölgənin bütün dağ kəndləri ilə əlaqələndirilmişdir. Qalanın yaxınlığında Üç körpə monastırı yerləşir. Qaladan Üç körpə monastırına aparan cığırda, qayanın altından 1,5 metr diametrlik tunel çəkilmişdir.



*Gülüstan məlik sarayının xarabalıqları (XVIII əsr), Talış kəndi*

## GÜLÜSTAN MƏLIK SARAYI
### (XIII əsr), Talış kəndi

Gülüstan məlik sarayı Tərtər rayonu Talış kəndində yerləşir. XVIII əsrə aid edilən tarixi-memarlıq abidəsi Gülüstan məliklərinin iqamətgahı olmuşdur. Kompleks Gülüstan məliyi titulunu daşımış Məlik Bəylər sülaləsi tərəfindən inşa etdirilmişdir.

Tikilinin inşaat kitabəsində onun inşasına XVIII əsrin əvvəlində başlanıldığı qeyd edilir: "Məlik Bəylər ətraf alban kəndlərinin sahibi olan Gavur İbrahimə qarşı döyüşlərdə onu öldürərək Gülüstan qalası ərazisini və ətraf kəndləri öz mülkünə çevirir".

Hazırda sarayın yalnız xarabalıqları qalmaqdadır. Bu xarabalıqlar Ürəkvəng monastırından 100-150 metr aralıda yerləşir. Kompleks qülləli qala divarları ilə əhatə olunmuş çoxsaylı tikililərdən ibarət olmuşdur. Planda düzbucaqlı formaya malik Qəsr-saray həm də müdafiə xarakteri daşıyırdı. Qəsrin qarnizonu ondan bir qədər şimalda inşa edilmiş kiçik qalada yerləşirdi. Qəsrin yaxınlığındakı qarnizonuniun yerləşdiyi kiçik qalanın yalnız dörd qülləsi və qüllələri birləşdirən divar qalıqları mövcuddur.

XIX əsrin əvvəllərinədək Gülüstan məliklərinin Rahtarxana adlanan gömrükxanası da Talış kəndi yaxınlığında yerləşib. Barxudaryan yazır ki, qala formalı bu qədim tikili rusların bölgəyə gəlişindən sonra dağıdılıb (Бархударян, 1895, II. s. 240).

## GÜLÜSTAN QALASI

Azərbaycanın qədim qalalarından biri – Gülüstan qalası Gülüstan məlikliyinin qədim müdafiə qalası olmuşdur. Qala Murövdağın şimal ətəyində, İncəçayın sol sahilində, dəniz səviyyəsindən 1700 m yüksəklikdə, eyni adlı kəndin ərazisində yerləşir.

Gülüstan qalası tam şəkildə dövrümüzə gəlib çatmasa da, müəyyən bürcləri qorunmuşdur. Qalanın tikilmə tarixi tədqiqatçılar tərəfindən Qafqaz Albaniyası dövrünə aid edilir. Yerli daşlardan tikilən qala möhkəm müdafiə qurğusuna malikdir.

Qala XVIII-XIX əsrlərdə Gülüstan məlikliyinin mərkəzi olub. Azərbaycan torpaqlarını Rusiya İran arasında bölən Gülüstan müqaviləsi də bu qalada imzalanıb. Barxudaryan Gülüstan kəndi yaxınlığında 4 sütunlu Məryəm ana kilsəsi, ağ xaçdaşın altında şəhid yatdığına inanılan Mrov piri kimi ziyarətgahlar olduğunu yazır (Бархударян, 1895, s.249 ).

# KƏLBƏCƏR
## RAYONU

*«Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar».*

***Heydər Əliyev, Ulu öndər***
***1996-cı il***



*Kəlbəcər abidələri*

Kəlbəcər rayonu tarixi Zəngəzur mahalının bir parçası olub Şərqi Zəngəzur ərazilərində yerləşir. Zəngəzur mahalı tarixi-coğrafi baxımdan Qafan, Gorus, Mehri, Sisiyan, Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazilərini əhatə edən qədim Azərbaycan torpagıdır. Zəngəzur toponimi oguz boylarından olan zəngənə tayfalarının adı ilə baglıdır. Zəngi tayfasınn adına hələ assur kitabələrində sanqi şəklində rast gəlinmişdir.

Qərbi və Şərqi Zəngəzur anlayışlarının yaranmasının tarixi isə Azərbaycanda Sovet bolşevik hakimiyyətinin qurulması ilə baglıdır. 1867-ci ildə Rusiya imperiyası Azərbaycan ərazilərində Yelizavetpol (Gəncə) quberniyasının tərkibində Zəngəzur qəzasını yaratmışdı. 1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra elə həmin ilin noyabr ayında Azərbacan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasında Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Qərbi Zəngəzurun Ermənistana verilməsi barədə qərar qəbul edilmişdir. Sovet bolşevik hakimiyyətinin azərbaycanlıların tarixi torpaqlarını Ermənistana bağışlaması ilə 1920-ci ilin sonlarından Şərqi və Qərbi Zəngəzur anlayışları meydana çıxdı.

Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.637 kv. verstlik Qərbi Zəngəzur hissəsi Ermənistana verildi. Azərbaycan SSR-nin tərki-



bində isə 3.105 kv. verstlik Şərqi Zəngəzur əraziləri qaldı. Zəngəzur iki hissəyə parçalandı. Qafan, Gorus, Mehri və Sisyan rayonları Ermənistana verildi, Laçın, Qubadlı və Zəngilan rayonları isə Azərbaycan SSR-nin tərkibində qaldı. Nəticədə Zəngəzur dəhlizi adlanan dəhliz yarandı ki, bu Naxçıvan ərazisinin Azərbaycan torpaqlarından ayrı salınmasına səbəb oldu. Azərbaycan dövləti bir dəhliz vasitəsilə iki hissəyə ayrıldı. 1933-cü ildən etibarən Zəngəzur adı tamamilə xəritədən silindi. Ermənistana birləşdirilən Qərbi Zəngəzur ərazilərində Qafan, Gorus, Qarakilsə (Sisyan) və Mehri rayonları yaradıldı. Azərbaycanda qalan Şərqi Zəngəzur hissəsində isə əvvəlcə Kürdüstan qəzası, sonra isə Kəlbəcər, Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. 1992-93-cü illərdə isə Şərqi Zəngəzur əraziləri Qarabağ ərazisi ilə birlikdə ermənilər tərəfindən işğal edildi.

2020-ci ilin sentyabrın 27-də başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində ərazi bütövlüyünü bərpa edən Azərbaycanın Qarabağda əldə etdiyi tarixi qələbənin əhəmiyyətli nəticələrindən biri də Zəngəzur dəhlizinin açılması oldu. Qədim Zəngəzur mahalından keçən dəhliz coğrafi baxımdan iki yerə bölünən türk dünyasını yenidən birləşdirməyə xidmət edəcək.

2020-ci ildə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərinin bərpası üçün Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərmanla Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarını əhatə edən Şərqi Zəngəzur iqtisadi zonası yaradılmışdır. Hazırda Ermənistan ərazisi sayılan Qərbi Zəngəzur adlandıra biləcəyimiz ərazilər isə Azərbaycanın tarixi torpaqları olan Qarakilsə, Qafan, Gorus və Mehri rayonlarının ərazilərini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin öz çıxışlarında dəfələrlə vurguladığı kimi, İrəvan xanlığı, Zəngəzur mahalı – bütün bunlar tarixi, əzəli Azərbaycan torpaqlarıdır*.

Zəngəzur mahalının incilərindən olan Kəlbəcər ərazisi təbiətinə, çox qiymətli yeraltı sulara, əlvan metal yataqlarına, həm də zəngin tarixi-memarlıq, mədəniyyət abidələrinə görə Azərbaycanın çox dəyərli bir guşəsidir. Çox zəngin təbiəti ilə yanaşı Kəlbəcər "Qaragöl", "Zalxa" gölləri sahil-

---

** https://president.az/az/articles/view/52742*



*Böyük Aran / Müqəddəs Yaqub monastırı, Kolatağ kəndi*



*Xudavəng monastır kompleksi (VI-VII əsrlər)*



*Lök qalası, Qanlıkənd*

lərində, “Ayıçınqıl” və “Pəriçınqıl” dağlarında qayalara həkk edilmiş, qayaüstü təsvirləri, qədim və antik dövr, orta əsrə aid yüzlərlə tarixi memarlıq abidələrinə sahib açıq səma altında muzey olmuşdur.

Azərbaycanın Kəlbəcər rayonu ərazisi ilk insan məskənlərindən biri olmuşdur. Hələ sovet dövründə Kəlbəcər rayonunun Zar, Dövşanlı, Sırxavəng kimi bir çox kəndlərində aparılan arxeoloji tədqiqatlar nəticəsində bu bölgənin zəngin və qədim tarixi ilə bağlı qiymətli materiallar aşkar edilmişdir. Dovşanlı kəndində Son Tunc, İlk Dəmir dövrünə aid nekropol, Sırxavənd kəndində Ballıqaya nekropolu, antik dövrə aid e.ə. III minilliyə aid küp qəbirləri, Zar kəndində aşkar edilmiş qayaüstü rəsmlər bölgənin qədim tarixini əks etdirən qiymətli nümunələrdir.

Lakin Kəlbəcər rayonunun zəngin sərvətləri, o cümlədən tarixi- memarlıq abidələri XX əsrin sonlarından başlanan erməni işğalı nəticəsində vandalizmə məruz qalmışdır. İşğal dövründə Kəlbəcər rayonundakı İslam dövrünə aid bütün dini abidələr – rayon mərkəzindəki XIX əsrə aid məscid, Başlıbel kəndindəki XVIII-XIX əsrlərə aid edilən qədim məscid, Otaqlı kəndindəki XIX əsrə aid məscid, eyni zamanda rayon ərazisindəki orta əsrlər dövrünə aid cox sayda qəbiristanlıq, Qocdaş dağının ətəyində Zar və Zəylik kəndlərindəki qəbirstanlıqlardakı XVIII–XIX əsrlərə aid, üzərində ərəb yazıları olan qəbirüstü daşlar – at və qoç fiqurları, Əsri kəndindəki Qoç daşlar piri, Söyüdlü kəndindəki Seyid Əsədullah ziyarətgahı, Seyid Əhməd ağa ocağı, Başlıbel kəndindəki Seyid Bağır ağa ocağı, Seyid Əliabbas ağa ziyarətgahı kimi yüzlərlə inanc yeri, türbələr, qəbiristanlıqlar, tarixi memarlıq abidələri Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən məhv edilmişdir.

Kəlbəcərdə 1982-ci ildə yaradılmış tarix-diyarşünaslıq muzeyi 30 mindən artıq eksponatı olan zəngin fonda sahib idi. Kəlbəcər rayonunda 1993-cü ilə qədər fəaliyyət göstərmiş Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin həyətində daşdan yonulmuş 14 qəbirüstü at və qoç heykəli nüma-

yiş etdirilməkdə idi. Muzey binasının özü də çöl divarlarında 2037 rəng çaları olan daşlardan istifadə edilmiş inikal tarixi-memarlıq nümunəsi olmuşdur. Muzeyin divarlarına daşdan düzəldilmiş müxtəlif naxışlar, kənd təsərrüfatı alətləri və bir çox əşyalar həkk olunmuşdu. 1993-cü ilin aprel ayına qədər fəaliyyət göstərmiş Kəlbəcər tarix-diyarşünaslıq muzeyi də Ermənistan ordusu tərəfindən məhv edilmişdir. Onun eksponatlarının böyük əksəriyyətini xilas etmək mümkün olmamışdır.

Kəlbəcər rayonunun ərazisində olan bütün tarixi və memarlıq abidələri, o cümlədən mədəniyyət ocaqları rayonun 30 ilə yaxın davam etmiş işğalı dövründə Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılmış, bölgə ermənilər tərəfindən qanunsuz məskunlaşmaya məruz qalmışdır.

1993-cu ildən Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal altında qalmış Kəlbəcər rayonu 2020-ci il 10 noyabr bəyanatına əsasən noyabrın 25-də Azərbaycana qaytarılmışdır.

## Kəlbəcər rayonunun alban abidələri

Kəlbəcər Zəngəzur mahalının qədim alban qalaları və məbədləri ilə ən zəngin olan bölgələrdəndir. Kəlbəcər rayonunda dövlət qeydiyyatına alınmış 35 Alban məbədi olmuşdur. Qeyd etmək lazımdır ki, bu, bölgənin alban abidələrinin tam təsnifatı deyildir. Bölgənin bütün abidələrinin qeydiyyatı və dərindən öyrənilməsi üçün tarixçilərin, arxeoloqların, etnoqrafların, arxitektorların birgə elmi ekpedisiyalarının həyata keçirilməsi zəruridir. Həm memarlıq üslubuna, xaçın formasına və bir çox xüsusiyyətlərinə görə erməni kilsələrindən tamamilə fərqlənən alban abidələrinin memarlıq üslubu, həmçinin onlara aid simvol və elementlər işğal dövründə erməni saxtakarlığına məruz qalmış, Ermənistan dövlətinin dəstəyilə erməni Qriqoryan kilsəsi tərəfindən dağıdılaraq saxtalaşdırılmış, erməni abidələri kimi təqdim olunmuşdur.

İşğal dövründə Kəlbəcər rayonu Vəng kəndi ərazisində olan Xudavəng monastır kompleksi, Vəngli kəndində Alban katolikoslarının iqamətgahı olmuş məşhur Gəncəsər monastır kompleksi, Çərəktar kəndindəki Həsən Calal kilsəsi, Kolatağ kəndindəki Böyük Aran monastırı, Xatırvəng, Qırmızı monastır kimi alban dövrünə aid dini-tarixi memarlıq abidələri, həmçinin Lök qalası, Uluxan qalası, Qalaboynu qalası, Comərd qalası, Keşikçi qalası kimi alban dövrünə aid müdafiə tikililəri və qalaları dünyaya erməni mədəniyyət nümunələri kimi təqdim olunmuşdur.

## Rayon ərazisindəki alban abidələrinin siyahısı

- Xudavəng (Dadivəng) monastır kompleksi, Vəng kəndi
- Alban məbədi (500-cü il), Həsənriz kəndi
- Alban məbədi (672-ci il), Yayıcı kəndi
- Alban məbədi (XII-XIII əsrlər), Yayıcı kəndi
- Alban məbədi (718-ci il), Qasapet kəndi
- Böyük Aran monastırı (IX əsr), Kolatağ kəndi
- Alban məbədi (XII əsr), Kolatağ kəndi
- Alban məbədi (X əsr), Çormanlı (Qarnakar) kəndi
- Alban kilsəsi (XI əsr), Çormanlı (Qarnakar) kəndi
- Gəncəsər monastırı (XII əsr), Vəngli kəndi
- Havaptuğ məbədi (XII əsr), Vəngli kəndi
- Xatıravəng monastırı (1204-cü il), Qozlu kəndi
- Qırmızı monastır (XIII əsr), Qozlu kəndi
- Meyrəkavak monastırı (XIII əsr), Qozlu kəndi
- Alban kilsəsi (XIIIəsr), Çərəktar kəndi
- Harva kilsəsi (XIII əsr), Dövşanlı kəndi
- Mamakan xatun /Vaçar kilsəsi (XIII əsr), Bazarkənd
- Müqəddəs Stepanos kilsəsi (XIII əsr, Bazarkənd
- Alban məbədi (XIII əsr), Zar kəndi

- Qırmızı daş monastırı (XII əsr), Çapar kəndi
- Alban məbədi (XII əsr), Çıldıran kəndi
- Qırmızı məbəd (XIII əsr), Çıldıran kəndi
- Alban məbədi (1283-cü il), Həsənriz kəndi
- Kilsəkənd məbədi, Qasımlar kəndi
- Mağara məbəd, Armudlu kəndi
- Kilsə (1668-ci il), Dovşanlı kəndi
- Kilsə (XVII əsr), Dəvədaşı kəndi
- Alban məbədi, Maxrataq kəndi
- Alban məbədi, Şaplar kəndi

**Qala və qəsrlər**

- Xonabert/ Tarkan qalası, Vəngli kəndi
- Xaçın sarayı, Vəngli kəndi
- Xaçın / Qaxaç qalası, Kolatağ kəndi
- Lök qalası (VII-VIII əsrlər), Qanlıkənd kəndi
- Qalaboynu qalası (VIII-IX əsrlər), Qalaboynu kəndi
- Akan qalası, Həsənriz kəndi
- Uluxan qalası (VII-IX əsrlər), Qaracanlı kəndi
- Comərd qalası (VIII-IX əsrlər), Comərd kəndi

## XUDAVƏNG (DADİVƏNG) MONASTIRI (VI-VII əsrlər), Vəng kəndi

Azərbaycan Respublikası ərazisindəki ən böyük monastır kompleksi olan Xudavəng monastırı Tərtərçayın sol sahilində, Kəlbəcər rayonunun Vəng kəndi ərazisində yerləşir. Cənubi Qafqaz ərazisində ilk xristian məbədlərdən olan Xudavəng monastır kompleksi Azərbaycan xalqının əcdadlarının yaratdığı möhtəşəm maddi-mədəniyyət nümunələrindəndir. Monastır Azərbaycanın xristian memarlığının ən iri abidələrindən biridir.

Xudavəng məbəd kompleksi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı Qərarı ilə təsdiq edilmiş “Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri”nin siyahısına daxil edilmişdir.

Tərtərçay vadisinin ən mühüm abidələrindən biri olan Xudavəng monastırı xristianlığaqədərki inancların izlərini daşıyan qədim məbəd kompleksidir. Xalq arasında Xudavəng, yəni “tanrı məbədi” adlandırılan bu alban məbədi xristianlığın qəbuluna qədər movcud olmuş qədim kult yerində inşa edilmiş inanc yeridir.

Xudavəng apostollar dövrünə aid ən erkən alban xristian dini abidələrindəndir. İsa Məsihin həvarilərindən biri olmuş Faddeyin şagirdi Dadi tərəfindən əsası qoyulduğu mənbələrdə qeyd olunmaqdadır (Бархударян, 1895, ч. II, s.215). XIX əsr müəllifi Barxudaryan yazır ki, bu tikilinin yaşını müəyyən etmək mümkün deyil, çünki o dəfələrlə bərpa edilmişdir. Onun qədimliyi tamamilə məhv olub və yalnız bərpa edilmiş vəziyyəti qalıb (Бархударян, 1895, ч. II, s.215).

Sovet dövründə aparılan arxeoloji tədqiqatların nəticələrindən məlum olur ki, bu qədim məbəd yerində monastır tikintisi VI-VII əsrlərdə başlamışdır. Monastır kompleksində erkən orta əsrə aid Azərbaycan üçün səciyyəvi arxaik qaradam formalı qədim məbəd qalıqları aşkar edilmişdir (Ямпольский, 1962, s. 226).

Qarabağın alban kilsələri haqda qiymətli məlumatlar toplayaraq 1895-ci ildə dərc etdirmiş yepiskop Barxudaryan digər alban məbədləri kimi Xudavəng monastır kompleksindəki çox sayda daş kitabələr, epiqrafik yazıların mətni barədə ətraflı məlumat vermişdir. Barxudaryan monastırın qayalığın başında yüksəklikdə tikildiyi üçün Xudavəng adlandırıldığını yazır. Xudavəng – “tanrı məbədi” adı bü günədək də xalq arasında qorunub saxlamışdır. Barxudaryan Dadivəng adının monastırın yerləşdiyi Vəng kəndinin adı ilə bağlı olduğunu qeyd edir (Бархударян, 1895, II ч. s.220).

Xudavəng monastırı Vəng kəndinin adı ilə xalq arasında elə Vəng piri olaraq da tanınırdı. XX əsrin əvvəllərində Yampolski bura yerli xristian alban əhali ilə yanaşı müsəlmanların da gəldiyini qeydə almışdı. Vəng ziyarətgahı Xudavəng monas-



*Xudavəng monastırı Vəng kəndi ərazisində yüksəklikdə tikildiyi üçün Xuda – "tanrı " vəng adı ilə bü günədək xalq arasında qorunub qalmışdır.*

tırının içində idi. Ziyarətgahın mərkəzi gözəl ornamentli oyma xaçlarla bəzədilmişdi (Ямпольский, 1962, s. 225). Bu xristian məbədinə müsəlmanlar da gedirdi (Ямпольский, 1962, s. 226).

Bütün Azərbaycan ziyarətgahlarında olduğu kimi Xudavəng monastırının yaxınlığında bitən dağdağan ağacı da xalqın sitayiş yeri idi. Məbəd xristianlığın qəbulundan sonra da həm müsəlman həm də xristian əhalinin ziyarət yeri olaraq qalmaqda idi.

Monastır kompleksi tarixi Qafqaz Albaniyasının Arsak vilayətinin Rostok adlanan tarixi bölgəsində yerləşmişdir. Monastır Alban dövlətçiliyinin süqutundan bir əsr sonra IX əsrdən Ərəb xilafətinin zəifləməsilə yenidən dirçələn alban Xaçın knyaz sülaləsinin nəzarətində idi. Xudavəng monastırı ilə yanaşı Həsənriz (Aterk) ərazisi və qalası da Xaçın knyaz sülaləsinin nəzarəti altında idi. Xudavəng monastırı XI-XII əsrlərdən etibarən yüksələn Xaçın knayzlığının dini mərkəzinə çevrilir.

Qeyd etmək lazımdır ki, Xaçın knyazlığı sülaləsi Azərbaycan xalqının etnogenezində iştirak etmiş albanlara mənsub idilər. Xudavəng məbəd kompleksinin kitabələrində qeyd olunan Arzu xatun, Tursun, Seyti, Hasan, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz, Mamaxatun kimi bariz türk adları abidəni ucaldanların etnik mənsubiyyətinin türklüyünün dəqiq göstəricilərindəndir.

Monastır ərazisində Xaçın məlikliyinin hökmdarlarına aid çox sayda kitabələr mövcud olmuşdur. Monastırın cənub divarındakı kitabədən məlum olur ki, Xudavəng, Xatirvəng və Getamac (Zar) kimi alban monastırları Xaçın knyazlarının nəsil mirası, ata taxtı olmuşdur. Xaçın knyaz sülaləsindən olan Tursun Seyti, Hasan və onların qardaşları, oğulları babalarından qalma Dadivəng, Xatir və Getamac (Zar) monastırlarının sülalənin nəsil qəbiristanlıq olması ilə bağlı imza atmışlar. Kitabədə Xaçın nəslindən olan Peki, Altun, Aytin, Bəhram, Cahanşah kimi knyazların da adı çəkilir (Бархударян, 1895, II ч. s.220)

Xudavəng monastırında 1142 -ci ildən Xaçın knyazlığının başında duran Səkər Vaxtanqın oğlu Həsənin dövründən qalma bir neçə kitabə mövcud olmuşdur. Kitabələrdən məlum olur ki, Kürə çarının qızı Mamaxatunla evlənmiş Həsən 1182-ci ildə 40 illik hakimiyyətindən sonra öz xanımı ilə rahiblik həyatını seçmişlər. 1182-ci ildə Şahzadə Vaxtanqın oğlu Həsən Xanabad, Xaçın və Aterkin (Həsənriz) ərazilərinə 40 il hakimlik etdikdən sonra öz qalalarını, mülklərini 6 oğlu arasında bölərək Xudavəng monastırına, qardaşının yanına gəlmiş-

dir və buraya özü ilə aquen (alban) xaçdaşı gətirmişdir (Бархударян, ч.II, s.215).

II kitabə Hasanın xanımı Mamaxatuna aiddir. Kitabənin mətnində yazılır ki, "Mən Mama xatun, Kürək çarının qızı, Hasanın xanımı mülklərimizi oğlanlarmıza qoyub monastıra gəldik, rahib olduq. 1182-ci il" (Бархударян, s.216).

Monastır ərazisində alban knyaz nəslinin nümayəndələrinin dəfn olunması və monastıra göstərdikləri yardımlardan bəhs edən kitabələr



*Kəlbəcər rayonu. Xudavəng məbədi. 1980-ci il*



*Xudavəng monastırı xalq arasında Vəng piri olaraq da tanınırdı.*

mövcud olub. XIII əsrin sonlarında monastır kompleksi Mehranilər sülaləsindən olan Alban Xaçın hakimi Həsən və onun xanımı Mama xatun tərəfindən təmir etdirilərək genişləndirilmişdir. Hakimiyyəti oğlanlarına verərək dini rütbələr almış Xaçın knyazı Həsən və onun xanımı ömürlərinin son dövrünü monastır kompleksində keçirərək tərki dünya həyatı yaşamışlar. Monastırın divarlarındakı yazılardan məlum olur ki, Xaçın hökmdarı, Mehranilər sülaləsindən olan Böyük Həsən xanımı Mama xatunla birlikdə 1182-ci ildə öz mülklərini 6 övladı arasında bölüşdürüb Xudavəng monastırına yerləşmişər. Kitabədən Xaçın hökmdarının 1182-ci ildə bura özü ilə alban xaçdaşı da gəturdiyi məlum olur (Бархударянц, ч.II, c.215) Dünyəvi həyatdan uzaqlaşaraq dini rütbələr almış Xaçın knyazı Həsən və Mama-xatun ömürlərinin sonuna kimi bu monastırda rahiblik həyatı sürərək yaşamışlar.

Monastır ərazisindəki 1182-ci ilə aid kitabədən məlum olur ki, bu dövrdə Xaçın hökmdarı Həsənin qardaşı Qriqori alban yepiskopu idi, və bu monastırda fəaliyyət göstərirdi. Xaçın knyazı Həsən və Mama xatun onun yanına gələrək rahibliyə başlamışlar (Бархударян, ч.II, s.215).

Xaçın knyazlığının yüksəlişi dövründə 1214-cü ildə monastır yenidən inşa edilmişdir. Böyük Həsən monastırda yeni məbəd tikdirmişdi (Həsən türbəsi-Darpası). Böyük Həsənin oğlu Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, onun xanımı Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirmişdir.

1214-cü ilə aid kitabədən məlum olur ki, şahzadə Vaxtanqın xanımı Arzu xatunun əmri ilə monastır ərazisi Xaçın sülaləsinin ailə sərdabəsinə çevrilmiş, qədim hasarı olan monastır bərpa edilmişdir. Monastırda yonulmuş daşdan 4 sütun üzərində ecazkar bir tikili Arzu xatun türbəsi inşa edilmişdi. Həmin tikilinin divarındakı kitabədə həkk olunub ki, Mən Arzu xatun, böyük knyaz Kürdün qızı, Aterkin və bütün Xaçının sahibi Vaxtanqın xanımı bu müqəddəs kilsəni əri-

min və vaxtsız vəfat etmiş oğlanlarım Hasan və Qriqorinin məzar yerində tikdim. Tikinti 1214-cü ildə başa çatdı (Бархударян, 1895, II k. s.216).

Arzu xatun kilsəsinin şərq fasadında daş üzərində knyaz Vaxtanqın, cənub fasadında isə Arzu xatunun iki oğlunun təsvirləri həkk olunmuşdu. Fasad yonma daşla üzlənib, qabartma və oyma naxışlarla bəzədilib.

Tədricən monastırın ərazisi və torpaqları Xaçın knyazı Həsən Calal və Mama-xatunun övladlarının monastıra bağışladığı torpaqlar hesabına xeyli genişlənərək böyük əraziləri əhatə etmişdir. Məbədin əsas hissəsində fasadın üstündəki yazı 1271-ci ilə aidir və bu məbədə bağışlanan torpaqlardan bəhs edir. Kiabələrdən birindəki mətndə yazır ki, mən Mamaxatun, Həsənin xanımı və oğlumuz Qriqori torpaqlarımızı bu müqəddəs ziyarətgaha verdik.1312 -ci il (Бархударян, ч.II, s.217).

Kilsədəki kitabələrdən məlum olduğu kimi, alban Xaçın hökmdarlarının həm özləri, həm də oğlanları və gəlinləri monastır üçün bir çox xeyriyyə işləri görmüşlər. Monastırın möhtəşəm kilsə zəngi də bunlardan biridir. Həsənin qardaşı oğlanları Bəhram və Sərkis həm Xudavəng monastırının, eyni zamanda digər alban kilsələrinin zənglərini təmir etdirmişdilər. Barxudaryanın verdiyi məlumata görə, belə kilsə zəngləri Xatırvəng, Zar kəndlərindəki Getameç kilsəsində də inşa edilmişdi (Бархударян, Arsax, II k., s.218).

Monastır ərazisindəki çoxsaylı kitabələrdən birində, 1298-ci ilə aid yazıdan məlum olur ki, bu monastır ərazisində Xaçın knyazı Vaxtanqın xanımı, knyazlar knayzı Kürdün qızı Arzu xatunun əmri ilə Xaçın sülaləsi üçün ailə sərdabəsi inşa edilmişdir. Ailə sərdabəsində Xaçın hakimi Vaxtanq, xanımı Arzu xatun, oğlanları Həsən və Qriqoris, anası Xorişə xatun, Arzu xatunun bacısı və II Həsənın xanımı və Qriqorinin anası Mamaxatun, müxtəlif dövrlərdə yaşamış Zaxari, Atanas, Ovanes, Qriqoris, Sarkis (son alban yepikopu) kimi alban katolikosları və yepiskoplarının məzarları vardır (Бархударян, Arsax, II k., s.218).





*Xudavəng məbədi, Knyaz Vaxtanqın, Arzu xatun və oğlunun təsvirləri həkk olunmuş freska*



*Məbədin cənub divarındakı iki knyazın əllərində məbədin modelini saxladıqları barelyef.*



*Arzu xatun kilsəsinin ümumi görünüşü.*

Xudavəng monastır kompleksi orta əsrlər memarlığının bütün nümunələrini – yaşayış evləri, mehmanxana, kitabxana, yeməkxana kimi tikililəri özündə birləşdirən nadir məbədlərdən biridir. Monastır kompleksinin tərkibində bazilika tipli baş məbəd, bir neçə əlavə məbədlər, sövmə, təsərrüfat və yaşayış evləri kimi bir çox tikili və tikili qalıqları var. Kompleksin əsas dini hissəsi plan və kompozisiyası ilə fərqlənən, bir-birinə bitişik 7 hissədən ibarətdir. Monastır kompleksi qədim ana kilsə ilə yanaşı kiçik, birnerfli Müqəddəs Məryəm ana bazilikası, Arzu Xatun kilsəsi və Arzu Xatun kilsəsinə əlavə edilmiş zal, Həsən Cəlal kilsəsi, Müqəddəs Qriqoris kilsəsi, kilsənin zəng qülləsi, məktəb binası, qalereya kimi doqquz tikilidən ibarətdir. Tikililərin beşi əsas, digərləri köməkçi xarakterlidir.

Kompleksin ən qədim tikintisi ilk orta əsrlərin bir nefli bazilikasına aid edilən baş məbəddir. Dövrümüzə gəlib çıxanadək tarixi zaman içərisində bu məbədə bir neçə başqa tikililər əlavə edilmişdir. Müxtəlif dövrlərdə baş məbədin yanında düzbucaqlı formalı bir neçə məbəd və sövmələr inşa edilmişdir. Nəticəsində böyük bir dini kompleks yaranmışdır.

Möhtəşəm divarlarla əhatə olunmuş ibadət kompleksləri hərbi münaqişə vaxtı nəinki kahinlərin, eləcə də ətraf kəndlərin sakinləri üçün sığınacaq yeri olurdu. Xudavəng məbədi alban yepiskopunun iqamətgahı, həm də mühüm mədəni-maarif mərkəzi olmuşdur.

1214-cü ildə inşa edilmiş Arzu xatun məbədi hündür günbəzi və möhtəşəm görünüşü ilə alban memarlığının ən qiymətli abidələrindəndir və məbəd kompleksində əsas yer tutur. Dam örtüyündə dördsütunlu zınqırovlu rotonda düzəldilmişdir. Məbədin iki barelyefi var. Şərq divarı fasadında, pəncərənin üstündə yarı boyuna qədər knyaz və müqəddəs bir adam, cənub divarında isə iki knyaz əllərində məbədin modelini saxlayırlar. Birinci barelyefdə çox güman ki, Arzu xatunun həyat yoldaşı olaraq müqəddəs bir adam, ikincidə isə onların oğulları təsvir olunmuşdur.

Arzu xatun məbədinin tikintisində daş üzərində yüksək sənətkarlıqla işlənmiş dekorativ bəzəklərdən istifadə edilib. Arzu xatun məbədinin girişinin portalı zəngin bədii üsulla naxış vurulmuş daşlarla hörülmüşdür. Bu naxışlı daşlar özləri ayrı-ayrılıqda bədii memarlıq abidələri sayılır.

Məbəd tikintisinin istər konstruksiyasında, istərsə də dekorativ hissələrində iki və üç sütunlu çatma tağlardan istifadə olunmuşdur. Məbəd tağlar üstündə bərkidilmiş 16 guşəli dairə üçbucaqlı çətir formasında olan dam örtüyü ilə tamamlanır.

Xudavəng monastır kompleksinin əsas binası Böyük Həsən kilsəsidir. XIII əsrdə günbəzli zalı olan İgid Həsən məbədi inşa edilib. Onun divar-

larında 1182-ci ildə inşa edildiyini təsdiq edən kitabə olmuşdur.

Arzu xatun məbədi və Həsən məbədinin günbəzli zalları bir-birindən inşa edilmə kompozisiyaları, fasadların quruluşu, günbəzlərin və dam örtüklərinin forması ilə fərqlənir. 1224-cü ildə bir nefli bazilikaya əlavə edilən böyük tikinti xüsusi maraq kəsb edir. Bu tikili zadəgan nəslinin ailə üzvlərinin dəfn edildiyi sərdabədir.

Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi, məktəb də fəaliyyət göstərmişdir. Dini binalardan cənubda yamacda mülki tikililər, eləcə də saray, yaşayış və təsərrüfat binaları yerləşir. Zəng qülləsinin yaxınlığında iki ibadətgah vardır. Bu ibadətgahların hər birində gözəl ornamentli xaçdaş vardır.

Xudavəng məbəd kompleksinin tərkibinə təsərrüfat və yaşayış binaları, mülki tikililər də daxildir. Qafqaz Albaniyasının təsərrüfat həyatında mühüm yer tutan əkinçilik, üzümçülük, bağçılıq alban məbədlərinin də həyatında özünəməxsus yer tutub. Sövet dövründə aparılan arxeoloji tədqiqatlar zamanı Xudavəng məbəd kompleksində şərab istehsalı üçün nəzərdə tutulmuş daşdan düzəldilmiş, uzunluğu 3,6 m, dərinliyi 20 sm-lik nov və xüsusi arxlar vasitəsi ilə ona birləşən daş quyular aşkar edilmişdi.

Kompleksə daxil olan binalar çoxəsrlik inşaat mədəniyyətini, orta əsr Azərbaycan xristian memarlığının müxtəlif növlərini dolğun nümayiş etdirir. Daha qədim olan Həsən məbədinin divarları yonulmamış daşlardan nizamsız qaydada hörülüb. Monastır kompleksinin tikintisində qara bazalt daşından, bişmiş kərpicdən və əhəngdən istifadə olunub. Damları kirəmit və daşlarla əhatələnib. Günbəzlər ağac materialından olmuşdur. Pəncərə oyuqları nalşəkillidir.

Bu kompleks Azərbaycan xristian memarlığının bütün səciyyəvi xüsusiyyətlərini hərtərəfli əks etdirir. Abidənin çoxsaylı oyma daş bəzəklərində Azərbaycanın müsəlman memarlığı ilə birbaşa bağlılıq da aydın hiss olunur. Kilsənin, xüsusilə qərb və şimal baştağları daş üzərində incə oyma naxışlarla bəzədilib. Azərbaycan müsəlman memarlığına xas oyma daş bəzəklərdən istifadə olunması Xudavəng monastır kompleksini özünəməxsus edən cəhətlərdəndir.

X əsrdən etibarən erkən orta əsr kilsələrinin yenidən bərpa dövrü başlandığı mərhələdə onların genişləndirilməsi və yan otaqların əlavə edilməsi üçün müxtəlif variantlardan istifadə edilirdi. Xudavəng monastırında da qədim və əsas tikili-birnefli bazilikada yan otaqlar altar ətrafı divarların çapılması nəticəsində divar dərinliyində yerləşdirilmişdir (Мамедова Ф., 2004, səh. 86). Bu yolla da, yalnız Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan özünəməxsus memarlıq kompozisiyası yaranmışdır.

Xudavəng məbədinin Qarabağın digər alban məbədləri kimi müasir ermənilərlə heç bir



*Xudavəng, Böyük Həsən kilsəsi*



*Monastr kompleksində vaxtilə mövcud olmuş zəngin ornamentli xonça və həyat ağacı təsvirli xaçdaşları Eçmiədzinə aparılmışdır.*

əlaqəsi olmadığını görmək üçün elə məbədin kitabələrində əks olunan hökmdarların və hakim sülalənin adlarına baxmaq kifayətdir. Xudavəng məbədində Həsən, Arzu-Xatun, Mina-Xatun, Koçubəy və digər türk adları bu kilsələrin tikildiyi Xaçın knyazlığının qurucularının türkəsilli xristianlar olduğunu göstərir.

XIX əsrədək dini-hüquqi baxımdan Xudavəng monastırı Rostok vilayəti yepiskopluğuna aid olaraq müstəqil Alban (Ağvan) katolikosatlığına tabe olmuşdur. Rus çarizminin konfessional siyasəti nəticəsində Qarabağın alban məbədləri, o cümlədən Xudavəng monastırı Qarabağ yeparxiyası olaraq Erməni Eçmiədzin kilsəsinə tabe edildikdən sonra bu monastır da digər alban məbədləri kimi açınacaqlı hala düşdü. Əsrlərdən bəri Qarabağın hər mahalının öz monastırı, keşiş və rahibləri olduğundan bəhs edən Barxudaryan yazırdı ki, "Şahidlərin dediyinə görə, cicəklənən və işlək vəziyyətdə olan monastır elə 1828-ci ildən yavaş-yavaş baxımsız qalaraq dağılmaga üz qoydu" (Бархударян, ч.I, s.5). Türkmənçay (1828) və Ədirnə (1829) anlaşmaları nəticəsində Çar Rusiyasının Qacar və Osmanlı imperiyalarından Qarabağa köçürdükləri ermənilərin alban monastırlarini neçə qarət etməsi barədə Barxudaryan yazır: "təəsüflər olsun ki, bu möhtəşəm monastırlar dağıdılır və qarət olunur, monastırlara hədiyyə edilmiş boyuk torpaq əraziləri zəbt edilir". Bu məlumatlar 1828-1895-ci illər boyu ermənilərin heç bir zaman, heç bir tarixi, konfessioanl, hüquqi haqqları olmayan alban xristian etnomədəni irsini neçə talan etməsini açıq aşkar göstərməkdədir.

Erməni vandalları Azərbaycanın qədim mədəniyyətinin izlərini silmək üçün Alban kilsəsinə aid xaç və yazıları tamamən məhv etmişlər, bununla da tarixi saxtalaşdırmağa cəhd göstərmişlər. Xudavəng monastır kompleksinin zəng qülləsində yanaşı qoyulmuş bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompazisiyalı iki xaçdaş alban xaçdaşlarının ən gözəl nümunələrindən olmuşlar. Yalnız alban stellasında müşahidə olunan xristian simvolikası ilə ağılasığmaz tərzdə birləşmiş cüt Ahura Mitra tanrılarının aşkar rəmzinin təsvir olunduğu bənzər xaçdaşlar əsasən Xocalı, Tərtər, Gədəbəy, Şuşa və digər rayonların ərazisində də aşkarlanmışıdır. Onların ən maraqlı nümunələrindən biri 1633-cü ilə aid xaçvari Qarabağ daşıdır. Təəsüf ki bu xaçdaşlar hələ sövet dövründə Eçmiədzinə daşınmışdır.

Xüsusilə, Kəlbəcərin işğal altında olduğu 1992-2020-ci illər boyu Xudavəng məbədi ermənilərin təcavüzünə məruz qalıb. Ermənilər bu illər ərzində Xudavəng monastırını Qarabağın digər alban monastırları kimi erməni monastır kompleksi olaraq dünyaya təqdim etmişlər. Erməni işğalı illərində Qarabağın bütün alban məbədlərində olduğu kimi Xudavəng monastırında da qanunsuz

bərpa işləri aparılıb. Bərpa adı ilə pərdələnən saxtalaşdırma işləri Erməni Apostol Kilsəsinin nəzarəti altında 1997-2011-ci illər boyu davam etdirilib. Monastırdakı çox sayda sənət əsərləri, knyaz Vaxtanqın, Arzu xatunun iki oğlunun təsvirləri həkk olunmuş freskalar, dini şəkillər və kitabələr işğal dövründə dağıdılaraq talan edilmişdir.

2020-ci ildə Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü və Vətən torpaqlarını azad etməsi nəticəsində erməni işğalçıları Kəlbəcəri boşaltmağa məcbur oldular. Azərbaycan hökumətinin humanistliyi nəticəsində onlara köç üçün verilən zamandan sui-istifadə edən ermənilər bütün Kəlbəcəri minalamaqla yanaşı, bu möhtəşəm monastırı da talan etdilər. İşğal illərində monastıra yiyələnməyə çalışan erməni keşişləri Azərbaycan torpaqlarını tərk etmək məcburiyyətində qalanda Xudavəng və digər alban monastır və kilsələrindən bütün külsə avadanlığını, hətta Xudavəng məbədinin unikal freskalarını və kilsə zənglərini belə söküb özləri ilə Ermənistana aparmaqdan çəkinməmişlər.

## ALBAN MƏBƏDİ (500-cü il), Həsənriz kəndi

Həsənriz məbədi Kəlbəcər rayonunda, Tərtər çayının sol sahilində, Həsənriz çökəkliyində eyniadlı kənddə yerləşir. Həsənriz kəndi əvvəllər Ağdərə rayonuna daxil olmuş, 1992-ci ildən Kəlbəcər rayonuna birləşdirilmişdir. Kəndin keçmiş adı Aterk olmuşdur. Tədqiqatçıların ehtimalına görə, Aterk çayın mənsəbə töküldüyü yer mənasında işlənən, türk dillərindəki atrak sözünun fonetik variantıdır. Kənd XIII əsrdə Alban intibahı dövründə Xaçın knyazı Həsən Cəlalın adı ilə Həsənriz adlanmışdır. Həsənriz kəndinin adı Osmanlı qaynaqlarında 1727-ci ildə Çiləbürd nahiyəsinin tərkibində qeyd



*Kəlbəcər, Həsənriz kəndi*

edilmişdir. Barxudaryan yazır ki, XII əsrdə Həsənriz (Aterk) Vaxtanq sülaləsinin iqamətgahı olmuşdur. XIX əsr müəllifinin verdiyi məlumata görə, Həsənriz (Aterk) kəndində alban dövrünə aid bur neçə qədim kilsə qalıqları olub. M.Barxudaryan yazır ki, Həsənriz (Aterk) kəndinin şərq tərəfində, Tərtərin sol sahilində qədim tiklilər var (Бархударян, 1895, s. 213). Müəllif kənddə Həsənriz məbədi ilə yanaşı Qaraxunç kilsəsinin də yerləşdiyini qeyd edir. Barxudaryan bu qədim kilsənin Həsənriz (Aterk) kəndində Tərtərin sag sahilində yüksəklikdə təpənin başında yerləşdiyini yazır. Təpədəki qədim kilsənin arkası əyilmişdi (Ямпольский, 1962, s.119). Bu təpə yerli əhali arasında Ulduzlu təpə adlanırdı.

Ulduzlu təpə ziyarətgahı haqda hələ alban müəllifi Kalankatuklu V əsrdə baş vermiş hadisələrlə bağlı bəhs etmişdir. Müəllif burada naməlum bir qəbir yerinin xalq arasında böyük ziyarətgaha çevrildiyindən yazır. Rəvayətə görə, burada Alban ölkəsinin Uti vilayətindən olan knyaz nəslindən Taquhi adlı şəhidin qəbri var. O hun komandanı tərəfindən işgəncələrə məruz qalaraq öldürülmüşdü (Бархударян, 1895, II k s. 400). Kalankatuklu yazır ki, Taquhi adlı alban əsilzadə qadın Hun sərkərdəsi tərəfindən işgəncə ilə öldürülür. “Taquhinin əzabla öldüyü yerdən güclü işıq gəldiyini və onun yırtılmış libasının hər yana atılmış parçalarının ulduz kimi işıq saçdığını gördülər. Həmin ulduz işığı bütün orada şəhid olanlardan da saçırdı. Bunu görənlər bu yerə Ulduzlu təpə adını qoydular və bu təpə indi də bu adla məşhurdur” (Kalankatuklu, I k., f.18). Tərtər çayının sahilində yerləşən Ulduzlu təpə adlanan bu qədim məzar yeri XIX əsrdə də böyük ziyarətgah kimi tanınırdı (Ямпольский, 1962, s.119).

## BÖYÜK ARAN / MÜQƏDDƏS YAQUB MONASTIRI (IX-XIII əsrlər), Kolatağ kəndi

Qarabağ silsiləsinin yamacında yerləşən Kolatag kəndi 1992-ci ildə Ağdərə rayonunun ləğv edilməsi ilə Kəlbəcər rayonuna birləşdirilmişdir. 1993-2020-ci illər boyu Ermənistan Respublikası sıiahlı qüvvələrinin işğalı altında qalıb. 10 noyabr 2020-ci il razılamasına əsasən müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altına keçib.

Böyük Aran monastırı Xaçınçayın sag sahilində Kolatag kəndinin şimalındakı meşə ərazisində yerləşir. Tarixi ədəbiyyatda abidə yerləşdiyi əyalətin adına uyğun olaraq Böyük Aran monastırı adlandırılır. Orta əsr mənbələrində bu ərazi Aşağı Xaçın kimi də tanınırdı.



*Böyük Aran monastırı*

Monastır ərazisindəki ilk tikililərin inşa tarixi məlum deyil. Monastırın ən qədim kitabəsi 853-cü ilə aiddir. Bu kitabə xaçdaş özülü üzərində yazılmış, daha sonra isə həmin daşdan divar hörgüsü zamanı təkrar istifadə edilmişdir. Bu, kilsənin daha qədim dövrə aid olduğunu söyləməyə əsas verir.

Barxudaruyanın Böyük Aran monastırı haqqında verdiyi məlumatdan aydın olur ki, kompleksə daxil olan kilsələrin birinin inşası 1223-cü ilə, digəri isə 1225-ci ilə aiddir. Buradakı qədim qəbir daşlarının üzərindəki yazı alban axiyepiskoplarından birinə aiddir. Monastırın qapısındakı kitabədə Vaxtanqın xanımı, Xaçın mülkünün sahibi Xoraşa xatunun (Hurişah) Böyük Aran kilsəsini bərpa etdirdiyi məlum olur (Бархударян, 1895, I, s.152).

Qeyd etmək lazımdır ki, Xaçın hakimlərinin və onların ailə üzvlərinin türk adları – Qarabağdakı alban kilsələrinin kitabələrində qorunub saxlanılan Xaçın knyazı Həsən Cəlal (1214-1261), Həsən Cəlalın anası Xorişə xatun (Hurişah Xatun), həyat yoldaşı Mamqan, oğlu İvane-Atabəy, qızları Ruzuxan, Mama xatun və Mina xatun kimi şəxs adları Qarabağın bütün alban məbədlərindəki kitabələrdə oz əksini tapmışdır. Barxudaryan Aran monastırı ərazisində Xaçın nəslinə aid daha bir neçə kitabə haqda məlumat verir. Bu epiqrafik yazılarda Xaçın nəslinin nümayəndələrinin demək olar ki, hamısının türk adları olduğu məlum olur. Məsələn, kitabələrdən birinin Xaçın hakimi Həsən və onun xanımı Mamaxatunun nəvəsi Ərkana aid olduğu qeyd edilir (Бархударян, 1895, I, s.150). Məbədin qarşısındakı XIII əsrə aid daha bir kitabə isə Həsən Cəlalın knyazlığındakı Kutlu bəyə aid idi (Бархударян, 1895, I, s.151-152).

XIII əsrin əvvələrində bərpa edilmiş monastırda növbəti dəfə yenidənqurma işləri XVII əsrdə aparılmışdır. Bərpa edilmiş hissələrdə daş hörgüsü digər hissələrdən fərqlənir. Belə ki, bərpa zamanı ilkin tikilinin daşları ilə yanaşı ətrafdakı xaçdaşlar və məzar daşlarından da istifadə edilmişdir. Xaçdaşlar tavan örtüyü üçün, üstü yazılı, yonulmuş daşlar isə künc daşı kimi istifadə edilmişdir. Kitabələrdən, 1691-ci ildə, daha sonra 1725-ci ildə monastırda yeni bərpa işləri aparıldığı məlum olur. Kompleksin müxtəlif hissələri IX-XVIII əsrlər boyu müxtəlif illərdə bərpa edilmiş, əsas tikililər isə XII-XIII əsrlərdə inşa edilmişdir.



*Böyük Aran monastır kompleksi qala divarları ilə əhatə olunmuş iki kilsə, iki narteks və köməkçi binalardan ibarətdir.*



*Monastırın qərbdə yerləşən birinci kilsəsi Müqəddəs Yaqub kilsəsi olaraq bilinir.*

Xaçın knyazlığının yüksəlişi dövründə, xüsusilə də XIII əsrdən etibarən Böyük Aran monastırı Alban Həvari Kilsəsi katolikoslarının iqamətgahı kimi fəaliyyət göstərmişdir. Bu barədə



*Böyük Aran monastırının Müqəddəs Yaqub kilsəsi adlanan birinci kilsəsinin altar hissəsi*

monastır ərazisindəki katolikos və yepiskopların adlarının həkk edildiyi məzar daşlarının üzərindəki kitabələrdə məlumat verilir.

XIX əsr müəllifi Barxudaryan yazır ki, Böyük Aran monastırı Xaçın məlikliyinin yepiskopluğu olmuşdur (Бархударян, 1895, I. s.5). Monastır həm də Xaçının maarif və kitabçılıq mərkəzi kimi tanınmışdır. Barxudaryan Kolatağ kəndinin qədim qəbiristanlıq və məbədlərlə, eyni zamanda qəbirüstü yazılarla zəngin olduğunu yazır. Müəllif Kolatag yaxınlığındakı daha 3 məbəd förmalı kilsə olduğu barədə məlumat vermişdir.

Böyük Aran monastır kompleksi qala divarları ilə əhatə olunmuş iki kilsə, iki narteks və yaşayış binaları kimi köməkçi tikililərdən ibarətdir. Bütün binalar bir-birinə bitişikdir və əsasən bir-birinə keçidlərə malikdir. Daş qala divarları daxilində perqament əlyazmaların saxlandığı skriptorium, kaminli daş otaqlar, eyvanlı hücrələr, trapez formalı mətbəx binası, küncüt yağının əldə edilməsi üçün bina, çoxsaylı anbar binaları, su saxlancı və gözətçi məntəqələri yerləşir. Kompleksə daxil olan binaların inşası zamanı istifadə edilmiş xaçdaşlar, məzar daşları, karnizlər, arkalar, altarın yüksəlmə yerləri, qapı, pəncərə və buxarı çərçivələri orta əsrlər sənətkarlarının ustalığını nümayiş etdirir. Bütün bu binalar bizim dövrümüzə yarımdağılmış vəziyyətdə çatmışdır.

Abidənin qapı hissəsində olmuş kitabədə 1222-ci ildə Xaçın knyazı Vaxtanqın xanımı, Həsən Cəlalın anası Xorişə (Hurişah) xatun tərəfindən kilsənin bərpa etdirilməsi barədə məlumat verilir. Kilsə orta əsr Qafqaz Albaniyası memarlıq ənənələrinə uygun inşa edilmişdir. Xristianlığın mövqelərinin möhkəmlənməsi ilə kilsənin gücü və təsiri artdıqca məbədlərin memarlığında da böyük birnefli bazilikalar daha mürəkkəb üçnefli bazilikalarla əvəz edilməyə başlasa da, Qafqaz Albaniyası memarlıgında birnefli bazilikalar XIX əsrə qədər varlığını davam etdirir. Lakin zaman keçdikcə onların ölçüləri kiçilir. Aran monastırı tağ-tavanlı bazilikaları da bu növ məbədlərdən idi.

Monastırın qərbdə yerləşən, 8x3.4 m ölçü olan birinci kilsə Müqəddəs Yaqub kilsəsi olaraq bilinir. Tarixi mənbələrin verdiyi məlumata görə Müqəddəs Yaqub kilsəsi Qafqaz Albaniyasının müqəddəs ziyarətgahlarından biri olmuşdur. Nalvari formada apsidası olan kilsə ensiz, uzun və düzbucaqlı (7.80x3.20) formaya malik birnefli bazilikadır. Cənub və qərbdən iki girişə malik olan kilsə iki pəncərə vasitəsiylə işıqlandırılmışdır. Onlardan biri şərq divarında, xaçformalı ikinci pəncərə isə qərb divarında yerləşmişdir.

Kilsənin altar hissəsi əsas ümumi döşəmədən hündürdə yerləşir. Altarın hündür olmasının səbəbi arxa tərəfdə altara açılan hücrələrdən birinin girişinin altında yerləşməsidir. Belə ki, kilsənin şərq divarında altara birləşən dörd kiçik,

1.30x1.30 ölçülü hücrə yerləşir. Hücrələrdən üçünün girişi ibadət zalında, birinin girişi isə altar yüksəkliyinin altındandır. Altara cənub tərəfdə yerləşən pilləkənlə qalxmaq mümkündür. Hücrələrin daha qədim dövrə aid olması və gizli yer kimi istifadə edilməsi kilsənin bu hissəsinin XII əsrdə bərpa edilmiş daha qədim tikili olduğunu göstərir. Portalın timpanındakı kitabə də bu ehtimalı təsdiqiləyir. Kitabədən məlum olur ki, Xaçın knyazının xanımı Xorişə xatun, Böyük Aran kilsəsini yenidən inşa etdirmişdir.

Müqəddəs Yaqub kilsəsinin cənub-şərq divarına birləşən ikinci kilsə də birinci kilsə kimi eyni sadə planlaşdırmaya malikdir. Düzbucaqlı sadə zal (8.0x3.4) formasına malik bu kilsənin şərq divarında apsida vardır. Monastır kompleksinə daxil olan müxtəlif tikililər arasında ikinci kilsənin narteksi xüsusilə diqqəti cəlb edir. Kilsə kiçik ölçülü olduğu üçün insanların ibadət zamanı yerləşdirilməsi, hamının ora sığmasına imkan yaradılması məqsədilə Müqəddəs Yaqub kilsəsindəki narteks və kilsə binası arasında 2.5 m enə malik dəhliz inşa edilmişdir. Dəhlizin hər iki tərəfində böyük, zəngin bəzədilmiş xaçdaş yerləşdirilmişdir. Kitabələrin verdiyi məlumata görə, şimal divarındakı xaçdaş 1223-cü ildə, cənub divarındakı xaçdaş isə 1224-cü ildə ucaldılmışdır. Zəngin ornamentləri ilə diqqət çəkən dörd xaçdaşdan dəhlizin qərb pəncərəsinin yan blokları kimi istifadə edilmişdir. Bu xaçdaşların kitabələrindəki yazılar silinmişdir.

Kilsə cənubda üçtağlı narteks tərəfdən, qərbdə isə ona bitişik sovmə-narteks tərəfdən olmaqla iki girişə malikdir. Beləliklə, üçtaglı narteks hər iki kilsənin xarici formaları ilə orqanik şəkildə uyğunlaşaraq, həm hər iki kilsəyə girişi təmin edir, həm də ümumilikdə kompleksin görünüşünə gözəllik qatır, Xudavəng (Kəlbəcər r), Carekvəng (Gədəbəy) monastırlarında olduğu kimi – mərkəz rolunu oynayır.

Narteksin divarının inşasında xaçdaşlardan, uzunluğu iki metrə çatan məzar daşları və kitabəli daşlardan istifadə edilmişdir. Mavi daşdan ibarət divar hörgüsündə narıncı xaçdaşlar, boz məzar



*Böyük Aran monastr kompleksinin II kilsəsindəki xaçdaş*

daşları və ağ daşdan hazırlanmış kitabəli daşlar kilsə divarını rəngarəng edir.

Narteks əsilzadələrin dəfn yeri olmaqla yanaşı, dini və ictimai məsələlərin müzakirə yeri kimi də istifadə edilmişdir. Burada döşəmə çoxsaylı məzar daşları ilə döşənmişdir. Döşəmədəki məzar daşlarının kitabəsindən burada Alban Həvari kilsəsinin katolikoslarının və yepiskopların dəfn edildiyi məlum olur.

1764-cü ilədək alban yepiskopları haqda monastırların, kilsələrin daş kitabələrində, xaç daşlarında məlumat verilirdi (Бархударян, s.6). Barxudaryan yazır ki, Böyük Aran monastırının ikinci kilsəsində katolikos qəbirləri var. Kilsənin dəhlizinin hər iki tərəfində böyük, zəngin bəzədilm-

iş xaçdaş yerləşdirilmişdir. Kitabələrə əsasən şimal divarındakı xaçdaş 1223-cü ildə, cənub divarındakı xaçdaş isə 1224-cü ildə ucaldılmışdır. Dörd xaçdaşı isə dəhlizin qərb pəncərəsinin yan blokları kimi istifadə edilmişdi.

Barxudaryanın verdiyi məlumatlar göstərir ki, kilsə XIX əsrədək fəaliyyət göstərən alban kilsəsi olmuşdur. Qarabağdakı Dizaypat, Kavak, Gtişvəng,  Ag xaç, Amaras, Koçiz məbədi, Xudavəng, Yelisey monastırları kimi Böyük Aran monastırı da 1828-ci ildək, yəni ermənilərn Qafqaza kütləvi köçürülməsinədək cicəklənən vəziyyətdə olmuşdur. 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanmasından sonra Ermənilərin Qafqaza kütləvi köçü və Erməni Qriqoryan kilsəsinin Alban kilsələrinə yiyələnmək arzusu Alban Apostol kilsəsinin məhvinə gətirib çıxardı. Çox keçmədən - 1836-cı ildə Qriqoryan kilsəsinin təkidi nəticəsində Rusiya imperiyasında Sinodun qərarı ilə Alban kilsəsi ləgv edilərək erməni kilsəsinin ixtiyarına verildi. Alban kilsəsinin fəaliyyətinin dayandırılmasından sonra bu kilsələrin hamısı dağıdılmaga və emənişdirilməyə məruz qaldı.

## ALBAN MƏBƏDİ (XII -XIII əsrlər), Kolatağ kəndi

Kolatağ kəndi ərazisində Böyük Aran monastırı (IX əsr) ilə yanaşı XII-XIII əsrlərə aid edilən daha bir alban tarixi-memarlıq abidəsi mövcuddur. Monastır Kolatağ kəndindən 8 km aralıda böyük təpənin ətəyində inşa edilmişdir. Bu monastır Kolatağda yerləşən Böyük Aran monastırından fərqli olaraq sadə dizayn və plan tərtibatına malikdir.

Kompleks ərazisindəki çoxsaylı xaçdaşlar yüksək bədii, etnoqrafik və tarixi dəyər daşıyır. Ümumilikdə monastır ərazisindən XII-XIII əsrlərə aid iyirmi beş kitabə aşkar edilmişdir. Kitabələr 1179, 1181, 1186, 1191, və 1194-cü illərə aiddir (Бархударян, s.24-28). Kilsənin altar hissəsindəki kitabənin inşa tarixi 1265-ci ilə aiddir.



*Alban məbədi (XII -XIII əsrlər), Kolatağ kəndi*

Kompleks qala divarları ilə əhatə olunmuş üç kilsə binasından ibarətdir. Hasarın içində su hovuzu, həmçinin su ötürmə sisteminin izləri müşahidə edilib. Monastır həyəti iki hissəyə bölünür. Həyətin şimal hissəsində üç kilsə və onlar üçün ümumi olan üçtağlı narteks-sovmə binası yerləşir. Kompleksin şimal divarına bitişik yarıdağılmış vəziyyətdə olan düzbucaqlı tikilinin qədim yeməkxana olması güman edilir. Şimal-qərb tərəfdə rahib hücrələri və digər xidməti tikililərin qalıqları vardır. Onların arasında yaxşı vəziyyətdə dövrümüzə çatmış atlı relyef təsvirinə malik bir neçə xaçdaş olmuşdur. Kompleksdən şərqdə orta əsrlərə aid geniş məzarlıq vardır.

Kompleksin ən cənub hissəsində yerləşən böyük kilsənin tağtavanı uçsa da, divarları yaxşı saxlanmışdır. Kilsənin inşaat texnikası, əksər alban kilsələrinin inşaat texnikasına uyğundur. Divarların hörgüsündə kobud yonulmuş çaydaşlarından istifadə olunmuşdur. Cilalanmış daşlardan isə yalnız kilsə altarının inşasında istifadə edilmişdir.

## GƏNCƏSƏR MONASTIRI (XIII əsr), Vəngli kəndi

Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biri olan Gəncəsər monastır kompleksi Kəlbəcər rayonunun Vəngli kəndində Xaçın çayının sol sahilində ucaldılmışdır.

Monastırın yerləşdiyi Vəngli kəndi, 1992-ci ildən Ağdərə rayonunun ləğv edilməsilə Kəlbəcər rayonuna birləşdirilmişdir. Uzun müddət Alban Xaçın knyazlığının mərkəzi olmuş Vəngli kəndində inşa edilmiş Gəncəsər monastırı XIII- XIX əsrlər boyu Azərbaycanda xristian albanların dini və mədəni mərkəzi olmuşdur.

Gəncəsər monastır kompleksi Azərbaycanın maddi-mənəvi irsi olan Alban Apostol kilsəsinin XIII əsrdən sonrakı tarixini öyrənmək üçün çox mühüm bir qaynaqdır. Gəncəsər monastırı Xaçın knyazlığı tarixində XIII əsrdə yaşanan alban xristian mədəniyyətinin intibah dövrünün simvolu idi. Abidədə bir çox diofizit elementləri var ki, bunlar da XIII əsrdə Alban katolikosluğunun başqa kilsələrə tabe olmadığının göstəricisidir. Məbəd kompleksinin memarlıq kompozisiyasındakı diofizit xarakterli elementlər onun çoxəsrlik ənənələrinə malik Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir. Hətta XVII əsrin sonunda belə yerli əhali bu kilsəni alban kilsəsi adlandırırdı. XVII əsrdə monastırın damını bərpa edən alban ruhanisi orada belə bir yazı qoymuşdur: "... Aqvan Gəncəsərin müqəddəs taxtında bizim saf niyyətlə verilmiş vəsaitlərimizdən istifadə edib kilsələrin damlarını və dağılmış divarlarını tikdilər" (Məmmədov, 2015, s.41). Monastır ərazisində Vəngli kəndlilərin yunan kilsəsi adlandırdıqları qədim məbəd yeri monastırın əsas ziyarətgahı olaraq qalmaqda idi (Ямпольский, 1962, s.40-47). Yerli əhalinin Gəncəsər məbədini yunan kilsəsi ad-



*Gəncəsər monastır kompleksi (XIII əsr)*



*Gəncəsər monastır kompleksi, XIII əsr*

landırması albanların diofizit kilsəsi olaraq yunan yönümlü olması ilə əlaqəlidir. Monastırdakı arxaik tikilinin yunan məbədi adlandırılması onun erkən orta əsrlərə aid qədim alban kilsəsi olduğunu göstərir. Bu tikilinin yanında qədim qəbir yeri var idi.

XX əsrdə yerli əhali Gəncəsər məbədini Vəng piri adlandırmaqda idi. Gəncəsər monastırının cənub hissəsində yerləşən bu arxaik məbəd Vəng kəndinin və ətraf kəndlərin həm müsəlman, həm də alban xristian əhalisinin ziyarət yeri olmuşdur. Azərbaycanın Kürmük (Qax), Pəriqala (Zaqatala), Yelisey (Oguz), Ağoğlan (Laçın), Xudavəng (Kəlbəcər) alban məbədlərində olduğu kimi, yerli əhali bu məbədi birlikdə ziyarət edir, monastırın həyətində qədim ayinlər icra edərdilər. Monastır Azərbaycandakı bir çox alban monastırları kimi həm müsəlman, həm də xristianların ziyarət etdiyi qədim inanc yeri olmuşdur. Tarixi zaman içərisində Albaniya əhalisinin bir qismi xristian olaraq qalmış, bir hissəsi isə sonradan İslamı qəbul etmişdi.

XX əsrə kimi yerli əhali monastırın həyətində yunan kilsəsi adlandırdıqları arxaik tikilidə şam yandırır, nəzir olaraq qoyun, xoruz və toyuq kəsər, onlardan hazırlanan yeməyi ənənəyə görə yeddi qonşuya paylayardılar (Ямпольский, 1962, s.40-47). Qədim alban ənənəsinə görə burada kəsilən heyvanın ayaqları ziyarətgahda saxlanırdı. Bu ənənə Azərbaycanın Qəbələ bölgəsindəki qədim alban məbədinin qalıqlarının olduğu Komrad dağında (Dizaxlı kəndi), xristian udilərin kompakt yaşadığı Nic kəndi yaxınlığındakı Toyuq piri kimi qədim inanc yerlərində hazırda da mövcuddur. Yerli əhalinin Vəng piri adlandırdığı Gəncəsər məbədinə azərbaycanlıların maldarlıqla məşğul olan hissəsi öz mal-qarasını müxtəlif xəstəliklərdən qorumaq niyyətilə də gələrdi.

Həsən Cəlalın hakimiyyəti illərində Xaçın knyazlığın ərazisi xeyli genişlənmiş, tikinti-abadlıq işləri böyük vüsət almışdı. Mehranilər sülaləsinin davamçıları olan məşhur Xaçın alban knyazları Böyük Həsən, onun oğlu knyaz Vaxtanq, nəvəsi Cəlal Dövlə və onların xanımları Arzu xatun, Xorişə xatun, Mamaxatun knyazlığın ərazisində bir sıra möhtəşəm müdafiə qalaları ilə

yanaşı, monastır, kilsə və məbədlər də inşa etdirmişdilər. Bu sülalədən olan din xadimləri XII əsrdə yüksələn Xaçın knayzlğında alban katolikosları vəzifəsini icra etmişlər. Gəncəsər monastırı ilə yanaşı Vaçar kilsəsi, Akan qalası, Xonabert qalası Xaçın sülaləsinə məxsus idi (Бархударян, II k s 400).

Gəncəsər monastırı Həsən Cəlalın iqamətgahı olan Xanaberd qalası ilə üzbəüz ucaldılmışdır. Monastırdakı kitabədən məbədin Vaxtanqın oğlu, Cəlal Dövlə Həsənin hakimiyyəti dövründə ucaldıldığı məlum olur. Monastırın içərisindəki epiqrafikadan məlum olur ki, böyük Həsənin oğlu Vaxtanq əcdadlarının qəbirlərinin olduğu Gəncəsərdə kilsə tikməyi oğlu Cəlal Dövləyə və Cəlal Dövlənin anası Xörişə xatuna vəsiyyət etmişdir. Monastırın divarındakı epiqrafik yazı bu abidənin Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu, Həsən Cəlal Dövlə və anası Xorişə xatun tərəfindən inşa edildiyini xəbər verir.

Cəlal Dövlə atasının vəsiyyəti ilə kompleksin cənub qapısına yaxın olan kilsənin əsasını 1216-cı ildə qoymuşdur. Kilsənin tikintisi zamanı anası Xörişə xatun rahibəliyi qəbul edərək Yerusəlimə yola düşmüş, və orada vəfat etmişdir. Tikinti 1238-ci ildə başa çatıb. Bu kilsə Alban katolikosu Nersesin patriarxlığı dövründə 1240-ci ildə xeyir dua alıb. Mətndə yazılır ki, Cəlal Dövlə Xonabert qalasının qarşısındakı ailə məzarlığında göy üzünə bənzər günbəzi olan gözəl bəzəkli Gəncəsər adlı kilsə tikdi (Бархударян,1895, s.153-159). 1240-cı ildə Cəlal Dövlə burada tikintinin başa çatması münasibətilə təntənəli ziyafət təşkil etmişdi. Alban Katolikosu Nerses və bir çox yepiskopların da iştirak etdiyi bu məclisdə kilsə pak edilmişdi (müqəddəs su səpilmişdir). Bununla bağlı monastır divarındakı kitabələrdən birində yazılır: “Bu kilsə 1240-cı ildə Alban Katolikosu Ter-Nersesin patriarxlığı dövründə pak edilib”.

Monastır Həsən Cəlalın əcdadlarına məxsus Xaçın hakimlərinin nəsil sərdabəsinin yerində inşa edilmişdir. Keçmişdən Xaçın sülaləsinin ailə məzarlığı olmuş monastır sərdabəsində 1261-ci ildə monqollar tərəfindən öldürülmüş Həsən



*Gəncəsər monastırının günbəzi*



*Günbəzin fasadında məbədin modelini başı üzərində tutan Həsən Cəlalın təsviri*



*Gəncəsər monastırının giriş portalında alban mədəniyyətinə xas tovuzquşu qabartmaları*

Cəlal və onun varisləri də dəfn edilib. Cəlal Dövlə Qəzvində monqol canişini Arqunun əmri ilə 1261-ci ildə işgəncələrlə öldürülmüşdü və cəsədi oğlu Atabəyə təslim edilmişdi. Barxudaryan yazır ki, Atabəy onu Gəncəsər monastırında dəfn etdi Lakin onun qəbir daşında tarix 1431-ci il olaraq göstərilib. Görünür bu qəbir daşı ya yenilənib, ya da qəbir daşı Cəlal Dövlənin ölümündən 170 il sonra qoyulub (Бархударян, II k. S.400).



*Gəncəsər monastırında Xaçın knyazı I Böyük Həsənin xatirəsinə ucaldılmış xaçdaş (XIII əsr)*

Alban katolikoslarının iqamətgahına çevrilmiş bu monastır kompleksinin ərazisində Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri də dəfn olunmuşlar. Burada Cəlal Dövlənin xanımı Mamkan xatun və oğlu Atabəy və digər Xaçın hakim ailəsinin üzvləri də dəfn olunmuşdur. Qəbirüstü abidələrin üzərindəki yazılardan məlum olur ki, XVIII-XIX əsrin əvvllərinə qədər sülalə üzvləri və din xadimləri burada dəfn edilməkdə idi: Burada 1653-cü ildə Alban katalikosu Qriqorinin, Cəlal Dövlənin nəslindən olan 1700-cü ildə dəfn edilmiş alban katalikosu Yereminin, 1728-ci il alban katalikosu Yesainin adı yazılmış qəbir daşları var. Alban katolikosu Qriqorinin qalıqları da burda qorunurdu. 1727-ci ilə aid yazıda həmçinin Tarxanın xatirəsindən bəhs edilir. Burada Esai-Cəlal Dövlə nəslindən olan son alban katolikosu Sarkisin də (1828-ci il) qəbri var.

Məbədin dörd bir tərəfində divarlara həkk olunmuş yazılar Xaçın hökmdarları və katolikosları barədə məlumat verirdi. Bu yazılardan birində, 1266-cı ildə Cəlal Dövlə və onun xanımı Mamaka xatun, oğlu Atabəyin də kilsənin inşasında əməyi olmasından bəhs edilmişdir. 1271-ci ilə aid kitabə Xaçın hökmdarı Atabəy dövrünə aiddir. 1495-ci ilə aid kitabədə isə Atabəyin oğlu Aygun haqda məlumat verilir.

Gəncəsər monastır kompleksi, xüsusilə, 1511-ci ildən alban katolikoslarının iqamətgahına çevrilmişdir. Bu dövrdən etibarən Gəncəsər katolikosluğu adlanan monastır 1511-1836-cı illər boyu alban xristianlarının baş iqamətgahı olmuşdur. Bu alban məbədi 6 əsr boyu – 1511-ci ildən 1836-cı ilədək müstəqil alban knyazlığının dini mərkəzi kimi son alban katolikoslarının iqamətgahı olmuşdur. Monastır kompleksindəki kitabələrdən məlum olur ki, 1702-ci ildə katolikos Esai Hasan alban patriarxı seçilmişdir və həyatının sonunadək 1728-ci ilədək bu vəzifədə qalmışdır. 1836-cı ildə Rusiya Sinodunun qərarı

ilə Alban kilsəsi ləğv edildikdən sonra bütün alban kilsələri kimi Gəncəsər monastırı da fəaliyyətini dayandırmışdır.

Orta əsrlər boyu Gəncəsər monastır kompleksi böyük mülk torpaqlarına sahib olmuşdur. Monastırdakı kitabələrdən məlum olur ki, Xaçın sülaləsinin üzvləri zaman-zaman monastıra torpaq hədiyyə etmiş, xeyriyyə işləri görmüşlər. 1495-ci ilə aid kitabədə Atabəyin oğlu Aygunun monastıra torpaq hədiyyə etməsindən bəhs olunur. 1471-ci ildə isə Pir Hamzanın oğlu Smabt və böyük Cəlalın oğlu Rastam, daha sonra Atır Məliyin oğlu, Seytunun nəvəsi katolikos Sarkis, 1493-cü ildə Böyük Cəlalın nəvəsi Dursun Gəncəsərə torpaq hədiyyə etmişlər. Kitabələrdə 1790-cı ildə yüzbaşı Məlik Abov və xanımı Heriknaz, oğlanları Məlik Bəylər, 1480-ci ildə Seytunun oğlanları Vəlican və qardaşlarının kilsəyə etdikləri ianələrdən də bəhs edilir. Ətraf kəndlərdə məskunlaşan kəndlilərin istifadə etdiyi torpaqlar da monastırın mülkü olmuşdur. 1825-ci ilə aid arxiv sənədlərindən məlum olur ki, bölgənin 4 ailədən ibarət Ballıqaya kəndi və 55 ailədən ibarət Vəngli kəndlərinin istifadə etdiyi torpaqlar "Gəncəsər mülkü" idi. Sənəddə qeyd olunur ki, Ballıqayanın əhalisi təmiz türklərdir (azərbaycanlılardır) (N.Məmmədov, 2015, s. 42). Lakin XIX əsrdə Barxudaryanın da yazdığı kimi, monastıra hədiyyə edilmiş torpaqlar qarət olunmuşdu və kilsə həm mənəvi, həm də maddi cəhətdən dağılmaqda idi.

XIX əsrdən Rusiya imperiyası tərəfindən Azərbaycanın Qarabağ və İrəvan xanlığı ərazilərinə köçürülmüş ermənilər bu torpaqlardakı alban məbədlərini və müqəddəs yerləri məhv edərək saxtalaşdırmaga, erməniləşdirməyə başladılar. Gəncəsər monastırı da bu tale ilə üzləşdi. Qafqazda köklü tarixləri olmayan ermənilər burada möhkəmlənmək məqsədi ilə xristianlıq amilindən istifadə edərək çoxəsrlik alban abidələrini mənimsəmək yolunu tutdular. Alban xristian mədəniyyəti nümunələrinin, arxivlərinin məhv edilməsi dağıdılması Erməni qriqoryan kilsəsi tərəfindən bütün XIX-XX əsrlər boyu davam etmişdir.

Lakin tarixi həqiqətləri gizlətmək mümkün deyildir. XX əsrin əvvəllərində şərqşünas alim İosif Orbeli Qarabağın Gəncəsər monastırında apardığı arxeoloji ekspedisiya zamanı məbəd üzərindəki 1000-dən çox kitabə mətnini araşdırmaqla XIX əsrdən bəri ilk dəfə olaraq Qarabağ monastırları



*Alban Xaçın knyazı Həsən Cəlal Dövlənin sındırılmış sinə daşı*



*XIII əsrdə Alban hökmdarı Həsən Cəlal Dövlənin dövründə tərtib olunmuş alban kitabəsinin alt sırasındakı «Alban katolikosu Nertsesin patriaarxlığı dövründə» ifadəsi məbədin alban irsinə məxsusuluğunu təsdiq edir.*

və kilsələrinin ilkin təsvirlərinin əksəriyyətinin saxtalaşdırıldığını ortaya çıxarmışdı. Orbeli Gəncəsər yazılarında bu torpaqların Alban kilsəsini və Alban knyazlığını idarə edən alban xalqına məxsus olduğunu göstərən qiymətli faktlar aşkar etmişdir. Müəllif Qarabağın alban abidələrinin necə erməniləşdirilməsi faktlarını, Gəncəsər kitabələrini təhrif edən erməni kilsəsinin bütün əməllərini üzə çıxarmışdır. Lakin sovet dövründə ciddi təzyiqlərlə üzləşən alim əsərinin nəşrindən imtina etməyə məcbur olmuşdu. Orbelinin araşdırmaları Qarabağ bölgəsindəki alban irsinin necə məhv edilərək erməniləşdirildiyini sübut edir. Xoşbəxtlikdən ermənilər bu qiymətli əsərin tamamilə ortadan qaldırılmasına nail ola bilməmişdir. HAZIRDA bu qiymətli tədqiqat əsərinin nüsxəsi və bununla bağlı sənədlər Rusiya EA-nın Şərq Əlyazmaları fondunda saxlanılır. Erməni falsifikasiyasının ic üzünü açan bu elmi əsərin nüsxəsi Azərbaycan alimlərinin səyi nəticəsində 2011-ci ildə Sankt-Peterburqdan Bakıya gətirilmişdir (Axundov, 2018).

XIX əsrdən bəri Erməni kilsəsi bütün alban monastırlarından alban kitabələrini məqsədyonlü şəkildə toplamış, onlara uygun olmayanları ələyərək sıradan cıxarmağa səy göstərmişlər.

XIX əsrdə alban kilsələrinin erməniləşdirilməsi prosesinin başlanması ilə bütün orta əsr alban tarixi sənədlər arxivi və xüsusilə də Gəncəsərdəki Alban patriarxlarının zəngin kitabxanası məhv edildi. Əlyazmalar, bütün qiymətli sənədlər Eçmiədzinə daşındı. Həsən Cəlal sülaləsindən olan son alban patriarxı Sarkisin qeydlərindən məlum olur ki, Alban kilsəsinin əsrlərlə Gəncəsər monastırında saxladığı qiymətli arxiv Ecməidzinə göndərilərkən yolda müəmmalı şəkildə yoxa çıxmışdır. Bununla da alban patriarxlarının Gəncəsər monastırındakı zəngin arxivi geriyə dönüşü olmadan məhv edildi. Son alban patriarxı Sarkis sənədlərin bir hissəsini bərpa edərək yenidən tərtib etsə də, nəticədə onların böyük bir hissəsi tamamilə məhv edilib. Bu isə onu göstərir ki, hazırda əldə olan bütün tarixi sənədlər orijinal deyil, yeni erməni mətnləri əlavə edilməklə saxtalaşdırılmış surətlərdir.

Gəncəsər monastırının kitabəsinin düzgün oxunuşu sayəsində XIII əsrin əvvəllərində Alban Apostol Kilsəsinin müstəqil, yəni avtokefal olduğu təsdiqlənmişdir. Belə ki, kitabədənin alt sırasındakı «Alban katolikosu Nertsesin patriaarxlığı dövründə» ifadəsi məbədin alban irsinə məxsusuluğunu təsdiq edir. Lakin erməni tərəfi bu kitabənin fotolarını elə rakursdan götürmüşlər ki, bütün fotolarda alt sıradakı bu kəlmələr oxunmur. Məbəddəki əsas kitabədə Albaniya mənəvi liderinin yüksək titulu – "Nersesin patriarxlığı altında Alban Katolikosu" ifadəsində bu açıq şəkildə özünü

biruzə verir. Xristian kilsə ənənəsinə görə, patriarx ən yüksək ruhani tituludur və ölkənin müstəqil (avtokefal) kilsəsinin rəhbəridir. Ona görə də erməni alimləri Gəncəsər kitabələrindəki bu ifadəni tərcümə edərkən qəsdən "patriarxlıq" sözünü ləğv etmişlər.

Orbelinin araşdırmalarına görə, monastır kitabələrinin heç bir yerində "Ermənistan" və ya "Erməni" sözlərinə rast gəlinməmiş, əksinə, tərcümə edilən kitabələrdə Gəncəsər monastırının olduğu ərazinin və monastırın özünün də müstəqil Alban knyazlığına aid olduğunu təsdiqləyən mətnlər üzə çıxarılmışdır. Xüsusilə, kitabədəki "Albaniya ölkəsinin müqəddəs Gəncəsər taxtı", "Bu, Alban xalqının katolikosu olan Sarkisin qəbridir", "Həsən Cəlalın xalqı üçün Albaniyadan olan Katolikos Sarkis" kimi ifadələr monastırın Azərbaycanın xristian albanlarının mənəvi mərkəzi olduğunu, bu ərazidə Alban şahzadələri və alban din xadimləri tərəfindən idarə olunan alban xalqının yaşadığını təsdiq edir.

Gəncəsər kitabələrinin tədqiqi bu alban abidəsində xeyli türkizmlərin mövcud olduğunu təsdiq edir. Qafqaz qədim dövrlərdən bəri türk xalqlarının məskunlaşdığı ərazi olduğu üçün Qafqaz Albaniyasında və Alban Avtokefal kilsəsində türk etnik komponenti hər zaman həlledici rol oynamışdır. Alban xac təsvirlərində və bədii kompozisiyalarında Ay kultu, Günəş kultu, həyat ağacı kimi türk etiqadları, dünyagörüşlərinə məxsus elementlər öz əksini tapmışdır. Gəncəsər kitabələrindən məlum olur ki, Qarabağın alban xristian əhalisi türk dilinin daşıyıcıları idilər və kilsə həyatında xristian ənənələrinə riayət etsələr də, türk ənənələrini, folkorunu öz məişətlərində yaşadırdılar. Qarabağdakı Xaçın knyazlığı isə orta əsrlərdə Cənubi Qafqazda türk xristianlarının formalaşdığı və inkişaf etdiyi mühüm mərkəzlərdən biri olmuşdur. XII-XIII əsrlərdə yüksələn Alban-Xaçın knyazlığının ən parlaq nümayəndələrindən Həsən Cəlal Dövlənin dövründə Xaçın knyazlıgı həm qıpçaqlarla, həm də monqollarla qohumluq əlaqələri yaratmışdı. Həsən Cəlalın anası Xorişa xatun (Hurişah xatun) Qıpçaq türk nəsillərindən idi. Monastır ərazisindəki xaçdaşlardan birinin aşağı sağ tərəfində səciyyəvi xələt və papaq geymiş, əlində nizə tutmuş iki hörüklü monqol süvarisinin təsviri də bunu təsdiq edir. 1274-cü ildə Gəncəsər monastırının təmiri şərəfinə ucaldılmış bu alban xaçdaşındakı təsvirin monqol hərbi rəislərindən birinin təsviri olması şübhəsizdir. Daşın aşağı hissəsində yarımdairəvi haşiyə içərisindəki atlı və onun yanındakı kişi fiquru kompozisiyası isə Xaçın knyazı Həsən Cəlalın Monqol Xaqanlığının vassalı olduğunu əks etdirir.

Qeyd etmək lazımdır ki, Gəncəsər monastır kompleksinin divarlarındakı kitabələrdə çox sayda türkmənşəli kəlmələrə və şəxs adlarına rast gəlinməsi, Xaçın hökmdar nəslinin, eyni zamanda Xaçın nəslindən olan alban yepiskop və katolikoslarının adlarının türkmənşəli olması, türk mədəniyyətinin orta əsrlər alban irsindəki əhəmiyyətli rol oynadığını, Qarabağın qədim monastır və kilsələrinin qurucularının türkəsilli olduğunu göstərən mühüm faktorlardandur.

Gəncəsər kitabələri ilə bağlı son tədqiqatlarda hətta türkdilli mətnlərin olduğu da ortaya çıxmışdır. Mütəxəssislər Gəncəsər məbədinin divarlarında *"Məlikdən torunları için hatıra"* yazısını, həmçinin *ezgi, şamar, sakin* kimi qədim türk kəlmələrini üzə çıxarmaga müvəffəq olmuşlar. Gəncəsər kitabələrindən birində Məlikdən torunlarına hatıra mətninin müəyən edlməsi, Gəncəsər kitabələrində adı keçən Xörişah (Hurişah) xatun, Həsən Cəlal, Məlik ata, Atabəy, Qoçubəy kimi onlarla türk şəxs adları və Hakan, Hatun, Atabəy kimi qədim türk titulları Xaçın hökmdarlarının türk əsilli olduğunu təsdiq etməkdədir. Bu məlumatlar Qarabağ bölgəsinin orta əsr alban irsində türk mədəniyyətinin və türk etnoslarının mühüm rol oynadığını təsdiq edir.

Qeyd etmək lazımdır ki, belə türkəsilli adlara və titullara təkcə Gəncəsər monastırında deyil, Qarabağın bütün alban məbədlərinin kitabələrində rastlanmışdır. Mama xatun, Atabəy, Arzu xatun, Qoçubəy, Tursun, Seyti, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz, Ruzuxan, Mina xatun, Nazlı xanım, Aygün, Aykut kimi alban Xaçın sülaləsinə məxsus



*1274-cü ildə Gəncəsər monastırının təmiri şərəfinə yaradılmış alban xaçdaşında monqol hərbi rəislərindən birinin təsviri*

türkmənşəli şəxs adları Qarabağın alban kilsə kitabələrinin bir çoxunda dəfələrlə qeyd olunmuşdur. XIX əsrdə Qarabağın xristian abidələri haqda məlumat verən yepiskop Barxudaryan Böyük Aran monastırı ərazisində Xaçın nəslinə aid, demək olar ki, hamısının türkmənşəli adlar olduğu daha bir neçə kitabə haqda məlumat verir.

Monastırdakı kitabələrdən Xaçın hakimi Həsən və onun xanımı Mamaxatunun nəvəsi Ərkan, digər kitabədə Həsən Cəlalın knyazlığındakı Kutlu bəydən bəhs edilir. Xaçın məlikliyinin Həsən Cəlal, Arzu xatun, Mama xatun, Atabəy, Ərkan Qoçubəy, Kutlu bəy kimi alban knyaz adları bu knyazlığın türk köklərindən xəbər verir. Alban məbədlərinin inşaat kitabələrində xatun, bəy, Məlik ata, Xaçın Atabəyi, Ulubəy kimi türk titullarının da qeyd olunması bu abidələri ucaldanların etnik mənsubiyyətinin dəqiq göstəricilərindəndir.

Alban kilsələrinin orta əsr tarixinin sənəd arxivi, zəngin kitabxanaları əsrlərdən bəri Alban patriarxlığı olmuş Gəncəsər monastır kompleksində yerləşirdi. Buna görə də 1836-cı ildə Rus Sinodunun Alban kilsəsini ləğv etməsinə dair məlum qərarından sonra əsas hədəf Alban patriarxlığının Qarabağda yerləşən son iqamətgahı Gəncəsər monastırı olmuşdur. 1828-ci ilədək böyük təsərrüfatı, torpaq mülkləri olan və çiçəklənən bu monastır artıq XIX əsrin 30-cu illərinin sonunda digər alban kilsə və monastırları kimi dağılmağa üz qoymuşdu. Gəncəsər monastırındakı bu dövrdən etibarən Alban patriarxlarının kitabxanasındakı bütün əlyazmalar, qiymətli sənədlər Eçmiədzinə daşındı. Alban Xaçın hökmdarı Həsən Cəlal sülaləsindən olan son alban patriarxı Sarkis Gəncəsər monastırının arxivinin müəmmalı şəkildə yox olduğunu yazırdı. XIX əsrin sonunda Azərbaycanı qarış-qarış gəzərək bütün alban kilsələrinin təsnifatını vermiş Barxudaryan da Gəncəsər monastırından qiymətli əlyazmaların oğurlandığından bəhs edir. Müəllif Qarabağın alban kilsələrinin, o cümlədən Gəncəsər monastırının çox qısa müddət içində xarabalığa çevrilməsinin canlı şahidi idi.

XIX əsrdən Erməni Qriqoryan kilsəsinin alban xristian irsinin məhv edilməsi siyasəti, XX əsrdə də alban kilsələrindəki epiqrafikanın təhrif edilməsi, eləcə də alban dövrünə məxsus bədii üslubda işlənmiş ornament və simvolların silinərək formalarının dəyişdirilməsi ilə davam etməkdə idi. Qafqaz Albaniyası irsinin təhrif edilməsi siyasəti Sovet imperiyası dövründə də davam etdirilmişdir.

Qeyd etmək lazımdır ki, Gəncəsər monastırında 1919-cu illərdə aparılmış epiqrafik tədqiqatlardam məlum olur ki, monastırın divarlarındakı o zamankı kitabələr hazırkı kitabələrdən xeyli fərqlənirmiş. Gəncəsər monastırının keçən əsrə aid fotoşəkillərindən monastırın divarlarındakı kitabələrin fərqli olduğu aşkar görünməkdədir. Müasir dövrdə monastırın divarlarına yeni, saxta piltələr əlavə edilən kitabələr keçən əsrin fotoşəkillərindən kəskin şəkildə fərqlənir.

Gəncəsər monastırındaki XIII əsrdə Alban hökmdarı Həsən Cəlal Dövlənin dövründə tərtib olunmuş alban kitabəsi XX əsrin sonlarına kimi qalmaqda idi. 1240-ci ildə Alban hökmdarı Həsən Cəlal Dövlənin dövründə tərtib olunmuş bu alban epiqrafikası gürcü linqvist-alim Zaza Aleksidze

tərəfindən oxunmuşdur. Kitabə alban katolikoslarının xristian dünyasının ən yüksək patriarx tituluna sahib olması, kilsənin Həsən Cəlal tərəfindən məhz alban xalqı üçün ucaldılması, Alban kilsəsinin aftokefal olması, yəni İsanın həvvariləri tərəfindən xeyir dua alması kimi qiymətli faktları XX əsrədək yaşatmaqda idi.

Gəncəsər monastırında XIX-XX əsrlər boyu davam edən saxtakarlıqlar, xüsusilə 1993-2020-ci illərdə Qarabağın erməni işğalı altında qaldığı dövrdə daha da açıq-aşkar hal almışdır. Hələ sovet dövründən erməni katalikosları alban məbədindəki epiqrafikanı saxtalaşdıraraq məhv etmək niyyəti ilə Gəncəsərəin bərpasına icazə almaga çalışırdı. O zaman Azərbaycan alimləri buna etiraz edərək saxtalaşdırmanın qarşısını almaga çalışmışlar. Lakin XX əsrin sonlarından Qarabağ torpaqlarının işğal altında olduğu dövrdə əl-qolu açılan ermənilər abidənin alban mənşəyini təsdiq edən yazıların böyük əksəriyyətini silməyə nail olmuşlar.

Qarabağın və Şərqi Zəngəzurun Erməni silahlı qüvvələrinin işğalı altında olduğu 30 ilə yaxın müddət ərzində Gəncəsər monastırının orijinal daş kitabələrinin böyük əksəriyyəti saxta yazıları olan yeni daş lövhələrlə əvəz edilmişdir. Aydındır ki, bu dəyişikliklər Alban kilsəsinin avtokefallığına dəlalət edən kitabələrin məhvi, məbədin alban mənşəyinin “erməniləşdirilməsi” istiqamətində edilmişdir. Gəncəsər monastırının divarlarından Qafqaz Albaniyası tarixinin öyrənilməsi baxımından son dərəcə qiymətli kitabələr sökülmüş, yeni saxta kitabələrlə əvəz edilmişdir. Bunu Gəncəsər monastırının XX əsrin sonlarında çəkilmiş fotoları ilə müqayisədə çox aydın görmək mümkündür. Kitabələrinin keçmiş görünüşü ilə müasir forması arasında ciddi fərqlər açıq-aşkar görünməkdədir. Alban mətnlərinin həkk olunduğu kitabələrin daş piltələrinin əksəriyyəti yenilənmişdir. Hal-hazırda Gəncəsər yazılarının böyük bir qismi, yeni erməni mətnləri həkk edilmiş saxta plitələrlə əvəzlənmişdir. Mütəxəssislər bu plitələrin orta əsr alban memarlığında istifadə olunan daşlardan fərqli oduğu və kilsə ərazisinə kənardan gətirildiyi qənaətindədirlər.



*1274-cü ilə aid kitabədəki Xaçın knyazı Həsən Cəlalın Monqol Xaqanlığının vassalı olduğunu əks etdirən atlı və onun yanındakı kişi fiquru kompozisiyası*



*Gəncəsər monastır kompleksi ərazisində xaşdaş üzərindəki monqol süvarisinin təsviri*



*Monastır Həsən Cəlalın əcdadlarına məxsus Xaçın hakimlərinin nəsil sərdabəsinin yerində inşa ediilmişdir.*

2000-2011-cu illərdə monastır kompleksində falsifikasiya işləri daha aktiv aparılmışdır. Monastır kompleksinin memarlıq quruluşuna ciddi zərər yetirilmiş, abidənin daxili interyeri və fasadları üzərindəki yazılar və bədii nümunələr silinərək, müxtəlif heyvan fiqurları və erməni dilində yazılarla əvəz edilmişdir. Monastırın həyətinə və monastır qəbristanlığına onlarla yeni qəbir və xaçdaşlar quraşdırılmışdır. Monastır ərazisindəki xaçdaşlar sındırılaraq erməni xaçları ilə əvəzlənmişdir. Bu, abidənin həm xarici, həm də daxili görünüşünə ciddi zərər vermişdir. 2011-ci ildə kompleksin daxilindəki Xaçın knyazı Həsən Cəlal Dövlənin qəbri üzərindəki sinə daşı sındırılmış, üzərindəki bədii ornamentlərin bir çoxu məhv edilmişdir. Bu illərdə monastırın dam örtüyü və interyerində aparılmış təmir işləri zamanı abidənin ilkin memarlıq xüsusiyyətlərinə uyğun olmayan elementlər əlavə edilmişdir. Monastırın fasadının memarlığına da müdaxilə edilmişdir. İşğal illərində Qarabağ bölgəsinin əsas və ən böyük alban ibadətgahı – Gəncəsər monastırı dünyaya erməni monastır kompleksi kimi təqdim edilmişdir.



*Alban katolikoslarının iqamətgahına çevrilmiş Gəncəsər monastır kompleksinin ərazisində Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri də dəfn olunmuşlar.*

# HAVAPTUĞ MƏBƏDİ (XII əsr), Vəngli kəndi



*Havaptuğ məbədi, XII əsr*

Kəlbəcər rayonunun Vəngli kəndində Tərtər çayının sağ sahilində, qayalıq ərazidəki təpənin ətəyində XIII əsrə aid daha bir alban məbədi mövcuddur. Bu tarixi-memarlıq abidəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Məbəd Vəngli kəndində yerləşən Xudavəng monastır kompleksinin 3 km qərbində, Gəncəsər monastır kompleksinin isə 5 km cənubunda yerləşir.

Bu alban məbədi orta əsrlərə aid 20-dən çox tikilisi və otağı olmuş böyük monastır kompleksi idi. Kilsənin inşa olunma tarixi və sifarişçisi haqqında məlumat onun giriş qapısı üzərindəki timpanda yerləşdirilmiş kitabədə qeyd edilmişdir. Giriş qapıları kilsənin cənub hissəsində yerləşir. Qapının üstündəki kitabədən məlum olur ki, kilsə 1163-cü ildə tikilib, 1223-cü ildə isə bərpa edilib. Kitabədə yazılır: "...1163-cü ilin yayında, Vaxtanqın oğlu Həsən və onun həyat yoldaşı Mamkanın dövründə mən, ter Qriqorun bacısı oğlu Ter İohann və qardaşımın oğlu Georq, digər qardaşların köməyi ilə ruhumuzun xilas olması üçün valideynlərimizin xatirəsinə bu kilsəni inşa etdirdik". Digər bir kitabədə isə 1223-cü ildə kilsənin Həsən Cəlal tərəfindən bərpa etdirilməsindən bəhs edilir.

Kompleks kilsə, narteks və kiçik sövmədən ibarətdir. Onların ətrafında dövrümüzə tam vəziyyətdə çatmamış digər tikililərin də qalıqları vardır. Baş kilsə isə üçnefli bazilika olub dövrümüzə qədər salamat çatıb.

Monastırın əsas kilsəsi planda düzbucaqlı formaya va tağtavana malik zalı olan kilsələrdəndir. Kilsənin divarları kobud əhəngdaşı bloklarından hörülmüşdür. Qərb tərəfdən kilsə binasına planda kvadrat formaya malik, kiçik ölçülü, apsidasız bina birləşir. Həm kilsənin, həm də həmin binanın qapıları cənub tərəfdədir və onlar üçün ümumi olan narteksə açılır. Narteks binasının inşasında kobud çaydaşılarından istifadə edilmiş, damı isə taxta şalbanlarla örtülmüşdür.

Kilsənin şərqində təpənin yamacında müxtəlif bədii ornamentli qəbir daşları və həndəsi heykəlləri olan orta əsrlərə aid böyük məzarlıq yeri olmuşdur.

## XİLASKAR KİLSƏSİ (XI-XIII əsr), Yayıcı kəndi

XII-XIII əsrlərə aid alban kilsəsinin movcud olduğu Yayıcı kəndinin adı 29 dekabr 1992-ci ilə qədər Qoçoqot olmuşdur. 1993-cü ildə Ermənistn Respublikası silahlı qüvvələri tərəfindən işğal edilmiş Yayıcı kəndi əvvəllər Agdərə ərazisinə aid idi. 1992-ci ildə Ağdərə rayonunun ləğv edilməsindən sonra kənd Kəlbəcər rayonuna birləşdirilmişdir.

Kənddə iki kilsə mövcud olmuşdur. Kilsələrdən biri Tərtər çayının sağ sahilində yerləşirdi. Bu memarlıq abidəsinin qərb tərəfi sıldırım qayalarla, şimaldan isə meyvə ağacları ilə zəngin olan sıx meşə ilə əhatə edilmişdir.

Barxudaryan buradakı Məryəm ana kilsəsinin giriş portalının timpanındakı inşa kitabəsi haqda məlumat vermişdir. Kitabədə kilsənin "... Həsənin oğlu Vaxtanqın hakimiyyəti dövründə..." inşa olunduğu yazılır. Kitabədə inşa tarixi qeyd edilməsə də, 1214-cü ildə vəfat etmiş Xaçın knyazı Vaxtanqın qeyd edilməsi abidənin inşa edildiyi dövrü təxmin etməyə imkan verir. Kilsə ərazisindəki qədim kitabələrdən məlum olur ki, o, daha erkən dövrə aid olan tikili üzərində inşa edilmişdir. Xilaskar kilsəsi XI əsrin sonlarında inşa edilmiş, XIII əsrdə isə burada yenidənqurma işləri aparılmışdır. Kilsənin divarındakı xaçdaşların birində Xaçın hökmdarı Həsənin oğlu Sərkisin adı qeyd olunmuşdur (Бархударян, 1895, s.168). Kilsənin qapısına hörülmüş xaçdaşlardan birinin üzərindəki kitabədən kilsənin 1249-cu ildə Sərkis Aslan oğlu tərəfindən bərpa etdirildiyi məlum olur (Бархударян, 1895, yenə orada).

Memarlıq quruluşuna görə kilsə, tərəfləri 5.2x4.2 metr olan xaçvari plana malikdir. Şərq apsidası istisna olmaqla xaçın qanadları daxildən yaxşı vurğulanmış düzbucaqlı konfiqurasiyaya malikdir. Onlar kəsişmə künclərində olan pilyastrlar üzərində ucaldılmış dörd tağ vasitəsiylə birləşdirilmişdir. Pilyastrlar həm də dörd pəncərə yeri olan günbəz barabanını saxlayır. Xaçın şərq, cənub və şimal qanadlarının yan divarlarında pəncərə yerləri vardır. Şimal və cənub qanadlarının divarlarında 4 niş vardır ki, onlardan da 2-si oval, 2-si isə kvadrat formalıdır. Divarlar daxildən əhəng məhlulu ilə suvanmışdır. Kilsənin döşəməsi yonularaq düzləşdirilmiş qayadan hazırlanmışdı.



*Yayıcı kəndində Xilaskar kilsəsinin planı*

## ALBAN MƏBƏDİ (672-ci il), Yayıcı kəndi

Yayıcı kəndində olan daha bir alban məbədinin qalıqları kəndin şərqində, Tərtər çayının sag sahilində yerləşirdi. XIX əsr müəllifi Barxudaryan Tərtər çayının sag sahilindəki vadidə qədim monastır qalıqları olduğu haqda məlumat vermişdir. Monastır dairəvi formalı günbəzli olmuşdur. Dağılmış və istifadəsiz vəziyyətdə olan monastırın vaxtilə rahiblər üçün hücrə yeri, altarı olub. Monastırın ətrafında iri və gözəl xaçdaşları ilə dolu olan qədim qəbiristanlıq olub (Бархударян, 1895, s.168).

## XATIRƏVƏNG MONASTIRI (XIII əsr), Qozlu kəndi

Qarabağ silsiləsinin yamacında yerləşən Qozlu kəndi Yuxarı Xaçın ərazisinin mühüm məntəqələrindən olmuşdur. Qozlu kəndi orta əsrlərin Dvin-Bərdə ticarət yolu üzərində, mühüm ticarət yollarının kəsişməsində yerləşirdi. Kənd həmçinin Xaçın–Çiləbürd–Göyçə hövzəsini birləşdirən bölgə olmuşdur. Qozlu kəndi Xatırəvəng monastırı, Qırmızı monastır, Vaquas monastırı kimi alban memarlıq abidələri ilə zəngin olmuşdur.

Qozlu kəndi ərazisindəki Xatırəvəng monastır kompleksi Tərtər çayının sag sahilində yerləşir. Xudavəng monastırından cənub-şərqdə 2 km-lik məsafədədir. Xatırəvəng monastırının inşa tarixi XIII əsrə – Qarabağda Alban dövlətçilik ənənələrini davam etdirən Xaçın knyazlığının yüksəliş illərinə təsadüf edir.

İnşaat kitabəsində verilən məlumata görə, Xatırəvəng monastırının başkilsəsi 1204-cü ildə inşa edilmişdir. Kitabədən məlum olur ki, monastır ərazisi bağışlanan torpaq sahələri hesabına xeyli genişlənmişdir. Xatırəvəng monastırındakı 1215-ci ilə aid kitabədən məlum olur ki, kilsənin inşası knyaz Həsən Cəlalın qızı Minaxatunun övladları tərəfindən maliyyələşdirilmişdir (Бархударян, II kitab, s.206). Monastırın yaxınlığındakı xaçdaşın üstündəki 1311-ci ilə aid kitabədə Xaçın nəslinin vəfat etmiş nümayəndələrinin adı yazılıb (Бархударян, II, s. 207). Burada Xaçın nəslindən olan əyanların adı yazılmış 1201-ci ilə aid daha bir neçə xaçdaş var (Бархударян, 1895, II, s. 208)

Xatırəvəng monastır kompleksi köhnə və yeni kilsədən, sovmədən, zəng qülləsindən, rahiblərin yaşayışı üçün nəzərdə tutulmuş mülki tikililər və yarıdağılmış qala divarlarından ibarətdir. Qala divarlarındakı qüllə qalıqları yaxşı yonulmuş və cilalanmış marena rəngli daş plitələrlə üzlənmişdir.

Monastırın başkilsəsi memarlıq quruluşu baxımından Xaçın knyazlığı ərazisindəki orta əsr kilsələrinin nartekslərini xatırladır. Bu kilsə,



*Qozlu kəndi, Kəlbəcər*



*Xatırəvəng monastırı, Qozlu kəndi*



Cənubi Qafqazın xristian memarlığında analoqu olmayan unikal abidədir (Мамедова, 2004, s.133). Asimmetrik plana malik olan 4 sütunlu, günbəzli kilsənin həcminə düzbucaqlı altara və tağtavana malik iki birnefli sovməə də əlavə edilmişdir. Bu, yalnız Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan özünəməxsus memarlıq kompozisiyasıdır.

Alban Xaçın hakimliyinin yüksəlişi illərində bərpa edilən və erməniləşdirilən dağılmış və zədələnmiş erkən orta əsr kilsələrindən biri də Xatırəvəng monastırı idi. Bu dövrdə Xaçın knyazlığında Müqəddəs Yelisey monastırı, Kiçan monastırı, Ktişvəng monastırı kimi alban məbədlərinin baş kilsələri, böyük zal kilsələri, həmçinin kiçik kilsələr də inşa edilirdi.

Xatırəvəng monastırında kilsənin həcminə əlavə edilmiş düzbucaqlı altar apsidaları Qafqaz Albaniyası memarlığı üçün geniş yayılmış xarakterik xüsusiyyətlərdən biridir (Мамедова Г., 2004. səh. 107). Bu cür altarlara Müqəddəs Yelisey monastırında, Gtişvəng, Yeddi kilsə, Xudavəng monastırlarında da rast gəlinir. Memarlıq doktoru, professor Gülçöhrə Məmmədovanın qeyd etdiyi kimi, erməni memarlığında heç bir monastır kompleksində düzbucaqlı altarlardan istifadə olunmur. Qafqaz Albaniyasının memarlığında isə inkişaf etmiş orta əsrlər dövründə düzbucaqlı altar apsidaları demək olar ki, yarımdairəvi apsidalarla paralel istifadə edilmiş və dini memarlıq üçün kanonik statusa malik olmuşdur (Г.Мамедова, 2004. səh. 107).

Kilsənin neflərinin nisbəti adi bazilikalardan fərqlənir. Əgər adi bazilikalarda orta nefin eni yan neflərdən 2–2.5 dəfə böyük olursa, Xatırəvəng kilsəsində bu ölçü nisbəti 0,8:1:0,7 kimidir. Yan neflər və mərkəzi nefin kəsikləri oxvari formaya malik tağlar üzərində inşa edilmiş tağtavanlarla örtülmüşdür (Г.Мамедова, 2004).

Kilsənin günbəzi də özünəməxsus formaya malikdir. Belə ki, o, altar apsidası qarşısında yox, mərkəzi nefin orta kəsimində, məbədin qərb tərəfində yerləşir. Günbəzaltı tağları dəstəkləyən dörd sütun müxtəlif biçimə (düzbucaqlı, səkkizguşəli və xaçvari) malikdir, yaxşı cilalanmış

və oyma naxışlarla bəzədilmişdir. Günbəzin əsas özəlliyi, barabanın olmaması və birbaşa səkkizguşəli təməl üzərində dayanmasıdır. G.Məmmədova bunu orta əsrlər alban memarlığına Azərbaycan İslam memarlığının təsiri ilə əlaqələndirir.

Xatırəvəng kilsəsinin memarlıq quruluşu kompleksə daxil olan tikililərin eyni vaxta aid olmadığını göstərir. Kilsəyə sonradan əlavə edilmiş birnefli sovməələrin kilsə binasının inşa edildiyi dövrdən daha əvvəlki dövrə aid olduğu və bu qədim tikililərin saxlanılması üçün onların kilsənin əsas həcminə daxil olunduğu ehtimal edilir. Göründüyü kimi, Xatırəvəng məbədi də Xudavəng, Əyrivəng, Vaquas, Qırmızı monastır və digər erkən orta əsr alban kilsələri kimi IX əsrdən etiabrən Ərəb xilafətinin zəifləməsilə bərpa edilmiş və genişləndirilmişdir. Əsas kilsəyə müxtəlif formalarla yan otaqlar əlavə edilməsi yalnız Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan özünəməxsus memarlıq kompozisiyasidır.

Dövrünun bir çox monastır kilsələri kimi, Xatırəvəng kilsəsinin başkilsəsi də, xüsusi fasad dekorlarına malik deyildir. Pəncərə yerlərinin kənarları xüsusi vurğulanmış, karnizlər zərif işlənmiş, divar hörgüsündə xaçdaşlar və epirafikalı daşlardan istifadə olunmuşdur. Zəng qülləsindən şimal-qərbdə düzbucaqlı plana və tağtavana malik yeməkxana binası yerləşir. Şərqdən qərbə doğru uzanan və dövrümüzə yaxşı vəziyyətdə çatmış bu tikili kompleksin memarlıq kompozisiyasında mühüm rol oynayır. Yeməkxananın divar və tağlarının tikintisində alban inşaat texnikası üçün səciyyəvi olan kobud yonulmuş daşlar və əhəng məhlulundan istifadə edilmişdir. Yeməkxana binası iki zaldan ibarətdir. Böyük zalın içində buxarı, divarlarında isə nişlər və pəncərə yerləri vardır. İkinci zalın divarlarında yalnız iki niş vardır. Kompleksin şimal-şərq hissəsində iki zaldan ibarət olan tikili vardır. Birinci zal, regionun yaşayış tikililəri üçün ənənəvi olan memarlıq xüsusiyyətlərini özündə daşımaqla, tağtavan örtüyə malikdir.

Xatırəvəng məbədi Qarabağın və Şərqi Zəngəzurun digər alban abidələri kimi 1992-2020-ci illər boyu bu torpaqları qanunsuz zəbt etmiş ermənilər tərəfindən vandalizm aktlarına məruz qalmışdır.

## QIRMIZI MONASTIR (XIII əsr), Qozlu kəndi

Tarixi-memarlıq abidələri ilə zəngin Qozlu kəndində daha bir alban məbədi, dövrünün qiymətli yadigarlarından olan Qırmızı monastır yerləşir. Bu tarixi-memarlıq abidəsi Kəlbəcər rayonunun Qozlu kəndindən 3 km aralıda, meşənin içində, sıldırım qayalıqların üstündə inşa edilmişdir. XIII əsr alban memarlıq abidəsi olan Qırmızı monastır Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yerli əhəmiyyətli abidə kimi qeydiyyata alınmışdır. Epiqrafik yazılarla zəngin olmuş monastır ərazisində vaxtilə iyirmiyə yaxın kitabə mövcud olmuşdur. Barxudaryan monastırın divarlarının müxtəluf yerlərində divara hörülmüş daş lövhələrdə, portal timpanlarında və xaçdaşlarda yerləşdirilmiş kitabələrin məzmunu barədə məlumat vermişdir. Kitabələrdə abidənin inşa tarixi, həmçinin Yuxarı Xaçın hakimləri barədə məlumatlar var. Kilsə və narteksin divarlarındakı kitabələrdən məbədin 1224-cü ildə tikildiyi və 1259-cu ildə isə bərpa edildiyi məlum olur. Barxudaryan Qırmızı monastırın əsas kilsəsinin XIII əsrdə bərpa edildiyi yazır.

Əsas kilsə binasının şimal divarına hörülmüş kitabədən məlum olur ki, “kilsə 1224-cü ildə Vaxtanqın oğlu, Həsənin qardaşı tərəfindən tikdirilmişdir. Kilsə Həsənin qardaşı oğlu Qriqorun xidmətinə verilmişdir.” Kilsənin cənub divarına hörülmüş ikinci inşaat kitabəsində isə kilsənin başqa bir tarixdə və başqa bir sifariş əsasında tikildiyi göstərilir. Həmin kitabədən kilsənin



*Qırmızı monastır, XIII əsr, Qozlu kəndi*





1259-cu ildə Amaras yepiskopu Qriqor tərəfindən bərpa edildiyi məlum olur. Hər iki kitabədə Sakar oğlu Qriqorisin adı xatırlanır. 1224-cü ildə kilsənin xidmətinə verilən Qriqoris 1259-cu ildə artıq kilsə rahibi kimi xatırlanır.

Kitabələrdə həmçinin Xaçın hakimi Həsən Cəlal sülaləsinin Zar kilsəsi ilə əlaqələrindən də bəhs edilir. Zar kilsəsindəki kitabədə Xaçın sülaləsindən, knayzlar knayzı Sərkis və Mamkan, Qriorisin anası Xorişədən bəhs edilir (Бархударян, I, s.218). Barxudaryan alban knyazı Həsənin Zar kəndini çox sevdiyini yazır. Kilsənin Zar sülaləsinin nümayəndələri tərəfindən tikildiyi məlum olur. Mənbələrdə adı Sakar və ya Sakr kimi qeyd edilən şəxs, Zar kəndinin knyaz sülaləsinin rəhbəri olmuşdur. Monastır ərazisindəki xaçdaşlardan biri üzərində həkk edilmiş kitabədə bu kilsənin Müqəddəs Qriqori monastırı olduğu qeyd edilir. Xaçdaşın kitabəsində həm də Sakarın monastıra bəxşişlərindən bəhz olunur.

Monastır kompleksi əsas böyük kilsə binası, ona bitişik narteks, sövmə, hücrələr və digər mülki tikililərin qalıqlarından ibarətdir. Əsas kilsə binası planda kiçik tağtavanlı zaldan ibarətdir, qərbdən narteks, cənub-şərqdən isə sovməə ilə əhatə olunmuşdur. Kilsənin cənub və şimal divarları çox qalındır. Narteksin divarlarında içəri tərəfdən

yaradılmış nişlər vasitəsiylə divar içindəki saxlama otaqlarına keçmək mümkündür.

Qırmızı monastır IX əsrdən etibarən Ərəb xilafətinin zəifləməsilə bərpasına və genişləndirilməsinə başlanan, dağılmış və zədələnmiş erkən orta əsr kilsələrindən olmuşdur. Belə kilsələrin genişləndirilməsi üçün əsas binaya müxtəlif variantlarla yan otaqlar əlavə edilirdi. Xudavəng, Xatırəvəng, Vaquas kimi bir çox erkən xristianlıq dövrünə aid alban məbədləri üçün səciyyəvi olan belə memarlıq həlli yalnız Qafqaz Albaniyası memarlıq abidələrində müşahidə olunur. Bu mərhələdə Qırmızı monastırın da genişləndirilməsi üçün ona müxtəlif formada əlavələr edilmişdir. Monastırın kiçik zal kilsəsinin həcminin böyüdülməsi üçün ona yalnız Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan memarlıq kompozisiyasına xas qərb tərəfdən və tikilinin eni boyunca düzbucaqlı formalı yan otaqlar əlavə edilmişdir. Belə kompozisiya nümunəsini Qırmızı kilsənin yaxınlığında yerləşən (3 km) Vaquas kilsəsində də görmək mümkündür.

Kilsə əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq ağ və narıncı əhəngdaşından tikilib. Tikintidə iri qaya daşlarından da istifadə olunub. Kompleksə daxil olan bütün tikililər alban kilsələrinin inşaat texnikası üçün səciyyəvi olan kobud yonulmuş yerli daşlardan inşa edilmişdir. Səliqəli cilalanmış daşlardan isə yalnız, nişlər, qapı və pəncərə yerlərinin haşiyələrində istifadə olunmuşdur. Kilsə divarlarınını tikintisində üzərində epiqrafik yazılar olan daşlardan da istifadə edilmişdir.

Monastır ərazisindəki xaçdaşların hazırlanmasında Tərtər çayı vadisi üçün xarakterik olan çəhrayı daşlardan istifadə olunmuşdur. Qırmızı monastırın ətafında yüksək sənətkarlıq xüsusiyyətlərinə malik, zəngin bədii ornamentli xaçdaşlar olmuşdur. Barxudaryanın Qarabağ monastırları ilə bağlı verdiyi məlumata görə, Qırmızı kilsə XIX əsrədək yaxşı vəziyyətdə olmuşdur (Бархударян, 1895, II, s.167-168).

Hazırda abidə məhv olmaq üzrədir.



## MEYRƏKAVAK MONASTIRI (XIII əsr), Qozlu kəndi




*Meyrəkavak monastırının planı*

Qozlu kəndi ərazisində yerləşən XIII əsrə aid alban abidələrindən biri də Meyrəkavak monastırının qalıqlarıdır. Qozlu kəndinin keçmiş adı Vaquas olmuşdur. Orta əsr ticarət yollarının üstündə yerləşən, çoxəsrlik tarixə malik qədim kəndin xarabalıqları müasir Qozlu kəndinin iki-üç kilometrliyində yerləşir. Barxudaryan Vaquas kəndindəki monastırın Tərtər çayının sag sahilindəki yüksəklikdə yerləşdiyini yazır. O yerli əhalinin monastırı Meyrəqala (Meyrəkavak) adlandırdığını bildirir (Бархударян,1895, s.170). Vaquas kəndinin xarabalıqları arasında yerləşən monastırın əsas kilsə binası üzərindəki kitabədə onun inşa tarixinin 1215-ci il olması haqqqında məlumat verilmişdir. Kitabədən məlum olur ki, kilsəni Həsənin qız nəvəsi, knyaz Tarxanın xanımı inşa etdirmişdir (Бархударян, s.193.). Kitabədə yazılır: “1215-ci ilin yayında, mən, Hasan, Böyük Qriqorinin qızı, knyaz Tarxanın həyat yoldaşı bu kilsəni inşa etdirdim”. Qeyd etmək lazımdır ki, Böyük Qriqori X əsrdə hakimiyyətdə olmuş Xaçın knyazıdır.

Kompleks XIII əsrdə inşa edilmiş əsas kilsə binası, daha qədim dövrə aid olduğu ehtimal edilən kiçik sovmə, narteks və məişət xarakterli tikililərdən ibarətdir. XIX əsr müəllifi yazır ki, kəndin mərkəzində vaxtilə 3 metr hündürlüyə malik, incə naxışlarla bəzədilmiş 1218-ci ilə aid xaçdaş ucalırdı (Бархударян, 1895, s.112-114).

Meyrəkavak monastırında da IX əsrdən etiabrən Ərəb xilafətinin zəifləməsilə bərpa və genişləndirilmə işləri aparılmışdı. Monastır alban memarlığına xas kompozisiyaya uyğun yan otaqların əlavə edilməsilə genişlənmişdi. Alban memarlığı üçün xarakterik olan kiçik zal kilsələrinin həcminin böyüdülməsi üçün onlara qərb tərəfdən və tikilinin eni boyunca düzbucaqlı formalı yan otaqlar əlavə edilmişdi. Vaquas/Meyrəkavak monastırı bu kompozisiyanın ən yaxşı saxlanmış nümunələrindən hesab edilir. Lakin kompleksə daxil olan binalar hamısı ciddi dağıntılara məruz qalmış və ya qəzalı vəziyyətdədir.

Planda düzbucaqlı formaya malik olan əsas kilsə binası, Gədəbəy rayonunun Əyrivəng kəndində yerləşən IX-X əsrlərə aid edilən alban məbədində olduğu kimi nalvari apsidaya və apsidanın hər iki tərəfində kiçik otaqlara malikdir (Мамедова, s.84) Kilsə və yan otaqlar arasındakı çatlar onların müxtəlif vaxtlarda inşa edildiyini göstərir. Kilsə binasının qərb tərəfində onun davamı olaraq yarımdairəvi altar mövcuddur. Şərq divarının vaxtilə bir neçə divar tağı üzərində dayanması ehtimal edilir. Apsidanın yanlarında yerləşən kiçik otaqlar silindrik tağvari örtüyə malik olmuş və əsas ibadət zalı ilə kiçik qapı yeri vasitəsiylə əlaqələndirilmişdir. Kilsənin qərb divarına birləşən narteks əhəmiyyətli dərəcədə dağıntılara məruz qalmışdır. Divardakı tağ yerlərinə əsasən müəyyən edilmişdir ki, narteksin tağvari dam örtüyü də divar tağlarına söykənmişdir.

Sovmə binası kompleksin şimal tərəfində yerləşir. Düzbucaqlı plana malik sövmənin cənub divarında niş, şərq divarında isə pəncərə yeri vardır. Tikili silindrik tağvari örtüyə və ikitərəfli dama malikdir.

Kompleksə daxil olan tikililərin inşasında əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud çay daşları ilə yanaşı, yaxşı işlənmiş daşlardan da istifadə edilmişdir. Pəncərə və qapı yerlərinin yanları, həmçinin tikililərin künc hissələrinin inşasında yalnız yaxşı yonulmuş daşlardan istifadə olunmuşdur.

## ÇƏRƏKTAR MONASTIRI (XIII əsr), Çərəktar kəndi

Xaçın knyazlığının məşhur monastırlarından olmuş Çərəktar monastırı Tərtər çayının sol sahilində, Qarabağın Yuxarı Xaçın yaxınlığında yüksək dağlıq ərazidə Çərəktar kəndində yerləşir. Çərəktar kəndi 1992-ci ildə Ağdərə rayonunun ləğv edilməsindən sonra Kəlbəcər rayonuna birləşdirilən kəndlərdən biridir. Çərəktar kəndi 1993-cü ildə Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğal edilib. 2020-ci ildə Azərbaycan Ordusunun Qarabağ torpaqlarını işğaldan azad etməsindən sonra kənd 10 noyabr 2020-ci il razılamasına əsasən müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altına keçib.

Çərəktar monastırı Həsən Cəlal kilsəsi olaraq da tanınır. Tikinti yazısına əsasən abidə XI–XII əsrlərə aiddir. Monastırın baş kilsəsi 1260-cı ildə inşa edilib. Hazırda tamamilə dağılmış monastır kompleksi ərazisində vaxtilə xaçdaşlar, başdaşları və epiqrafik yazı nümunləri movcud olmuşdur. Monastırda olan çoxlu sayda qəbir daşları və xaçdaşlar nəbati və həndəsi ornamentli naxışlarla zəngindir. XIX əsrdə Makar Barxudaryan monastır ərazisində ümumilikdə XII-XIV əsrlərə aid 11 kitabə mətnini oxumuşdur. Həmin kitabələrin ən qədimləri 1152, 1206, 1347, 1360-cı illərə aiddir. Kitabə mətnlərində kilsənin inşa dövrü və müxtəlif dövrlərdə burada aparılan bərpa işləri haqda məlumat verilmişdir.

Kilsə düzbucaqlı kiçik bir bazilikadan və şərq hissəsində düzbucaqlı altardan ibarətdir.



İnşa kitabələrinə görə, onlar XI-XII əsrlərdə tikilmişdir. Kilsənin qərb hissəsindəki girişin yalnız xarabalıqları qalmışdır. Kilsənin cənub hissəsindəki yarımdairəvi bürc qüllələrin qalıqları, narteksin də müdafiə divarının bir hissəsi olduğunu göstərir. Kilsənin şimal divarı, eyni zamanda şərq və qərb divarlarının təməlləri qorunub. Xaçdaşlar və məzar daşları gözəl işlənmiş bitki və həndəsi ornamentlərlə zəngin olmuşdur. Xüsusilə buradakı Zar şahzadəsinin məzar daşı zəngin ornamentlərə malik olmuşdur.

Monastır kompleksi dövrümüzə dağılmış vəziyyətdə gəlib çatsa da, əsas kilsə müəyyən qədər salamat qalmışdır. Monastır tikililərindən yalnız əsas kilsə binası, narteks, yeməkxana və zəng qülləsinin bir hissəsi yaxşı qalmışdır. Monastırın dövrümüzə gəlib çatmış tikililərinin memarlıq qalıqlarının xüsusiyyətləri və epiqrafik nümunələrin tədqiqi kilsə ətrafındakı tikililərin müxtəlif dövrlərə aid olduğunu göstərir. Onların inşasında istifadə edilmiş yonulmuş daşlar və zəngin ornamentli xaçdaşlar ətraf ərazilərə daşınaraq yaşayış binalarının inşasında istifadə edilmişdir.

Monastırın başkilsəsi kiçik ölçülü düzbucaqlı plana malik bazilikadır. Belə ki, Ərəb istilası dövründə Qafqaz Albaiyasında dövlətçiliyin və xristian dininin dövlət dini statusunun itirilməsi, rəsmi ideologiyadan məhrum edilmə, ibadətçilərin qəfil azalması və sonradan alban əhalinin tədricən deetnizasiyası Qafqaz Albaniyası dini memarlığının dəyişməsinə, Ərəb istilasından əvvəlki dövrə aid birnefli bazilikalarla müqayisədə onların ölçülərinin kiçilməsinə gətirib çıxarmışdı. Bu baxımdan Çərəktar monastırındakı kilsə də kiçik ölçülü (7x3 metr) düzbucaqlı plana malik bazilika idi. İki tərəfli damla örtülmüş monastırın başkilsəsinin şərq tərəfində yalnız Qafqaz Albaniyası memarlığı üçün xarakterik olan düzbucaqlı formaya malik altar vardır. Digər tərəfdən də X əsrdən etibarən Ərəb xilafətinin zəiflədiyi erkən orta əsr kilsələrinin bərpası və genişləndirilməsi prosesinin geniş vüsət aldığı dövrdə kiçik zal kilsələrinin həcminin böyüdülməsi məqsədilə onlara yan otaqlar əlavə edilməyə başlamışdı. Çərəktar kilsəsinin qərb tərəfində, görünür, bu məqsədlə kilsə binasına narteks, və başqa tikililər əlavə edilmişdi. Lakin narteksin yalnız bir hissəsi dövrümüzə salamat gəlib çatmışdır. Onun cənub hissəsinin künc tərəfində olan yarımdairəvi qüllələr, narteksin həm də müdafiə sisteminə daxil olduğunu göstərir. Cənub tərəfdən kilsəyə yeməkxana binası birləşir. Yeməkxananın şimal divarı bütünlüklə, şərq və qərb divarlarının isə bir hissəsi saxlanmışdı.

Lakin hazırda monastır kompleksi tamamilə dağıdılmışdır. Alban xristian memarlığının bir nümunəsi olan bu monastır bu gün xaraba halında qalmaqdadır. Monastırın qalıqları yerləşdiyi təpənin ətrafına səpələnmiş, xaçdaşları və qədim qəbir daşları da məhv edilmişdir. Çərəktar kəndi 10 noyabr 2020-ci il razılamasına əsasən müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altına keçdiyi üçün Çərəktar monastırının son aqibəti məlum deyil.

## HARVA KİLSƏSİ (XIII əsr), Dovşanlı kəndi

Xaçın çayının sahilində yerləşən Dovşanlı kəndində, böyük qayalığın altında daha bir alban kilsəsi mövcuddur. Kənddə iki kilsə olduğu barədə məlumat verən XIX əsr müəllifi Makar Barxudaryan yazır ki, Müqəddəs Məryəm ana kilsəsindən yuxarıda, kəndin şərqində daha qədim olan kilsə var. Müəllif bu kilsəni Anapat kilsəsi adlandırır (Бархударян, 1885, I. s.164, s.166). Qeyd etmək lazımdır ki, Dövşanlı kəndindəki kilsəni sovet müəllifləri Harva kilsəsi adlandırırdılar.

Kilsədəki kitabəyə əsasən onun inşa tarixi XIII əsrə aid edilsə də, kilsənin quruluşu tikilinin daha qədim dövrə aid olduğunu göstərir. Bu alban məbədi qədim bir mağaranın içərisində inşa edil-



*Kəlbəcər, Dovşanlı kəndi*

mişdir. Əslində bu qədim ibadətgah naməlum bir zahidin qəbrinin olduğu mağara-məbəd idi. Hündür qayanın altında qayadan süzülən şəlalənin sağında yerləşən bu məbəd bir-birinə, demək olar, bitişik iki kiçik kilsədən ibarətdir. Abidə böyük qaya içindəki mağaraya birləşən yonulmuş və hörgü ilə tamamlanmış ikizallı kilsədir. Uğurlu inşaat işi sayəsində qarşı tərəfdən onlar bir-birindən ayrı iki sovmə kimi görünür. Daxildən onların böyük hissəsi əhəngdaşı ilə suvanmış mağaraya bitişik olub, bütöv kilsə təsiri bağışlayır (Бархударян, I. s.167). Mağaranın girişi isə qapı və pəncərə ilə baglanmışdır. Buna görə kilsə bir-birinə bitişik yarımqaya zal təsiri bağışlayı. Kilsənin iki altarı var.

Harva kilsəsinin qapısında böyük daşın üzərində 1249-cu ilə aid kitabə var (Бархударян, 1895, s.167). Buradakı böyük yonulmamış daşın üzərindəki kitabədə Xaçın və Aran (Alban) hökmdarı Cəlal Dövlə və onun oğlu Atabəyin adı çəkilir (Бархударян, I, s.167). Kilsənin divarındakı kitabədə onun inşa tarixinin XIII əsrə aid olduğu yazılıb. Kitabədə Cəlal Dövlənin oğlu Atabəy Xaçın və Aran knyazı olaraq qeyd edilir (Бархударян, I.s.166).

## KİLSƏ (1668-ci il), Dovşanlı kəndi

Qarabağ silsiləsinin ətəyində yerləşən alban kilsələri, xaçdaşlar, qəbir abidələri ilə zəngin Dovşanlı kəndi ərazisi hələ e.ə. XI-IX əsrlərə aid kurqanların olduğu qədim yaşayış məskənidir. XIX əsrdə Türkmənçay müqaviləsindən sonra Rusiya imperiyasının dəstəyilə Qafqaza, xüsusilə də Qarabağa köç edən ermənilər Qarabağın Dövşanlı kəndinə də yerləşərək kəndin adını dəyişib Aracadzor kimi rəsmiləşdirsələr də, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 29 dekabr 1992-ci ildə kəndin keçmiş adı yenidən özünə qaytarıldı.

XIX əsr müəllifi M.Barxudaryan bu kənddəki alban kilsələri və xaçdaşları, qədim qəbir yerləri haqda məlumat vermişdir. Müəllif kəndin çıxacagında 1237-ci ilə aid iki böyük xaçdaş olduğunu yazır (Бархударян, 1885, I. s.166). M.Barxudaryanın qeydlərindən məlum olur ki, kəndə iki kilsə olub. Bu kilsələrdən biri XVII əsrə aid edilən Müqəddəs Məryəm ana kilsəsidir. XIX əsr müəllifinin verdiyi məlumata görə, kilsənin kitabəsində tikilinin inşa tarixi 1668-ci il olaraq qeyd edilir (Бархударян, 1885, I. s.164). Müəllif bu kilsəyə bağışlanmış İn-

cildə Böyük Cəlalın nəvəsi Ulu bəyə verilən kəndin ərazisi ilə sərhədlənən Aran torpaqlarından da bəhs edir (Бархударян, 1885, I. s.165). Kilsənin kitabəsində Həsən Cəlal, anası Xorişə xatun (Hurişah xatun), həyat yoldaşı Mamaxatun, oğlu İvane-Atabəy, qızları Ruzuxan, Mama xatun və Mina xatun, Xaçın hakimi Həsən Cəlalın nəvələri Ərkan və Ulu bəyin adı keçir. Göründüyü kimi, kilsənin kitabəsində adı keçən Xaçın hakimləri və onların bütün ailə üzvlərinin adları türkmənşəlidir. Xaçın sülaləsinin türk adları Qarabağın alban-türk tarixinin dərin köklərə dayandığını göstərir.

## MAMAKAN / VAÇAR KİLSƏSİ (XIII əsr), Bazarkənd

Mamakan (Mama xatun) kilsəsinin qalıqları Bazarkənd ərazisində yerləşir. Bazarkənd Kəlbəcər rayonunun Dovşanlı inzibati ərazi vahidində kənddir. Xaçın çayının sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşən kənddə XIX əsrdə Rusiya imperiyası tərəfindən İrandan köçürülən ermənilər yerləşdirilmişdir. Sonradan adı dəyişdirilsə də Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə kəndin keçmiş adı yenidən bərpa edilmişdir.

Mamakan (Mama xatun) kilsəsinin qalıqları Bazarkənd kəndinin girişində, eyni adlı çayın sahilindəki Vaçar xarabalıqları deyilən yerdədir. Gəncəsər kilsəsi yaxınlığında yerləşən bu qədim alban kilsəsi XII-XIII əsrlər Alban intibahının görkəmli nümayəndələrindən olan Xaçın hakimi Həsən Cəlalın xanımı Mama xatunun adını daşıyır. Kilsə qədim alban yaşayış yeri Vaçar xarabalıqları deyilən yerdə olduğu üçün Vaçar kilsəsi adlanır.

Vaçar ərazisindəki kilsədə iki kitabə aşkar edilmişdir. Kitabələrdən biri timpanda, digəri isə kilsənin qərb fasadında yerləşir. Vaçar kilsəsinin inşa tarixini əks etdirən kitabələrdən birində deyilir: Mən, Vaxtanq və Xorişənin oğlu Həsən, Xaçın hakimi 1229-cu ildə bu müqəddəs kilsəni inşa etdim.

Düzbucaqlı formaya malik kilsənin cənub divarına bitişik kiçik ölüçülü sövmə də mövcuddur. Yonulmuş bazalt daşlardan inşa edilmişdir. Bazilika förmasında olan kilsəsinin ibadət zalı və altarı eyni hündürlükdədir. Kilsəsnin yeganə girişi qərb tərəfdəndir.

Kilsənin yerləşdiyi ərazidə müxtəlif dövrlərə aid çoxlu sayda tarixi-memarlıq abidələri qalmışdır. Monastırın ətrafı XIII əsrə aid zəngin ornamentli xaçdaşları ilə zəngindir. Kilsənin yerləşdiyi ərazidə Həsən Calalın dövründən qalma kilsə qalıqları və orta əsr qəbiristanlığı vardı.

## MÜQƏDDƏS STEPANOS KİLSƏSİ (XII-XIII əsrlər), Bazarkənd

Bazarkənd ərazisində daha bir alban tarixi-memarlıq abidəsi yerləşir. XII-XIII əsrlərə aid abidə birnefli bazilikadır. Müqəddəs Stepanos kilsəsi Qafqaz Albaniyası dövrünə aid qədim yaşayış məntəqəsinin xarabalıqlarının olduğu Vaçar ərazisindəki çoxsaylı abidələrdən biridir.

Yaşayış məntəqəsinin əsasının nə vaxt qoyulduğu dəqiq bilinməsə də, XII-XIII əsrlər, xüsusilə də Həsən Cəlalın hakimiyyəti dövrü bu qədim yaşayış məntəqəsinin çiçəklənmə dövrüdür. Buradan aşkar edilmiş Həsən Cəlal sülaləsinə məxsus kitabədə deyilir: “Mən, Həsən, Vaxtanq və Xorişənin oğlu, Xaçın hakimi 1229-cu ildə bu müqəddəs kilsəni inşa etdim”. Ərazidə Həsən Cəlal hakimiyyəti dövrünə aid zərif, zəngin bədii ornamentli xaçdaşlar olmuşdur. Bu qədim alban yaşayış məntəqəsində Müqəddəs Stepanos kilsəsi ilə yanaşı daha bir alban tarixi memarlıq abidəsi,Mamkanxatun monastırı da yerləşir

Relyefin qeyri-hamar olması səbəbiylə Müqəddəs Stepanos kilsəsinin giriş qapısı cənub tərəfdəndir. Kilsənin tağtavanı tağlı kəmərlə möhkəmləndirilmiş, altarı döşəmə səviyyəsindən yüksəkdə, yarımdairəvi dərinlikdə yerləşdirilmişdir. Altarın iki tərəfində kvadrat formalı nişlər yaradılmışdır. Tikilinin ikiqatlı binası yaxşı yonulmuş daşlarla üzlənmişdir.



*Müqəddəs Stepanos kilsəsi (XII-XIII əsrlər), Bazarkənd*

## MONASTIR KOMPLEKSİ (XIII əsr), Zar kəndi

Kəlbəcər Rayonunun Zar kəndi zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilən yerlərdən olmuşdur. Hələ sovet dövründə Azərbaycan arxeoloqlarının Kəlbəcərdə Zar açıq düşərgəsində apardıqları tədqiqatlar burada insanların paleolit dövründən məskun olduğunu göstərmişdir.

Zar kəndində alban abidəsi olan Müqəddəs Tanrı ana monastır kompleksi yerləşir. Monastır Tərtər çayının sol sahilində Xudavəng monastırından 3 km qərbdə yerləşir. Qarabağ yaylasının ətəyində yerləşən Müqəddəs Tanrı ana monastır kompleksi 1993-cü ilə qədər tam şəkildə qorunub qalmaqda idi.

Kilsənin timpanında onun inşa edilmə tarixinin 1174-ci il, sifarişçisinin isə Kürikenin (Gürgənin) qızı Mamkan xatun olduğu barədə məlumat verilir. Zar kilsəsindəki kitabələrdə həm Həsən Cəlalın xanımı Mamkan xatundan və Qriqorisin anası Xorişədən (Hurişah) bəhs edilir (Бархударян, 1895, I k. s.218).

Ümumilikdə monastır ərazisində 1174, 1178, 1261-ci illərə aid edilən səkkiz kitabə aşkar edilmişdir. Barxudaryan monastır ərazisindəki kitabələrdə knayzlar knayzı Sarkisin qızı və I Həsənin xanımı olmuş Dəfnə xatun və onun oğlanları haqda məlumat olduğunu yazır. Barxudaryan Dəfnə xatunun oğlu, Xanabert hakimi Həsənın Zar kəndini çox sevdiyini yazırdı (Бархударян, 1895, I, s.218).

Dəfnə xatun Xaçın knyaz I Həsənin ölümündən sonra Yuxarı Xaçının, o cümlədən Zar ərazisinin hakimi olmuşdur. O, Həsənin oğlu Qara Qriqorinin xanımı, knyazlar knyazı Sarkisin qızı idi. Onların izdivacından Cəsur Həsən doğulmuşdur. Cəsur Həsənin isə Kürikin (Gürgənin) qızı Mamaxatundan (Mamkan) oğlu Qriqor və nəvəsi knyaz Bəhram olmuşdur. Yuxarı Xaçın Zar və Xatra monastırları ilə birlikdə bu sülaləyə aid idi.



*Müqəddəs Tanrı ana məbədi (XIII əsr), Zar kəndi*

XII–XVI əsrlər boyu Xaçın sülaləsinin bir qolu olan Dəfnə sülaləsi Yuxarı Xaçın ərazilərini idarə etmişdir. XV əsrin ortalarından Dəfnə sülaləsi Ulubəyoğulları, Aytinoğulları və Doğanoğulları kimi məlik sülalələrinə parçalanmış, daha sonra Ulubəyoğulları sülaləsindən Vərəndə məlikliyini idarə edən Məlik-Şahnəzərov nəsli törəmişdir.

Ümumiyyətlə, son tədiqatlar göstərir ki, Alban-Xaçın knyazları soy-kök baxımından türk əsilli idilər və evlənərkən də əsasən Qıpçaq nəsillərindən qız alırdılar. Həsən Cəlalın atası türk əsilli Hurişah (Xorişə) xatunla izdivac qurmuşdu. Hurişah xatunun babası Qıpçaq əsilli Uzunqollular soyunun bəyi Vaqram (Zaxare), atası Akbuğa, qardaşları isə Vaqram, Zaxare və İvane idi (Əlizadə-Nəciyev, 2020, s.2586).

Göründüyü kimi, Qarabağın alban tarixi qədim türk köklərinə dayanır. XII əsrdən etibarən isə alban intibahının çiçəkləndiyi Xaçın knyazlığı dövründə, Alban-Xaçın knyazlarının onlara soy-kök baxımından yaxın, tanınmış Qıpçaq nəsillərindən qız almaları, bu türk qatını daha da möhkəmləndirmişdir. Maraqlıdır ki, xristian qıpçaq xatunlar Qarabağa gəlin gəldikdən sonra da türklüklərini simvolizə edən xatun titulunu qoruyub saxlamışdılar.

Zar kəndində yerləşən monastır kompleksinə müxtəlif qorunma vəziyyətində olan iyirmidən çox tikili daxildir. Kompleksin mərkəzində monastırın əsas kilsəsi yerləşir. Üçnefli bazilika formasına malik kilsənin kvadrat formalı narteksi, biri həyətə, digəri isə sovməyə açılan iki qapısı var.

Kompleksin ən qədim tikilisi Müqəddəs Tanrı ana kilsəsi olmuşdur. Kompleksin şimal hissəsində yerləşən Müqəddəs Tanrı ana kilsəsi düzbucaqlı plan formasında olub tağtavanla örtülmüşdür. Qərb tərəfdən kilsə binasına bitişik düzbucaqlı formalı narteks inşa edilmişdir. Onun qərb girişi orta otağa aparır, cənub-qərb qapısı isə həyətə açılır. Kilsənin qərb tərəfinə bitişik inşa edilmiş ikinci tikili qədim sovmədir. Sovmənin şimal divarı həm də Müqəddəs Tanrı ana kilsəsinin qərb divarıdır.

Monastırın qərb tərəfində mülki məqsədlər üçün istifadə edilmiş tikililər və onların xarabalıqları qalmışdır. Həmin tikililərdən tağtavana malik düzbucaqlı bina, həmçinin monastırın cənub tərəfində bir sıra yaşayış və təsərrüfat məqsədli tikililər vardır. Müqəddəs Tanrı ana monastırına daxil olan bütün tikililərin inşasında əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yonulmamış kobud çaydaşılarından istifadə edilmişdir.

XIII əsrə aid Müqəddəs Tanrı ana monastır kompleksi 1993-cü ilə qədər, Kəlbəcərin Erməni silahlı qüvvələri tərəfindən işğalına qədər tam şəkildə qorunub qalmaqda idi.

## QIRMIZI DAŞ MONASTIRI (XII–XIII əsrlər), Çapar kəndi

Qırmızı daş monastırı Kəlbəcər rayonunun Çapar kəndi ərazisində yerləşən alban tarixi-memarlıq abidəsidir. Barxudaryan bu kəndi Çaparşen adlandırır. Müəllif yazır ki, Həsənriz kəndi yaxınlığında yerləşən bu kəndin adı Xudavəng monastırındakı kitabələrdə çəkilir (Бархударян, 1895, I, s.214). Barxudaryanın verdiyi məlumata görə, kəndin ərazisindəki qədim kilsə kompleksinin qalılqarı Çaparşendən Xudavəng monastırına, Yanşaq kəndinə qədər uzanırdı (Бархударян, 1895, I, s.214).

Qırmızı daş monastır kompleksi Çapar kəndindən 8 km aralıda yerləşir. Monastır kompleksindən aşkar edilmiş epiqrafik yazılar və ərazidə olan xaçdaşlar əsasən XII–XIII əsrlərə aiddir.

Kompleks böyük və kiçik kilsə, həmçinin narteks və sovmədən ibarətdir. Böyük kilsə kompleksin mərkəzində yerləşir. Kiçik kilsə və sovmə isə böyük kilsə binasından şimalda yerləşir. Böyük kilsə və sovmə arasında yerləşən boşluqda daha bir kiçik tikilinin qalıqları vardır. Kilsə və sovmə düzbucaqlı plana malik sadə birnefli bazilika formasına malikdir. Böyük kilsəyə qərbdən birləşən narteks planda kvadrat formaya malik, xaçvari tağtavanla tamamlanır.

Kilsə və sovmə eyni memarlıq üslubunda tikilmişdir. Onlar bir-birindən yalnız



*Qırmızı daş monastırı (XII–XIII əsrlər), Çapar kəndi*

ibadət zalının ölçüsü və qapı yerlərinə görə fərqlənirlər. Kiçik kilsə və sovmə ümumi həyətə malikdir. Narteksin iki girişi var, onlardan biri qərbdə, digəri isə şimalda yerləşir. Narteks, həm də monastır rahiblərinin dəfn edildiyi məzarlıq olmuşdur.

Monastırın bütün tikililərinin inşasında əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yonulmamış çaydaşlarından istifadə edilmişdir. Yalnız pəncərə və qapıların çərçivələrində, künclərdə və digər daşıyıcı hissələrdə yonulmuş daşlardan istifadə edilmişdir.

## KİLSƏKƏND MƏBƏDİ, Qasımlar kəndi

Dağətəyi ərazidə yerləşən Qasımlar kəndi qədim alban kilsəsinin yaxınlığında salındığına görə vaxtilə Kilsəkənd adlandırılmışdı. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış məntəqəsini XIX əsrdə indiki Laçın rayonunun Alxaslı kəndindən gəlmiş Qasım Məhərrəmoğlu saldığına görə kənd sonralar Qasımlar adlanmağa başlayır.

Kənddəki qədim alban kilsəsi XX əsrin 80-ci illərinə qədər son alban xristian nəsillərindən olan udilərin ildə bir dəfə Qəbələdən ziyarətə gəldikləri ibadət yeri olmuşdur. Qasımlar kənd sakini Qara Vaqifoğlunun verdiyi məlumata görə, kənddəki bu qədim alban məbədi Qəbələnin Nic kəndində



*Kilsəkənd alban məbədi (Qasımlar kəndi)*



*Kilsəkənd alban məbədinin giriş hissəsi*

yaşayan udilərin ziyarət yeri idi. Kənd sakininə görə, udilər ildə bir dəfə kənddəki alban məbədini ziyarətə gələr, burada bir neçə gün qalıb ibadət edərdilər.

Kənddəki bu qədim alban məbədi kiçik sovmə formasındadır. Məbədin yarımdairəvi girişi üç xaçdaşla düzbucaqlı qapı formasına salınmışdı. İki xaçdaş şaquli, üçüncüsü isə atma şəklində üfüqi vəziyyətdə qoyulmuşdu. Xaçdaşların üçü də alban kanonlarnı əks etdirirdi. Onların həm öz aralarında, həm də Kəlbəcər rayonu ərazisində tədqiq edilmiş digər xaç daşlarla oxşarlığı var idi. Xüsusilə baştağın sol tərəfində qoyulmuş xaçdaş diqqəti cəlb edir, simmetrik yerləşmiş yan zoğlar arasından həyat ağacı şəklində xaç yüksəlir. Xaçvari şəkildə yerləşərək çiçəklərlə qurtaran dörd zoğ xaçın (məhsuldarlıq rəmzi) nəbatat traktovkasını nəzərə çarpdırır. Xaçın üstündən meandr kəməri, onun da üstündən stellanın obrazını tamamlayan ikinci bir kəmər keçirdi. Bu kəmərin ortasında meyvəli budaqlarla əhatə olunmuş üç müqəddəs haça yerləşirdi.

Lakin Qarabağın Erməni silahlı qüvvələri tərəfindən 1992-2020-ci illər boyu işğal altında qaldığı müddətdə Qasımlar kəndindəki bu alban məbədi də vandalizm aktlarına məruz qalmışdır. Kilsədəki alban xaçdaşları ogurlanaraq yeni saxta xaçdaşlarla əvəzlənmişdir.

## MAĞARA MƏBƏD, Armudlu kəndi

Armudlu kəndi Kəlbəcər rayonunun Keşdək inzibati ərazi vahidində, Tərtər çayının sol sahilində yerləşir. Kəndin meşəlik ərazisində tala yaxınlığında mağara məbəd movcud olmuşdur. Xocavənd rayonu Cütçü kəndi yaxınlığında yerləşən bu qədim ziyarətgah alban xristian müqəddəsi Müqəddəs Yeliseyin adını daşıyır.

Müqəddəs Yelisey Albaniya torpaqlarında faktiki olaraq ilk alban kilsəsinin əsasını qoyduğu üçün Albaniyada ən çox sitayiş olunan müqəddəslərdəndir. Azərbaycanın Şəki, Qəbələ, Oğuz, o cümlədən də Qarabağ bölgəsində Xocavənd, Tərtər kimi rayonlarında Müqəddəs Yeliseyin şərəfinə çox sayda kilsə və monastırlar inşa edilmişdir. Bununla bağlı olaraq, xristian ədəbiyyatında, xüsusilə də Alban xristian ənənəsində Yelisey təkçə Faddeyin tələbəsi kimi deyil, həm də müqəddəs olaraq qəbul edilir (Мамедова,1986).

Qeyd etmək lazımdır ki, Yeliseyin müqəddəsləşdirilməsi digər xristian topluluğunda qeydə alnmayıb. Yelisey xristian dünyasında yalnız Albaniya ilə bağlı yada salınır və Albaniyada müqəddəsləşdirilir. Yeliseyin albanlar arasında xüsusi nüfuzunun olmasını vurğulayan alban müəllifi Kalankatuklu yazır ki, yerli əhali onu hər zaman öz apostolu və himayədarı saymışdır (Каранкатваци1861, I, 6, 11, 17, 32; II, 7). Buna görə də, Albaniyada ən çox sitayiş olunan müqəddəslərdən Müqəddəs Yeliseylə bağlı Azərbaycanda günümüzədək qorunan müxtəlif miflər, rəvayətlər dolaşmaqdadır. Xüsusilə də, müasir dövrdə xristian ənənələrini qoruyub saxlamış alban tayfalarından olan udilər arasında

Müqəddəs Yelisey bu gün də müqəddəsləşdirilməkdədir. Azərbaycan ərazisindəki alban xristian məbədlərinin böyük bir qismi, o cümlədən Armudlu kəndindəki mağara-məbəd Yeliseyin adı ilə baglıdır.

## Kəlbəcər rayonunun qədim alban qalaları

Alban memarlığının dövrümüzə catan maraqlı nümunələri həm də müdafiə tipli qala və istehkamlardir. Azərbaycan ərazisi dövrümüzə qədər qorunub qalmış alban mədəni irsinə məxsus Dərbənd qalası, Cavanşir qalası, Çıraqqala kimi qalalar və müdafiə tikililəri ilə zəngindir. Xüsusilə Qarabağ bölgəsindəki belə tarixi-müdafiə istehkamları möhtəşəmliyi ilə seçilmişdir.

Qarabağ bölgəsinin Kəlbəcər rayonunda Lex/Lök qalası, Uluxan qalası, Qalaboynu, Comərd qalası, Keşikçi qalası, Xonaberd/Tarkan qalası, Qaxaç qalası/Xaçın qalası, Xaçın sarayı kimi alban dövrünə aid qala və müdafiə istehkamları müasir dövrədək qalmışdır.



*Qaladüzü qədim alban abidəsi*

## XONABERT/ TARKAN QALASI, Vəngli kəndi

Xonabert qalası Kəlbəcər rayonunun Vəngli kəndində yerləşən tarixi-memarlıq abidəsidir. Hündür dağın zirvəsində inşa edilmiş qala Xaçın çayının sag sahilində, Gəncəsər kilsəsinin cənub divarı ilə üzbəüz yüksək təpədə yerləşir.

Yerli əhali qalanı Tarxan qalası da adlandırır. XIX əsr müəllifi Barxudaryan da bu qalanın Xonaberd və ya Tarkan qalası adlandırıldığını yazır. Müəllif yazır ki, qala dörd tərəfdən təcrid olunmuş, meşəlik ərazidə yerləşən alınmaz qaladır. Qala divarları dağın zirvəsində kifayət qədər geniş ərazini əhatə edir. Qalanın xarabalıqları arasında pilləkən hissəsi yaxşı saxlanmış, yarımdağılmış vəziyyətdə olan tikili xüsusilə seçilir. Xonabert qalası ətraf ərazilərdəki Qaxac, Çiləbürd kimi qalaları da əhatə edir.

Qala Xaçın knayzlarının hökmdar iqamətgahı idi. XIII əsrdə Həsən Cəlal təpənin zirvəsini qala divarları ilə əhatə edərək güclü müdafiə



*Xonabert qalası, Kəlbəcər, Vəngli kəndi*

sistemi yaratmışdı. Barxudaryan yazır ki, Ulubaba kimi Xonabert qalası da Cəlal nəslinə məxsus idi. XIII əsrə aid kitabədə Həsən Cəlal özünü "Xonabert qalasının hakimi" adlandırır. Rəvayətə görə, bu qala Həsən Cəlalın qızı Ruzakan xatunun yay iqamətgahı olmuşdur.

Xonabertlə yanaşı ətraf ərazilərdəki Qaxac, Çiləbürd qalaları da Həsən Cəlalın nəzarəti altında idi. Gəncəsər monastırı ətrafında inşa edilmiş bu qalalar, monastır və ətraf ərazilər üçün təhlükə yarandığı halda güclü müdafiə qalxanı yaradırdı. Xonabertin alınmaz qala olması ilə bağlı XIII əsr alban müəllifi Kirakos Gəncəli yazırdı ki, monqolların birinci yürüşü zamanı Həsən Cəlal bütün Xaçın əhalisi ilə birlikdə bu qalaya çəkilmişdi. Qalanı mühasirəyə alan monqollar onu ələ keçirə bilməyəcəklərini görərək dostluq müqaviləsi bağlamağı təklif etdilər.

Lakin vaxtilə monqol ordusunu yürüşdən çəkindirmiş möhtəşəm istehkamdan dövrümüzə yarıdağılmış vəziyyətdə müdafiə divarları və müxtəlif binaların xarabalıqları qalmışdır.

## XAÇIN SARAYI (XII-XIII əsrlər), Vəngli kəndi



*Xaçın sarayı (XII-XIII əsrlər), Vəngli kəndi*



XII-XIII əsrlərdən etibarən yüksələn Xaçın knyazlığının iqamətgahı olmuş Xaçın sarayı da Kəlbəcər rayonunun Vəngli kəndində yerləşir. Bu tarixi-memarlıq abidəsi XIII əsrə aid edilir. Xaçın sarayı Xonaberd qalasından şimalda, Gəncəsər monastırı yaxınlığında yerləşir. Abidə yerli əhəmiyyətli abidə kimi Azərbaycan Respublikasının abidələr siyahısında qeydiyyatdadır.

Xaçın sarayı kompleksi memarlıq üslubuna görə alban memarlığına aiddir. XII-XIII əsrlərdə yüksəlişə keçən Xaçın knyazlığının iqamətgahı olmuş bu qəsr tipli saray kompleksi dövrümüzə yarıdağılmış vəziyyətdə çatmışdır. Vaxtilə güclü müdafiə tikilisi olmuş bu saray kompleksindən dövrümüzədək gəlib çatan hissələr təxminən eyni ölçüdə olan dörd ədəd yarımdairəvi bürc qüllələri, giriş qapısı, qala divarlarının qalıqları, iki zalın divarları və saray otaqlarının əsas divarlarıdır. Abidənin inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq kobud, yonulmamış qaya daşından əhəng-kirəc məhlundan istifadə olunmaqla tikilmişdir.

Saray hasarları daxilində orta ölçülü iki bazlika formalı kilsə vardır. Müdafiə divarlarının cənub tərəfində digər tikililərin qalıqları aşkarlanmışdır. Kompleksin şimal tərəfində yerləşən daxili həyətə geniş yer ayrılmışdır. Həyət kompleksin

qala divarlarının arasındakı hissənin, demək olar ki, yarısını tutur.

Xaçın sarayı XIX əsrədək qorunmuşdu. Sarayı qismən daha yaxşı vəziyyətdə görmüş M.Barxudaryan yazır ki, "...çoxlu sayda otaqlardan təşkil olunmuş sadə tikili, əhəng məhlulu ilə tikilmiş qala divarları ilə əhatə olunub. Həsən Cəlalın sarayının ən cəzbedici hissəsi olan qəbul otağı dövrünün memarlıq xüsusiyyətlərini qoruyub saxlamış tikilidir. Otaqlar etibarlı və hündür divarlara malik tağtavanla örtülmüşdür. Yaxşı yonulmuş daşlardan hörülmüş daşıyıcı tağlar, zərif və incə işləmiş kapitellərə söykənir. Otaqlarda az sayda dar pəncərələrə rast gəlinir. XIX əsr müəllifi yazır ki, sarayda ümumilikdə neçə otağın olduğunu müəyyən etmək mümkün deyil, çünki bütün tikili sıx ağaclar və moruq kolları arasında qalmışdır. Bitkiləri təmizləməmiş tədqiqatı davam etdirmək mümkünsüzdür

Sarayın qismən yaxşı qorunmuş künc qüllələrinin inşasında yonulmamış kvars daşlarından istifadə olunmuşdur. Divarların qalınlığı 1.6-1.8 metrdir. Qalanın qüllələri daha qədim dövrdə inşa edilmişdir. Tağtavan dörd dəstək tağı ilə dörd hissəyə bölünürdü. Qərb tağı iki qatlı qalın divara söykənir, digər üç tağ isə zalı və nişdə yerləşən kiçik otağı bərabər hissələrə bölür. Daşıyıcı tağlar iki-üç sıra bərabər ölçülü monolit daşlardan inşa edilməklə, kəməri bölən silindrik təmələ söykənir. Əsas zalın daşıyıcı tağlarını inşa edərkən Gəncəsər monastırının günbəzini saxlayan iki mərkəzli tağ prinsipindən istifadə olunmuşdur. Böyük zal dar dəhliz vasitəsiylə tağtavana malik, kvadrat formalı kiçik otaqla əlaqələndirilmişdir. Bu otaqda divarlarda ev əşyalarının yığılması üçün nişlər və xüsusi qurulmuş ocaq yeri-buxarının olması, otağın bu cür tərtibi, onun daha çox məişət xarakteri daşıdığını göstərir

Xaçın sarayı, sonrakı dövrlərdə yaxın ərazilərdə inşa edilən digər knyaz və məlik saraylarının memarlığına ciddi təsir etmişdir.

## XAÇIN / QAXAÇ QALASI (VII əsr), Kolatağ kəndi

Xaçın qalası Kəlbəcər rayonunun Kolatağ kəndi ilə Xocalı rayonunun Almalı kəndləri arasında yerləşir. Qaxaç dağın zirvəzində ucaldılmış tarixi-memarlıq abidəsi yerli əhali arasında çox zaman dağın adı ilə Qaxac qalası da adlandırılır. Tarixi mənbələrdə isə qalanın adı Xaçın qalası olaraq keçir (Kalankatuklu, III k.23f). VII əsr alban müəllifi M.Kalankatuklu bu qala haqda məlumat vermişdir. Qafqaz Albaniyasının son alban hökmdar sülaləsi olmuş Mehranilərin aqibətindən bəhs edən müəllif yazır ki, Alban hökmdarı Varaz Tridatın xanımı Sparam ərəblərdən qurtulmaq üçün Xaçın qalasında gizlənmişdi (Kalankatuklu, III kitab, XXIII fəsil).

Qaxaç və ya Xaçın qalası təbii cəhətdən olduqca əlverişli xüsusiyyətə malik ərazidə inşa edilmişdir. Qalanın yerləşdiyi Qaxac dağı hər tərəfdən sıldırım qayalarla əhatə olunmuş, yamac hissəsi isə sıx meşələrlə örtülmüşdür. Bu cür təbii landşaft qalanın uzaqdan görünməzliyini, yaxın-



*Xaçın/Qaxac qalası*



*Qaxaç dağın zirvəzində ucaldılmıs Xaçın qalası yerli əhali arasında çox zaman dağın adı ilə Qaxac qalası da adlandırılır.*

dan isə əlçatmazlığını təmin edir. Bir qədər cənuba meylli olan dağ zirvəsi qərb, şimal və şərq tərəfdən 50-60 metr hündürlüyə malik, sərt sıldırım qayalarla əhatə olunmuşdur. Dağın cənub tərəfi bu baxımdan daha əlçatan olduğuna görə qalanın girişi də məhz bu tərəfdəndir. M.Barxudaryan təbii baxımdan daha zəif müdafiə edilən cənub tərəfin qala divarları ilə möhkəmləndirilməsindən bəhs edərək yazır: "Cənub tərəfin hündür olmayan qayalıqları daş və əhəng məhlulundan inşa edilmiş qala divarları ilə möhkəmləndirilmişdir. Hörgü bütün yamac boyunca davam etdirilmişdir. Barxudaryan yazır ki, Xaçın qalasının 2 girişi var – birincisi, Çikakar qayalıgında Qaraqlux adlanın yerdə, ikincisi isə Xaçın və Kolatag çayları arasında, Böyük Aran monastırı yaxınlığındadır (Бархударян, 1895, s. 209).

Qaxaç qalası Böyük Aran monastırının yaxınlığında yerləşir. Qalanın ən qədim tikililəri Böyük Aran monastırının inşa dövrünə aiddir. Ərəb yürüşləri zamanı yerli əhali qalanın müdafiə gücünü artıqmaq üçün qalanın yerləşdiyi Qaxaç dağını qala divarları ilə daha da möhkəmləndirmişdir.

Qaladan bütün ətraf ərazi – Xaçın knyazlığının torpaqları – ətraf kəndlər, o cümlədən Böyük Aran monastırı yaxşı görünür. Barxudaryan yazır ki, qalanın cənubundan mənzərə Kirs dağları, Şuşa, Bugraxan, Xaçın kəndinə, şimal tərəfdən Mrov, Caroberdə, qərbdən isə Xonaberdə açılır. Aran qalanın altında qalır (Бархударян, 1895, s.209).

Uzaqdan dağ zirvəsi kiçik ərazi kimi görünsə də, qala ətraf ərazilərin əhalisini sığındırmağa kifayət edəcək qədər geniş sahəni əhatə edir. Burada müxtəlif dövrlərə aid çoxlu sayda tikililərin qalıqları, gizli qapılar və yeraltı yollar, qayalarda yonulmuş tunellər və mazqallar olmuşdur.

Bu qalada vaxtilə su təçhizatı üçün xüsusi çən yeri olub. Dağ zirvəsində yerləşən və hücum zamanı əhalinin uzunmüddətli sığınacağı kimi nəzərdə tutulmuş qalanın su təchizatı mərkəzdə yerləşən iki iri hovuz vasitəsiylə həyata keçirilirdi. Qayanın içində yonulmuş bu hovuzlar yağış suyu ilə doldurulur və ehtiyyat olaraq saxlanırdı. İçməli su isə dağın ətəyində yerləşən bulaqdan əldə edilirdi. Qala divarları əksər alban tikililərinin inşaat texnikasına uyğun olaraq daş və əhəng məhlulundan inşa edilmişdir.

Qaxaç qalası son orta əsrlərə kimi Xaçın knyazlığının strateji əhəmiyyətli müdafiə qalası olmuşdur.

## LÖK / LEX QALASI, Qanlıkənd kəndi

Lök qalası tarixi-memarlıq abidəsi Qanlıkənd ərazisindəki Lev çayının sağ sahilindən 600 metrə yaxın məsafədə meşəlik ərazidə uca dağ belində salınmışdır. Lök qalasının adı qalanın formasını tamamlayır. Qalanın beli dəvə boynuna oxşayır.

Lök qalası vaxtilə müdafiə qalası, qorunaq funksiyası daşısa da, karvan yollarına nəzarət funksiyası olduğu da ehtimal olunur. Orta əsrlərdə belə qalalar karvan yollarına nəzarət üçün həmin yolların üstündə tikilirdi. Belə ki, qala çevrəsindəki dağlarda gözətçi qüllələrinə sahib idi. Bölgədəki dağlardan biri onun zirvəsində olan gözətçi qalanın funksiyasına uyğun olaraq Qaravul dağı adını saxlamışdır. Qaravul dağından Comərd qalası görünür.

Qalanın quruluşundan onun müdafiə istehkamı məqsədi ilə tikildiyi aydın olur. Üç tərəfdən sıldırım qaya və uçurumlarla əhatə olunmuş qalanın uzunsov, dağ relyefinə uyğun mürəkkəb plan quruluşu var. Yalnız şimal-qərb tərəfdəki dar cığırla qalanın şimal-şərq ucundakı tək giriş qapısına qalxmaq olur. Qalanın içərisinin uzunluğu 90 metrə yaxın, eni 3,5-4 metr arasındadır. Lök qalasının içqalası qala ərazisinin hündür cənub-qərb küncündə yerləşir.

Qalanın başında qayadan yonulmuş, dərinliyi 3-5 metrə çatan, görünür, ərzaq saxlanılması məqsədilə istifadə edilən quyular olmuşdur. Burada ərzaq, və ya su saxlanıldığı ehtimal olunur. Lev çayı istiqamətində qalanın yaxınlığında daha iki mağara da aşkar olunmuşdur. Yayda olduqca sərin, qışda isə isti olan bu mağarada istənilən ərzaq məhsulunu bir ay saxlamaq olurdu, keyfiyyəti itmirdi. Görünür bu mağaralardan qalanın ehtiyat anbarları kimi istifadə edilirmiş.



*Yalnız şimal-qərb tərəfdəki dar cığırla qalanın şimal-şərq ucundakı tək giriş qapısına qalxmaq olur.*



*Meşəlik ərazidə uca dağ belində salınmış Lök qalasının adı qalanın formasını tamamlayır.*



*Lök qalası, Qanlıkənd*



## QALABOYNU QALASI, Qalaboynu kəndi

Qalaboynu qalası Kəlbəcərin eyniadlı kəndində yerləşir. Qalaboynu kəndinin adı, Şişqala və Dəyirman qalaların boynunda (keçidində) yerləşdiyinə görə belə adlanmışdır.

Qalaboynu qalası Qafqaz Albaniyası dövründə ərəblərin Azərbaycana yürüşləri zamanı alban knyazlarının sığınacaq yerlərindən biri olmuşdur. Böyük bir sahəni əhatə edən qala strateji yaşayış məntəqəsi olmuşdur. Qalanın içində Qarabağ qalaları üçün səciyyəvi olan yeraltı gizli yollar olmuşdur. Belə gizli yollara Xocavənd rayonundakı Ktiş qalasında da rast gəlinir. Qalanın dörd bir tərəfi sıldırım qayalıqlarla əhatə edilmişdir. Qalaya yalnız kiçik bir cığırla getmək mümkündür. Lakin haqqında bəhs edilən bu kiçik cığır əslində heç də qalaya gedən yeganə yol olmamışdır. Belə ki, bu çığırdan başqa, qalanın şimal tərəfindəki qayalıqlarda yeraltı yol da qazılmışdır.

Böyük bir sahəni əhatə edən qala həm də strateji yaşayış məntəqəsi olmuşdur. Qalanın içində 200-dən çox tikili qalıqları var.

## AKAN QALASI, Həsənriz kəndi

Akan qalası Kəlbəcər rayonu Həsənriz kəndi ərazisində yerləşir. Bu tarixi-memarlıq abidəsi Həsənriz kəndindən şimal-şərqdə, böyük dağın ətəyində, Akan çayının sahilində, iki tərəfdən dərin yamaclarla əhatə olunmuş əlçatmaz ərazidə yerləşir

Akan qalasının qala divarları daxilində müxtəlif dövrlərə aid, kobud yonulmuş daşlardan tikilmiş tikililərin, o cümlədən tağtavanlı binanın qalıqları və məzar daşları aşkarlanıb. Saxlanmış divar qalıqlarından görünür ki, böyük ərazini əhatə edən Akan qalası ərazinin müdafiə siste-

mində mühüm rol oynamışdır. Qalanın şimal-şərq hissəsində yerləşən gizli yeraltı yol, çayın kənarında kərpicdən tikilmiş dörd zallı tikiliyə aparır.

## ULUXAN QALASI, Qaraçanlı kəndi

Uluxan qalası Kəlbəcər rayonu Qaraçanlı kəndi ərazisində yerləşən alban dövrünə aid müdafiə tikilisidir. Qalanı Ulubaba qalası kimi qeyd edən Barxudaryan "Arsax" əsərində yazır ki, Ulubaba qalası knayz Cəlalın dövründən qalma tikilidir (Бархударян, s. 208). Qala 1284-cü ilə aid edilir.

## COMƏRD QALASI

Comərd qalası Kəlbəcər rayonu Çomərd kəndi üzərində qayanın üstündə tikilmiş alban dövrünə aid müdafiə tikilisidir. Qala rayonun Tutquçay dərəsinə gedən yolun üstündəki Comərd kəndindən xeyli yuxarıda, böyük bir qayanın üstündə inşa edilmişdir. Qalanın dəqiq inşa tarixi məlum deyil. Qalanın tikintisində yerli daşlardan istifadə olunub.



*Lök qalasının şimal-şərq ucundakı tək giriş qapısı*

# CƏBRAYIL
## RAYONU

Cəbrayıl rayonu Azərbaycan Respublikasının inzibati ərazi vahidi kimi 1930-cu ildə təşkil edilmişdir. Azərbaycanın qədim dövləti Qafqaz Albaniyasının tərkibində olmuş Cəbrayıl ərazisi Dizaq mahalında yerləşirdi.

1993-cü il 23 avqust tarixində Ermənistan tərəfindən işğal olunmuş Cəbrayıl rayonu Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir.

### Cəbrayıl rayonunun abidələri

Cəbrayıl rayonu Azərbaycanın tarixi abidələri, eyni zamanda dini-mədəni abidələri ilə zəngin bölgələrindəndir. Bölgə ərazisi müxtəlif bədii formalı başdaşları, qayaüstü təsvirlərlə zəngin olmuşdur. Vahid Azərbaycanın simvolu olan Xudafərin körpüsü Cəbrayıl rayonunda yerləşir.



*Xudafərin körpüsü, Cəbrayıl, 2022-ci il*

Cəbrayıl ərazisində Mazannənə (Xələfli k.) türbəsi, Mərmərnənə məqbərəsi, Dairəvi türbə, Sıxbaba türbəsi, Səkkizguşəli türbə kimi saysız-hesabsız qədim inanc yerləri, tarixi-dini abidələr, məscidlər mövcud olmuşdur.

Lakin 1999-2020-ci illər boyu işğalda qalmış Cəbrayıl rayonunun yayayış məskənləri kimi, tarixi-dini abidələri də Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Təkcə Cəbrayıl şəhərində mövcud olmuş 5 məsciddən yalnız biri — Çələbilər məscidi yarıdağılmış vəziyyətdədir, digərləri isə tamamilə darmadağın edilmişdir. İşğal dövründə Cəbrayıl rayonunda məhv edilən tarixi-dini memarlıq nümunələrindən — Dağtumas kəndində XIII–XVI əsrlərə aid türbə, Şıxlar kəndində Şıxbaba türbəsi (XIV əsr), Daş məqbərə, Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və Cələbilər kəndindəki məscid kompleksi (XVI əsr), Paplı, Daşkəsən, Mərzə, Süleymanlı kəndlərindəki qədim məscidlər də dağıdılmışdır. Rayonun Sultan Məcid hamamı, Xudyarlı kəndindəki Dairəvi və səkkizguşəli türbələr (XIX əsr), Şıxlar kəndində Dairəvi türbə (XIV əsr), Xudafərin körpüsü (erkən orta əsrlər), Diri dağındakı Qız qalası, Dağtumas kəndindəki Başıkəsik qünbəz, “Hacı Qaraman”, “Cəbrayıl ata”, “Dül-dül” kimi yüzlərlə tarixi memarlıq və dini abidələr yerlə yeksan edilmişdir.

Cəbrayıl əhalisi Hasanlı kəndi yaxınlığındakı Mərmərnənə məqbərəsində dəfn olunan qadını Mazannənənin anası hesab edir. Cəbrayıl şəhərinin şimalında Alpaşa dağında yeləşən “Cəbrayıl ata” türbəsi Cəbrayıl kəndinin təməlini qoymus şəxs olduğuna inanılan Cəbrayıl atanın qəbri üzərində tikilmişdir. Bu, VIII-IX əsrə aid, uzunluğu 4-5 m, eni 2,4 m, hündürlüyü 1,8 m, üzərində heç bir epiqrafık yazı olmayan qədim türbədir. İşğala qədər tikildiyi formada qalsa da işğal dövründə dağıdılmışdır.

Araz çayının sol sahilində Diridağın üzərində XII-XIII əsrlərə aid “Qız qalası” və IV-VI əsrə aid edilən, 500 kv.m ərazini əhatə edən Şirik qalası da erməni vandalizminin qurbanı olmuşdur.



*Diri dağındakı Qız qalası, Cəbrayıl*

Hər iki qala tamamilə dağıdılmışdır. Cəbrayıl rayonunun dağlıq ərazisində yerləşən XIII-XIV əsrlərə aid edilən günbəzin üstü açıq olduğuna görə “Başıkəsik günbəz” deyilən abidə də işğalçılar tərəfindən dağıdılmışdır. Cəbrayıl şəhərinin şimalında memarlıq üslubuna görə orta əsr tarixində özünəməxsus yer tutan XV əsrə aid “Dairəvi türbə”, XVI əsrə aid səkkizguşəli türbə, rayonun Dağtumas kəndindən 2 km şərqdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşən, uzunluğu 30 m olan, dövlət tərəfindən mühafizə olunmuş “Divlər sarayı” adlanan tarixi mağara işğalçılar tərəfindən yerlə-yeksan edilmişdir. Rayonun Çələbilər ərazisində XVI əsrə aid olan Məhəmməd ibn-Hacı Qaraman Əhmədli tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscid-mədrəsə var idi. Bu mədrəsədə böyük alimlər, din xadimləri, XVIII əsr Azərbaycan şairi Molla Vəli Vidadi dərs demişlər. Məscid xüsusi hücrələrdən, dərs otaqlarından ibarət olmaqla, özünəməxsus kompleks təşkil edirdi. İşğal illərində bu kompleks dağıdılmış, bərbad vəziyyətə salınmışdır. Ümumilikdə Cəbrayıl rayonunda 35 pir, ocaq və ziyarətgah, 22 məqbərə, 8 məscid, 34 türbə dağıdılmışdır.



*Cəbrayıl rayonu ərazisindəki*
*Diri kəndinin və qalasının xarabalıqları*

## DİRİDAĞ ABİDƏSİ

Cəbrayıl rayonu ərazisində yerləşən Diridağda Diri kəndinin və qalasının xarabalıqları var. Tədqiqatçıların fikrincə, bu toponim Qafqaz Albaniyasında erkən orta əsrlərdə mövcud olmuş Tri əyalətinin və eyni adlı qalanın və ya monastırın adını əks etdirir. Barxudaryan yazır ki, Arazın sol sahilində Diri dağın altında, Tumasda dağılmış və yarıdağılmış alban kilsəsinin qalıqları var idi (Бархударян, 1895, s. 384-385). Zəngilan rayonu ərazisində də Tiri adlı qala var. XIX əsrdə həmin kənd də Diri kimi qeydə alınmışdır. Tiri kəlməsinin suryani dilindəki deyrə (kilsə, monastır) kəlməsindən qaynaqlandığı ehtimal edilir. Qafqaz Albaniyasında xristianlığı Suriyalı xristian missionerlərin yaydığı məlumdur.

# QUBADLI
## RAYONU

Qarabağ silsiləsinin cənub-şərqində Bərgüşad və Həkəri çayları hövzəsində yerləşən Qubadlı rayonu tarixən Bərgüşad mahalı kimi tanınmışdır. Orta əsrlərdə Bərgüşad mahalı Araza tökülən Həkəri çayı ilə Bərgüşadçay arasındakı ərazini əhatə etmişdir. XVIII əsrin ortalarına qədər Zəngəzur mahalının tərkibində olmuş Qubadlı rayonu əraziləri Qarabağ xanı Pənahəli xanın dövründə Zəngəzurun ayrılmaz hissəsi kimi Qarabağ xanlığının tərkibində olmuşdur. Qubadlı Rusiya imperiyası dövründə də Zəngəzur qəzasının tərkibində olmuşdur.

1921-ci ildə Sovet imperiyası Azərbaycanın tarixi torpağı olan Zəngəzur mahalının Qafan, Görus, Qarakilsə, Mehri rayonlarını yeni yaradılmış Ermənistan Sovet Respubliasınının tərkibinə vermişdir. Şərqi Zəngəzur ərazilərini əhatə edən Qubadlı, Laçın və Zəngilan rayonları çətinliklə də olsa, Azərbaycan Respublikasının inzibati ərazisində qalmışdır.

Qubadlı rayonu 1933-cü ildə təşkil olunub. 1963-cü ildə ərazisi Zəngilan rayonuna birləşdirilsə də, 1964-cü ildə yenidən müstəqil rayon olub. Qubadlı rayonu istər təbiət abidələri, istərsə də tarixi-mədəni abidələri ilə ilə çox zəngin bir bölgə olmuşdur. Rayon ərazisində qalalar, türbələr, məscid, körpü kimi çox sayda memarlıq abidələri qeydə alınmışdır. Qubadlı rayonu ərazisi Bərgüşad çayı sahilində yerləşən qədim daş dövrünə aid mağara, Muradxanlı kəndində Tunc dövrünə aid "Maltəpə" yaşayış məskəni, siklopik qalalar, kurqanlar, Qalaça, Qız qalası, Koroğlu qalası, "Ağ kaha" və "Qara kaha" kimi mağara pirləri, Balahəsənli, Əliqulu-





*Alban məbədi, Məzrə kəndi*

şağı kəndlərində, Gavur dərəsində mağara məbədləri kimi tarixi abidələrlə zəngin olmuşdur.

İşğaldan əvvəl 1993-cü ilə qədər 5 mindən artıq eksponat qorunub saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq muzeyi fəaliyyət göstərirdi. 1993-cü ildə rayon erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş muzeydə olan bütün maddi-mədəniyyət nümunələri məhv edilmişdir. İşğal dövründə Erməni işğalçıları tərəfindən Qarabağın digər tarixi və mədəni abidələri kimi, Qubadlının da tarixi tikililərinin bir çoxundan hərbi məntəqə kimi istifadə olunub və ya məhv edilib. Bölgənin bütün tarixi və mədəni abidələri, demək olar ki, tamamilə ciddi dağıntılara məruz qalıb, erməni vandalları tərəfindən yandırılıb. Qubadlı Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan nadir eksponatlar talan edilib. Onlarla tarixi abidə dağıdılıb, yandırılıb, dini abidələr donuz tövləsinə çevrilib. Qubadlı rayonu ərazisindəki xeyli sayda qoç və at heykəlləri, Yazı düzündə, Əliquluuşağı kəndi yaxınlığında V əsrə aid Göy qala, həmçinin Muradxanlı kəndi ərazisində Qalalı istehkam kompleksi kimi qədim qalalar, Salahlı piri, Armudlu piri kimi xalqın qədim inanc yerləri məhv edilmişdir.

İşğal dövründə erməni vandalları Qubadlı rayonu ərazisində Azərbaycan xalqına məxsus bütün izləri məhv etməyə çalışmışlar.

## Qubadlı rayonunun alban abidələri

1993-2020-ci illər boyu ermənilər Qubadlı rayonu ərazisindəki təkcə müsəlman dini abidələrini dağıtmaqla qalmamış, bölgənin xristianlıq tarixinə aid alban kilsələrini də məhv etmişlər. 1993-cü ilədək Qubadlı rayonunun Yuxarı Cibikli, Məzrə kəndlərindəki alban məbədləri, Gavur dərəsi adlanan yerdə IV əsrə aid məbəd-mağara, Başarat kəndində alban məbədi, Muradxanlı kəndində V əsrə aid Qalalı abidəsi, Əliquluusağı kəndində Göy qala abidəsi və mağara məbədi kimi alban dövrünə aid abidələr qorunub qalmışdı.

Lakin hal-hazırda Qubadlının bütün tarixi və mədəni abidələri kimi, bu alban abidələri də ciddi dağıntılara məruz qalaraq erməni vandalizminin qurbanı olmuş, işğal dövründə tamamilə məhv edilmişdir. Ermənilərin dağıtdıqları Alban kilsələrindən biri də rayonun Seytas kəndindəki qədim Anapat kilsəsidir.

**Rayon ərazisindəki alban abidələri**

- Mağara məbədi (IV əsr), Gavurdərə məbədi
- Mağara məbədi, Əliquluuşağı kəndi
- Qədim Anapat kilsəsi, Seytas kəndi
- Alban kilsələri və abidələri, Yuxarı Cibikli kəndi
- Məbəd, Mərzə kəndi
- Alban məbədi, Başarat kəndi

## MAĞARA MƏBƏDİ (IV əsr), Gavurdərə məbədi

Qubadlının "Gavur dərəsi" deyilən ərazisində IV əsrə aid mağara-məbəd mövcud olmuşdur. İbadətgah qayalıqda inşa edilmiş (yonulmuş) mağaradır.

Qədim tikili ibadətə gələn camaatın toplaşdığı tavanı 10 m-ə çatan zal və zalın qarşısında hündürlüyü təqribən 1 m-ə yaxın altar, altarın iki tərəfində qaya daşlarından yonulmuş iki şaquli çıxıntı və tavanın bərabərində yenə də qayadan yonulub açılmış iki pəncərə, həm də giriş üçün açılmış qapıdan ibarət olmuşdur. İnşa tarixi haqda məlumat olmasa da, Qafqaz Albaniyasında xristianlığın erkən dövrünə aid mağara məbəd olduğu ehtimal edilir.

## ALBAN MƏBƏDİ, Başarat kəndi

XIX əsrdə alban abidələri haqqında məlumat verən Barxudaryan Arazın sol sahilində Bayatda (Başarat kəndində) yarıdağıdılmış alban məbədi haqda məlumat verir (Бархударян, 1895, s. 384-385).



*Alban məbədi, Başarat kəndi*

# LAÇIN
## RAYONU

Azərbaycanın Laçın rayonu tarixi Zəngəzur mahalının bir parçasıdır. Zəngəzur yaylasının şərq hissəsində yerləşən Laçın ərazisi XVIII əsrdə Qarabağ xanlığının tərkibində, XIX əsrdən etibarən Azərbaycanın şimalının çar Rusiyasına birləşdirilməsindən sonra Yelizavetpol (Gəncə) quberniyasının, yəni Zəngəzur qəzasının tərkibində olub. Rayon Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağ general-qubernatorluğunun tərkibində idi. 1920-ci ildən Sovet hakimiyyəti dövründə Azərbaycanın Zəngəzur mahalı parçalanaraq Qərbi Zəngəzur əraziləri Ermənistana verildi. Laçın da daxil olmaqla Şərqi Zəngəzur əraziləri Azərbaycan SSR tərkibində qaldı. 1930-cu ildən Zəngəzur adı xəritədən silindi. Şərqi Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı.



*Laçın abidələri*

Həm təbiəti, təbii sərvətləri, həm də tarixi abidələri ilə zəngin olan Laçın rayonunun ərazisində yüzlərlə tarix, mədəniyyət və memarlıq abidələri, onlarla kurqan, qala tipli arxeoloji abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar mövcud olmuşdur.

1992-2020-ci illər boyu Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmış Laçın rayonu ərazisində dünya memarlığının nadir inciləri olan yüzlərlə tarixi, mədəni və dini abidə dağıdılmışdır. Rayon ərazisindəki 54 beynəlxalq əhəmiyyətli, 200-dən çox yerli əhəmiyyətli tarixi abidənin erməni vandalizminə məruz qaldığı təsbit edilmişdir. Bu rəqəmlər rayonun ərazisində qeydə alınan tarixi abidələrin yalnız 70%-ni əhatə edir. Ermənistan silahlı qüvvələrinin işğalı zamanı Laçın rayonu ərazisində heykəl və abidə kompleksləri, Cicimli, Güləbird, Zevvə, Malıbəy, Bülövlük, Araflı, Alqulu, Malxələf, Soltanlar, Hüsüllü, Kosalar, Seyidlər, Pircahan, Minkənd, Kürdhacı kimi kəndlərdəki tarixi XIII əsrə dayanan qəbirüstü daş heykəllər, məişət səhnələrinin təsvirləri həkk olunmuş onlarla qoç, at fiqurları kimi müxtəlif dövrlərə aid zəngin bədii ornamentli qəbirüstü daşlar məhv edilmişdir.

Rayonun Cicimli kəndində XII–XIII əsrlərə aid edilən Məlik Əjdər türbəsi, Pircahan kəndi



ərazisindəki XI əsrə aid Qovur qalası, Zeyvə kəndindəki XVII əsrə aid Kafir qalası, Sultanbaba, Şeyx Əhməd türbələri, Qaraqışlaq və Qaragöl kəndi ərazisindəki qədim məscidlər, Hüsülü kəndində Həmzə Sultan sarayı (1761-ci il), Xan qəbiristanlığındakı Zəngəzur sultanlarının türbələri, Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, Çüləbirt kəndində Sarı Aşıq ziyarətgahı, XV əsrə aid türbə, Sadınlar kəndindəki qalacıq, Zeyvə kəndindəki Şeyx Əhməd və Soltanbaba, Cəbrayıl bəy türbələri, Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi kimi saysız-hesabsız maddi-mənəvi mədəniyyət abidələri erməni vandalizminin qurbanı olmuşlar. Hüsülü kəndində yerləşən XVII əsrə aid tarixi abidə Həmzə Soltan sarayından işğal dövründə qonaq evi kimi istifadə edilmişdir. Rayonun Zabux kəndi ərazisindəki Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı, Hüsülü kəndi ərazisindəki XIV əsrə aid qədim qəbiristanlıq, Xaçın yalı ərazisində «Vəng» qəbiristanlığı, Malıbəy, Kosalar, Hacılar, Bozlu kəndləri ərazisindəki qədim qəbiristanlıqlar yerlə yeksan edilmişdir.

1992-ci ilin may ayında Laçın rayonu işğal olunarkən yüksək bədii və tarixi əhəmiyyətli eksponatlarla zəngin olan Laçın Tarix və Diyarşünaslıq muzeyinin 10 minə yaxın eksponatı, həmçinin muzeyin həyətində nümayiş etdirilən müxtəlif süjetli oymalar, at və qoç heykəlləri məhv edilmişdir. Tarix və mədəniyyət abidəsi kimi qiymətləndirilən muzey kompleksi erməni vandalları tərəfindən tamamilə dağıdılaraq yerlə yeksan edilmişdir.

### Laçın rayonunun alban abidələri

Laçın rayonu Qafqaz Albaniyası dövrünə aid abidələrlə zəngindir. Rayonun Kosalı, Cicimli, Picənis, Mirik, Abaxeyir, Soyuqbulaq, Korcabulaq, Qorçu, Aşağı Fərəcan, Sadınlar, Əhmədli, Ərikli



*Həmzə sultan sarayı*

kimi onlarla kəndində Qafqaz Albaniyasının yadigarları uzun əsrlərdən bəri Azərbaycanın tolerant mühütində qorunub saxlanmışdı.

Lakin 30 ilə yaxın işğal dövründə Laçın rayonu ərazisindəki bütün tarixi-mədəniyyət abidələri kimi alban məbədləri də erməni millətçilərinin vandalizm aktlarının qurbanı olmuşlar. Rayonun Hoçaz kəndindəki mağara-məbəd (V əsr), Minkənddəki XV əsrə aid kilsə, Sadınlar kəndinin mərkəzindəki XVII əsrə aid kilsə, Əhmədli kəndi ərazisindəki XVII əsrə aid məbəd, Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Qarasaqqal, Araxış, Şəlvə sövmələri kimi onlarla alban abidəsi dağıdılmış və ya falsifikasiyaya uğradılmış, dünyaya erməni abidələri kimi təqdim edilmişdir.

1992-2020-ci illər boyu Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında qaldığı müddətdə Laçın rayonu ərazisindəki alban abidələrinin divar yazıları və bədii ornamentləri məhv edilərək yeniləri ilə əvəzlənmişdir. Rayon ərazisindəki alban memarlığının möhtəşəm maddi-mədəniyyət nümunələri olan Ağoğlan, Varazqun, Dəmirovlu pir məbədi kimi bir sıra alban irsinə məxsus abidələr falsifikasiyaya uğradılaraq zərər görmüşdür. Abidələrin alban memarlığına xas xarakterik xüsusiyyətləri və memarlıq üslubları saxtalaşıdırılaraq qriqoryan kilsəsinə uyğunlaşdırılmağa cəhd edilmişdir. Bütün bunlar işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı mədəni soyqırım siyasətinin bariz nümunəsidir.

XX əsrin sonlarından Sovet İttifaqının dağılması ilə müşayiət olunan müharibələr nəticəsində UNESKO tərəfindən mədəni mirasın qorunması ilə bağlı, xüsusilə də müharibələr dövründə abidələrə dəyən zərər üçün cinayət məsuliyyəti tətbiq olunmağa başlamışdır. 17 oktyabr 2003-cü il tarixli Paris bəyannaməsində bildirilir ki, UNESCO-nun və ya digər beynəlxalq təşkilatların tərtib etdiyi siyahıya daxil edilmiş və ya daxil edilməmiş, bəşəriyyət üçün böyük əhəmiyyəti olan mədəni irsi qəsdən dağıdan, yaxud bilərəkdən mədəni irsin qəsdən dağıdılmasının qarşısının alınması, son qoyulması və cəzalandırlması üçün tədbir görməyən dövlət beynəlxalq hüququn müəyyən etdiyi ölçüdə qəsdən dağıdılmaya görə məsuliyyət daşıyır (39, VI).

Qəbul edilən qərara görə abidələrin dağıdılması insanlığa qarşı törədilmiş cinayətdir və buna görə cinayət məsuliyyəti daşınmalıdır. Qarabağ və Zəngəzurda, o cümlədən Laçın rayonu ərazisindəki abidələrin dağıdılması Azərbaycan xalqının mədəniyyətinin, tarixi yaddaşının məhvinə yönəldilmiş zorakılıq əməlidir. Bu vandalizm aktlarını törədənlər Azərbaycan Respublikasının qanunvericiliyinə və eləcə də beynəlxalq hüquqi aktlara və konvesiyalara görə məsuliyyət daşıyırlar.

**Laçın rayonu alban abidələri siyahısı**

- Ağoğlan məbədi (V-VI əsr), Kosalar kəndi
- Varazqun məbədi (IV-V əsrlər), Bozlu kəndi
- Mağara məbədi (V əsr), Hoçaz kəndi
- Alban kilsəsi (X əsr), Aşağı Fərəcan kəndi
- Məbəd (X əsr), Sadınlar kəndi
- Dəmirovlu pir məbədi, Qaraqışlaq kəndi
- Alban kilsəsi (XII əsr), Hoçaz kəndi
- Alban kilsəsi (XII əsr), Qorçu kəndi
- Qarasaqqal şovməsi (XIII əsr), Araxış kəndi
- Ərikli sövməsi (XVI əsr), Ərikli kəndi
- Məbəd qalıqları, Alxaslı kəndi
- Sövmə (XV əsr), Şəlvə kəndi
- Alban kilsəsi (XV əsr), Minkənd
- Məbəd (XVI əsr), Əhmədli kəndi
- Araxış şovməsi (XVI əsr), Kürdhacılı/ Ərikli
- Alban kilsəsi (XVII əsr), Mirik kəndi
- Alban kilsəsi (XVII əsr), Minkənd
- Alban kilsəsi (XVII əsr), Piçənis kəndi
- Alban məbədi (XVI-XVII əsrlər), Mığıdərə kəndi
- Qaraqışlaq məbədi, Bozlu kəndi
- Qarakeşdi sövməsi, Qarakeçdi/Çıraqlı kəndi ərazisi
- Məbəd, Piçənis kəndi
- Məbəd, Sovurbulaq kəndi
- Kilsə, Sonasar kəndi

## AĞOĞLAN MƏBƏDİ (V-VI əsrlər), Kosalar kəndi



*Yüksək təpədə daş hasarla əhatələnmiş Ağoğlan monastırı alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutur.*

Qarabağ yaylasında, Ağoğlan çayının sağ sahilində, Laçın rayonun ən qədim yaşayış məntəqələrindən birində, Kosalar kəndində Qafqaz Albaniyası abidələrinin ən möhtəşəm nümunələrindən biri – Ağoğlan məbədi yerləşir. Dəniz səviyyəsindən 1250-1300 metr yüksəklikdə yerləşən Kosalar kəndi tarix və mədəniyyət abidələri ilə zəngindir. Kənd ərazisində Azərbaycan tarixinin antik dövrlərə qədər gedib çıxan qədim abidələr, sujetli daşlar olmuşdur.

Ağoğlan məbədi V-VI əsrlərə aid alban monastırıdır. Dağın ətəyində, Ağoğlan çayının sahilində yerləşən kompleksin ümumi daxili ərazisi iki hektara yaxındır. Bu möhtəşəm monastır alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutur.

Ağoğlan monastırı qədim pir yerinin yanında inşa edilmiş qədim alban məbədidir. Ağoğlan adının yerli əhalinin astral dini görüşləri ilə bağlı olduğu və Günəşə siyatişlə əlaqədar olduğu ehtimal edilir (Ямпольский, 1962, 40-47). Ağoğlan məbədinin eramızın I əsrində inşa edilməsi, abidə kompleksinin hətta xristianlığa qədərki dövrə aid olması barədə xeyli arxeoloji və etnoqrafik dəlillər mövcuddur (Ямпольский, 1962, R.Göyüşov).

Qafqaz Albaniyasında IV əsrdə xristianlıq dövlət dininə çevriləndən sonra xalqın qədim inanc yerlərində kilsələr tikilməyə başlamışdı. Ağoğlan kilsəsi də belə qədim məbəd yerində inşa edilmiş, daha sonrakı mərhələlərdə monastır kompleksinə çevrilmişdir. Buna görə də Qafqaz Albaniyasındakı erkən xristianlıq dövrünə aid bütün alban kilsələri kimi Ağoğlan monastır kompleksi də bütpərəst məbəd elementləri daşıyırdı, qədim kult simvolikaları ilə zəngin idi.

İşğaldan öncə Ağoğlan məbədinin həyatində xristinalığaqədərki dövrə aid düzbucaqlı çərçivə içərisində cızma texnikasında, çox güman ki, Ay allahı simvolu olaraq qadın təsvirlərinin olduğu



*Ağoğlan monastırı, daxili interyeri*



*Abidənin mərkəzi nefı, qərbdən şərqə doğru şimal və cənub sütunlarla sıralandığından binaya böyük əzəmət və ecazkar gözəllik verir.*



*Ağoğlan məbədinin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr vardır.*

stella olmuşdur. İşğal dövründə bu stella ermənilər tərəfindən oğurlanmışdır.

Ağoğlan kilsəsi qədim məbəd yerində inşa edildiyi üçün bu ibadətgah yerli əhali arasında hər zaman pir kimi ziyarət edilmişdir. XIX-XX əsrlər boyu məbədə ətraf kəndlərdən həm xristian, həm müsəlman əhali ziyarətə gəlirdi. Rəvayətə görə Ağoğlan yerli əhalinin müdafiəçisi, tanınmış atlı süvari olmuşdur. Döyüşlərin birində o qəhrəmancasına həlak olub və bu ibadəgahda dəfn olunub. Ağoğlan məbədi ilə bagılı yerli əhali arasında mövcud olan əfsanəyə görə, Ağoğlan bu ziyarətgahda gündə 3 dəfə gözə görünərmiş. Qalan vaxtlar meşəyə çəkilib tənha həyat sürərmiş. IV əsrdə Albaniyada xristianlığı təbliğ edən maarifçi Qriqori bu ərazini özünə məskən seçdikdən sonra Ağoğlan qeybə çəkilmişdir. Bu məlumat indi də xalqın pir yeri kimi qalmaqda davam edən Ağoğlan adının xristianlıqdan əvvələ aid olduğunu göstərir. Eyni zamanda burada IV əsrdən etibarən kilsə olduğunu təsdiq edir.

Yüksək təpədə daş hasarla əhatələnmiş Ağoğlan pirində qədim qəbir yerinin yanındakı yeganə ağac da kult yeri olmuşdur. Bütün Azərbaycan pirlərində olduğu kimi bu ziyarətgaha da gələnlər agaca müxtəlif parçalar bağlayır, şam yandırır, qurban kəsirdilər.

Ziyarətgahın yerləşdiyi təpənin ətəyindən süzülən bulaq suyu müalicəvi sayılırdı və onu tütyə kimi evə götürürdülər. Bu ibadətgaha ətraf kəndlərdən 100 km məsafədən gələnlər olurdu. İbadətgahda torpagı öpər, bəzən xəstəlikdən sagalmaq üçün ibadətgahın önündə yerdə qarnı üstə sürünməyi əhd edərdilər (Ямпольски, s.230)

Ağoğlan piri monastırın icində idi və monastırın 1836-ci ildən sonra fəaliyyət göstərmədiyi dövrdə də pir kimi ziyarət edilməkdə idi. Yerli əhali məbədi ziyarət edərkən burada qədim ayinlər yerinə yetirər, bu ibadətgahı sonsuz qadınlar ziyarət edər, məbədin həyətindəki tək ağaca parçalar baglardılar. İbadətgaha ənənəvi olaraq bazar və cümə günləri gedilirdi.

Rəvayətə görə, Qafqaz Albaniyasının mifik ilk katolikosu Qriqorisin Amarasda tapıldığı id-

dia edilən qalıqlarının alban yepiskopluqlarına paylanan bir hissəsi də Ağoğlan monastırına verilmişdir.

Ağoğlan monastırı IV əsrdə Qafqaz Albaniyasında xristianlığın dövlət dini elan edilməsi ilə politeist məbəd üzərində inşa edilmiş ilkin alban məbədlərindəndir. Abidə müxtəlif dövrlərdə yenidən bərpa edilmiş, daha sonrakı mərhələdə V-VI əsrlərdə burada monastır inşa edilmişdir. Abidə təmir edilərkən onun ilkin bünövrəsi olduğu kimi saxlanmış, 1,5-2 metr hündürlükdə sağlam qalmış qədim yan divarları üzərində yeni divarlar tikilmişdir.

Məbəd kifayət qədər böyük ölçülərə malikdir. Monastırın uzunluğu 25,6 metr, eni isə 12,5 metrdir. Möhkəm yerli daş olan bazaltdan inşa edilmis monastır binası plan baxımından üç nefli düzbucaqlı bazilikadan ibarətdir. İbadət zalının bütün nefləri silindrik formalı tağlarla örtülmüşdür. Daşlardan hörülmüş açıq dam örtüyünü saxlayan hündür daş sütunlar silindrik formalı tağbəndlərlə tamamlanır. Məbədin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr vardır.

Tikilinin fasadının yan tərəfində zala yeganə giriş oyuğu var. Fasadın hamar səthləri yuxarı hissədə bir-birindən aralı yerləşmiş ensiz pəncərə oyuqları ilə kəsilir və zalın daxili məkanına bu oyuqlardan işıq düşür. Abidənin mərkəzi nefi qərbdən şərqə doğru şimal və cənubda sütunlarla sıralandığından binaya böyük əzəmət və ecazkar gözəllik verir.

Monastır ərazisində XVII-XVIII əsrə aid kitabələr mövcud olmuşdur. Lakin bu kitabələrdən biri hələ sovet dövründə, 1967-ci ildə, digəri isə 1989-1992-ci illərdə Qarabag münaqişəsinin başlandığı dövrdə monastır ərazisindən ogurlanmışdır. Monastırdan 1989-1992-ci illərdə oğurlanmış kitabənin mətnində 1613-cü ildə monastırı əhatə edən qala divarlarının möhkəmləndirildiyi və tağlı əsas giriş qapısının inşa edilməsi haqda məlumat öz əksini tapmışdı. Digər kilsə kitabəsi isə 1779-cu ilə aid olub əsas kilsə binası və zəng qülləsinin təmir edilməsi haqda məlumatı əks etdirirdi.



*Ağoğlan monastırı, daxili interyeri*



*Ağoğlan monastırının daxili divarındakı nalvari formada pəncərə*



*Alban Udi icmasının üzvləri azad Laçında qədim alban məbədində, fevral 2021-ci il*



*Alban Udi icmasının üzvləri Ağoğlan məbədində*



*Alban Udi icmasının üzvləri Xocalı qurbanlarının ruhuna kilsədə şam yandırıb dualar oxumuşlar*

1992-ci il Laçın torpaqlarının işğalından sonra ermənilər Ağoğlan monastırını təmir etmək bəhanəsi ilə abidənin daxili interyerini ciddi dəyişikliyə uğratmış, abidənin divarları üzərindəki bir neçə daş yazını, eləcə də xeyli sayda alban dövrünə məxsus ornament və simvolları tamamilə məhv etmiş, bir çoxunun isə formalarını dəyişdirmişlər. Bu qədim alban abidəsinin öz əvvəlki daxili interyeri tamamilə dəyişdirilmişdur.

İşğal dövründə ermənilər monastırın divarlarında bu qədim alban abidəsinin guya ermənilərə məxsus olduğunu əks etdirən saxta kitabələr yerləşdirməkdən belə çəkinməmişlər. 2006-cı ildə xarici ölkələrin kilsə xadimlərindən əldə edilmiş ianələr hesabına ermənilər bu abidənin divarlarına guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən çox sayda daş yazı lövhəsi yerləşdirmişlər. Abidənin divarları üzərində qeyd olnumuş inşa tarixini bildirən yazı silinmişdir.

Erməni saxtakarları işğal dövründə Ağoğlan məbədinin həyətindəki qədim alban dövrünə aid stellanı da yox edərək yerinə İrəvandan gətirilmiş 2 ədəd saxta xaçdaş qoymuşdular. Kompleksin həyətinə sağ tərəfdən giriş qapısının yaxınlığında cərgə ilə 3 məzar daşı basdırmış və binanın fasadını sökərək dəmir örtüklə əvəzləmişlər. 2020-ci il 10 noyabr razılaşmasına əsasən Laçını tərk edən ermənilər monastırı növbəti dəfə qarət etmişlər.

2007-ci ildə isə Ermənistanda qriqoryan yepiskopların daxili qərarı ilə bu qədim alban məbədinə qanunsuz olaraq erməni qriqoryan kilsəsi statusu verilmişdir.

2020-ci il 1 dekabr Laçın rayonunun işğaldan azad edilməsilə Laçın abidələri, o cümlədən Ağoğlan məbədi də düşmən işğalından azad edilmişdir. Azərbaycan Ordusu təkcə torpaqları deyil, dini məbədləri də əsirlikdən azad etmişdir. 2021-ci ilin fevral ayında azad Laçında qədim alban məbədində Xocalı qurbanlarının anım mərasimi keçirilmişdir. Ağoğlan məbədində Alban Udi icmasının üzvləri Xocalı qurbanlarının ruhuna şam yandırıb dualar oxumuşlar.

## VARAZQUN MƏBƏDİ (IV-V əsrlər), Bozlu kəndi

Varazqun Laçın rayonunun Laçın-Minkənd yolunda, yüksək dağlıq ərazidə yerləşən qədim alban məbədidir. Məbədin ilk adının Varazxan olduğu da ehtimal olunur. Tikili Bozlu və Quşçu kəndləri yaxınlığında Vazarxan adlanan kəndin xarabalıqlarında yerləşir. Tarixi abidələrlə zəngin qədim Varazxan kəndi xarabalıqlarında alban memarlığına xas silindrik formalı qədim qüllə qalıqları, mağaralar və daş fiqurlar kimi tarix-mədəniyyət və memarlıq nümunələri mövcuddur.

Varazqun məbədi erkən xrristianlıq dövrünə aiddir. Məbəd əsrlərin sərt sınaqlarına tab gətirərək, öz əzəmətini dövrümüzə qədər qoruyub saxlamışdır. IV-V əsrlərə aid edilən tikilinin dövrümüzə qalıqları gəlib çatıb. Yüksək dağlıq sahədə inşa edilən məbədin ərazisində VII əsrə aid qədim alban qəbiristanlığının qalıqları mövcud olmuşdur. Barxudaryan 1895-ci ildə yazdığı "Arsax" əsərində bu məbədi Varazbun kimi qeyd etmişdir. Müəllif tikilinin və kəndin Alban hökmdarları Varaz Qriqor və ya Varaz Tridatın yay iqamətgahı olduğunu ehtimal edir. Varazbun adını da "Varazın yurdu, məskəni" kimi izah edir (Бархударян, I, s.116).

Qeyd etmək yerinə düşər ki, «Qədim türk lüğəti»ndə bun sözünun «əsas, özül, təməl, bünövrə» mənaları qeyd olunmuşdur (Древнетюркский словарь, 1969, s.118, 124). Barxudaryan bu məbədin hazırda Müqədəs Məryəm ana kilsəsi olduğunu yazır.

Məbəd dördkünc planda və yüksək dağlıq ərazidə inşa edilib. Məbədin günbəzi və cənub divarı dağılıb. Unikal, özünəməxsus memarlıq abidəsi olan bu məbəddə iki altar apsida günbəzlə kəsişir. Qeyd etmək lazımdır ki, ikiqat altarlara malik fraqmentlərə Varazbun məbədindən başqa heç yerdə rast gəlinmir. Bu unikal məbədin tikintisində pud daşlardan və əhəngdən istifadə edilmişdir. İki otaqdan ibarət olan bu məbədin üstü bir günbəzlə örtülmüşdür. Abidənin bir neçə dəfə, X-XII əsrlərdə və XVI-XVII əsrlərdə bərpa edildiyi ehtimal olunur. Maraqlı memarlıq quruluşu və konstruksiyaya malik abidə silindrik formada inşa edilmişdir. İnşa zamanı günbəzə birləşən ikiqat plyastrlar şərq və qərb tərəfə axıra qədər uzanaraq



*Varazqun məbədi (IV-V əsrlər), Bozlu kənd*



*Varazbun məbədinin daxili görünüşü*



*Alban məbədi, Sadınlar kəndi*

təbii bir gözəllik yaradır. Məbədin xaricdən ölçüsü 10,55 x 10,00 metr, hündürlüyü 9,60 metr, divarının eni isə 0,95 metrdir.

Bu qədim alban məbədi 30 illik işğal dövründə erməniləşdirilməyə məruz qalmış abidələrdəndir. Xüsusilə, 1995-2000-ci illər boyu ermənilər bu abidənin ətrafına xeyli sayda yeni yonulmuş erməni xaçdaşları gətirmişlər. Ermənistan hökuməti 2006-cı ildən bu abidəyə qanunsuz olaraq erməni kilsəsi statusu verib (Bax: İsmayılov, 2012).

## SADINLAR MƏBƏDİ, Sadınlar kəndi

Sadınlar kəndinin mərkəzində yerləşən Sadınlar alban məbədinin içəri hissəsində vaxtilə alban dövrünə aid kitabələr mövcud olsa da, hazırda bu kitabələr yox edilmişdir. Məbədin daşları üzərində alban xaç təsvirləri həkk olunmuşdur. Məbədin Şərq hissəsində günəş və insan təsvirli qədim daşlar var.

Abidənin ölçüsü 8,40x6,10 m-dir. Abidənin inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yerli pud daşlar və əhəng məhlulu hörgüsünə əsaslanır.

Ermənistan hökumətinin qərarı ilə 2006-cı ildən bu abidəyə də qanunsuz olaraq erməni kilsəsi statusu vermişdir.

## DƏMİROVLU PİR MƏBƏDİ (XI), Qaraqışlaq kəndi

«Dəmirovlu pir» adlanan Qafqaz Albaniyası dövrünə aid memarlıq abidəsi Laçın rayonunun Qaraqışlaq kəndinin bir kilometrliyində, şimal-şərq istiqamətində yerləşir. Hündür, əzəmətli qayaların əhatəsində, meşənin içərisində yerləşən bu qədim alban tikilisi düzbucaqlı formada inşa edilmiş sövmədir.

Abidənin ölçüsü 5,80x2,50 metr, hündürlüyü 4,4 metrdir. Dəmirovlu pir məbədi içəri tərəfdən genişlənən iki pəncərəsi və bir giriş qapısı olan şovmədir. Tikili iki kiçik otaqdan ibarətdir. Otaqlardan birinin ölçüsü 4,30x3,15 metrdir. İkinci otağın ölçüsü isə 5,25x5,15 metrdir. Abidənin tikintisində yonulmuş narıncı bazalt daşlardan və əhəngdən istifadə olunmuşdur. Abidənin tavanı biri digərini tamamlayan, yonularaq xüsusi formaya salınmış sal daşlarla örtülmüşdür. Məbədin giriş qapısı uzərində böyük alban xaçı həkk edilmişdir (İsmayılov, 2012, s.127).



*Dəmirovlu pir məbədi, Qaraqışlaq kəndi*



Məbəd XI əsrə aid edilir. Lakin adından da göründüyü kimi bura pir yeri olmuşdur. Bir sıra alban məbədləri kimi Dəmirovlu pir məbədi də, xristianlığaqədərki inanc yerində inşa olunmuş və istər xristianlıq, istərsə də İslamın yayıldığı dövrdə xalqın inanc yeri olmaqda davam etmişdir. Lakin Laçın rayonu 1992-ci ildə Ermənistan tərəfindən işğal edildikdən sonra bu abidənin də erməniləşdirilməsinə çalışılmışdır. 2006-ci ildə Ermənistan hökuməti tərəfindən bu qədim alban abidəsinə qeyri-qanuni olaraq erməni kilsəsi statusu verilmişdir.

## ALBAN KİLSƏSİ (X əsr), Aşağı Fərəcan kəndi

Laçın rayonunun tarixi baxımdan çox əhəmiyyətli ərazilərindən olan Fərəcan və Aşağı Fərəcan kəndləri Qafqaz Albaniyası dövrü abidələri ilə zəngin olmuşdur. Lakin işğal dövründə bu abidələrin bir qismi uçulub dağılmış, digər bir qisminin isə yalnız qalıqları mövcuddur



*Alban kilsəsi (X əsr), Aşağı Fərəcan kəndi*



*Hoçaz kəndi abidələri, Laçın*





*Alban kilsəsi (XII əsr),*
*Hoçaz kəndi*

## ALBAN MƏBƏDİ (XII əsr), Hoçaz kəndi

Laçın rayonunun ən qədim yaşayış məskənlərindən biri olan Hoçaz kəndinin ərazisində alban dövrü abidələri olaraq V əsrə aid olan mağara məbəd və XII-XIII əsrə aid bazilika mövcuddur. Kəndin ərazisi Qafqaz Albaniyası dövrünə aid sujet xarakterli daş oymalar, at qoç fiqurları və digər bədii daş sənəti nümunələri, eləcədə bir çox daş kitabə nümunələri ilə zəngin olmuşdur.

Hoçaz kəndinin mərkəzində yerləşən alban məbədinin inşa tarixi XII-XIII əsrlərə aid edilir. Abidə ikinefli bazilikadır. Məbədin uzunluğu 13,40 m, eni 8,15 m, divarlarının qalınlığı 105-110 sm-dir (ismayılov, 2012, s.135).

Ermənilər Hoçaz kəndini işğal etdikdən sonra bu məbədin cənub fasadının üzərindəki yazılı daşı 1995-ci ildə məhv etmiş, alban məbədlərinə erməni dilində saxta yazı nümunələri yerləşdirərək alban tarixi abidələrini erməniləşdirməyə çalışmışlar. Hoçaz kəndinə Ermənistanda hazırlanmış saxta yazılı daşlar gətirərək buradakı alban bazilika və şovmələrin üzərlərinə bərkitmişlər. Ermənistan hökuməti 2007-ci ildə qanunsuz olaraq buradakı alban abidəsinə erməni kilsəsi statusu vermişdi.

## MƏBƏD QALIQLARI, Alxaslı kəndi

Alxaslı kəndi həm memarlıq, həm də də arxeoloji abidələrlə çox zəngindir. Kəndin ərazisində xeyli sayda bədii daş nümunələri, at-qoç fiqurları, türbələr və qədim qəbristanlıqlar vardır. Alxaslı kəndində XII-XIII əsrlərə aid alban Xaçın knyazlığının yüksəlişi dövrünə aid iki abidənin qalıqları mövcud olmuşdur. Hələ sovet dövründə bu abidələrin qalıqları üzərindəki daş kitabələr ermənilər tərəfindən oğurlanaraq Ermənistana aparılmışdır.



*Mağara məbədi (V əsr), Hoçaz kəndi*



## QARASAQQAL SÖVMƏSİ (XIII əsr), Yuxarı Qarasaqqal kəndi

Laçın rayonunun Kürdhaçı kənd inzibati ərazi dairəsində yerləşən Yuxarı Qarasaqqal kəndinin mərkəzində XIII əsrə aid edilən sövmə mövcuddur. Bu qədim alban məbədi xristianlıq dövründən çox-çox əvvələ aid köhnə tikinli qalıqları üzərində inşa edilmişdir. Sovmə tipli alban məbədləri sırasına daxildir. Məbədin təməl divarları daha qədim zamanlarda, yuxarı divarlar isə sonrakı dövrlərdə inşa olunub.

Binanın şərq apsidasında, pəncərənin aşağısında, yerdən beş cərgə hündürlükdə olan təməl divarına hörülmüş daş kitabədə bu haqda məlumat verirlir. Məbədin divarındakı kitabə 1246-cı ilə aiddir. Daş kitabənin bir hissəsinin divarın içəri dərinliyində qaldığı üçün digər yazıların oxunması mümkün olmamışdır. Sövmənin yuxarı divarlarının hörgüsü zamanı XV və ya XVI əsrlərə aid məzar daşlarından da istifadə olunmuşdur.

Qarasaqqal şovməsi özünəməxsus kompozisiyaya malik Alban məbədidir. Bu məbəd tavanı çatma tağlarla tamamlanan günbəzli, bir nefli, mərkəz tipli bazilikadır. Sövmə dövrünün tələblərinə uyğun şəkildə inşa olunmuşdur. Qeyd etmək lazımdır ki, bu dövrdə birnefli bazilika forması böyük dini binaların inşası zamanı əhəmiyyətini itirsə də, XIX əsrə qədər alban memarları tərəfindən istifadə edilməkdə idi (Мамедова, 2004, s.46). Hər



*Qarasaqqal sövməsi (XIII əsr), Yuxarı Qarasaqqal kəndi*

iki tərəfdən mehrablı apsidası olan düzbucaqlı formada tikilidir. Sövmənin şimaldan və cənubdan iki giriş qapısı olmuşdur. Qapılardan biri daş divarla hörülərək bağlanmışdır. Sövmənin giriş qapısı cübbə və şovmə avadanlıqlarının saxlandığı otağa açılır. Tikilidə taxça və buxarı da vardı. Sövmənin dam örtüyü və tavanı yarımdairəvi tağ şəkilində quraşdırılmışdır. Kilsənin inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yerli bazalt daşlar və əhəng məhlulu hörgüsünə əsaslanır. Sovet dönəmində şovmədən kolxoz anbarı kimi istifadə edilmişdir.

Təəsüflə qeyd etmək lazımdır ki, Qarabağın rus sülhməramlılarının nəzarət etdikləri ərazilərdə saxta alban xaç daşları istehsal edən sexlər yenidən fəaliyyətlərini bərpa edirlər.

## ŞƏLVƏ SÖVMƏSİ (XV əsr), Şəlvə kəndi

Şəlvə sövməsi Laçın rayonunun Şəlvə kəndində yerləşir. Kəndin ərazisində Laçın rayonun bir çox kəndləri kimi, Qafqaz Albaniyası dövrünə aid süjet xarakterli oymalarla zəngin bədii daş nümunələri mövcuddur.

Qafqaz Albaniyası dövrünün yadigarı olan Şəlvə sövməsi XV əsrə aid edilsə də, sövmənin ilkin inşa tarixinin daha qədim olduğu ehtimal edilir. Digər alban məbədləri kimi xristianlığaqədərki dövrə aid qədim təməl uzərində inşa edilmişdir. Sövmənin ilk inşa tarixinin daha qədim dövrə aid olmasını məbədin inşasında yerli daşlarla yanaşı əvvəllər onun ətrafında salınmış qədim qəbiristanlıqda olan məzar daşlarından istifadə edilməsi də təsdiq edir.

Şəlvə sövməsi uzunluğu 13,5, eni isə 8,5 metr, divarların qalınlığı təxminən 1, 4 metr ölçülərində olan tikilidir. Abidə sövmə tipli alban məbədləri sırasına daxildir. Tikintinin inşa strukturu ətraf ərazilərdə olan birnefli, mərkəz tipli bazilikası olan digər şovmələrlə bənzərdir. Sövmə içəri tərəfdən genişləndirilən dörd pəncərədən və bir giriş qapısından ibarətdir. Şovmənin 4 pəncərəsindən üçü şovmənin şərq divarında, biri isə qərb



*Laçın, Şəlvə kəndi*



*Şəlvə sövməsi (XV əsr), Şəlvə kəndi*

divarındadır. Şovməyə giriş tikilinin qərb tərəfindəndir. Bu qədim məbəddə altarın hər iki tərəfində keşiş cübbələri və kilsə avadanlığının saxlanması üçün xüsusi yerlər olmuşdur.

Şəlvə sövməsi əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yonulmamış yerli bazalt daşlar və əhəng məhlulu ilə inşa edilib. Tikintidə qədim qəbir daşlarından da istifadə edilmişdir.

Şovmənin giriş qapısında timpanın üzərindəki kitabələr, həmçinin şovmənin şərq divarında, orta pəncərənin alt hissəsinə hörülmüş qəbirdaşı üzərindəki yazılar oxunması mümkün olmayan hala salınmışıdr.

Şovmə Sovet dövründə anbar kimi istifadə edilmişdir. Şəlvə şovməsi 2001-ci ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınmış, dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına əlavə edilmişdır.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Şəlvə kənd ərazisində qanunsuz məskunlaşmış ermənilər tərəfindən bu abidənin də saxtalaşdırılmasına cəhd edilmişdir. 2007-ci ildən Ermənistan hökuməti bu qədim alban abidəsinə qanunsuz olaraq erməni kilsəsi statusu vermişdir. Ermənilər Azərbaycan xalqının maddi mənəvi yadigarları olan alban irsinə aid, memarlıq abidələrini saxtalaşdırıb özünüküləşdirməklə Azərbaycan xalqına qarşı məqsənyönlü mədəni soyqırımı həyata keçirmişlər.

## QARAQIŞLAQ MƏBƏDİ, Bozlu kəndi

Qaraqışlaq məbədi Bozlu kəndində dəniz səviyyəsindən 1220-1290 metr yüksəklikdə Minkənd çayının vadisində yerləşir. Qafqaz Albaniyası dövrünə aid məbəd Qarıqışlaq kəndindən bir kilometr şimal-şərq istiqamətində, hündür, əzəmətli qayaların əhatəsində, meşənin içərisində inşa edilib.

Qaraqışlaq məbədi içəri tərəfdən genişlənən iki pəncərəsi və bir giriş qapısı olan birnefli şovmədir. Məbədin ölçüsü 5,80x2,50 metr, hündürlüyü 4,4 metrdir. Abidəni əhatə edən qayaların içərisində antik dövrlərə aid bir neçə mağara məbəd də mövcuddur. XIX əsrdə Qarabağ abidələri haqda məlumat verən Barxudaryan yazır ki, Araz çayından Qaraqışlaq kəndinə qədər uzanan ərazilər boyu Arazın sol sahilində Diri dağın altında, Tumasda, Bayatda (Başarat kəndi) 5 dağılmış kilsə və yarıdağılmış alban kilsəsinin qalıqları qalmışdı (Бархударян, 1895, s.384-385).



*Alban kilsəsi (XVI əsr), Əhmədli kəndi*

## ALBAN KİLSƏSİ (XVI ƏSR), Əhmədli kəndi

Laçın rayonunun Əhmədli kəndində yerləşən alban kilsəsi XVI əsrə aid edilir. Abidənin divarındakı kitabədə kilsənin inşa tarixi 1517-ci il olaraq göstərilir.

Kilsə iki nefli sövmədir. Şovmənin xarici tərəfdən divarlarının ölçüsü 16,3x9,7 metr, qalınlığı 1,3 metr dir. Binanın hörgüsündə yerli pud daşlardan və sarı əhəngdən istifadə olunmuşdur (İsmayılov Laçın, 2012, s.124).

İşğal dövründə – 1995-ci ildən ermənilər bu abidənin üzərində qanunsuz təmir işləri apararaq, məbədin ətrafına saxta xaşdaşlar yerləşdirmişlər. Ermənistan hökumətinin göstərişi ilə 2007-ci ildən bu alban abidəsinə də erməni kilsəsi statusu verib.

## ALBAN KİLSƏSİ (XVII əsr), Minkənd

Kilsə Minkənd kəndinin mərkəzində yerləşir. Qafqaz Albaniyası dövrünə aid üç nefli monastır tipli bazillikadır. Məbədin giriş divarı üzərində tikinti tarixi olaraq 1675-ci il yazılmışdır.

Məbəd binası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yerli bazalt daşlar və əhəng qarışığı ilə inşa edilib. Bu abidənin uzunluğu 22,58 metr eni isə 12,60 metrdir (İsmayılov Laçın, 2012.s 123).

Bu qədim alban məbədi də erməni saxtakarlığının qurbanı olmuşdur. 2000-ci ildə ermənilər tərəfindən abidənin həm fasadında və həm də daxilində divarlara saxta yazılar yerləşdirilmişdir.

2009-cu ildə Ermənistan hökumətinin dəstəyilə bu alban abidəsinin ilkin görüntüsü dəyişdirilmiş, divarlarındakı yazılar və oymaların bir qismi tamamilə silinmiş, bir qismi də dəyişdirilmişdir. Abidənin üzərindəki zəng qülləsi sökülərək dəmir örtüklə əvəzlənmişdir. Binanın içərisində erməni-qriqoriyan xaçlarından ibarət dekorasiyalar yerləşdirilmişdir.

2009-cu ildə «Tufenkian Foundation»un maliyyə dəstəyi ilə bu qədim alban abidəsi «Müqəddəs Minas kilsəsi» adı altında «bərpa edilmişdir». 2009-cu ildə Ermənistan hökumətinin göstərişi ilə bu «kilsənin» rəsmi açılışı keçirilmiş və bu qədim alban abidəsinə qeyri-qanuni olaraq erməni Qriqoryan kilsəsi statusu verilmişdir.

## ALBAN KİLSƏSİ (XVII əsr), Mirik kəndi

Kilsə Laçın rayonunun Mirik kəndinin qərbində sal daşlar üzərində inşa edilmişdir. Məbədin divar daşı üzərində tikilmə tarixi 1655-ci il yazılmışdır. Alban memarlığının nadir nümunələrindən olan bu məbəd üçnefli bazilikadır. Bazilikanın uzunluğu 20,60 metr, eni 12 metr, divarın qalınlığı 1,55 metrdir.

Abidənin tikintisində əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yerli pud daşlardan və əhəngdən istifadə olunmuşdur.

Binanın yeganə çıxış qapısının ətrafı və cənub fasadı zəngin ornamet və oymalarla bəzədilmişdir. Abidənin interyerində daş üzərində günəş saatı formalı ornamet oyulmuşdur. Bazilikanın daxili içəriyə tərəfdən genişlənən 6 pəncərə vasitəsi ilə işıqlandırılır. Binanın daxili sütunları bərabər məsafədə dairəvi şəkildə yerləşdirilmişdir. Tağ daşlarının çıxıntıları binanın künc daşlarına qədər uzanır.

Abidə sovet dövründə kəndin anbarı, sonralar isə kənd mədəniyyət evi kimi fəaliyyət göstərmişdir. Bu ərazilər 1992-ci ildən 2020-ci ilədək Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuşdur. 2006-ci ildə Ermənistan hökuməti bu abidəyə də qeyri-qanuni olaraq erməni kilsəsi statusu vermişdir.



*Alban kilsəsi (XVII əsr), Minkənd*



*Alban kilsəsi (XVII əsr), Mirik kəndi*



*Mirik kəndi yaxınlığında alban kilsəsi ərazisində bədii ornamentli qəbir daşları*



## ARAXIŞ SÖVMƏSİ
## (XII-XIII əsrlər), Araxış kəndi

Araxış kəndi Qarabağ yaylasının cənub-qərb yamacında yerləşir. Kənd Kürdhacılı kəndi ilə Ərikli kəndi arasındadır. Kəndin ərazisində qədim qəbristanlıqlar, həmçinin qəzalı vəziyyətdə olan alban abidəsi Araxış sövməsi mövcud idi. Şovmə dəniz səviyyəsindən 1510-1540 metr yüksəklikdə yerləşir. Sövmənin tavanı çatma tağlarla tamamlanan günbəzli, bir nefli, mərkəz tipli bazilika formasındadır.

Sövmə Sovet dövründə qeydiyyata alınsa da ərazisində heç bir arxeoloji qazıntı aparılmamışdır. Abidə qeyri-adi memarlıq quruluşuna malikdir. Kompozisiya və konstruksiya xüsusiyyətlərinə görə XII–XIII əsrlərə aid edilə






*Araxış sövməsi yaxınlığında od, günəş ay təsvirləri, məişət səhnələri, ovçuluq, süvari təsvirləri ilə zəngin bədii ornamentli qəbir daşları*

bilər. Tikilinin planında bir apsidalı, nalşəkilli qurbangah mövcuddur. Tikinti zamanı alban memarlığı üçün səciyyəvi olan kobud yonulmuş, cilalanmamış daşdan, əhəng və qum qarışığından istifadə edilmişdir. Tikilinin ölçüləri; 12.30x5.20 metr, divarların qalınlığı 90 santimetrə qədərdir.

Tikilinin ətrafında və ona yaxın ərazilərdə xristianlığa qədər və xristianlıq dövrünə aid edilən qədim qəbristanlıq mövcuddur. Qəbristanlıq ərazisində bir-birindən fərqli çox sayda qəbirüstü abidələr var idi. Onların xristianlıqdan əvvəlki dövrə aid od, günəş ay təsvirləri ilə zəngin idi. Sövmə işğal dövründə erməni ordusu tərəfindən məhv edilmişdir.

## ƏRİKLİ SÖVMƏSİ (XVI əsr), Ərikli kəndi

Araxış kəndi yaxınlığındakı Kürdhaçılı kənd inzibati ərazi dairəsində yerləşən Ərikli kəndinin ərazisi də Qafqaz Albaniyası dövrünə aid bir çox qiymətli memarlıq nümunələri ilə zəngin olmuşdur. Burada alban dövrünə aid sövmələrlə yanaşı antik qalalar, türbələr və digər bədii daş sənəti nümunələrinə də rast gəlinirdi. Ərikli kəndi ərazisində Qafqaz Albaniyası dövrünə aid abidə şovmə tipli alban məbədləri sırasına daxildir.

Kəndin mərkəzində yerləşən sövmə XVI əsrə aid edilir. Məbəd binasının inşaat texnikası əksər alban kilsələrinin inşaat texnikasına uyğun olaraq yerli bazalt daşı və əhəng məhlulu hörgüsünə əsaslanır. Şovmənin xaricdən ölçüsü 10,70x5,20 metr divarının qalınlığı 1.0 metrə bərabər olmuşdur. Abidənin cənub və şimal istiqamətlərindən iki giriş qapısı var idi. Ermənilər bu qədim alban abidəsini 1992-ci il işğalından sonra erməni kilsəsi kimi qələmə verməyə çalışmışlar. 2000-ci ildə



*Ərikli sövməsi (XVI əsr), Ərikli kənd*

Ermənistan Respublikasının Gorus rayonunda bir neçə saxta qəbir daşları və xaçdaşları hazırlayıb gətirərək abidələrin ətrafına düzmüşlər. 2007-ci ildə Ermənistan hökuməti tərəfindən Ərikli kəndindəki alban dövrü abidəsinə qanunsuz olaraq erməni kilsəsi statusu verilmişdir.

## ALBAN MƏBƏDİ, Mığıdərə kəndi

Həkəri çayının sahilində dəniz səviyyəsindən 1180-1280 metr yüksəklikdə yerləşən Mığıdərə kəndində orta əsrlərə aid xeyli sayda tarix və mədəniyyət abidələri mövcud olmuşdur. Kənd alban abidələri ilə zəngin bölgələrdəndir. Bu abidələrin bir qismi yarıuçuq vəziyyətdə də olsa dövrümüzədək qorunub qala bilmişdir. Mığıdərə kəndinindən başlanan alban dövrünə aid kompleksin qalıqları kənddən üç istiqamətə Arpagədik, Qonaqgörməz və Çəmənli ərazilərinə qədər uzanır.

Kəndin cənub qərbində alban memarığına aid birnefli sövmə mövcuddur. Bu sövmənin cənub fasadında müxtəlif bədii təsvirlər həkk edilmişdi. Lakin kəndin işğal altında olduğu 1992-2020-ci illər dövründə bu ərazilərdəki bütün alban dövrü abidələri kimi Mıgıdərə abidələri də saxtalaşdırılmışdır.

Mığıdərə kəndinin şərqində yüksək dağların əhatəsində XVI-XVII əsrlərə aid edilən daha bir alban məbədi olmuşdır. Abidənin inşa tarixi haqda məlumat verən kitabə 1998-ci ildə «erməni alimləri» tərəfindən məbədin divarından sökülərək İrəvan şəhərinə aparılıb, orada Ermənistanın Matanadaran Əlyazmalar föndunda saxlanılmaqdadır.

Ermənilər bu ərazilərdəki bütün Alban dövrü abidələri kimi bu abidənin də ətrafına Ermənistanın Gorus rayonunda hazırlanmış xeyli sayda üzərində xaç şəkli olan yonulmuş saxta qəbir daşları düzmüşlər.

## ALBAN MƏBƏDİ (XVII əsr), Piçənis kəndi

Həkəri çayı sahilində dəniz səviyyəsindən 1400-1500 metr yüksəklikdə yerləşən Piçəniş kəndi də Qafqaz Albaniyası dövrünə aid memarlıq abidələri, bədii daş nümunələri ilə zəngindir. Kənd ərazisindəki alban dövrünə aid qədim tikili kompleksinin qalıqları kəndin 2 km cənub-şərqinə – Ağcayazı kəndinə qədər uzanır.

Piçənis kəndində alban memarlıq abidələri sırasına daxil edilən XVII əsrə aid alban kilsəsi mövcud olmuşdır. Sövmə formasında olan tikilinin xaricdən ölçüsü 11,80x8,20 metr, divarının qalınlığı 110 sm-dir.

Bu qədim alban tikilisi müasir dövrədək qorunub qalsa da, Qarabagın digər alban məbədləri kimi saxtalaşdırılmağa, erməniləşdirilməyə məruz qalmışdır. 2003-cü ildə ermənilər tərəfindən bu abidənin fasadındakı alban dövrünə aid tarixi daş kitabə çıxarılaraq üzərində erməni dilində yazı və xaç şəkli olan digər saxta daş lövhə yerləşdirilmişdir. Ermənistan hökuməti 2007-ci ildən bu ərazideki bütün memarlıq abidələrini erməni abidəsi kimi qələmə vermişdir.



*Alban kilsəsi (XVII), Piçəniş kəndi*

## QARAKEÇDİ SÖVMƏSİ (X əsr), Qarakeçdi kəndi

Qarakeçdi kənd inzibati ərazi dairəsinə aid edilən Qatos kəndində Qafqaz Albaniyası dövrünə aid yerli bazalt daşlardan tikilmiş iki məbəd mövcud olmuşdur.

Qatoş kəndinin keçmiş adı Qarakeşiş olmuşdur. Sovet dövründə Leninkənd adlandırılan kənd 1999-cu ildən yenidən Qarakeçdi adlandırılmışdır. Qarakeçdi kəndi Alxaslı, Minkənd, Kamallı, Bozlu kəndlərinin əhatəsində yerləşir. Məbədlərdən biri-Qarakeçdi sövməsi təxminən X əsrə aid edilir. Yarıdağılmış vəziyyətdə olan abidənin cənub divarında bir pəncərə vardır.

2003-cü ildə bu abidənin üzərindən ermənilər bir yazılı daş və iki xaçdaş çıxararaq Ermənistana aparmışlar. Ermənistan hökuməti 2007-ci ildən qanunsuz olaraq buradakı alban abidəsinə kəndin erməni kilsəsi statusu vermişdir.

Kəndin ərazisində Alban mədəniyyətinin yadigarı olan daha bir qədim məbəd mövcud olmuşdur. Məbədin uzunluğu 45, eni isə 10 metr olmaqla yerin üst qatına çıxan hissəsində qədim daş kitabə olmuşdur. Kitabənin yanı qoç heykəlləri ilə bəzədilmişdir.



*Qarakeçdi sövməsi (X əsr), Qarakeçdi kəndi*

## ALBAN MƏBƏDİ, Sonasar kəndi

Azərbaycanın qədim yaşayış məskənlərindən biri, dəniz səviyyəsindən 1300-1350 metr yüksəklikdə yerləşən Sonasar kəndi Laçın rayonunun Qafqaz Albaniyası dövrünə aid qədim bədii daş nümunələri, kitabələr at, qoç fiqurları ilə zəngin kəndlərindən olmuşdur. Kənddə alban dövrünə aid qədim qəbristanlıq, qəbir daşları, bir neçə memarlıq abidəsi mövcuddur.

Sonasar kəndindəki alban abidəsi də erməni vandalizminin qurbanlarındandır.1992-ci il işğalından sonra ermənilər 1998-ci ildə əraziyə Gorus rayonundan bir neçə ədəd üzərlərində xaç rəsmləri oyulmuş daşlar gətirərək burada basdırmışlar.

Ermənistan hökuməti 2007-ci ildən buradakı alban abidəsinə erməni kilsəsi statusu verib (İsmayilov, 2012, s.135).

# ZƏNGİLAN RAYONU

Zəngilan rayonu Azərbaycan Respublikasının cənub-qərbində yerləşir. Şimaldan Qubadlı, Şərqdən Cəbrayıl rayonu, cənubdan Araz çayı boyunca İran İslam Respublikası, qərbdən isə Ermənistanın Mehri və Qafan rayonları ilə həmsərhəddir. Hələ VII əsrə aid mənbədə Xudafərin körpüsü yaxınlığında indiki Zəngilan yaşayış məntəqəsinin adı Zəngiyan formasında çəkilmişdir. Cənubi Azərbaycanda da eyniadlı kənd mövcuddur.

Zəngilan rayonunun ərazisi müxtəlif dövrlərdə ayrı-ayrı inzibati ərazi bölgülərinə daxil edilmişdir. 1828-ci ilə qədər bölgənin Bəsitçaydan qərbdəki hissəsi Naxçıvan xanlığının, şərqdəki hissəsi isə Qarabağ xanlığının tərkibində olmuşdur.

XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra, 1868-ci ildə yaradılan Yelizavetpol quberniyasının tərkibində Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılır. Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasının tərkibinə verilir. 1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzasının tərkibində idi. 1930-cu ildə ayrıca Zəngilan rayonu yaradılır. Zəngilan şəhəri isə 1957-ci ilədək Pirçivan adlanmışdır. 1967-ci ildə Zəngilana şəhər statusu verilmişdir.

1929-cu ildə Sovet hökumətinin qərarı ilə Zəngilan rayonunun Nüvədi, Toğud, Ernəzir kəndləri, 1946-cı ildə isə rayonun 4 min hektar meşə sahəsi Azərbaycan Respublikasından alınıb Ermənistan Respublikasına verilmişdir.

1993-cü ilin oktyabr ayında Zəngilan Ermənistan qoşunları tərəfindən işğal olundu. Zəngilan rayonunun ərazisi işğala qədər tarixi, arxeoloji, etnoqrafik, memarlıq abidələri ilə zəngin olmuşdur. İşğal dövründə rayonun Azərbaycan xalqının uzaq keçmişindən bu günə qədər olan tarixini, məişətini və mədəniyyətini əks etdirən bütün tarixi-memarlıq abidələri məhv edilmişdir. Hacallı kəndindəki dairəvi bürc, Məmmədbəyli kəndindəki səkkizguşəli türbə (1304-1305), Yenikənddəki XIV əsrə aid türbə, Bartaz kəndindəki XIII-XIV əsrə aid “Xanazur” abidəsi, Zəngilan şəhərində XVIII əsrə aid məscid, Tağlı qalası, Pircivan dəvə piri, Əsgülüm qalası, və IX əsrə aid Rəzdərə məscidi, XII əsrə aid Topkörpusu, Qız qalası kimi çox sayda tarixi, mədəni və dini abidələi, eyni zamanda yüzlərlə eksponata malik Zəngilan Diyarşünaslıq Muzeyi talan edilmiş, rayon tamamilə xarabalığa çevrilmişdir.

## Zəngilan abidələri

Azərbaycanın Zəngilan bölgəsi həm Araz çayı boyunca Şərqdən Qərbə, həm də Həkəri, Bərgüşad və Oxçu çayları boyunca cənubdan-şimala və əksinə uzanan tarixi ticarət yolları üzərində yerləşirdi. Bu baxımdan bölgə qalalar, müşahidə məntəqələri, maddi-mədəniyyət abidələri və nümunələri ilə zəngin olmuşdur. Rayonun ərazisində aşkar edilmiş e.ə. II əsrə aid küp qəbirləri və e.ə. IV-II əsrlərə aid əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan sikkələr bu ərazinin çox qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir.

Zəngilan tarixin müxtəlif səhifələrini əks etdirən misilsiz memarlıq abidələrinə malik olmuşdur. Lakin Azərbaycanın Zəngilan ərazilərinin erməni silahlı birləşmələri tərəfindən 1992-93-cü illərdə işğal edilməsi rayonun, demək olar ki, bütün abidələrinin dağıdılması ilə nəticələnib. Zəngilanın qədim tarixini əks etdirən qiymətli eksponatlarla zəngin Diyarşünaslıq Muzeyi də daxil olmaqla minilliklərin yadigarları olan tarixi-dini, mədəni abidələr erməni işğalı dövründə yerlə yeksan edilmişdir. Zəngilan şəhərindən 8 km aralı,



Əsgülüm dağındakı “Qala” hörgü divarları, Zəngilanın ərazisindəki əsrlərdən bəri qorunan Hacallı kəndindəki dairəvi bürc, Məmmədbəylidəki səkkizguşəli türbə (1304-1305-ci illər), Yenikənd türbəsi, Bartaz və Keçikli kəndində VI-VII əsrlərə aid olan Şukrataz qalası, Xanazur piri, Malatkeş kəndi ərazisindəki Dağdağan və Gəyəli pirləri, Zəngilan şəhərindəki məscid, Rəzdərə kəndindəki qədim məscid, Tağlı qala, Pirçivandakı dəvə piri, Gilətağ ərazisindəki XVI-XVII əsrlərə aid Sarı Aşıqla bağlı Günəş piri, Yol piri kimi yüzlərlə tarixi, mədəni və dini abidələrimiz erməni vandalizminin qurbanı olmuşdur.

Zəngilanda, Həkəri çayının sag sahilində yerləşən Şərifan kəndi yaxınlığında hələ sövet dövründə aşkar edilmiş erkən orta əsrlərə aid qədim yaşayış yeri işğal dövründə tamamilə məhv edilmişdir. Abidənin yerüstü qalıqları burada bürcvari tikili – qala yeri olduğunu göstərir. Buradakı qala haqda hələ Babəkin ərəblərə qarşı mübarizə dövründə bəhs edilmişdir. Mənbələrdə Səhl Sumbatın Xuraman kəndi yaxınlığında, Şəhri Şərifan deyilən yerdə Araz qırağındakı qaladan bəhs etdiyi yazılır. Burada çoxlu qala və yeraltı yollar olmasından və buradan Bəzzə üç-dörd ağac yol olmasından bəhs olunur. Babək hərəkatının Zəngilan tarixində yer aldığı, bir vaxtlar Şəhri Şərifandan Həkəri çayının altı ilə yeraltı keçidin olması barədə fikirləri arxeoloq Rəşid Göyüşovun keçən əsrin 70-ci illərində Zəngilanda apardığı tədqiqatlar da təsdiq etmişdir.

## Zəngilan rayonu alban abidələri

Həkəri çayının Qafqaz Albaniyası dövründə Arran (Alban) çayı adı ilə də bilinməsi burada alban mədəniyyətinə məxsus çoxlu abidə yerləşdiyinə dəlalət edir. Zəngilan rayonu ərazisindəki Bartaz, Qarababa, Yeməzli, Rəzdərə, Xanazor, Şatariz kəndlərində alban məbədləri qeydə alınmışdır.



*Alban məbədi, Babalı kəndi*



*Alban məbədi, Şatariz kəndi*

- Alban məbədi, Babalı kəndi
- Alban kilsəsi, Bartaz kəndi
- Alban kilsəsi, Qarababa kəndi,
- Alban kilsəsi, Yeməzli kəndi
- Alban türbə kompleksi, Rəzdərə kəndi
- Alban kilsəsi, Xanazor kəndi
- Alban məbədi, Şatariz kəndi

İşğal dövründə Zəngilan rayonun bütün ərazisi kimi, alban abidələri də tamamilə məhv edilmiş və saxtalaşdırılmışdır.

## ALBAN KİLSƏSİ, Bartaz kəndi

Araz çayının sol sahilində yerləşən Bartaz kəndi yaxınlığında, meşənin dərinliklərində qədim alban məbədinin qalıqları var idi. Bir hissəsi uçub dağılmış alban kilsəsinin divarlarının qalınlığı 1,5 metrə çatırdı. Kilsənin 100-150 metrliyində qədim ziyarətgah olan Xanəzir piri yerləşirdi. Qədim kilsənin memarlq quruluşu Zəngilanın Qarababa kəndindəki alban abidəsi ilə eynilik təşkil edirdi.



*Bartaz kəndi, Zəngilan*

# QARABAĞIN və ŞƏRQİ ZƏNGƏZURUN ALBAN ABİDƏLƏRİ
## siyahı

### AĞDAM RAYONU

- Alban məbədi (VI əsr), Kəngərli kəndi
- Gavurqala (VI əsr), Sofulu kəndi
- Beşikdağ / Vəngəsər monastırı (V əsr), Şahbulaq kəndi
- Kiçan monastırı (XII əsr), Ballıqaya kəndi
- Alban məbədi (XV əsr), Maqsudlu kəndi
- Alban məbədi (XVI əsr), Salahlı-Kəngərli kəndi

### XOCALI RAYONU

- Alban məbədı (905-cı ıl), Şuşakənd kəndi
- Alban məbədi (1065-ci il), Çanaqçı kəndi
- Alban məbədi (1100-cü il), Çanaqçı kəndi
- Alban məbədi (1122-ci il), Xansıx kəndi
- Alban monastırı (XII əsr), Xaçmaz kəndi
- Alban məbədi (XVII əsr), Xaçmaz kəndi
- Oçkavəng monastırı (XII əsr), Badara kəndi
- Alban məbəd kompleksi (XII əsr), Badara kəndi
- Xilaskar monastırı (XIII əsr), Badara kəndi
- Bağırxan məbəd kompleksi/Bövürxanavəng (XII əsr), Dağdağan kəndi
- Müqəddəs Georgi monastır kompleksi (XIII əsr), Xanabad kəndi
- Alban məbədi (XIII əsr), Dağyurd kəndi
- Alban məbədi (1202-ci il), Armudlu kəndi
- Dairəvi məbəd (1356-1357), Xocalı şəhəri
- Alban kilsəsinin qalıqları, Kərkiçahan qəsəbəsi
- Yeddi kilsə, Meşəli kəndi
- Durpasu kilsəsi, Meşəli kəndi
- Balaca suda olan kilsə, Meşəli kəndi
- Börgün qayasında kilsə, Meşəli kəndi
- Əvəz yurdunda olan kilsə, Meşəli kəndi
- Məbəd, Ballıca kəndi

### XOCAVƏND RAYONU

- Amaras monastırı (IV əsr), Cütçü kəndi
- Xutudərə monastırı (V-VI əsrlər), Binə kəndi
- Katarovəng məbədi (IV-VI əsrlər), Çaylaqqala kəndi
- Bri monastır kompleksi (V-VII əsrlər), Çörəkli kəndi
- Yeddı qapı monastırı (VII əsr), Susanlıq kəndi
- Qırmızı kilsə (X əsr), Tuğ kəndi
- Müqəddəs İohann Monastırı (X əsr), Böyük Tağlar
- Alban məbədi (1170-ci il), Hadrut qəsəbəsi
- Müqəddəs Tanrı anası kilsəsi (XII əsr), Hünərli kəndi
- Müqəddəs Yelisey monastırı (XII əsr), Çartar kəndi
- Müqəddəs Stefan kilsəsi (XII), Tuğ kəndi
- Müqəddəs İohann kilsəsi (XIII əsr), Tuğ kəndi
- Müqəddəs Məryəm kilsəsi, Tuğ kəndi
- Müqəddəs Tanrı anası kilsəsi (XII əsr), Çörəkli kəndi
- Kitşvəng monastırı (XIII əsr), Tağlar kəndi
- Ağ xaç kilsəsi (XI əsr), Çinarlı kəndi
- Mavas monastırı (XIII əsr), Gavahın kəndi
- Alban məbədi (XIV əsr), Xərxər kəndi
- Kavakavəng, Zoğalbulaq kəndi
- Müqəddəs Məryəm ana kilsəsi (XVII əsr), Tağaser kəndi
- Müqəddəs Qriqoris kilsəsi (XVII əsr), Zavadıq kəndi
- Alban məbədi,Kəndxurd kəndi
- Bazilika, Çiraquz kəndi
- Alban məbədi, Ağcakənd
- Alban məbədi, Ataqud kəndi
- Alban məbədi, Banazir kəndi
- Alban məbədi, Xırmancıq kəndi
- Alban məbədi, Anaku kəndi
- Alban məbədi, Zamzur kəndi
- Alban məbədi, Məlikcanlı kəndi
- Alban məbədi, Bulutan kəndi
- Alban məbədi, Edilli kəndi
- Alban məbədi, Ağbulaq kəndi
- Alban məbədi, Tək kəndi
- Alban məbədi, Azıx kəndi
- Alban məbədi, Dolanlar kəndi
- Albanberd kilsəsi, Qarakənd kəndi
- Alban məbədi, Sur kəndi
- Alban məbədi, Üçoğlan kəndi
- Alban məbədi, Qızılqaya kəndi

**Qala və qəsrlər**
- Dizaq məlik sarayı (XVIII əsr), Tuğ kəndi
- Ktiş qalası (X əsr), Tuğ kəndi
- Kürətağ qalası, Düdükçü kəndi

### TƏRTƏR RAYONU

- Müqəddəs Yelisey monastırı, Təpəkənd və Suqovuşan kəndləri arası
- Ürəkvəng monastırı (XIII əsr), Talış kəndi

- Alban kilsəsi (XIII əsr), Umudlu kəndi
- Kalankat yaşayış yerinin qalıqları, Cardaqlı kəndi
- Üç körpə monastırı (XVII əsr), Çiləbürd kəndi
- Caraberd/Çiləbürd monastırı (XVIII əsr), Çiləbürd kəndi
- Dutakan alban kilsəsi (XII əsr)

**Saray və qalalar**
- Çiləbürd qalası, Çiləbürd kəndi
- Gülüstan məlik sarayı, Talış kəndi
- Gülüstan qalası

## KƏLBƏCƏR RAYONU

- Xudavəng (Dadivəng) monastır kompleksi (VI-VII əsrlər), Vəng kəndi
- Alban məbədi (500-cü il), Həsənriz kəndi
- Alban məbədi (672-ci il), Yayıcı kəndi
- Alban məbədi (XII-XIII əsrlər), Yayıcı kəndi
- Alban məbədi (718-ci il), Qasapet kəndi
- Böyük Aran monastırı (IX əsr), Kolatağ kəndi
- Alban məbədi (XII əsr), Kolatağ kəndi
- Alban məbədi (X əsr), Çormanlı (Qarnakar) kəndi
- Alban kilsəsi (XI əsr), Çormanlı (Qarnakar) kəndi
- Gəncəsər monastırı (XIII əsr), Vəngli kəndi
- Havaptuğ məbədi (XII əsr), Vəngli kəndi
- Xatırəvəng monastırı (1204-cü il), Qozlu kəndi
- Qırmızı monastır (XIII əsr), Qozlu kəndi
- Meyrəkavak monastırı (XIII əsr), Qozlu kəndi
- Alban kilsəsi (XIIIəsr), Çərəktar kəndi
- Harva kilsəsi (XIII əsr), Dövşanlı kəndi
- Mamakan/Vaçar kilsəsi (XIII əsr), Bazarkənd
- Müqəddəs Stepanos kilsəsi (XIII əsr, Bazarkənd
- Alban məbədi (XIII əsr), Zar kəndi
- Qırmızı daş monastırı (XII əsr), Çapar kəndi
- Alban məbədi (XII əsr), Çıldıran kəndi
- Qırmızı məbəd (XIII əsr), Çıldıran kəndi
- Alban məbədi (1283-cü il), Həsənriz kəndi
- Kilsəkənd məbədi, Qasımlar kəndi
- Mağara məbəd, Armudlu kəndi
- Kilsə (1668-ci il), Dovşanlı kəndi
- Kilsə (XVII əsr), Dəvədaşı kəndi
- Alban məbədi, Maxrataq kəndi
- Alban məbədi, Şaplar kəndi

**Qala və qəsrlər**
- Xonabert/ Tarkan qalası, Vəngli kəndi
- Xaçın sarayı, Vəngli kəndi
- Xaçın / Qaxaç qalası, Kolatağ kəndi
- Lök qalası, Qanlıkənd kəndi
- Qalaboynu qalası, Qalaboynu kəndi
- Akan qalası, Həsənriz kəndi
- Uluxan qalası, Qaracanlı kəndi
- Comərd qalası, Comərd kəndi

## QUBADLI RAYONU

- Mağara məbədi (IV əsr), Gavurdərə məbədi
- Mağara məbədi, Əliquluuşağı kəndi
- Alban kilsəsi, Seytas kəndi
- Alban kilsələri və abidələri, Yuxarı Cibikli kəndi
- Məbəd, Mərzə kəndi
- Alban məbədi, Başarat kəndi

## LAÇIN RAYONU

- Ağoğlan məbədi (V-VI əsr), Kosalar kəndi
- Varazqun məbədi (IV-V əsrlər), Bozlu kəndi
- Mağara məbədi (V əsr), Hoçaz kəndi
- Alban kilsəsi (X əsr), Aşağı Fərəcan kəndi
- Məbəd (X əsr), Sadınlar kəndi
- Dəmirovlu pir məbədi (XI əsr), Qaraqışlaq kəndi
- Alban kilsəsi (XII əsr), Hoçaz kəndi
- Alban kilsəsi (XII əsr), Qorçu kəndi
- Qarasaqqal sovməsi (XIII əsr), Kürdhacı kəndi, Yuxarı Qarasaqqal
- Ərikli sövməsi (XVI əsr), Ərikli kəndi
- Məbəd qalıqları, Alxaslı kəndi
- Sövmə (XV əsr), Şəlvə kəndi
- Alban kilsəsi (XV əsr), Minkənd
- Məbəd (XVI əsr), Əhmədli kəndi
- Araxış şovməsi (XVI əsr), Kürdhacılı/ Ərikli
- Alban kilsəsi (XVII əsr), Mirik kəndi
- Alban kilsəsi (XVII əsr), Minkənd
- Alban kilsəsi (XVII əsr), Piçənis kəndi
- Alban məbədi (XVI-XVII əsrlər), Mığıdərə kəndi
- Qaraqışlaq məbədi, Bozlu kəndi
- Qarakeşdi sövməsi (X əsr), Qarakeçdi/Çıraqlı kəndi ərazisi
- Məbəd, Piçənis kəndi
- Məbəd, Sovurbulaq kəndi
- Kilsə, Sonasar kəndi

## ZƏNGİLAN RAYONU

- Alban məbədi, Babalı kəndi
- Alban kilsəsi, Bartaz kəndi
- Alban kilsəsi, Qarababa kəndi,
- Alban kilsəsi, Yeməzli kəndi
- Alban türbə kompleksi, Rəzdərə kəndi
- Alban kilsəsi, Xanazor kəndi
- Alban məbədi, Şatariz kəndi

# ƏDƏBİYYAT


1. Alban salnaməsi Mxitar Qoş Avrasiya press. Baku, 2006.
2. Aygün Attar. Karabağ sorunu kapsamında ermeniler ve ermeni siyaseti. Ankara: 2005.
3. Bünyadov Z. Azərbaycan VII – IX əsrlərdə, Bakı, 2007.
4. Qarabağnamələr. Bakı: Yazıçı, 1991.
5. Göyüşov R. Amaras-Ağoğlan. Bakı, 1975.
6. Məmmədov Nahid. İşğal altındakı tarıxı-dını abıdələrımız. Bakı, 2015.
7. Əlizadə E. Nəciyev. Qarabağın Alban-Qıpçaq tarixinə dair Academic Journal of History and Idea Vol.7/Num.4 / pp 2578-2593 Dec. 2020, s.2586.
8. Əliyarlı S. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 2005.
9. İsmayılov F. Ermənі xaçkarları: Mifologiya, yoxsa reallıq? http://news.milli.az/soci- ety/53714. html).
10. İsmayılov F. Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix Və Mədəniyyət Abidələrinə Vurulan Zərər. Bakı, 2016.
11. İsmayılov F. LAÇIN: həqiqətlər, mülahizələr, tarixi dəyərlər. Bakı, 2012.
12. Ахундов Ф. О причинах исчезновения книги Иосифа Орбели. Баку, 2018.
13. Ахундов Д. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986.
14. Азербайджанская ССР. Административно-территориальное деление. Баку, 1979.
15. Бархударян Макар. Арцах. Баку, 1895, часть I–II (перев. с арм. на рус. яз.) / перевод Яргуля-на, 1949 – НАИИАНА инд. No 1622. 2010.
16. Геюшев Р.Б., Ваидов Р.М., Гулиев Я.М. «Работы Гяуркалинского археологиического отряда (Агдамский район)» – в кн. Археологические и этнографические изыскания в Азербайджа-не. Баку, 1973.
17. Ваидов Р.М. Археологические раскопки в Гяуркала, в.кн.МКА, Баку, 1965, вып.6.
18. Древнетюркский словарь. Ленинград, 1969.
19. Каланкатуйский / Каганкатваци Мойсей. История агван (перевод с армян. К.Патканова). СПб.: типография Имп. Академии наук, 1861.
20. Гош Мхитар. Албанская хроника / предисловие, перевод и комментарии З.М.Буниятова. Баку: Изд. АН Азерб. ССР, 1960.
21. Мамедова Г. Зодчество Кавказской Албании. Баку: Чашыоглу, 2004.
22. Мамедова Ф. Кавказская Албания и албаны. Баку, 2005.
23. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании. Баку: Элм, 1986.
24. Иеромонах Алексий (Никоноров). История христианства в Кавказской Албании. Баку: Нур-лан, 2005.
25. Полное Собрание Законов Российской Империи, 1837. Центральный Государственный исто-рический архив Р.Ф., ф.821, оп. 139 (173), ед. хран. 96; оп. 1, д.97; оп.10, д.89.
26. Нормативные акты ЮНЕСКО по охране культурного наследия (Конвенции, Протоколы, Резолюции и Рекомендации). Москва: “ЮниПринт”, 2002.
27. ЯмпольскийЗ.И. Древняя Албания. III–I вв. до н.э. Баку: Изд-во АН Азерб.ССР, 1962.
28. Ямпольский З. Памятники Кавказской Албании на горе Бешикдаг. «Советская археология», 1960.
29. Мкртчян Ш. Историко-архитектурные памятники Нагорного Карабаха. Ереван, 1988.
30. David B. Barrett, George Thomas Kurian, Todd M. Johnson / World Christian encyclopedia: a comparative survey of churches and religions in the modern world / Oxford University Press, 2001, p.92

### *Müəllif haqqında məlumat*

*Məhəbbət Paşayeva – tarix elmləri doktoru, professor, 100-dən artıq elmi məqalə və 8 monoqrafiya müəllifidir. UNEC Multikulturalizm Tədqiqat Mərkəzinin rəhbəridir. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunda "Udilərin dini-mədəni irsi", Frankfurt-Main Johann Wolfgang Goethe Universitetində "Khinalug Documentation Project" kimi respublika və beynəlxalq qrant layihələrini həyata keçirmişdir.*


Paşayeva Məhəbbət Tofiq qızı
tarix üzrə elmlər doktoru, professor

QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN
ALBAN ABİDƏLƏRİ

Bakı – Mütərcim – 2022

ISBN 978-9952-28-577-2



© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2022



Pashayeva Mahabbat Tofiq
Doctor of Historical Sciences, Professor

ALBANIAN MONUMENTS
OF KARABAKH AND EAST ZANGAZUR

Baku – Mutarjim – 2022

ISBN 978-9952-28-577-2



© Baku International Multiculturalism Centre, 2022



***«Mütərcim» NPM-də səhifələnmiş və çap olunmuşdur.***

Çapa imzalanıb: 22.02.2022
Format: 84x108 1/16. Qarnitur: PT Serif Pro.
Həcmi: 12,5 ş.ç.v. Tiraj: 300. Sifariş № 41.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel. (994 12) 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az